AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

QAFQAZŞÜNASLIQ İNSTİTUTU

RAMİLƏ DADAŞOVA

# AZƏRBAYCAN RESPUBLİKASININ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ DAİMİ ÜZVLƏRİ İLƏ ƏMƏKDAŞLIĞI

BAKI – 2021

*AMEA Qafqazşünaslıq İnstitutu Elmi Şurasının*
*23 iyun 2021-ci il tarixli iclasının qərarı (protokol №4) ilə çap edilir.*

**ELMİ REDAKTOR:**

**Musa Qasımlı**
*AMEA-nın müxbir üzvü, professor*

**RƏYÇİLƏR:**

**Samirə İmanova**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Kəmalə Ruintən**
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

Ramilə Dadaşova. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. *Monoqrafiya.*
– Bakı: ADMİU-nun mətbəəsi, 2021. – 344 s.

ISBN: 978-9952-28-551-2

© AMEA Qİ, 2021
© Ramilə Dadaşova, 2021

**Annotasiya**

*Kitabda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün səbəb və nəticələri, qlobal təhlükəli erməni terrorizmi, Ermənistanın Xocalıda törətdiyi azərbaycanlıların soyqırımı, bu soyqırımın tanıdılması istiqamətində diplomatik-siyasi fəaliyyət, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində hərbi əsir və girov düşmüş azərbaycanlıların hüquqlarının pozulması, Azərbaycanda qaçqın və məcburi köçkün problemi, onların şəraitlərinin yaxşılaşdırılması üçün görülən tədbirlər, işğal edilmiş ərazilərdə Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizm siyasəti, ermənilər tərəfindən ekologiyaya vurulan zərər və beynəlxalq hüquqda dövlətlərin məsuliyyəti prinsipi, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın informasiya müharibəsi və Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində dünya birliyinin Azərbaycan haqqında rəyinin müsbət istiqamətdə dəyişməsi, İkinci Qarabağ müharibəsi, yaxud 44 günlük Vətən müharibəsi zamanı informasiya müharibəsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici Kütləvi İnformasiya Vasitələri nümayəndələri ilə müsahibələrinin siyasi qələbədə rolu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla həll edilməsi üçün BMT Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvləri olan ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransa ilə aparılan danışıqlar, Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-də islahatlar haqqında ideya və təklifləri, Ermənıstan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində BMT, ATƏT və münaqişə tərəflərinin fəaliyyəti, Təhlükəsizlik Şurasının Ermənistanı təcavüzkar dövlət kimi müəyyən etməsinə əsas verən amillər, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi qətnamələrin Azərbaycan Respublikası tərəfindən icra edilməsi və mənfur düşmənin işğal edilmiş ərazilərdən qovulması məsələləri araşdırılmışdır.*

*Kitab beynəlxalq münasibətlər, beynəlxalq hüquq, tarix, politologiya, qafqazşünaslıq ixtisasları üzrə təhsil alan bakalavrlar, magistrlar, doktorantlar, dissertantlar və müəllimlər, problem ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**Annotation**

*The book have been researched causes and consequences of Armenia's military aggression against Azerbaijan, global dangerous Armenian terrorism, the Khojaly genocide, diplomatic and political activities to promote this genocide, violation of the rights of Azerbaijani prisoners of war and hostages as a result of Armenia's military aggression against Azerbaijan, the problem of refugees and internally displaced persons in Azerbaijan, measures taken to improve their conditions, the policy of vandalism against the material and cultural heritage of Azerbaijan in the occupied territories, the damage caused to the environment by Armenians and the principle of responsibility of states in international law, the information war of Armenia during the First Karabakh War and the positive change in the world community's opinion about Azerbaijan as a result of national leader Heydar Aliyev's intense diplomatic activity, the information war during the Second Karabakh War or the 44-day War, and the role of President Ilham Aliyev's interviews with foreign media, the negotiations with the United States, Russia, China, Great Britain and France, the veto-wielding permanent members of the UN Security Council, for the diplomatic settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, the ideas and proposals of national leader Heydar Aliyev and President of the Republic of Azerbaijan Ilham Aliyev on UN reforms, the activities of the UN, the OSCE and the conflicting parties in the settlement of the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh, the factors that led the Security Council to define Armenia as an aggressor, the implementation of UN Security Council resolutions on the Nagorno-Karabakh conflict by the Republic of Azerbaijan and the expulsion of the hated enemy from the occupied territories.*

*The book is intended for bachelors, masters, doctoral students and teachers studying international relations, international law, history, political science, Caucasian studies, and a wide range of readers interested in the problem.*

**Аннотации**

*В книге исследованы причины и последствия военной агрессии Армении против Азербайджана, армянский терроризм представляющий глобальную опасность, геноцид азербайджанцев, совершенный Арменией в Ходжалы, дипломатическая и политическая деятельность, направленная на признание этого геноцида, нарушение прав азербайджанских военнопленных и заложников в результате военной агрессии Армении против Азербайджана, проблема беженцев и вынужденных переселенцев в Азербайджане, меры, принятые для улучшения их условий, политика вандализма в отношении материального и культурного наследия Азербайджана на оккупированных территориях, ущерб, нанесенный окружающей среде армянами, и принцип ответственности государств в международном праве. Также рассмотрены информационная война Армении во время Первой Карабахской войны и позитивное изменение мнения мирового сообщества об Азербайджане в результате интенсивной дипломатической деятельности общенационального лидера Гейдара Алиева, информационная война во время Второй Карабахской войны или 44-дневной Отечественной войны, а также роль интервью президента Ильхама Алиева иностранным СМИ, переговоры с постоянными членами Совета Безопасности ООН с правом вето – с США, Россией, Китаем, Великобританией и Францией, для дипломатического урегулирования армяно-азербайджанского нагорно-карабахского конфликта, идея общенационального лидера Гейдара Алиева и президента Ильхама Алиева о реформах и предложениях в ООН, деятельность ООН, ОБСЕ и конфликтующих сторон в урегулировании армяно-азербайджанского нагорно-карабахского конфликта, факторы, дающие основание для определения Советом Безопасности Армении как государства-агрессора, вопросы выполнения Азербайджанской Республикой принятых Советом Безопасности ООН резолюций о нагорно-карабахском конфликте и изгнания с оккупированных территорий противника.*

*Книга предназначена для бакалавров, магистров, докторантов, диссертантов обучающихся и специализирующихся в области международных отношений, международного права, истории, политологии, кавказоведения, а также для преподавателей и широкого круга читателей, интересующихся данной проблемой.*

# MÜNDƏRİCAT

**GİRİŞ** ........................................ 8

**FƏSİL I. ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ** ........................................ **16**

*1.1. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün səbəb və nəticələri* ........................................ 16

*1.2. Qlobal təhlükəli erməni terrorizmi* ........................................ 28

*1.3. Xocalı soyqırımı: tanıdılması istiqamətində diplomatik-siyasi fəaliyyət* ........................................ 51

*1.4. Azərbaycanlı hərbi əsir və girovların hüquqlarının pozulması* .. 61

*1.5. Azərbaycanda qaçqın və məcburi köçkün problemi: görülən tədbirlər* ........................................ 70

*1.6. İşğal edilmiş ərazilərdə Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizm siyasəti* ........................................ 86

*1.7. Ermənilər tərəfindən ekologiyaya vurulan zərər və beynəlxalq hüquqda dövlətlərin məsuliyyəti prinsipi* ........................................ 99

**FƏSİL II. ERMƏNİSTANIN DÜNYANI ALDATMAQ CƏHDLƏRİ VƏ ONUN BU SİYASƏTİNİN İFŞASI İSTİQAMƏTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK FƏALİYYƏTİ.. 106**

*2.1. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın informasiya müharibəsi və Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində dünya birliyinin Azərbaycan haqqında rəyinin müsbət istiqamətdə dəyişməsi* ........................................ 106

*2.2. 44 günlük Vətən müharibəsi zamanı informasiya müharibəsi və Prezident İlham Əliyevin xarici Kütləvi İnformasiya Vasitələri nümayəndələri ilə müsahibələrinin siyasi qələbədə rolu* .............. 119

**FƏSİL III. ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN DİPLOMATİK YOLLA HƏLL EDİLMƏSİ İSTİQAMƏTİNDƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ DAİMİ ÜZVLƏRİ İLƏ ƏMƏKDAŞLIQ** ........................................ **134**

*3.1. ABŞ ilə münasibətlər* ........................................ 134

*3.1.1. ABŞ-ın BMT-də mövqeyi* ........................................................ 134
*3.1.2. Münaqişənin həll olunması istiqamətində ABŞ ilə aparılan danışıqlar* ........................................................ 137
*3.2. Rusiya ilə münasibətlər* ........................................................ 149
*3.2.1. Rusiyanın BMT-də mövqeyi* ........................................................ 149
*3.2.2. Münaqişənin həll olunması istiqamətində Rusiya ilə aparılan danışıqlar* ........................................................ 151
*3.3. Çin ilə münasibətlər* ........................................................ 172
*3.3.1. Çinin BMT-də mövqeyi* ........................................................ 172
*3.3.2. Münaqişənin həll olunması istiqamətində Çin ilə aparılan danışıqlar* ........................................................ 176
*3.4. Böyük Britaniya və Fransa ilə münasibətlər* ........................................ 181
*3.4.1. Böyük Britaniyanın və Fransanın BMT-də mövqeyi* .................. 181
*3.4.2. Münaqişənin həll olunması istiqamətində Böyük Britaniya ilə aparılan danışıqlar* .................................. 183
*3.4.3. Münaqişənin həll olunması istiqamətində Fransa ilə aparılan danışıqlar* ........................................................ 188

**FƏSİL IV. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BMT-də İSLAHATLAR HAQQINDA İDEYA VƏ TƏKLİFLƏRİ........ 199**

**FƏSİL V. ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMA SALINMASI İSTİQAMƏTİNDƏ BMT, ATƏT VƏ MÜNAQİŞƏ TƏRƏFLƏRİNİN ƏMƏKDAŞLIĞI VƏ NƏTİCƏLƏRİ ........................................................ 205**
*5.1. Münaqişənin nizama salınması istiqamətində BMT, ATƏT və münaqişə tərəflərinin fəaliyyəti* ........................................ 205
*5.2. Təhlükəsizlik Şurasının Ermənistanı təcavüzkar dövlət kimi müəyyən etməsinə əsas verən amillər* .......................... 255

**FƏSİL VI. BMT-nin QƏTNAMƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN İCRA EDİLMƏSİ .......................... 278**

**NƏTİCƏ ........................................................ 292**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........................................................ 308**

# GİRİŞ

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Dağlıq Qarabağ münaqişəsi haqqında 4 qətnamə qəbul etsə də, bu qətnamələri reallaşdırmadı. Təhlükəsizlik Şurası qətnamələrində Ermənistanı təcavüzkar dövlət kimi müəyyənləşdirmədi və qətnamələrdə işğalçı dövlətin işğal etdiyi ərazilərdən çıxarılması üçün tarix göstərilmədi. Halbuki Təhlükəsizlik Şurasının Ermənistanı təcavüzkar dövlət kimi müəyyən etməsinə əsas verən kifayət qədər faktlar var idi. Azərbaycan Respublikası 28 il BMT Təhlükəsizlik Şurasının və ATƏT-in (1995-ci ilə qədər ATƏM adlandırıldığı üçün əsərdə həmin dövrə aid sitatlarda, qəbul edilən sənədlərin adında ATƏM yazılacaq) Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk qrupunun həmsədr dövlətlərinin münaqişəni dinc yollarla həll etməsini gözlədi. Ermənistan 1994-cü il 12 may tarixli Atəşkəs rejimi haqqında saziş bağlandıqdan sonra da hər gün atəşkəsi pozdu.

Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyanatı, müdafiə naziri David Tonoyanın "yeni torpaqlar üçün yeni müharibə" çağırışı artıq bu təcavüzkar dövlətlə danışıqların sonu olmadığını göstərdi. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşən Tovuz rayonu istiqamətində Azərbaycan ərazilərini atəşə tutdular. Məqsədləri işğal etdikləri ərazilərin miqyasını artırmaq idi. Azərbaycan Ordusunun şücaəti nəticəsində düşmən layiqli zərbə alaraq geri oturduldu. Həmin il sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 75-ci sessiyasında Ermənistanın təcavüzkar siyasəti, yeni işğallara hazırlaşması haqqında məlumatlarına və dünya dövlətlərini təcavüzkarı dayandırmağa çağırışlarına cavab olaraq BMT Təhlükəsizlik Şu-

rası və bu işdə məsul olan həmsədr dövlətlər, həm də Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvlərindən olan – ABŞ, Rusiya, Fransa heç bir tədbir görmədilər. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti dəfə, atəşkəsi pozaraq Azərbaycanın sərhəd rayonlarını artilleriya atəşinə tutması Azərbaycan Ordusunun əks hücumu ilə nəticələndi. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi, işğal edilmiş ərazilərdən Ermənistan silahlı qüvvələrinin qovulmasına nail oldu.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya dövlətləri ilə keçirdikləri ikitərəfli və çoxtərəfli görüşlərdə həmişə danışıqların ən mühüm obyekti olmuşdur. İşğaldan azad edilmiş Ağdam rayonuna 2020-ci il noyabrın 23-də səfəri zamanı Prezident İlham Əliyev münaqişənin həlli üçün hüquqi baza yaradıldığını vurğuladı: "Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim, demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində, demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişəm, dünya ictimaiyyətini məlumatlandırmışam..."[1].

Beynəlxalq münaqişələrin tənzimlənməsində BMT-nin Təhlükəsizlik Şurasının və xüsusən də bu qurumun daimi üzvlərinin səlahiyyətləri nəzərə alınaraq, əsərdə Azərbaycan Respublikasının həmin dövlətlərlə Ermənistan-Azərbaycan, Dağlıq Qa-

---

[1] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.161.*

rabağ münaqişəsinin nizama salınması istiqamətində əməkdaşlığı məsələləri araşdırılmışdır.

Beynəlxalq münasibətlər sistemində beynəlxalq sülh və təhlükəsizliyi qoruyan BMT-nin fəaliyyəti onun qəbul etdiyi Nizamnaməyə əsasən müəyyənləşdirilir və beynəlxalq hüquq prinsiplərinin tətbiqinə əsaslanır. Beynəlxalq sülh və təhlükəsizliyi qorumaq, sülhü təhlükədə qoyan vasitələri aradan qaldırmaq, onları danışıqlar yolu ilə, ədalətlilik prinsipinə müvafiq olaraq beynəlxalq hüquq əsasında həll etmək dünya dövlətlərinin əksəriyyətini, 193 dövləti özündə birləşdirən BMT-nin əsas məqsədidir.

BMT-nin bütün üzvlərinin nümayəndəli orqanı olan Baş Məclis Təhlükəsizlik Şurasının diqqətini sülh və təhlükəsizliyin pozulmasına qorxu yarada bilən şəraitlərə yönəltsə də, beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində əsas məsuliyyət Təhlükəsizlik Şurasının üzərinə düşür. Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. ABŞ, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Rusiya, Fransa, Çin Təhlükəsizlik Şurasının daimi üzvləridir. Təhlükəsizlik Şurasının iki il müddətinə seçilən digər 10 müvəqqəti üzvünü Baş Məclis BMT üzvləri arasından seçir.

Təhlükəsizlik Şurasının səlahiyyətləri BMT Nizamnaməsinin 24-cü maddəsinin 1-ci bəndində aşağıdakı kimi ifadə olunmuşdur: "BMT-nin cəld və səmərəli hərəkətlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyur və məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurasının onların adından çıxış etməsinə razılaşırlar". Həmin maddənin 2-ci bəndində isə yazılır ki, Təhlükəsizlik Şurası BMT-nin məqsəd və prinsiplərinə müvafiq hərəkət edir. Bu vəzifələri icra etmək üçün Təhlükəsizlik Şurasına verilən konkret səlahiyyətlər VI, VII, VIII və XII fəsillərdə öz əksini tapmışdır. Nizamnamənin 25-ci maddəsinə müvafiq ola-

raq BMT-nin üzvləri Təhlükəsizlik Şurasının qərarlarına tabe olmalı və onları yerinə yetirməlidirlər[2].

Təhlükəsizlik Şurasının daimi üzvləri dünyanın aparıcı, BMT-nin fəaliyyətinə daha çox maliyyə qoyan, hərbi qüvvə verə bilən dövlətləridir. BMT-nin yaradıcıları olan ABŞ, Böyük Britaniya, SSRİ, sonralar Fransa, Çin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsini onun əsas orqanı kimi Təhlükəsizlik Şurasına həvalə etmişlər. Təhlükəsizlik Şurası Nizamnaməyə uyğun olaraq hüquqi aktlar qəbul edir. Təcavüzkar dövlətin cəzalandırılması veto hüquqlu beş daimi üzvün əlində olduğu üçün Təhlükəsizlik Şurasının fəaliyyəti müəyyən dərəcədə onların operativ işindən asılıdır. BMT-nin üzv dövlətlərinin nümayəndəli orqanı kimi fəaliyyət göstərən Təhlükəsizlik Şurası tövsiyə verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyi bərpa etmək üçün BMT adından embarqo, sanksiyalar, silahlı qüvvə tətbiq edilməsi barədə hüquqi əsaslı qərarlar qəbul edə bilər[3]. Təhlükəsizlik Şurası eyni zamanda, digər beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər tərəfindən həyata keçirilən sülh əməliyyatlarına da sanksiyalar tətbiq edə bilər. Məsələn, BMT 1999-cu ildə NATO-nun Kosovada əməliyyatlarına sanksiya verdi və orada müvəqqəti idarəetmə işləri üzrə BMT missiyası yaratdı. BMT-yə daxil olan hər bir dövlət Təhlükəsizlik Şurasının qərarlarını danışıqsız yerinə yetirəcəyi barədə öhdəlik götürür. Təhlükəsizlik Şurası BMT-nin digər əsas orqanlarından yalnız qətnamələr qəbul etmək ilə deyil, həm də geniş funksiyası, səlahiyyəti ilə fərqlənir. Bu barədə amerikalı hüquqşünas Q.Kelzen yazır: "Təhlükəsizlik Şurasının səlahiyyəti bütün BMT-nin səlahiyyət-

---

[2] *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.19.*

[3] *Basic facts about the United Nations. New York: Published by United Nations Departement of public information, 2000, s.69.*

ləri ilə üst-üstə düşür"[4]. Təhlükəsizlik Şurası birinci dəfə qərar qəbul edəndə ona məlum olmayan hallar ortaya çıxarsa, həmin məsələyə yenidən baxa və öz ilkin qətnaməsini dəyişdirə bilər. Nizamnaməyə əsasən Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr hüquqi xarakterli qərarlardır və beynəlxalq hüquq normalarına uyğun hər bir üzv dövlət bu qətnamələrə riayət etməlidir. Beynəlxalq hüquqi nizamlama vasitəsi kimi sanksiyaların, qətnamələrin təhlükəsizliyin təmin edilməsində rolu böyükdür. Baş Məclisin və Təhlükəsizlik Şurasının Nizamnaməyə müvafiq - qəbul etdiyi qətnamələr hüquq pozuntularına qarşı ciddi tədbirlərdir. Hərbi sanksiyaları isə yalnız BMT qəbul edə bilər[5]. Beynəlxalq hüquq normalarının pozulması bütün subyektlərin maraqlarına toxunduğu üçün Təhlükəsizlik Şurasının sanksiyaları ilə yanaşı UNESCO, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və digər ixtisaslaşmış qurumlar da sanksiyalar qəbul edə bilər. Bütün sanksiyaların məqsədi hüquq pozuntularını xəbərdar etmək olduğu üçün bu vasitələrdən istifadə etmək qanunauyğundur. Belə ki, sanksiyalar günahkar dövləti hüquq normalarına əməl etməyə məcbur edir, sülh və təhlükəsizliyin qorunub saxlanılmasına müsbət təsir göstərir.

Təhlükəsizlik Şurası bütün mübahisələrə deyil, ancaq beynəlxalq sülh və təhlükəsizliyi hədələyən mübahisələrə baxır. Təhlükəsizlik Şurasından başqa digər orqanların, hətta Baş Məclisin də hərbi qüvvə yaratmaq, maliyyələşdirmək, ondan istifadə etmək hüququ yoxdur. Bu nöqteyi-nəzərdən Təhlükəsizlik Şurasının səlahiyyətləri genişdir və bunu kollektiv təhlükəsizlikdə səmərəli istiqamətə yönəltmək lazımdır.

---

[4] *Федоров В.Н., Ефимов Г.К. ООН и поддержание международного мира. М.: Знание, 1969, s.20.*

[5] *Шибаева Е.А. Право международных организаций. Вопросы теории. М.: Международные отношения, 1986, s.119.*

Təhlükəsizlik Şurasında qərarların qəbul edilməsi veto hüquqlu beş dövlətin əlindədir və bu qurumda "səsin çəkisi" fərqlənir. Böyük dövlətlər böyük, kiçik dövlətlər kiçik səsə malik olurlar. Əgər 14 üzv Təhlükəsizlik Şurasının qərarlarını dəstəkləyirsə, daimi üzvlərdən biri onun əleyhinə çıxırsa, qərar qəbul edilmir. Əgər 5 daimi üzv daxil olmaqla, 9 üzv qərarı dəstəkləyirsə, qalan 6 müvəqqəti üzv dəstəkləmirsə, qərar qəbul edilir.

Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən biri və ən vacibi ölkənin Ermənistanın hərbi təcavüzü nəticəsində pozulmuş ərazi bütövlüyünün diplomatik-siyasi vasitələrlə bərpa edilməsi olmuşdur. Azərbaycan Respublikası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla nizama salınmasına çalışmış, bu nöqteyi-nəzərdən də BMT-nin fəaliyyətinə üstünlük vermişdir. Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvləri olan ABŞ, Rusiya, Fransa, Böyük Britaniya və Çin ilə münasibətlərin müsbət istiqamətdə inkişaf etdirilməsinə önəm vermişlər. Münaqişəni qan tökülmədən, diplomatik-siyasi yolla həll etmək üçün 28 il ərzində diplomatik görüşlər keçirildi, danışıqlar aparıldı, lakin Ermənistan, beynəlxalq hüquq normalarına məhəl qoymayaraq, təcavüzkar siyasətini dayandırmadı. Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də, növbəti dəfə, atəşkəsi pozaraq Azərbaycanın sərhəd rayonlarını artilleriya atəşinə tutması Azərbaycan Ordusunun əks hücumu ilə nəticələndi. Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərini – Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını işğaldan azad etdi. Keçmiş Hadrut - indiki Xocavənd rayonunun bir hissəsi də düşməndən azad edildi. Noyabrın 8-də Şuşanın, noyabrın 9-da 71 kəndin, 1 qəsəbənin, 8 yüksəkliyin azad edilməsi noyabrın 10-da düşməni kapitulyasiya sənədini imzalamağa məcbur etdi.

Bəyannaməyə əsasən 3 rayon – Ağdam, Kəlbəcər, Laçın siyasi yolla qaytarıldı.

Azərbaycan beynəlxalq müstəvidə də qalib oldu. Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində beynəlxalq hüquqi baza Azərbaycanın xeyirinə oldu. 2020-ci il oktyabrın 26-da Prezident İlham Əliyev Xalqa müraciətində bildirdi: "Münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Biz bu bazanı genişləndirmişdik. Bu gün təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələri yox, digər sənədlər mövcuddur. BMT Baş Assambleyası qətnamə qəbul edib, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, digər təşkilatlar. Avropa İttifaqı ilə paraflanmış sənəddə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəa var. Yəni, bu, hüquqi bazadır və bu baza imkan verir ki, bu gün biz döyüş meydanında düşmənə dərs verək, qovaq onları, rədd edək bizim torpaqlarımızdan"[6].

Azərbaycan tolerant, sülhsevər dövlət kimi tanınır. Düşmən hətta Gəncənin dinc əhalisini raket atəşinə tutduqda belə, Prezident bildirdi ki bizim Ermənistanın mülki əhalisi ilə işimiz yoxdur və Azərbaycan Ordusu cəbhədə düşməndən – terrorçu Ermənistandan qisas aldı. Elə həmin gün, oktyabrın 17-də Füzuli azad edildi.

Ali Baş Komandan dəfələrlə Ermənistana öz xalqını qırğına verməməyi, silahlı qüvvələrini torpaqlarımızdan çıxarmağı təklif etdi. Lakin işğalçı Ermənistan öz xalqını ölümə, məhvə sürükləyərək, hətta məktəb yaşlı uşaqları, qadınları, qocaları müharibəyə cəlb etdi.

---

[6] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.203.*

Ali Baş Komandanın işğal edilmiş Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələrini qovmaqda qətiyyətli olması, Azərbaycan Ordusunun əzmlə irəliləyərək hər gün qələbə sevincini xalqımıza yaşatması Azərbaycan xalqının qürurunu, cəsarətini, yenilməzliyini təsdiq etdi. Minsk qrupunun üç həmsədr ölkəsi müharibəni dayandırmaq üçün Azərbaycana təzyiqlər göstərsə də, ölkə Prezidenti haqq yolunda mübarizəsindən çəkinmədi və bildirdi: "Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə biz yolumuzu davam edəcəyik. Atəşkəs istəyirlərsə, işğalçı dövlətə desinlər rədd olsun, çıxsın torpaqlarımızdan. Yoxsa axıra qədər gedəcəyik, axıra qədər, sona qədər gedəcəyik. Düşməni bundan sonra da qovacağıq, necə ki, qovuruq, necə ki, qaçır bizim qabağımızdan və qaçacaq. Çünki biz haqlıyıq və biz güclüyük"[7]. "Ermənistanın havadarları, sizə deyirəm: bu saxta dövləti xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın. Bir sözünüzlə çıxa bilər, bir sözünüzlə. Əgər Ermənistana maliyyə, iqtisadi, hərbi, siyasi dəstək verilməsə, onlar ayaq üstə dura bilərmi? Yox"[8].

Ölkə Prezidenti xalqa müraciətində işğal edilən ərazilərin əsgərlərin, zabitlərin canı-qanı bahasına azad edildiyini vurğuladı: "Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq. Bax yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq". "Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"[9].

---

[7] *Yenə orada, s.204.*
[8] *Yenə orada, s.206.*
[9] *Yenə orada, s.212.*

# FƏSİL I

# ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ

## *1.1. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün səbəb və nəticələri*

Müasir dövrün problemlərindən biri olan regional münaqişələr birbaşa, yaxud dolayı yolla, iki, yaxud bir neçə ölkənin maraqlarının toqquşması zəminində, onlar arasında obyektiv, yaxud subyektiv ziddiyyətlərin olması səbəbindən meydana çıxır. Belə ziddiyyətlər ərazi, milli, dini, iqtisadi, hərbi-strateji, elmi-texniki və digər səbəblərdən də olur. Bütövlükdə isə münaqişə siyasi formada olur. Hər hansı bir regional münaqişənin qarşısını almaq, yaxud dinc yolla nizama salmaq üçün həmin münaqişənin başlanması səbəblərini, tarixi köklərini bilmək, sülh quruculuğunu həyata keçirmək üçün isə münaqişənin nəticələrini düzgün araşdırmaq və onları aradan qaldırmaq lazımdır. Münaqişələri nizama salmağa çalışan aktorların münaqişə haqqında az məlumata malik olması dözülməzdir. Münaqişə siyasətdən ayrılmazdır, buna görə də onun rolunu, funksiyasını, yaranma şəraitinin xarakterini dərk etmək zəruridir[10].

BMT Təhlükəsizlik Şurasının 2001-ci il 30 avqust tarixli "Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu" haqqında 1366 saylı qətnaməsində silahlı münaqişələrin qarşısını almaq, yaxud nizama salmaq üçün regional münaqişələrin yaranması səbəblərini araşdırmaq, önləyici tədbir-

[10] *Международное отнощения: теория, конфликты, организации: Учебник пособие / Под ред.проф. Цыганков П.А. М.: Альфа, 2004, s.93.*

lər görmək, münaqişədən sonrakı sülh quruculuğu barədə praktiki tədbirlər görmək digər vəzifələrlə yanaşı, əsas vəzifələr kimi irəli sürülmüşdür [11].

Ermənilər "Böyük Ermənistan" mifini e.ə. 70-ci illərdə Albaniya ərazisinin erməni çarı II Tiqran tərəfindən guya işğal edilməsi fərziyyəsinə əsasən yaratmışlar. Antropoloji baxımdan praktiki olaraq Cənubi Qafqaz xalqları üçün xarakterik olan antropoloji tipə uyğun gəlməyən ermənilər Friqiya tayfalarından olub, Van gölü ətrafına Balkanlardan köçüb gəlmişdilər, Cənubi Qafqaza köçürülənədək Van gölü ətrafında yaşayırdılar.

1724-cü il 10 noyabr tarixində Rusiyanın erməni xalqını himayəyə götürməsi barədə I Pyotrun fərman verməkdə məqsədi imperiyanın geostrateji siyasətində erməniləri öz əlaltısına çevirmək idi. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən İrandan, 1829-cu il Ədirnə müqaviləsinə əsasən Osmanlı imperiyasından Rusiyanın işğal etdiyi ərazilərə ermənilərin köçürülməsi başladı.

Rusiya tarixçisi N.N.Şavrov yazırdı ki, 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 000, Osmanlı imperiyasından 84 000 erməni köçürüldü. Qeyri-rəsmi köçürmələr də oldu. Ümumiyyətlə, köçürülənlərin sayı 200 min nəfərdən artıq idi[12]. Həmin ermənilər erməni əhalinin çox az olduğu Yelizavetpol və İrəvan quberniyalarına, Tiflis quberniyasının Borçalı, Axiska, Axılkələk qəzalarına yerləşdirildi. N.Şavrov onu da qeyd edirdi ki, Zaqafqaziyada yaşayan 1,3 milyon ermənidən 1 milyondan çoxu yerli əhali deyil, onları biz bura köçürüb gətirmişik[13].

---

[11] *Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/russian*

[12] *Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. М., 1911, с. 63, 68.*

[13] *Yenə orada.*

Rus yazıçısı və tarixçisi S.N.Qlinka yazırdı ki, maneələrə baxmayaraq 8000-dən çox ailə Rusiya torpaqlarına, o cümlədən əksəriyyəti Azərbaycana köçürüldü[14].

Ermənilərin Cənubi Qafqaza, xüsusən də Azərbaycana köçürüldüklərini bilmək üçün Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun rus dilində "Ermənilərin İrandan bizim vilayətlərə köçürülmələri haqqında qeydlər" adlı məktubunu oxumaq kifayətdir[15].

1853-1856, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibələrindən sonra da ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesi davam etdi. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra təxminən 50 000 erməni və təxminən 40 000 yunan Qars bölgəsinə gətirildi və dərhal çox sayda digər millətlər ərazini boşaltdı. Bundan başqa, general Ter-Qukasov İrəvan quberniyasının Sürməli qəzasına 35 000 Türkiyə ermənisi apardı. Kiçik Asiyadan fasiləsiz bu ərazilərə erməni axını başladı. Böyük miqyasda ermənilərin köçürülməsi 1893-94-cü illərdə Türkiyədə erməni qiyamları zamanı başladı. 1894-1897-ci illərdə knyaz Qolitsinin dövründə Cənubi Qafqaza 900 000-ə yaxın erməni gəldi[16].

Beləliklə, İrana və Türkiyəyə qarşı yeni müharibələr etmək üçün Çar Rusiyası Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarına və digər ərazilərə erməniləri kütləvi surətdə köçürməklə, Cənubi Qafqazda xristian bufer xətti yaratdı. Buna baxmayaraq, 1916-cı ildə Qarabağda yaşayan əhalinin 51%-i azərbaycanlı, 46%-i erməni idi[17].

---

[14] *Глинка С.Н. Описание переселения армян аддербиджанских в пределы России. Баку: Элм, 1990, s.114-119.*

[15] *А.С.Грибоедов о переселении армян в Карабах из Персии. 06.06.2021. https://zen.yandex.ru/media/safarli/a-s-griboedov-o-pereselenii-armian-v-karabah-iz-persii-5edb47a6fe797413d30531ac*

[16] *Dadaşova R.B. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi, siyasi və hüquqi təhlil. Bakı: Mütərcim, 2019, s.22.*

[17] *Qarabağ: Suallar və faktlar. Bakı: Qismət, 2005, s.21.*

XIX əsrin sonlarında Osmanlı imperiyasına qarşı əsassız ərazi iddiaları uğursuzluqla nəticələndikdən sonra Şimali Azərbaycana gələn erməni daşnakları Qarabağ, İrəvan, Naxçıvan və digər ərazilərdə yerli əhalini məhv etməyə başladılar. 1905-1907-ci illər erməni-müsəlman davası, 1918-ci il Mart soyqırımı Azərbaycan xalqına ağır zərbələr vurdu.

1923-cü il iyulun 7-də Azərbaycan Sovet Mərkəzi İcraiyyə Komitəsinin qərarına əsasən Xankəndi inzibati mərkəz olmaqla, Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bu tarixə qədər "Dağlıq Qarabağ" adlı ərazi vahidi olmamışdır, Qarabağ olmuşdur və bu qərar sonralar ermənilərə öz iddialarını irəli sürmək üçün stimul verdi. Bu vaxtdan etibarən əhalinin etnik tərkibi haqqında saxta məlumatlar verildi. Məsələn, 1921-1939-cu illərdə ermənilərin faktiki artımı 3,6% olduğu halda 38,5%, azərbaycanlıların faktiki artımı 46,1% olduğu halda 23,1% verilmişdi[18].

1945-ci ilin noyabrında Ermənistan K(b)P MK katibi Q.A.Arutunov (Arutunyan) DQMV-nin Ermənistana verilməsi barədə İ.V.Stalinə məktub yazdı. Həmin məktubu ÜİK(b)P MK-nın katibi G.Malenkov Azərbaycan K(b)PMK-nin birinci katibi Mircəfər Bağırova göndərdi. M.Bağırov həmin il dekabrın 10-da ÜİK(b) PMK-nın katibinə Şuşa istisna olmaqla, Dağlıq Qarabağın Ermənistana verilməsinə razı olduğunu, əvəzində Ermənistanda azərbaycanlıların kompakt halda yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycana verilməsi məsələsinə baxmağı bildirdi[19].

Azərbaycanlıların kütləvi formada yaşadığı yerlərdə ermənilərin sayını artırmaq məqsədilə Ermənistan 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyasını həyata keçirdi. Bu məq-

---

[18] *Qarabağ: Suallar və faktlar. Bakı: Qismət, 2005, s.34.*

[19] *Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər). Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, s. 231-233.*

sədlə İrəvan yaxınlığındakı yaşayış məntəqələrindən azərbaycanlılar çıxarılmış, sonra rayon mərkəzləri, kənd və qəsəbə əhalisi köçürülmüşdür. Kür-Araz ovalığına köçürülmüş əhali iqlim şəraitinə uyğunlaşmadığı üçün kütləvi ölüm halları olmuşdur. Eyni zamanda daxili köçürmə adı ilə 1949-cu ildə Dağlıq Qarabağdan 132 ailə (549 nəfər) Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülmüşdür[20]. Azərbaycan SSR kənd təsərrüfatı nazirinin 1954-cü il oktyabrın 14-də Azərbaycan KP MK-ya və Respublika Nazirlər Sovetinə yazdığı məktubunda qeyd edilirdi ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən Respublikanın Kür-Araz ovalığına 11 min 914 təsərrüfat (53 min) köçürülmüşdür[21]. Azərbaycanlıların köçürülməsi prosesi 1956-cı ilə qədər davam etmişdir. Ümumiyyətlə, 1948-1953-cü illərdə Ermənistanın 23 rayonundan 100 min azərbaycanlının könüllü köçürülməsi nəzərdə tutulmuşdursa, qərar təzyiqlər vasitəsilə icra edilmiş, 24 rayondan və İrəvan şəhərindən (200 yaşayış məntəqəsindən) 150 minə yaxın azərbaycanlı deportasiya edilmişdir[22].

1948-1953-cü illərdə həyata keçirilən azərbaycanlıların deportasiyasında məqsəd iqtisadi, strateji əhəmiyyətli yaşayış məntəqələrindən azərbaycanlıların çıxarılması idi. Buna görə də azərbaycanlıların çıxarıldığı yerlərə tez bir zamanda xaricdən köçürülən ermənilər yerləşdirildilər. Erməni mənbələrində göstərilir ki, 1946-cı ilin əvvəllərində 130 min erməni Ermənistana

---

[20] *Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası. 23.02.2017-ci il tarixinə olan məlumat. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar. http://www.human.gov.az; Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s.26.*

[21] *Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, s.20.*

[22] *Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, s.55.*

köçmək arzusunda olduğunu bildirmişdi[23]. Ermənilərin köçürülməsinə Hnçak və Armenakan partiyaları məqsədyönlü olaraq 1 milyon dollar xərclədilər. 1946-cı il ərzində Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35,4 min, 1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumıniyadan təxminən daha 10 min erməni, ümumiyyətlə 1946-1948-ci illərdə 100 minə yaxın erməni müxtəlif ölkələrdən Ermənistana köçürüldü[24]. Sonrakı illərdə də ermənilərin köçürülməsi davam etdirilmiş, 1962-1965-ci illərdə Kiprdən, sonralar Misir, Suriya, İran, ABŞ, Türkiyə, Uruqvay, Argentina və digər ölkələrdən təxminən 7 min erməni köçdü. Onların əksəriyyəti İrəvanda və şəhər ətrafındakı Nor-Areş, Zeytun, Nor-Klikiya, Vedi rayonları ərazilərində məskunlaşdırıldılar. Ümumilikdə 1962-1973-cü illərdə 26, 1 min erməni xarici ölkələrdən Ermənistana köçürüldü[25].

1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların deportasiyasına Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1997-ci il 18 dekabr tarixli fərmanı ilə hüquqi-siyasi qiymət verdi. Fərmanda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılması barədə göstəriş verilmişdir[26].

---

[23] *История армянского народа: С древнейших времён до наших дней / Г.Х.Саркисян, Т.Х.Акопян, А.Г.Абрамян и др.; Под ред. М.Г.Нерсисяна. Ереван: Изд-во Ереван. ун-та, 1980, s.283.*

[24] *Yenə orada, s.283-284.*

[25] *Yenə orada, s.322.*

[26] *1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Res-*

50-ci illərin ortalarında ermənilər SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A.Mikoyanın yardımı ilə yenidən Dağlıq Qarabağ məsələsini qaldırdılar. 60-cı illərdə Ermənistanda "Qarabağ Komitəsi" açıq fəaliyyətə başladı. 1960-cı ilin noyabrında Mikoyanın təşəbbüsü ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında hazırlanmış sənədlə Sov. İKP MK Rəyasət Heyətinə müraciət edildi. Lakin Rəyasət Heyətindən əvvəl keçirilən iclasda Azərbaycan KP MK katibi Nazim Hacıyevin məruzəsindən sonra N.S.Xruşşov hazırlanmış qərar layihəsini kənara atıb ermənilərin cəhdlərini rədd etmişdi[27]. N.Hacıyev Dağlıq Qarabağın və Naxçıvanın tarixi və hüquqi cəhətdən Azərbaycana məxsus olduğunu əsaslandıraraq həmin torpaqların Azərbaycanda saxlanılmasına nail oldu. 1964-cü ilin əvvəllərində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün A.Mikoyan yenidən Xruşşova bildirdi. Xruşşov onun təklifinə cavab olaraq demişdi ki, Dağlıq Qarabağ ermənilərinin Ermənistana bir sutka ərzində köçürülməsini təmin etmək üçün 12 min hərbi yük maşını ayrılmasını təqdim etməyə hazırdır[28].

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı növbəti təcavüzü XX əsrin 80-ci illərində başladı. 1988-ci il yanvarın 25-dən başlayaraq Ermənistanda azərbaycanlıları öz yurdlarından qovmağa və qətlə yetirməyə başladılar. Fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başladı. Mitinq iştirakçıları "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürdülər. Fevralın 28-29-da SSRİ xüsusi xidmət orqanlarının erməni təşviqatçıları

---

*publikası Prezidenti Heydər Əliyevin Fərmanı, Bakı şəhəri, 18 dekabr 1997-ci il. http://lib.aliyevheritage.org/az/7128078.html*

*[27] Abdullayev Ə. İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırı-XX əsr). Bakı: Elm, 1998, s.161.*

*[28] Yenə orada, s.162.*

Sumqayıtda təxribat törətdilər və qırğınları videolentə çəkərək dünya ölkələrində yayımladılar.

1989-cu il 1 dekabr tarixində Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında rəsmi sənəd qəbul edildi. Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti ali qanunvericilik orqanı – Ali Sovet tərəfindən həyata keçirildi. 1990-cı il 23 avqust tarixli "Ermənistanın suverenliyi haqqında" bəyannamənin preambulasında yazılırdı: "Bəyannamə Ermənistan SSR Ali Soveti və Dağlıq Qarabağ Milli Sovetinin 1989-cu il 1 dekabr tarixli "Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" qərarına əsaslanır"[29].

Ermənistanın bilavasitə müdaxiləsi nəticəsində 1991-ci il sentyabrın 2-də erməni separatçıları Azərbaycan Respublikası ərazisində qondarma Dağlıq Qarabağ respublikası və 15 min nəfərdən ibarət "Dağlıq Qarabağ respublikası özünümüdafiə qüvvəsi" yaratdılar[30]. Regionda geostrateji maraqları olan Rusiyanın dəstəyinə arxalanan Ermənistan təcavüzkar siyasətini "özünümüdafiə qüvvəsini" müdafiə etmək pərdəsi altında gizlədərək, Azərbaycanda olan daxili qeyri-sabitlikdən istifadə etdi və Dağlıq Qarabağ Muxtar Vilayətini (ərazisi 4388 km$^2$) və ətraf əraziləri – Ağdamı (23 iyul 1993), Füzulini (23 avqust 1993), Laçını (18 may 1992), Kəlbəcəri (2 aprel 1993), Cəbrayılı (23 avqust 1993), Qubadlını (31 avqust 1993), Zəngilanı (29 oktyabr 1993) işğal etdi. Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə tarixi adı Xankəndi olan Stepanakert, Şuşa, tarixi adı Ağdərə olan Mar-

---

[29] *Письмо представителя Азербайджана от 10 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/155, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.129-130*

[30] *Le commencement du conflit du Karabagh, Série réalités sur le Karabagh. Bakou: Fondation Heidar Aliyev, 2006, s.12.*

dakert, Əsgəran, tarixi adı Xocavənd olan Martuni və Hadrut rayonları daxil idi. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə DQMV inzibati ərazi vahidi kimi ləğv edildikdə, Əsgəran və Hadrut rayonları da ləğv edildi. Əsgəran rayonunun ərazisi Xocalı rayonunun ərazisinə, Hadrut rayonunun ərazisi Xocavənd rayonunun ərazisinə daxil edildi. Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli Qərarına əsasən Ağdərə rayonunun bir hissəsi Tərtərə, bir hissəsi Ağdama, qərb hissəsi isə Kəlbəcərə verildi. Ermənilərin Dağlıq Qarabağı və ətraf 7 rayonu işğalı nəticəsində sənaye və kənd təsərrüfatı, kommunikasiya sistemi dağıdıldı, 1 milyondan çox qaçqın, məcburi köçkün kütləsi yarandı. Məhz adları çəkilən şəhər və rayonlar turizm, sanatoriya, sənaye, sənətkarlıq, kənd təsərrüfatı sahələrində ölkənin büdcəsinə ciddi gəlir verirdi. Nəticədə işsizlik, miqrasiya, demoqrafiya və başqa problemlər yarandı. Naxçıvan Muxtar Respublikasını Azərbaycanla birləşdirən yeganə nəqliyyat yolu olan Mehri dəmiryolunu Ermənistanın dağıtması nəticəsində Naxçıvan blokadada qaldı[31]. Çünki sovet dövründə (1920-1921-ci illərdə) Azərbaycanın Göyçə, Dərələyəz, Zəngəzur mahallarının Ermənistana verilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası anklav əraziyə çevrilmişdi. Yalnız Naxçıvan Muxtar Respublikası Ali Soveti Məclisinin sədri, uzaqgörən siyasətçi Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində Türkiyə və İranla nəqliyyat, elektrik sahələrində əlaqələr yaradıldıqdan sonra Naxçıvan blokadadan xilas oldu. 2020-ci il 10 noyabr tarixli bəyanatda isə Prezident İlham Əliyevin təkidi ilə Zəngəzur dəhlizindən Naxçıvan Muxtar

---

[31] *Письмо представителя Азербайджана от 14 мая 1993 года на имя Председателя Совета Безопасности, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.229-230.*

Respublikasının Azərbaycanın əsas hissəsi ilə quru yollarla əlaqəsi təsbit edildi[32].

Birinci Qarabağ müharibəsi zamanı 20000-dən çox insan həlak oldu, 50000-dən çox insan yaralandı, yaxud şikəst oldu, təxminən 4866 nəfər əsir və girov düşdü. Onlardan 314-ü qadın, 58-i uşaq, 255-i qoca idi[33]. 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Ərazisi 4,4 min $km^2$ olan Dağlıq Qarabağ, ərazisi 12,719 $km^2$ olan Dağlıq Qarabağ ətrafı rayonları, ərazisi 849 $km^2$ olan Ermənistanla sərhəd rayonların kəndləri işğal edildi. İşğal edilən ərazi ümumilikdə 17.968 $km^2$ idi[34].

Azərbaycanın otlaq sahəsinin 70%-i, o cümlədən 595 600 hektar kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi, 246 000 hektar meşə massivi, 10 100 hektar boş sahəsi işğal altında qaldı[35]. İşğal edilən ərazilərdən 244 min baş xırdabuynuzlu, 69 min baş iribuynuzlu mal-qara, yalnız 1993-cü ildə 206 600 ton odun Ermənistana daşındı. Çoxlu miqdarda tarixi, mədəni, dini abidələr, incəsənət əsərləri məhv edildi, yaxud Ermənistana aparılaraq, xarici ölkələrdə satıldı, onların hansı ölkəyə məxsus olduğu, irsi, milli kökləri dəyişdirildi. Azərbaycan ərazilərini işğal edərkən Ermənistan Xocalıda mülki əhaliyə qarşı soyqırımı törətdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ildə verdiyi sərəncamla Nazirlər Kabinetinin nəzdində Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvə-

---

[32] *İlham Əliyev xalqa müraciət edib. 10.11.2020. https://president.az-/articles/45924*

[33] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.367.*

[34] *Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahıl qüvvələri tərəfindən Azərbayanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2005-ci illər). Bakı, iyul 2005, s.9.*

[35] *Les consequences de l'agression Armenien contre l'Azerbaidjan, Serie réalités sur le Karabagh. Bakou : Fondation Heidar Aliyev, 2006, s.6.*

lərinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə işçi qrupu yaradıldı. İşçi qrupunun hazırladığı hesabata əsasən 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış, dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 90 milyon kvadrat kilometrdən artıq olan 150 min yaşayış binası, 4366 sosial-mədəni obyekt, həmçinin 695 tibb müəssisəsi dağıdılmışdır, kənd təsərrüfatı, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır[36]. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə işçi qrupunun məlumatına görə, Ermənistanın ölkəmizə vurduğu zərərin yekun məbləği 816,15 milyard dollar həcmində idi[37]. Başqa sözlə, əhalinin tələfolma, sağlamlığın və normal yaşayış səviyyəsinin itirilməsi hesabına humanitar-mənəvi itkilər 140,4 milyard dollar, əmlakının məhv edilməsi nəticəsində əhaliyə dəymiş maddi zərər 7,4 milyard dollar, dövlətə sosial və iqtisadi sahələrdə dəymiş zərər 126,46 milyard dollar, ətraf mühit və təbii sərvətlər üzrə itkilər 244,42 milyard dollar, tarixi və mədəniyyət abidələrinə dəymiş zərər 177 milyard dollar, işğalla bağlı izafi hərbi xərclər, məhdudiyyətlər və itkilər 124,47 milyard dollar idi[38].

Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun əks hücuma keçməsi, Vətən müharibəsinin başlaması, müzəffər Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan silahlı qüvvələrinin,

---

[36] *Ermənistanın Azərbaycana vurduğu ziyan – 800 milyard ABŞ dolları 12/7/2016 http://www.tezadlar.az/problem/16349-ermnistann-azrbaycana-vurdu-ziyan-800-milyard-ab-dollar.html*

[37] *Onlar Azərbaycana 800 milyarddan çox ziyan vurublar.22.02.2017. https://sputnik.az/karabakh/20170222/409049082/azerbaycana-800-milyarddan-cox-ziyan-vurulub.html*

[38] *Yenə orada.*

terrorçuların qovulması prosesində mənfur düşmən şəhərləri, kəndləri vəhşicəsinə dağıtdı və indi yuxarıda qeyd etdiyimiz rəqəmlər daha böyükdür. Dünya Bankının metodologiyasına görə, 4 mühüm istiqamət üzrə ziyanın hesablanması həyata keçirilir: əmlak və infrastruktura dəyən ziyan, insanların həyatlarının itirilməsi və məcburi köçkün həyatları yaşamaları nəticəsində dəyən ziyan, iqtisadi nəticələrdən yaranan ziyan və insan inkişafına vurulan ziyan[39].

İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq rəşadətli Azərbaycan Ordusu Ermənistan işğalçılarını Azərbaycan torpaqlarından qovdu. 2900-dən çox əsgər və hərbi qulluqçu qəhrəmancasına şəhid oldu. Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı qadağan olunmuş silahları tətbiq etməsi nəticəsində 100 nəfər həlak oldu.

Ermənistanın məqsədi tarixdə olmayan "Böyük Ermənistan" qurmaq idi. Kənardan özünə havadarlar toplamağa cəhd edən, yardım üçün yalvaran təcavüzkar terrorçu dövlətin isə axırı olmaz. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan xalqı arasında birlik, Azərbaycan Ordusunun rəşadəti sayəsində 44 gün ərzində Azərbaycan qələbə qazandı. Noyabrın 8-də Qarabağın ürəyi Şuşanın və 300-dən çox yaşayış məntəqəsinin, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut, Suqovuşan və digər qəsəbələrin döyüş meydanında azad edilməsi noyabrın 10-da Ermənistanı kapitulyasiya sənədini imzalamağa məcbur etdi. Ermənistan diz çökdü, Ağdam, Laçın, Kəlbəcər rayonlarını siyasi yolla qaytarmağa məcbur oldu. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri gedir, Azərbaycanda yaşayan bütün millətlərin təmsil edild-

---

[39]*Ermənistanın Azərbaycana vurduğu ziyan necə hesablanacaq? 27.11.2020. https://fed.az/az/qarabag/ermenistanin-azerbaycana-vurdugu-ziyan-nece-hesablanacaq-94201*

iyi festivalın – “Xarıbülbül” festivalının məhz Şuşada keçirilməsi düşməni məğlubiyyətindən də çox sarsıtdı.

2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Müttəfiqlik haqqında Şuşa Bəyannaməsini imzalamaları Türk dünyasında yeni eranın başlanğıcı oldu.

2021-ci il iyulun 7-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman əsasında Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması “Dağlıq Qarabağ” ifadəsini tarixdə qoydu.

## *1.2. Qlobal təhlükəli erməni terrorizmi*

İnsan hüquq və azadlıqlarını pozan qlobal problemlərdən biri olan terrorçuluğa qarşı mübarizədə hər bir dövlət BMT-nin qəbul etdiyi qətnamələri yerinə yetirməlidir.

2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvlüyünə keçirilən seçkilərdə 155 səs çoxluğu ilə Azərbaycan 2012-ci il yanvarın 1-dən 2013-cü il dekabrın 31-ə qədər BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvü seçildi. Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə 2012 ci il mayın 4-də Nyu-Yorkda “Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər” mövzusunda BMT Təhlükəsizlik Şurasının iclası keçirildi. İclasda İlham Əliyev çıxışında demişdir: “Terrorçuluğun aydın tərifi və beynəlxalq terrorçuluqla bağlı konvensiya həll olunmamış bəzi məsələlərin, o cümlədən terror hərəkətlərinin təşkil edilməsi, maliyyələşdirilməsi, təşviq edilməsi, təlimatlandırılması, digər birbaşa və dolayı yolla dəstəklənməsindən çəkindirmək məsələlərinin həllinə töhfə verə bilər. Biz sosial və iqtisadi inkişaf, eləcə də təhsil məsələlərinin

həlli üçün bu sahəyə hazırkı beynəlxalq səylər çərçivəsində, o cümlədən Birləşmiş Millətlər Təşkilatının mexanizmləri vasitəsilə birmənalı olaraq lazımi diqqət yetirməliyik”[40].

BMT, terrorun beynəlxalq və milli təhlükə xarakterini nəzərə alaraq, 1990-cı illərdə bu sahədə hüquqi fəaliyyətini təkmilləşdirməyə başladı. Bu istiqamətdə bir sıra praktiki və nəzəri addımlar atıldı. BMT Baş Məclisinin 1994-cü ildə qəbul etdiyi Beynəlxalq terrorçuluğun aradan qaldırılması tədbirləri haqqında adlı bəyannaməsində, 1996-cı il 17 dekabr tarixli qətnamədə ekstremist xarakterli terrorizmin dövlətə və onun ərazi bütövlüyünə təhlükə yaratmasından bəhs edir. Təhlükəsizlik Şurası 1999-cu il 19 oktyabr tarixli 1269 saylı qətnamədə beynəlxalq terrorizm aktlarını pislədi, BMT-ni və regional təşkilatları, bütün dövlətləri beynəlxalq terrorizmlə mübarizəyə, onu maliyyələşdirməməyə çağırdı[41]. Təhlükəsizlik Şurası 1999-cu il 9 dekabr tarixli Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında beynəlxalq konvensiya daxil olmaqla, terrorizmlə mübarizə haqqında bir sıra konvensiyalar qəbul etsə də, 2001-ci il 11 sentyabr tarixində Nyu York, Vaşinqton və Pensilvaniyada olan terror aktlarından sonra dünya dövlətlərini terrorizmlə mübarizəyə çağıran qətnamələr qəbul etdi. Təhlükəsizlik Şurasının 2001-ci il 12 sentyabr tarixli 1368 saylı qətnaməsi ilk belə qətnamə oldu[42]. Bundan əvvəl, Baş Məclisin 1970-ci il 24 oktyabr tarixli bəyannaməsində[43] və Təhlükəsizlik Şurasının 1998-ci il

---

[40] *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışıarı, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2012.pdf, s.100.*

[41] *Резюме доклада Генерального секретаря, При большей свободе: К развитию, безопасности и правам человека для всех, http:// www.un.org*

[42] *Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/russian*

[43] *Декларация о принципах международного права, касающихся дружественных отнощений и сотрудничества между государствами в соот-*

13 avqust tarixli 1189 saylı qətnaməsində[44] hər hansı bir dövlətin digər dövlətdə terror aktlarında iştirak etməkdən çəkindirilməsi məsələsi əksini tapmışdı. Təhlükəsizlik Şurasının 2001-ci il sentyabrın 28-də qəbul etdiyi 1373 saylı qətnaməyə əsasən, Nizamnamənin VII fəslinə müvafiq olaraq, hər bir dövlət beynəlxalq terrorçulara qarşı zəruri tədbirlər görməli, terror aktlarını maliyyələşdirmənin qarşısını almalı, terrorizmin qarşısını almaq üçün operativ informasiya mübadiləsi (terror şəbəkələri, silah satışı, kütləvi qırğın silahlarının ələ keçirilməsi barədə) aparmalıdır. Qətnamədə Təhlükəsizlik Şurası beynəlxalq terrorizmlə transmilli cinayətlər – qeyri-qanuni narkotik, silah, çirkli pul, nüvə, kimyəvi, bioloji silah satışı arasında əlaqəni qeyd edərək, milli, subregional, regional, beynəlxalq səviyyədə bütün dövlətləri bu qlobal təhlükə ilə mübarizəyə çağırır. 1373 saylı qətnamə əsasında BMT Təhlükəsizlik Şurasının bütün üzvlərindən ibarət Terror əleyhinə komitə yaradıldı. Ekspertlərdən ibarət olan bu komitə qarşısında hər bir dövlət terrorizmlə mübarizə, sərhədlərə nəzarət, terrorçuların maliyyələşməsinin qarşısının alınması haqqında hesabat verməlidir[45].

Baş Məclisin 2001-ci il sessiyasında bütün dövlətlər beynəlxalq terrorizmə qarşı mübarizəyə və terrorizmlə mübarizə haqqında beynəlxalq konvensiyalara, protokollara qoşulmağa çağırıldı. Təhlükəsizlik Şurası 12 noyabr tarixli 1377 saylı qətnaməsində yenidən bütün dövlətləri terror aktlarını passiv,

---

*ветствии с Уставом Организации Объединенных Наций. Принята резолюцией 2625(XXV)Генеральной Ассамблеи ООН от 24 октября 1970 года. http://www.un.org/ru/documentes/decl_conv/declarations/intlaw_principles.shtml*

[44] *Перечень резолюций Совета Безопасности принятых в 1998 году, www.un.org/russian*

[45] *Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/russian*

yaxud aktiv surətdə dəstəkləməkdən çəkindirdi[46]. Qeyd etmək lazımdır ki, o zamanadək terror bu və ya digər formada hər hansı bir ölkədə baş versə də, heç bir tədbir görülməmişdi. Qlobal səviyyədə fəaliyyət göstərən erməni terroru isə bütün dünyada tüğyan edirdi. 2003-cü il sentyabrın 24-də BMT Baş Məclisinin 58-ci sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdi: "Ermənistanın ölkəmizə qarşı başladığı təcavüzün, işğalın və terrorun qurbanına çevrilmiş Azərbaycan artıq illər boyudur ki, terrora qarşı təkbaşına savaşır. Terrorizmə qarşı mübarizə səylərini gücləndirmək barədə beynəlxalq icmaya çağırışlarımız cavabsız qaldı. Yalnız 2001-ci ilin 11 sentyabrından sonra həyəcan təbili çalındı"[47].

2005-ci il aprelin 13-də Baş Məclis Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında beynəlxalq konvensiya qəbul etdi[48]. Təhlükəsizlik Şurası 14 sentyabr tarixli 1624 saylı qətnaməsində 1948-ci il İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 19-cu maddəsini, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 19-cu, həmçinin 3-cü maddələrini, İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 14-cü maddəsində ifadə olunan sığınacaq tapmaq hüququnu, 1951-ci il Qaçqınların statusu haqqında beynəlxalq Konvensiya və 1967-ci il ona əlavə protokolu xatırladaraq, bütün dövlətləri terror aktlarının həyata keçirilməsinin qadağan edilməsini qanuniləşdirməyə, günahkar olması barədə informasiya verilən istənilən şəxsə sığınacaq verilməsindən imtina etməyə, Terror əleyhinə komitə qarşısında informasiya verməyə çağırdı[49].

---

[46] *Yenə orada.*

[47] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 2009, s.191.*

[48] *Перечень резолюций Совета Безопасности принятых в 2005 году, www.un.org/russian*

[49] *Yenə orada.*

Təhlükəsizlik Şurası Terror əleyhinə komitəyə aşağıdakı səlahiyyətləri verdi: 1) Hazırkı qətnaməni həyata keçirmək üçün üzv dövlətlərlə dialoq aparmaq; 2) informasiya mübadiləsi, hüquq normalarına əməl edilməsi sahəsində üzv dövlətlərlə əməkdaşlıq etmək; 3) hazırkı qətnamənin həyata keçirilməsi barədə 12 aydan sonra Təhlükəsizlik Şurasında məruzə etmək[50].

Sadalanan qərar və qətnamələrlə yanaşı BMT çərçivəsində beynəlxalq terrorizmlə mübarizə haqqında 13 beynəlxalq konvensiya qəbul edilmişdir. Bunlar aşağıdakılardır: 1963-cü il Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında konvensiya (Tokio konvensiyası), 1970-ci il Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında konvensiya, 1971-ci il Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında konvensiya (Monreal konvensiyası), 1973-cü il Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında konvensiya, 1979-cu il Adamların girov götürülməsinə qarşı mübarizə haqqında beynəlxalq konvensiya, Nüvə materialının fiziki mühafizəsi haqqında konvensiya, Monreal konvensiyasına əlavə olaraq 1988-ci il beynəlxalq mülki aviasiyaya xidmət edən hava limanlarında qeyri-qanuni zorakılıq aktlarına qarşı mübarizəyə yönəldilmiş protokol, 1988-ci il Dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz aktlarla mübarizə haqqında konvensiya, 1988-ci il Kontinental şelflərdə yerləşmiş stasionar platformaların təhlükəsizliyinə qarşı yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında protokol, 1991-ci il Plastik partlayıcı vasitələrin aşkar edilməsi məqsədilə onların nişanlanması haqqında beynəlxalq konvensiya, 1997-ci il Bomba terrorizmi ilə mübarizə haqqında beynəlxalq konvensiya,

---

[50] *Yenə orada.*

1999-cu il Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında beynəlxalq konvensiya, 2005-ci il Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında beynəlxalq konvensiya.

Lakin bu gün heç də bütün dövlətlər beynəlxalq hüquq normalarından irəli gələn tələblərə cavab vermir. Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəklənməsi və cəzasız qalmasının nəticəsi olaraq azərbaycanlılar, türklər tarixən erməni terrorizminə məruz qalmış, yüz minlərlə azərbaycanlı tarixi yurdlarından terror yolu ilə qovulmuşlar. Hətta 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya sənədini imzalamasına baxmayaraq, erməni terrorçuları yenə də sərhədi keçməyə çalışırlar, məqsədləri isə sərhədboyunda minaların basdırılması, təxribat törətməkdir. Lakin ayıq-sayıq Azərbaycan əsgər və zabitləri terrorçuları zərərsizləşdirirlər.

Ümumiyyətlə, terror ermənilərin "tarixi" mübarizə metodudur. Avstriya tədqiqatçısı E.Feyql ermənilərin məqsədlərinə çatmaq üçün həmişə bir metod kimi terrordan istifadə etdiyini təsdiq edir[51].

Rusiya tədqiqatçısı, hüquqşünas Oleq Kuznetsov yazır ki, müasir Rusiya cinayət hüququnun normaları mövqeyindən 1988-1994-cü illər Qarabağ müharibəsi özündə terrorçu istiqamətli cinayətləri birləşdirən terror müharibəsi idi. Rusiya Federasiyası cinayət kodeksi aşağıda sadalanan hüquqa zidd fəaliyyəti nəzərdə tutur: terror aktı, girovlar götürülməsi, qanunsuz silahlı dəstələrin yaradılması, yaxud həmin dəstələrdə iştirak etmək, hava, su, dəmiryollarının ələ keçirilməsi, dövlət, yaxud ictimai xadimin həyatına qəsd, silahlı qiyam, ekstremist fəaliyyətin həyata keçirilməsi üçün çağırış, beynəlxalq səviyyədə müdafiə edilən ayrı-ayrı şəxslərə, yaxud müəssisələrə hücum. Təd-

---

[51] *Erich Feigl. Armenian Mythomania. Armenian Extremism: Its Causes and Historical Context, 2007, www.google.az*

qiqatçı bildirir ki, Xocalı şəhərində əhalinin kütləvi surətdə qətl edilməsi, sağlamlığına zərər vurulması Rusiya cinayət kodeksində terrorizmi müəyyənləşdirən ən aşağısı üç aktın həyata keçirildiyini göstərir: girovlar götürülməsi, qanunsuz silahlı qruplaşmalarda iştirak və silahlı qiyamlar. Bu aktlar 1992-ci il 25-26 fevral tarixlərdə Xocalıda olan hadisələri beynəlxalq terrorizm kimi təsnif etməyə əsas verir. Xocalı soyqırımı erməni terrorunun davamıdır[52].

Oleq Kuznetsov transmilli erməni terrorizminin XIX əsrin sonlarında Osmanlı imperiyasında meydana gəldiyini, oradan Rusiya imperiyasına və Balkan ölkələrinə, sonra isə oradan Qərbi Avropa və Şimali Amerikaya qədər yayıldığını qeyd edir[53].

1885-ci ildə Vanda Avetist Nazarbekyan və digər şovinist ermənilər tərəfindən marksizm prinsipləri adı altında yaradılan, simvolları zəng olan Hnçaq (Zəng) partiyasının əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, Rusiya və İran Ermənistanı adlandırdıqları əraziləri birləşdirərək "Böyük Ermənistan" dövləti yaratmaq idi[54]. Təkcə 1890-1892-ci illərdə Hnçaq terror təşkilatı 65 min silahsız müsəlmanı, türkü və kürdü məhv etdi[55].

1890-cı ildə Tiflisdə yaradılan Daşnaksütun partiyasının məqsədi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında uydurma "Böyük Ermənistan" qurmaq idi. 1980-1982-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirən "Erməni soyqırımı"nın

---

[52] *Кузнецов О. Война в Карабахе – первая террористическая война в истории человечества / Qarabağ Dünən, Bu gün və Sabah 16-cı elmi-əməli konfransın materialları. Bakı. QAT. 2017, s.218.*

[53] *Yenə orada, s.219.*

[54] *Преступления Армянских террористических и бандитских формирований против человечества (X1X-XX1вв.). Краткая хронологическая энциклопедия. Институт по правам человека Национальной Академии Наук Азербайджана, Баку: Элм, 2002, s.13.*

[55] *Yenə orada, s.7.*

intiqamçıları qrupu, məxfi terror qrupu DRO və onun bölmələri: DRO-8, DRO-88, DRO-888, DRO-8888 yaradıldı[56]. Daşnakların hazırda bu istiqamətdə fəaliyyəti davam edir. Qeyd etmək lazımdr ki, Daşnaksütun partiyası hazırda Ermənistanda Erməni inqilab federasiyası adı altında fəaliyyət göstərir. Ermənistanda Dağlıq Qarabağ problemindən daxili siyasətdə məqsədlərinə çatmaq üçün istifadə etdiklərini bildirən Aqasi Enokyan yazır: "Erməni inqilab federasiyası Daşnaksütun partiyasından olan millətçi-sosialistlər bütün erməni torpaqlarının birləşdirilməsi və erməni xalqının bütün tarixi düşmənlərini cəzalandırmağı nəzərdə tutur. Daşnaksütunun xarici siyasətinin yeganə məqsədi tarixi ədaləti bərpa etmək və bütün erməni torpaqlarının qaytarılmasıdır. Danışıqlar güzəştlə yox, güc tətbiq etməklə ola bilər"[57].

1975-ci ildə Beyrutda Akopyan tərəfindən yaradılan Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu – ASALA, Erməni gizli azadlıq ordusu – ASOA, 1973-cü ildə yaradılan "Erməni soyqırımı"nın intiqamçıları qrupu və başqa terror təşkilatları 1975-ci ildən başlayaraq 50-dən çox Türkiyə vətəndaşını, xüsusən də, səfirləri, diplomatları, onların qohumlarını qətlə yetirmişlər[58]. 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılan Orli qrupu 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirmişdir[59].

Erik Feyql 1984-cü ildə Erməni gizli azadlıq ordusu terror təşkilatı tərəfindən faciəli surətdə qətlə yetirilən dostu Erdoğan

---

*[56] Ermənistan Respublikası (məlumat-sorğu kitabçası). Qafqaz Etno-siyasi Araşdırmalar Mərkəzi, "Bölgə" silsiləsindən I buraxılış, Bakı, 2006.*

*[57] Енокян А. Армения: противоречивые подходы к урегулированию Карабахского конфликта // Центральная Азия и Кавказ, 2002, № 1, s.116.*

*[58] Qaffarov T.B. Azərbaycan Respublikası 1991-2001. Bakı: Tural-Ə, 2001, s.14.*

*[59] Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası. 23.02.2017-ci il tarixinə olan məlumat. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar. http://www.human.gov.az*

Özenin xatirəsinə ithaf etdiyi əsərdə 1973-1994-cü illərdə ermənilər tərəfindən qətlə yetirilmiş Avropa ölkələrində fəaliyyət göstərən 34 türk diplomatının adını çəkir[60]. 1980-ci ildə ASALA birgə terror aksiyaları həyata keçirmək üçün PKK terror təşkilatı ilə razılığa gəlmiş, 1993-cü il avqustun 28-də açıqlanan bəyanatında "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdi[61]. Oleq Kuznetsov tədqiqatlarından belə nəticəyə gəlir ki, 1988-1994-cü illər Dağlıq Qarabağ müharibəsində Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu – ASALA və "Erməni soyqırımı"nın intiqamçıları – ASOA əsas qüvvə kimi iştirak etmişlər və bu təşkilatlar 1980-ci illərin ortalarında ABŞ Xüsusi xidmətinin nəzarəti altında olmuşlar[62]. Erməni terroru barədə tədqiqatlar aparan amerikalı tədqiqatçı Frensis Xayland "Erməni terrorizmi: keçmişi, bu günü, gələcəyi" adlı əsərində yazır ki, yaxın zamanda transmilli erməni terrorunun əsas məqsədi 1970-1980-ci illərdə olduğu kimi Türkiyə Respublikasında fəaliyyət göstərmək deyil, SSRİ-də fəaliyyət göstərməkdir. Erməni millətçilərinin terror fəaliyyətinin episentri "müsəlman icması tərəfindən sıxışdırılmasına" qarşı qiyam qaldıran erməni əhalinin olduğu Azərbaycanın Dağlıq Qarabağ regionu olacaqdır[63].

2001-ci ilin fevralında ASALA tərəfindən yaradılan Geqaron təşkilatının məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir. 1991-ci ildə Fransada yaradılan

---

[60] *Erich Feigl. Armenian Mythomania. Armenian Extremism: Its Causes and Historical Context, 2007, www.google.az, p.1-2.*

[61] *Erməni terroru-Armenian terror – Армянский террор. Bakı: Vətən, 2005, s.139.*

[62] *Кузнетцов О. Война в Карабахе – первая террористическая война в истории человечества / Qarabağ Dünən, Bu gün və Sabah 16-cı elmi-əməli konfransın materialları. Bakı. QAT. 2017, s.219.*

[63] *Yenə orada, s.220.*

Erməni azadlıq hərəkatı (AOD) terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir. 1979-cu ildə yaradılan ASALA-nın tərkib hissəsi sayılan Erməni azadlıq cəbhəsi Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır. 1972-ci ildə Vyanada Daşnaksütun partiyasının qurultayı zamanı yaradılan Erməni soyqırımı ədalət komandoslarının məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir[64].

Diplomatların oğurlanması ilə məşğul olan Gənc ermənilər ittifaqı 1990-cı ildə Fransada yaradılmışdır. 1991-ci ildə İsveçrədə həbsdə olan erməni terrorçularının azad olunmasına çalışan 9 İyun qrupu yaradıldı. Avropanın bir çox ölkələrində fəaliyyət göstərən İsveçrə qrupu Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürdü. ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərən Demokratik cəbhənin başlıca məqsədi türk dövlətini parçalamaqdır. 1981-ci ildə Parisdə yaradılan İntiharçılar eskadronu həmin ildə Türkiyənin Fransadakı baş konsulluğunun zəbt edilməsində iştirak etmiş, nəticədə qrupun 4 nümayəndəsi, həmçinin keçmiş rəhbəri Yan Kaşkayan həbs edilmişdir. Hazırda qrupa rəhbərliyi Vaşqen Sakasaslenyan həyata keçirir. 1988-ci ildə Moskvada yaradılan Erməni birliyi təşkilatının ASALA ilə sıx əlaqələri vardır[65]. Təşkilat keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir, Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir. 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan müdafiə birliyi tərəfindən yaradılan Apos-

---

[64] *Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası. 23.02.2017-ci il tarixinə olan məlumat. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar. http://www.human.gov.az*

[65] *Yenə orada.*

tol təşkilatının məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktlarının keçirilməsidir.

Ermənistan Prezidenti Levon Ter-Petrosyanın rəhbəri olduğu Qarabağ anti-Azərbaycan komitəsi erməni mənşəli anti-Azərbaycan, antihökumət ruhlu vətəndaşlardan istifadə edərək, Azərbaycanın Dağlıq Qarabağ regionunda erməni əhali arasında separatçı hərəkat yaratdı, terrorçu qruplaşmalar təşkil etməklə Ermənistandan azərbaycanlı əhali terror yolu ilə deportasiya edildi, Dağlıq Qarabağda kütləvi terror aksiyaları həyata keçirildi. XX əsrin yalnız son 10 ilində Azərbaycanda erməni terrorçuları tərəfindən yalnız nəqliyyatda 4 terror aktı həyata keçirilmiş, bu zaman ölənlərin sayı 68 nəfər, yaralananların sayı 132 nəfər olmuşdu. Sərnişin və yük qatarlarında 8 terror aktı törədilmiş, nəticədə 14 nəfər ölmüş, 125 nəfər yaralanmışdı. Bakı metropolitenində 3 terror aktı qeydə alınmış, nəticədə onlarla insan ölmüş, yüzlərlə insan yaralanmışdı. Hava nəqliyyatında 3 terror aktı törədilmiş, nəticədə 104 nəfər həlak olmuşdu. Krasnovodsk-Bakı sərnişin daşıyan dəniz bərəsində törədilən terror aktı zamanı 25 nəfər həlak olmuş, 88 nəfər ağır yaralanmışdı. Ermənilər yaşayış mənətəqələrində və mülki obyektlərdə 337 terror aktı törətmişlər, nəticədə 881 nəfər ölmüş, 1239 nəfər yaralanmışdı. Mülki və dövlət obyektlərinə qarşı 8 terror aktı törədilmişdi. Nəticədə 10 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdı, Azərbaycanın iqtisadiyyatına külli miqdarda zərər dəymişdi. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin faktlar əsasında hazırladığı "Erməni cinayətləri (Sənədlər əsasında)" adlı kitabda erməni terrorizminin acı nəticələri[66], Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin "Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər) adlı kitabda ermənilərin Azərbay-

[66] *Erməni cinayətləri (sənədlər əsasında). Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi. I c., Bakı: Vətən, 2004, s.128-159.*

can xalqına qarşı törətdiyi terror aktları, təxribat, silahlı separatizm və hərbi təcavüz aktları təfsilatı ilə göstərilmişdır[67].

Oleq Kuznetsov yazır ki, Dağlıq Qarabağ müharibəsi birinci terror müharibəsi idi, ABŞ Xüsusi xidmət orqanı tərəfindən SSRİ-nin dağıdılmasına yönəldilmişdi. Erməni terrorçuları Dağlıq Qarabağda batalyonlara başçılıq edirdilər. Bunlardan birincisi Livan vətəndaşı erməni Qevork Gözəlyanın başçılıq etdiyi Mardakert istiqamətində fəaliyyət göstərən Mens Murad dəstəsi idi. Dəstəyə 200 xarici vətəndaş, 50 Ermənistan vətəndaşı daxil idi[68]. İkinci dəstə 1989-cu ildə Daşnaksütun partiyasının təşəbbüsü ilə Livan vətəndaşı Manvel Eqizaryanın başçılığı altında İrəvanda yaradılan Arabo adlı dəstə idi. Suriya və Livan vətəndaşlarından ibarət idi. Bu dəstə Xocalı soyqırımında fəal iştirak etmişdi. 1992-ci il iyulun 28-də Arabo dəstəsi Əsgəran şəhəri yaxınlığında Azərbaycan milli ordu hissələri tərəfindən mühasirəyə alındı, 166 terrorçu məhv edildi, M.Eqezaryan İrəvana qaçsa da, orada müəmmalı şəkildə öldürüldü[69]. Digər silahlı dəstə Beyrutdan olan erməni Jirayr Sefilyanın başçığı ilə Şuşa istiqamətində vuruşmaq üçün yaradılmışdı. Jirayr Sefilyan Ermənistanda müxalifətlə birləşdi, 2006-cı ildə silahlı qiyam qaldırmağa cəhd etdi və dekabrın 10-da Vardan Malxasyanla birlikdə həbs edildi.

Beynəlxalq sülh və təhlükəsizliyi müdafiə edən BMT-nin, ATƏT-in Helsinki Yekun Aktının prinsiplərinə əsaslanaraq xarici siyasət həyata keçirən Azərbaycan Respublikası demokratik sülhsevər dövlət kimi, BMT-nin 1996-cı il Beynəlxalq terrorizm-

---

[67] *Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. Bakı: Vətən, 2005.*
[68] *Кузнецов О. Война в Карабахе – первая террористическая война в истории человечества / Qarabağ Dünən, Bu gün və Sabah 16-cı elmi-əməli konfransın materialları. Bakı. QAT. 2017, s.223.*
[69] *Yenə orada, s.224.*

lə mübarizə tədbirləri haqqında konvensiyasına və bu barədə olan digər konvensiyalara qoşulmuşdur. Belə öhdəliklərdən biri Avropada adi silahlı qüvvələr haqqında müqavilədir. Azərbaycan ərazilərinin bir hissəsinin 30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olması, Dağlıq Qarabağ regionunda hökumət tərəfindən nəzarət altında olmayan ağır texnika ilə təchiz edilmiş hərbi qruplaşmaları saxlaması bu müqavilənin şərtlərini pozsa da, ATƏT-in Minsk qrupunun üzvləri, eyni zamanda Avropada adi silahlı qüvvələr haqqında müqavilənin iştirakçıları təcavüzkarın mühakiməsində birmənalı mövqe tutmadılar. Azərbaycan hökuməti Avropada adi silahlı qüvvələr haqqında müqaviləni möhkəmləndirmək məqsədilə Dağlıq Qarabağ regionunda silah, döyüş texnikası barədə əsl vəziyyəti araşdırmaq üçün müqavilənin iştirakçı dövlətlərindən ibarət çoxmillətli təftiş qrupunun yaradılması, Birgə məsləhətçi qrupun Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılmasına yardım göstərməsi barədə təklif etdi[70]. Ümummilli lider Heydər Əliyev ATƏT-in İstanbul zirvə toplantısında Avropada adi silahlı qüvvələr haqqında müqavilənin səmərəliliyini yüksəltməyin vacibliyini, işğal edilmiş Azərbaycan torpaqlarında qanunsuz xarici silahların yerləşdirilməsinin beynəlxalq təhlükəsizliyi, həmçinin müqavilə iştirakçılarının təhlükəsizliyini pozduğunu dünya dövlətlərinin nəzərinə çatdırdı[71].

Təcavüz, hərbi cinayət, soyqırım, irqçilik, insanlar üzərində qanunsuz təcrübələrin həyata keçirilməsi, əzab, quletmə,

---

[70] *Письмо министра иностранных дел Азербайджанской Республики от 10 декабря 1993 года на имя Председателя Совместной консультативной группы по Договору об обычных вооруженных силах в Европе, Документ S/26876. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.365-366.*

[71] *Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, V c., Bakı: Göytürk, 1999, s.429.*

quldurluq, gəmiçiliyə qarşı qanunsuz hərəkətlər, hava gəmilərinin saxlanılması, onlara qarşı terror, diplomatik şəxslərin saxlanılması, mülki vətəndaşların girov götürülməsi, ətraf mühitə zərər vurulması, insan hüquqlarının pozulması – bunlar terror aktlarıdır[72]. Bu göstərilənlərin hamısını ermənilər Azərbaycan ərazisində və kənarlarda azərbaycanlılara, Qubada yaşayan dağ yəhudilərinə, Türkiyədə və digər ölkələrdə türklərə və digər xalqlara qarşı dəfələrlə tətbiq ediblər və etməkdədirlər. Ermənistan, hətta sülhməramlı missiyalara, diplomatlara, jurnalistlərə qarşı da vəhşi terror aktları tətbiq etmişdir. Məsələn, 1994-cü il martın 18-də Moskvadan Tehrana gedən S-130 (Herkules) İran təyyarəsi Azərbaycanın Xankəndi şəhəri üzərində Ermənistan silahlı qüvvələri tərəfindən vuruldu. Nəticədə əsasən qadın və uşaqlardan, o cümlədən İranın Rusiyadakı səfirliyinin 7 əməkdaşından ibarət 32 nəfər həlak oldu[73]. İran hökumətinin bu cinayəti araşdırmaq məqsədilə yaratdığı xüsusi komissiyanın nəticələri cinayətin ermənilər tərəfindən törədilməsini təsdiq etdi. Azərbaycan terror aktını pisləyərək, Ermənistanın jurnalistləri, sülhməramlı missiyanı qətlə yetirməsinin beynəlxalq cinayət olduğunu bildirdi. İran İslam Respublikası Xarici İşlər Nazirliyi Xankəndində olan bu faciədə məsuliyyətin Ermənistanın üzərinə düşməsi haqqında bəyanat verdi. Ermənistan prezident aparatının mətbuat katibi L.Zurabyan rəsmi bəyanatla çıxış edərək İranın XİN-nin bəyanatının "vaxtından əvvəl", İran hökumətinin və MDB-nin fəlakəti araşdırma işi başa çatmamış verildiyi-

---

[72] *Аль-Обейд А.С. Угрозы терроризма и борьба с ним // Азия и Африка, 2004, № 4, s.43.*

[73] *Письмо представителя Азербайджана от 31 марта 1994 года на имя Генерального секретаря, Документ S/1994/377, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.3.*

ni bildirdi[74]. Azərbaycan Respublikası XİN Ermənistan rəhbərliyinin bu bəyanatını dünya birliyində dezinformasiya yaratmaq üçün düşünülmüş cəhd kimi qiymətləndirdi. Ermənistan rəhbərliyinin yalan bəyanatları onun işğalçı siyasətini pərdələməyə yönəldilmişdi. Çünki İran təyyarəsinin Ermənistan silahlı qüvvələri tərəfindən vurulması İran hökumətinin yaratdığı xüsusi komissiyanın yekunlarına əsasən təsdiq edilmişdi.

1979-cu il İnsanların girov götürülməsi ilə mübarizə haqqında beynəlxalq konvensiyaya əsasən insanların girov götürülməsi cinayəti də beynəlxalq terrorizm cinayəti növlərindən biridir. Ermənistan əsir və girovlarla 12 avqust 1949-cu il Cenevrə konvensiyalarına müvafiq rəftar etmir, əsir və girovların əksəriyyəti şəxsi evlərdə, yaxud onları əsir götürən hərbi hissələrdə saxlanılırdı. Ermənistan 1994-cü il 12 may tarixli Atəşkəs haqqında sazişdən sonra da Azərbaycanın sərhəd ərazilərindən dinc sakinləri, yaxud hərbi qulluqçuları girov götürməkdə davam etmişdir və girov götürülən insanlar çox qəddar işgəncələrə məruz qalmışlar.

Yuxarıda aparılan tədqiqatları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, qlobal təhlükəli erməni terror təşkilatları olan Armenakan, Hnçaq, Daşnaksütun, Daşnaksütun partiyasının fəaliyyətinə qərar verdiyi Nemezis, “Erməni soyqırımı”nın intiqamçıları qrupu, məxfi terror qrupu DRO və onun DRO-8, DRO-88, DRO-888, DRO-8888 adlı gizli bölmələri, Erməni gizli azadlıq ordusu (ASOA), Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu (ASALA), ASALA tərəfindən yaradılan Geqaron, Erməni azadlıq hərəkatı (AOD), Erməni azadlıq cəbhəsi, “Erməni soyqırımı” ədalət komandosları, Erməni birliyi, Demokratik cəbhə, Apostol türk dövlətlərini parçalamaq məqsədilə dünyanın müxtəlif yerlərində türk dövlət xadimlərinə, ziyalılarına,

[74] *Yenə orada.*

diplomatlara və digər günahsız insanlara qarşı terror aksiyaları həyata keçirmişlər. Azərbaycanın torpaqları hesabına Ermənistan Respublikası yaradıldıqdan sonra isə Dağlıq Qarabağda antihökumət, anti-Azərbaycan ruhlu təbliğatla eyni adlı problem ortaya atılmış və terrorçu Ermənistan dövləti bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirmiş və keçirməkdədir. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma qurumda rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən 1 milyondan çox azərbaycanlının kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulması və minlərlə insanın qətlə yetirilməsinə şərait yaradan, erməni quldur dəstələrini zəruri vəsaitlərlə təmin edən R.Köçəryan, sonralar S.Sarkisyan hökuməti azərbaycanlılara qarşı kütləvi terror aksiyalarını Ermənistanda dövlət səviyyəsində davam etdirmişlər. Cəbrayıl, Zəngilan, Füzulinin işğalını erməni terrorçuları R.Köçəryan, S.Sarkisyan, S.Ohanyan, S.Babayan, A.Qukosyan təşkil etmişlər[75]. 2008-ci ilin fevralında Ermənistanın prezidenti seçilmiş Serj Sarkisyan öz karyerasına qondarma Dağlıq Qarabağ respublikası özünümüdafiə qüvvələri komitəsinin sədri kimi başlamışdı. 1993-cü ildə Ermənistanın müdafiə naziri, sonra isə baş naziri olmuşdu. Oleq Kuznetsov erməni terrorunu araşdırarkən belə nəticəyə gəlir ki, Dağlıq Qarabağ müharibəsində, o cümlədən Xocalı soyqırımında əsas məsuliyyət Ermənistanın Prezidenti S.Sarkisyanın üzərinə düşür. Xocalı soyqırımında iştirak edən 366-cı alayın iki batalyon komandiri Seyran Oqanyan cinayət törətdikdən sonra qondarma Dağlıq Qarabağ respublikasının müdafiə ordusunun komandiri, 2008-ci ildən 2016-cı ilə qədər Ermənistanın müdafiə naziri oldu, general-polkovnik rütbəsi aldı. Bu faktlar göstərir ki, Ermənistan rəhbərliyi terrorçuları milli "qəhrəman" kimi dövlətdə ali vəzifələrə təyin edir. Ermənista-

---

[75] *Erməni cinayətləri (sənədlər əsasında). Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi. I c., Bakı: Vətən, 2004, s.128-129.*

nın daxili işlər nazirinin müavini Levon Eranosyan Dağlıq Qarabağda döyüşlərdə fəal iştirak etdiyinə görə 2013-cü ildə general-leytenant rütbəsi aldı, bu terrorçu Ermənistanda terrorizmlə mübarizəyə rəhbər vəzifəyə təyin edildi[76]. Erməni terrorunu araşdıran O.Kuznetsov belə nəticəyə gəlir ki, qondarma qurumu əsas maliyyələşdirən Ermənistandır[77]. Ermənistan dövlət aparatı öz ətrafında həmişə terrorçuları birləşdirmişdir. 1996-cı ildə Dro adlı terrorçu təşkilatda fəaliyyətinə görə həbs edilən Vaqan Oqanesyan R.Köçəryanın təşəbbüsü ilə həbsdən azad edilərək Ermənistan prezidentinin müşaviri oldu. Bakı metrosunun 20 Yanvar, 28 May-Gənclik, Ulduz-N.Nərimanov stansiyalarında törədilən partlayışlarda fəal iştirak edən Ermənistan terrorçu təşkilatı ASALA terrorçularından Davidyan, Melkonyan R.Köçəryan tərəfindən Qarabağda səhra komandirləri vəzifəsinə təyin edildi, Xocavəndin işğalı zamanı erməni terrorçusu Melkonyana ölümündən sonra milli qəhrəman adı verilməklə yanaşı, Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə onun adı verildi. 1990-cı il iyulun 11-də Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobus və xalq təsərrüfatı malları daşıyan maşın karvanına qarşı terror aksiyası keçirmiş, dinc sakinləri qətlə yetirmiş Ayriyon Arkadi Abramoviç və Babayan Samvel həbs edilsə də, 1992-ci ilin iyulunda Samvel Babayan azərbaycanlı girov və əsirlərlə dəyişdirlimiş, 1993-1999-cu illərdə qondarma qurumun müdafiə naziri olmuşdu.

“Küçə” siyasəti ilə hakimiyyətə gələn Ermənistanın Baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” kimi terror xislətli bəyanatı Azərbaycan xalqının səbrinə nöqtə qoydu. Ermənistanın növbəti terror fəaliyyəti zamanı Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də əks hücuma keçdi və 44

---

[76] *Кузнетцов О. Война в Карабахе – первая террористическая война в истории человечества / Qarabağ Dünən, Bu gün və Sabah 16-cı elmi-əməli konfransın materialları. Bakı. QAT. 2017, s.225-228.*

[77] *Yenə orada, s.230.*

günlük müharibə noyabrın 10-da Ermənistanın kapitulyasiya sənədini imzalaması ilə başa çatdı. Erməni terrorçuları 2020-ci il 10 noyabr bəyanatından sonra da fəaliyyətlərini davam etdirməyə can atdılar. Həmin il noyabrın 26-da erməni terrorçuların işğaldan azad olunmuş Xocavənd rayonunun Sor kəndinə hücumları nəticəsində 3 hərbi qulluqçu öldürülmüş, 2 nəfər yaralanmış, dekabrın 8-də həmin rayonun Hadrut qəsəbəsi yaxınlığında rabitə qurğularının və ötürücü avadanlıqların quraşdırılması işlərinin aparılması zamanı 1 hərbi qulluqçu həlak olmuş və "Azercell" şirkətinin əməkdaşı ağır yaralanmışdır[78].

Dekabrın 10-da Xocavənd rayonunun Köhnə Tağlar və Çaylaqqala kəndlərində gizlənən erməni terrorçuları Azərbaycan Ordusunun əsgərlərinə və mülki şəxslərə hücum etdilər. Nəticədə insanlar öldürüldü, yaralandı[79]. Dekabrın 27-də Xocavənd rayonunun Ağdam kəndi istiqamətində qanunsuz erməni silahlı qrupu və ya ərazidə qalmış Ermənistan silahlı qüvvələrinin qalıqlarından ibarət 6 nəfərlik dəstə Azərbaycan Ordusunun bölmələrinə hücum etdi. Nəticədə 1 hərbi qulluqçu öldürüldü, 1 nəfər yaralandı. Cavab tədbirləri nəticəsində qanunsuz erməni hərbi dəstəsinin altı üzvü məhv edildi[80]. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Müdafiə Nazirliyinin həyata keçirdikləri birgə əməliyyat nəticəsində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən məqsədyönlü şəkildə yerləşdirilmiş 62 nəfərdən ibarət erməni terrorçu-diversant qrupu saxlanılaraq istintaqa təhvil verildi[81].

---

*[78] Azərbaycan MN: "4 hərbi qulluqçumuz öldürülüb". 12.12.2020. https://-www.bbc.com/azeri/azerbaijan-55285924*

*[79] Rusiya sülhməramlılarının yeni xəritəsi Azərbaycan ictimaiyyətində ciddi narazılıq və təəssüf doğurur – Deputat. 14.12.2020. https://az.trend.az/-azerbaijan/politics/3349490.html*

*[80] Müdafiə Nazirliyinin məlumatı. 28.12.2020. https://mod.gov.az/az/news/-mudafie-nazirliyinin-melumati-34274.html*

*[81] 62 erməni terrorçu-diversant istintaqa təhvil verilib - rəsmi. 09.01.2021.*

Separatizm terrorizmə səbəb olan əsas amildir. Terrorizmin qarşısını almaq vasitələrindən biri vaxtında separatizmin qarşısının alınmasıdır. Ümummulli lider Heydər Əliyev 2001-ci il oktyabrın 28-də ATƏT-in Minsk qrupunun həmsədri ABŞ nümayəndəsi Rudolf Perina ilə görüşdə bu barədə belə demişdir: ”Terrorizmin meydana gəlməsi səbəbi təcavüzkar separatizmdir. Təcavüzkar separatizm demək olar ki, terrorizmin anasıdır. Ancaq təəssüf ki, vaxtilə bu köklərə lazımi qədər qiymət verməyiblər...”[82].

Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionu və ətraf rayonlarının Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olmasının nəticəsi olaraq, Ermənistan bu ərazidən özü istədiyi kimi istifadə etmişdir. Dağlıq Qarabağ regionu Ermənistan tərəfindən işğal edildikdən sonra orada narkotik maddələr istehsal edilmiş, ondan gələn gəlir terrorçu təşkilatları maliyyələşdirmişdir. ABŞ Dövlət Departamenti 2000-ci ilin martında etdiyi “Narkotiklər üzərində beynəlxalq nəzarət sahəsində strategiya haqqında” adlı məruzəsində bu faktları göstərdi. Narkotiklərdən alınan gəlir işğal edilən əraziləri nəzarətdə saxlamağa, muzdluları maliyyələşdirməyə yönəldilmişdir. Bu faktlar Avropa Şurası Parlament Assambleyasının müvafiq məruzəsində də əks olunmuşdur[83]. 2003-cü il sentyabrın 24-də BMT-nin Baş Məclisinin 58-ci sessiyasında çıxış edən Prezident İlham Əliyev Azərbaycanın işğal olunmuş ərazilərində erməni terrorçu qrupların fəaliyyət göstərdiyini vurğulayaraq bildirdi ki, terrorizmi törədən səbəblər, eləcə də onun yayılması üçün münbit

---

*https://lent.az/xeber/siyaset/62-ermeni-terrorcu-diversant-istintaqa-tehvil-verilib-resmi-393112*

[82] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 36-cı kitab, Bakı: Azərnəşr, 2011, s.406.*

[83] *Письмо представителя Азербайджана при Организаций Объединенных Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря Приложение1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.110.*

şərait yaradan amillər kəsilməsə, terrorizmə qarşı mübarizədə uğur heç vaxt mümkün olmayacaqdır. Digər tərəfdən, bütün dünyadakı, eləcə də Cənubi Qafqazdakı münaqişələri daimi terror praktikası və onun dövlət səviyyəsində dəktəklənməsi şəraitində həll etmək mümkün deyildir[84].

Lakin beynəlxalq təşkilatlar Ermənistanın bu cinayətlərinə məsuliyyətsiz yanaşırdılar. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Narkotik vasitələr üzərində nəzarət üzrə BMT-nin beynəlxalq proqramı ermənilərin Dağlıq Qarabağ regionunda narkotik fəaliyyətlərinə qarşı tədbirlər görə bilərdi. Prezident İlham Əliyev 2003-cü ilin dekabrında BMT Baş katibinin müavini və bu təşkilatın Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Antonio Mria Kosta ilə görüşdə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində beynəlxalq monitorinq keçirməyi təklif etdikdə, həmin nümayəndə Ermənistanın da bu işdə razılığının olmasını istədiyini qeyd etdi[85]. Belə olduqda İlham Əliyev bildirdi: "Dağlıq Qarabağ və onun ətrafındakı digər işğal olunmuş rayonlar Azərbaycan ərazisidir. Amma bu ərazilər indi başqa ölkənin nəzarəti altındadır. Ona görə də hesab edirəm ki, beynəlxalq ictimaiyyətin, BMT-nin və digər beynəlxalq təşkilatların təzyiqi Ermənistanı vadar etməlidir ki, bu nəzarətsiz əraziyə beynəlxalq auditorlar, müşahidəçilər buraxılsın, orada lazımi monitorinq aparılsın. Çünki bu nəzarətsiz ərazi bütün bölgə üçün təhlükə yaradır. Bizdə olan məlumata görə, orada müxtəlif terror düşərgələri də yaradılmışdır və beynəlxalq terror təşkilatları orada təlim keçirirlər"[86].

---

[84] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 2008, s.191.*

[85] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 2009, s.145-146.*

[86] *Yenə orada, s.147.*

Təhlükəsizlik Şurasının 2003-cü il 20 yanvar tarixli 1456 saylı qətnaməsinin 3-cü bəndində yazılır ki, terrorizmi maliyyələşdirən, planlaşdıran, dəstəkləyən, terrorçulara sığınacaq verən dövlət beynəlxalq hüquq normalarına müvafiq məsuliyyət daşıyır[87]. Təhlükəsizlik Şurasının 2008-ci il 20 mart tarixli 1805 saylı qətnaməsində isə terrorizmin bütün formaları pislənildi və Terror əleyhinə komitənin 1373 saylı qətnaməni həyata keçirməsində fəaliyyətinin gücləndirilməsi zəruriliyi bildirildi[88]. Azərbaycan terror əleyhinə mübarizədə dünya dövlətləri ilə fəal əməkdaşlıq edir.

Ermənistan hökumət səviyyəsində terrorçuluğu həyata keçirən bir dövlətdir. Ona görə də bu təcavüzkar dövlət BMT Nizamnaməsinin VII fəslinə, BMT-nin beynəlxalq terrorizmlə mübarizə haqqında qəbul etdiyi qərar və qətnamələrə müvafiq olaraq cəzalandırılmalı, beynəlxalq sülh və təhlükəsizliyi, qlobal sabitliyi, sosial-iqtisadi inkişafı pozan, beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi məhv edilməlidir. Lakin dünya birliyi Ermənistanın bu barbar, terror fəaliyyətinə göz yumdu.

2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmalarına cavab olaraq Azərbaycan Ordusu əks hücuma keçdi. Azərbaycan Ordusunun qələbələri və Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin qətiyyəti qarşısında dayana bilməyən, artıq öz məğlubiyyətini görən Ermənistan yalnız Dağlıq Qarabağ, ətraf rayonlar, sərhəd rayonlarında olan mülki əhalini deyil, həmçinin bu ərazilərdən çox-çox uzaqda olan sənaye əhəmiyyətli şə-

---

[87] *Перечень резолюций Совета Безопасности принятых в 2005 году, www.un.org/russian*

[88] *Перечень резолюций Совета Безопасности принятых в 2008 году, http://www.un.org*

hərləri, mülki əhalini hədəfə alır, öz ərazisindən, Gorus, Qarakilsə (Sisian), Cermuk və Tovuzqala (Berd) şəhərlərindən Azərbaycanın şəhərlərini, mülki əhalini, obyektləri atəşə tuturdu. Oktyabrın 4-də Ermənistanın Gəncəyə 4+ kasset tipli "Smerç" raketləri, Xızı və Abşeron rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinə iki 300 km məsafəli orta mənzilli raketi, su anbarı və əsas elektrik stansiyası yerləşən Mingəçevirə, oktyabrın 6-da regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirməsi terror faktıdır, əhalidə qorxu, panika yaradılmasına, müharibə şəraitində əhalini enerjisiz qoymağa, iqtisadiyyata zərər vurulmasına, üçüncü dövlətləri müharibəyə cəlb etməyə yönəldilmişdi. Ermənistanın mənfur siyasəti nəticəsində mülki əhali, o cümlədən uşaqlar, qadınlar, qocalar həlak oldular, yaralandılar. Sentyabrın 27-də Ermənistan hərbi birləşmələrinin Naftalan rayonunun mülki əhalisini toplarla atəşə tutmaları nəticəsində bütöv bir ailə – 5 nəfər, o cümlədən ailənin məktəbli olan iki övladı – 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, sentyabrın 28-də Tərtəri artelleriya atəşinə tutmaları nəticəsində bir ailənin iki üzvü Abbasov Xaliq və Abbasov Elşən, oktyabrın 3-də düşmənin top atəşi nəticəsində Beyləqanda yenə bir ailənin iki üzvü – İsmayılova Zülfiyyə və Əsədova Arzu həlak oldular.

Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin Moskva görüşü nəticəsində 2020-ci il oktyabrın 10-da saat 12:00-dan etibarən humanitar atəşkəs elan edildi. Lakin həmişə olduğu kimi Ermənistan bu razılığı da kobud şəkildə pozdu. Çünki bu terrorçu dövlətin məqsədi başqa idi, işğal etdiyi əraziləri nəinki öz sahibinə qaytarmaq istəmir, həmçinin terror təşki-

latlarından, terroru dəstəkləyən dövlətlərdən yardım alaraq işğal ərazilərini genişləndirməyə cəhd edirdi. Ermənistanın Gəncədə törətdiyi və çox sayda insanın, eləcə də uşağın, qadının, qocanın həlak olması, yaralanması ilə nəticələnən 11 oktyabr və 17 oktyabr terror aktlarına, Xızı və Abşeron rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinə, Beyləqan rayon mərkəzinə, Ordubada, Cənubi Qafqazın ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Yevlax rayon ərazisindən keçən hissəsinə, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən iri sənaye şəhəri Mingəçevirə raketlər atmasına beynəlxalq birlik reaksiya vermədi.

Ermənistanın terror fəaliyyətinin uşaqlara necə psixoloji təsir etdiyi Gəncədə dağıntılar zamanı daşın altından çıxarılan azyaşlı Ömər Nəsirovun: "Qorxdum. Bu mənim yadımdan çıxmayacaq"[89] sözlərini qeyd etməyimiz ilə aydın olar.

Ermənistan silahlı qüvvələri yaralılara yardım edilməsinə mane olmaq üçün tibb işçilərini, əhalinin təhlükəsizliyini təmin edən humanitar minatəmizləmə ilə məşğul olan Azərbaycan Respublikasının Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) işçi heyətini də hədəfə alırdılar. Suqovuşan ərazisində erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir tibbi xidmət qulluqçusu, oktyabrın 9-da isə ANAMA-nın Füzuli regional idarəsinin əməkdaşı Əsədov Samir ağır şəkildə yaralandılar[90].

---

[89] *Gəncədə dağıntılar altından çıxarılan uşaq: "Bu, mənim yadımdan çıxmayacaq". 12.10.2020. https://news.milli.az/society/888643.html*

[90] *Ermənistan ordusunun atəşi nəticəsində ANAMA-nın əməkdaşı xəsarət aldı. 09.10.2020. https://sputnik.az/karabakh/20201009/425155528/anama-nin-emekdasi-xesaret-aldi.html*

Oktyabrın 26-da olan humanitar atəşkəs rejimini də Ermənistan silahlı qüvvələri pozdu, oktyabrın 27-də münaqişə zonası olmayan Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi Bərdə şəhərinə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələri endirildi, nəticədə 27 nəfər həlak oldu, 80 nəfər insan yaralandı.

44 günlük Vətən müharibəsi zamanı Ermənistanın mülki əhaliyə qarşı terror fəaliyyəti nəticəsində 100 mülki şəxs öldürüldü, 416 nəfər yaralandı, demək olar ki, 4186 ev, 135 yaşayış binası və 548 mülki obyekt ya dağıdıldı, ya da ciddi zərər gördü[91].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanı olduğu Azərbaycan Ordusunun beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizminə qarşı əzmlə apardığı mübarizəni dünya birliyi, dünya dövlətləri bir mənalı surətdə dəstəkləməli idilər. Lakin Nikol Paşinyanın yalvararaq kömək istədiyi dövlətlər ona Ermənistanın terror siyasəti yürütdüyünü belə, xatırlatmadılar.

### *1.3. Xocalı soyqırımı: tanıdılması istiqamətində diplomatik-siyasi fəaliyyət*

Ermənistandan göndərilən silahlı dəstələr tərəfindən 1991-ci ilin iyun-dekabr aylarında Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Meşəli, Cəmilli, Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Umudlu, Kərkicahan və s. stra-

---

[91] *Erməni terroru nəticəsində Azərbaycanın mülki itkiləri açıqlandı*. *07.12.2020. https://konkret.az/ermeni-terroru-neticesinde-azerbaycanin-mulki-itkileri-aciqlandi-foto-resmi-2/*

teji əhəmiyyətli yaşayış məntəqələri yandırıldı, yüzlərlə azərbaycanlı qətlə yetirildi, əsir götürüldü, yaralandı. 1992-ci ilin yanvar-fevral aylarında Qaradağlı, Qaybalı, Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndləri işğal edildi[92]. Mayın 18-də Laçın rayonu işğal edildikdən sonra oradan Goranboyun Ballıqaya kəndinə köçən 6 ailədən olan 24 şəxsin avqustun 28-də qəddarlıqla qətlə yetirilməsi, 9 şəxsin ağır yaralanması isə erməni vəhşiliyini bir daha təsdiq etdi. 1991-cı ilin oktyabrından blokadada olan Xocalıda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə soyqırımı baş verdi. Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 PDM (piyadaların döyüş maşını), 180 hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirə etdilər. Ermənilər Xocalını yerlə yeksan etdilər. Xocalının işğalı zamanı 613 nəfər azərbaycanlı vəhşicəsinə işgəncələrlə qətlə yetirildi, onlardan 63 nəfəri azyaşlı uşaqlar, 106 nəfəri müxtəlif yaş hədlərində olan qadınlar, 70 nəfəri qoca idi. 487 nəfər şikəst edildi. Onlardan 76-ı uşaq idi. 1275 nəfər əsir alındı, 8 ailə məhv edildi, şəhər yandırıldı, 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirdi. 2016-cı il 1 oktyabr tarixli məlumata görə 186 nəfər itkin düşmüşdü, onlardan 31-i uşaq (11 qız), 59-u qadın, 33-ü qoca (20 qadın) idi. İtkin düşmüş həmin 186 nəfərdən 95 nəfərinin ermənilər tərəfindən əsir və girov götürülməsi haqqında şahid ifadələri vardır. Həmin 95 nəfərdən 12-si uşaq (2 qız), 23-ü qadın, 11-i qoca (7 qadın) idi[93].

---

[92] *Xocalı yaddaşı. Bakı: Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası. 2017, s.32.*

[93] *Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası. 23.02.2017-ci il tarixinə olan məlumat. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar. http://www.human.gov.az*

Xocalıya hücumda 366-cı alayın milliyyətcə erməni olan zabiti mayor Oqanyan Seyran Muşeqoviçin komandanlığı altında olmuş 2-ci taboru, Yevgeni Nabokixinin komandanlığı altında 3-cü taboru, 1-ci taborun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və giziri iştirak etmişdi.

Xocalıda insanlar xüsusi qəddarlıqla qətlə yetirildilər. Ağdamda 181 meyitin üzərində aparılan məhkəmə-tibb ekspertizasının nəticəsinə görə qəlpə təsirindən 20, güllə təsirindən 151, küt alət təsirindən 10 nəfər ölmüşdü. Müayinə olunanlardan 13 nəfəri azyaşlılar olmuşdur[94].

Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına görə diri adamın baş dərisinin soyulması faktı qeydə alınmışdır. Parisdə çıxan "Le Monde" qəzeti 1992-ci il 14 mart tarixdə yazırdı: "...Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş uşaq və qadınlar arasında üçünün baş dərisinin soyulduğunu, dırnaqlarının qopardıldığını görmüşlər. Bunlar Azərbaycan təbliğatı deyil, reallıqdır...". Moskvada çıxan "İzvestiya", Parisdə çıxan "Krua L`Evoneman" jurnalı, Londonda çıxan "Tayms" qəzeti, "Sandi Tayms" qəzeti, "Feyneşnl Tayms" qəzeti, Parisdə çıxan "Valer Aktyuel" jurnalı Xocalıda ermənilərin törətdikləri qəddar qətllərdən bəhs edirdilər [95].

ABŞ qeyri-hökumət təşkilatı olan "Helsinki Watch"a Azərbaycan parlamentinin 1992-ci il 17 iyul tarixində göndərdiyi məktubda Xocalıda 927 nəfərin öldürüldüyü yazılırdı. "Helsinki Watch" nümayəndəsi bildirdi ki, bu məlumat daxil olmuşdur,

---

[94] *Xocalı yaddaşı. Bakı: Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası. 2017, s.169; Xocalı soyqırımı rabitəçilərin yaddaşında. Bakı, 2009, s.25; Məmmədova H. Xocalı: Şəhidlər, Şahidlər. Bakı: Yeni nəşrlər evi, 2003,, s.19.*

[95]*Xocalı soyqırımı rabitəçilərin yaddaşında. Bakı, 2009, s.22-25.*

ancaq bu ölüm hallarının donvurma, güllə yaraları və ya hansısa digər səbəblərdən baş verməsi aydın deyildir[96].

Ermənilərin uşaqları amansız işgəncələrlə qətlə yetirməsini ermənilər özləri etiraf edirlər. Xocalı qətliamını icra edənlərdən biri olan David Xeyriyan Beyrutda nəşr etdirdiyi "Xaç naminə" adlı kitabında yazır: "Fevralın 26-da meyitləri daşıyıb Daşbulaq yaxınlığındakı bataqlığa tökdülər və cəsədlərdən keçid-körpü düzəltdilər. Mən ölülərin üstündən keçməyə qorxurdum. Tərəddüd etdiyimi görən polkovnik Ohanyan mənə dedi: "Qorxma, ürəkli keç! Bu hal müharibənin qanunlarından biridir". Mən qana bulaşmış 9-11 yaşlı uşağın və digər meyitlərin üstündən adlayıb bataqlığı keçdim... Ayaqlarım və fotokameram qana batmışdı..."[97]. Həmin kitabın başqa bir yerində yazılmışdır: "... martın 2-də meyitlərin yandırılması işini həyata keçirən "Qaflan" adlı erməni qrupu yüzdən çox azərbaycanlı meyiti toplamışdı. Həmin meyitləri Xocalıdan təxminən 1 km aralıda yandırdılar... Meyitləri gətirən axırıncı maşında alnından güllə yarası almış, qolları qırılmış, təxminən 10 yaşlarında bir qız gördüm. Aclığa, şaxtaya, göyərmiş sifətinə, yaralarına baxmayaraq, qızcığazda hələ də həyat rəmzi vardı, o nəfəs alırdı... Bu anda Tiqranyan familiyalı erməni qızı götürüb digər meyitlərin üstünə atdı. Sonra meyitləri yandırdılar. Bir anlıq yanan meyitlərin içindən birinin çığırdığını eşidər kimi oldum, sanki biri yardım və mərhəmət diləyirdi... Mən bunlardan sonra daha irəli gedə bilmədim, geri döndüm. Digərləri isə xaç naminə savaşlarına davam etdilər..."[98].

Terrorçu Zori Balayan 1996-cı ildə nəşr olunmuş "Ruhumuzun canlanması" adlı kitabının 260-262-ci səhifələrində Xo-

---

[96] *Xocalı yaddaşı. Bakı: Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası. 2017, s.171.*

[97] *Хейриян Дауд. Во имя Креста. Бейрут: 2000, https://ok.ru/group/51588-414832865/topic/62154088972513. s.26.*

[98] *Yenə orada, s.62-63.*

calı şəhərində azərbaycanlılara qarşı soyqırımı həyata keçirildiyini və Xocalı soyqırımına haqq qazandırdığını fəxrlə etiraf edib: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu 13 yaşındakı türkə onların atalarının bizim uşaqlara etdiklərini etdim. Başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı yeddi dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. İlk sənətim həkimlik olduğuna görə humanist idim, buna görə də türk uşağına etdiyim bu əməllərə görə özümü xoşbəxt saymadım. Amma ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlanırdı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha üç türk uşağına etdik. Mən bir erməni vətənsevər kimi öz vəzifəmi yerinə yetirdim. Xaçatur da çox tərləmişdi, amma mən onun gözlərində və digər əsgərlərimizin gözlərində intiqam və güclü humanizmin mücadiləsini gördüm. Ertəsi gün biz kilsəyə gedərək 1915-ci ildə ölənlərimiz və ruhumuzun dünən gördüyümüz çirkabdan təmizlənməsi üçün dua etdik. Ancaq biz Xocalını vətənimizin bir parçasını işğal edən 30 min nəfərlik çirkabdan təmizləməyi bacardıq"[99].

Xocalı soyqırımının şahidi olan fransız jurnalist Jan İv Yunet şahidi olduğu mənzərədən təsirlənərək, həmin illərdə gördüklərini bu cür dilə gətirmişdi: “Biz Xocalı faciəsinin şahidləri olduq, həlak olmuş yüzlərlə dinc sakinin – qadınların, uşaqların, qocaların, eləcə də Xocalını müdafiə edənlərin cəsədlərini gördük... Bu, dəhşətli mənzərə idi. Mən müharibələr haqqında,

---

[99] *Zori Balayan Xocalıda türklərə soyqırımı törədildiyini etiraf edib. O, bununla fəxr etdiyini bildirib. “525-ci qəzet”, 9 fevral 2007-ci il. https://files.preslib.az-/projects/khojali/azkhojali/glava3/2007.pdf*

alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişdim. Lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qətlə yetirən ermənilər faşistləri də geridə qoymuşdular"[100].

Fransada qondarma "erməni soyqırımı" barədə arxiv materiallarını araşdıran türk araşdırmaçı Əli Rzaoğlu "Xocalı erməni generallarının xatirələrində" adlı araşdırmasında Xocalı qətliamında iştirak etmiş 34 erməni hərbçisinin xatirələrini təqdim edir. Kanadada yaşayan Vasili Stardiyan onunla müsahibədə bildirib ki, Xocalıdan və Qarabağdan olan 170 uşağın daxili orqanlarını əməliyyat yolu ilə çıxararaq Avropaya, ABŞ-a satmışdır[101].

Rusiyanın "Novaya qazeta" nəşrinin Qarabağ müharibəsini izləmək üçün bölgəyə ezam edilən, erməni qüvvələrinin nəzarəti altında olan ərazilərdə fəaliyyət göstərən əməkdaşı, jurnalist Viktoriya İvleva məqaləsində xatırlayır: "1992-ci il, fevralın 26-da Xankəndi yaxınlığında erməni əsgərlərinin əhatəsində müharibədən reportaj hazırlayarkən duman və çovğunun arasından erməni silahlılarının müşayiəti altında bizə tərəf hərəkət edən, çoxu ayaqyalın, başı açıq olan dəstəni gördüm. Onların arasında bir qadın da dayanmışdı, yanında iki azyaşlı uşağı var idi. Qadının qucağında təxminən yaş yarımlıq, başından və ayağından qəlpə yarası almış oğlan uşağı, bir də təzə doğulmuş körpə gördüm. Onların necə əsir götürüldüyünün şahidi olmamışdım, çünki mən cəbhənin ikinci eşelonunda, həkimlərlə bir sırada idim. Erməni əsgərlərinin hamısının qollarında bir-birini tanımaq üçün ağ sarğı var idi, mənim də qoluma belə sarğı bağlamışdılar ki, tanısınlar və atəş açmasınlar. Ancaq həmin gün sarğı

---

[100] *XX əsrin dəhşətli qətliamı – Xocalı soyqırımından 16 il keçir. 26.02.2008. https://az.trend.az/azerbaijan/karabakh/1143692.html*

[101] *Türk araşdırmaçıdan Xocalı barədə sensasiyalı araşdırma:"170 körpəni öldürən erməni hərbiçisi KİV-ə danışmağa hazırdır". 29.02.2016. http://strateq-az/manshet/33610/turk-arasdirmacidan-xocali-bar%C9%99d%C9%99-sensasiyali-arasdirma.html*

haradasa itmişdi, əsirləri gətirən erməni əsgərlərindən biri gözlənilmədən avtomatın qundağı ilə kürəyimə iki zərbə endirib anlamadığım dildə nəsə dedi. Bu zərbələrin ağrısını bütün həyatım boyu hiss edəcəyəm. Sivilizasiyanın yoxa çıxdığı bir vaxtda əsgər çəkmələrinin tozunda mən heç kimə çevrilmişdim. Yanımda bir də təzə doğulmuş körpə var idi və mən onu qorumalı idim"[102]. Yeni doğulan körpə – Günay üç günlük olanda xəsarət alıb epilepsiya xəstəsi oldu və sonra da 19 yaşında vəfat etdi.

Bütün dünyanın gözü qarşısında baş verən bu soyqırımın əsl mahiyyəti yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra açılmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikası Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir[103].

2008-ci ilin may ayında Leyla Əliyevanın təşəbbüsü ilə təsis edilən "Xocalıya ədalət" kampaniyasının nəticəsində dünya ictimaiyyəti Xocalı soyqırımı haqqında məlumatlandırılmışdır. İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirlikləri Şurasının 35-ci sessiyasında qəbul edilən xüsusi qətnamə dünyanın 57 ölkəsində bu kampaniyanın keçirilməsinə siyasi-hüquqi baza vermişdir[104]. Bu kampaniya başlanandan sonra İslam Əməkdaşlıq Təşkilatının xarici işlər nazirləri tərəfindən Xocalı faciəsini kütləvi qırğın kimi qiymətləndirmək haqqında qətnamə qəbul edildi. 2009-cu ilin iyulunda İƏT Gənclər Forumu ilə İSESKO arasında imzalanmış anlaşma nəticəsində Xocalı soyqırımı haqqında İƏT ölkələrinin tarix dərsliklərinə salınması barədə razılıq əldə

---

[102] *"Müharibə qızı"nın acı hekayəti. 27.03.2011. http://musavat.com/news/-muharibe-qizi-nin-aci-heyat-hekayeti_97358.html*

[103] *Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (24 fevral 1994-cü il), s.19. http://files.preslib.az/projects/-khojali/azkhojali/gl2.pdf*

[104] *Səmədov V. Vəlizadə R. Leyla Əliyeva: "Xocalıya ədalət" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model). 3 cillddə, III c.,. Bakı: CBC Polygraphic production, 2014, s.190.*

edildi. 2012-ci il 15-17 noyabr tarixlərdə İƏT XİNŞ-nın Cibutidə keçirilən 39-cu sessiyasında Xocalı soyqırımı ilk dəfə olaraq soyqırımı aktı kimi tanındı[105].

ABŞ-ın 20-yə yaxın ştatı, Meksika, Kolumbiya, Pakistan, İordaniya, Panama, Honduras, Sudan Respublikası Xocalı soyqırımını tanımış və pisləmişlər. Çexiya Respublikası Avropa İttifaqı üzvləri arasında Xocalı qətliamını rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlət olmuşdur. Çexiya bu barədə 2013-cü il fevralın 7-də qətnamə qəbul etmişdir. Sonra fevralın 26-da Bosniya və Herseqovina "Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tanınması və hörmət olunması"na dair qətnamə qəbul etdi[106].

2013-cü il fevralın 12-də Rumıniya parlamentində Demokrat Liberal Partiyası fraksiyası tərəfindən "Dağlıq Qarabağ münaqişəsi" adlı siyasi bəyanat verilmişdir. Siyasi bəyanatı sözügedən fraksiyadan deputat Luçian Militaru parlamentin kürsüsündən səsləndirmiş və Xocalı şəhərində xüsusi amansızlıqla azərbaycanlılara qarşı qırğın törədildiyini qeyd edərək, soyqırım qurbanları haqda məlumat vermiş, beynəlxalq ictimaiyyət tərəfindən bu aktın insanlıq əleyhinə cinayət kimi tanınmasının vacibliyini vurğulamışdır[107].

Beynəlxalq hüquqa görə soyqırım cinayəti insanlıq əleyhinə yönələn ən ağır cinayət hesab edilir. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edərkən dəfələrlə azərbaycanlılara qarşı soyqırımlar törətmişlər. Bəşəriyyətə böyük itki-

---

[105] *Həsənov Ə. Azərbaycanlılara qarşı həyata keçirilən Xocalı soyqırımı və onun beynəlxalq əks-sədası. http://justiceforkhojaly.org/sites/default/files/publication/Ali%20Hasanov%20doc.-%20Khojaly.pdf, s.6-7.*

[106] *Yenə orada, s.11-12.*

[107] *Əliyev Ə. İnsanların xeyirxahı, insan hüquqlarının təminatçısı. Azərbaycan qəzeti, 13 may 2014-cü il, № 98, s.10. https://mehribanaliyeva.preslib.az/media-4ce2123c4f.html*

lər verən soyqırımın qarşısını almaq üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alan BMT Baş Məclisi 1948-ci il 9 dekabr tarixdə Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiya qəbul etmişdir. Ermənistan həmin konvensiyada təsbit edilən soyqırım cinayətini təşkil edən bütün əməlləri azərbaycanlılara qarşı tətbiq etmişdir.

Baş Məclisin 1973-cü il 3 dekabr tarixli qətnaməsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkar edilməsinə, cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri göstərilmişdir[108]. Qətnamənin 1-ci bəndində yazılır ki, hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq araşdırılmalı, belə cinayətləri törətmələri barədə dəlillər olan şəxslər axtarılmalı, müqəssir sayıldıqda cəzalandırılmalıdırlar. 5-ci béndə görə belə cinayətlər törədən şəxslər həmin cinayətləri törətdikləri ölkədə cəzalandırılmalıdırlar. Buna müvafiq olaraq həmin şəxslərin təhvil verilməsində dövlətlər əməkdaşlıq edirlər[109].

Xocalıda törədilənlərə soyqırım kimi qiymət verməyə istinad ediləcək aşağıdakı beynəlxalq hüquq normaları və müqavilələr vardır: BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260(III) saylı qətnaməsi ilə qəbul edilmiş, 1951-ci ildə hüquqi qüvvəyə minmiş Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiya; Nürnberq Hərbi Tribunallarının Nizamnaməsi; Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsinin 4-cü maddəsi; Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsinin 1-ci maddəsi; Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 6-cı maddəsi;

---

[108] *Principles of international co-operation in the detection, arrest, extradition and punishment of persons guilty of war crimes and crimes against humanity.Adopted by General Assembly resolution 3074 (XXVIII) of 3 December 1973. http://www.ohchr.org/EN/Professional Interest/Pages/PersonsGuilty.aspx*

[109] *Yenə orada.*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsi; Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı[110].

Bu beynəlxalq hüquq sənədləri nəzərə alınaraq soyqırım cinayət kimi aşağıdakı hüquqi nəticələr çıxarmağa əsas verir: a) Soyqırım cinayəti törətmiş şəxslərin cinayət təqibi və cəzalandırılması qaçılmazdır. b) Cinayət tərkibi təkcə soyqırım aktının törədilməsi deyil, həm də soyqırım törədilməsi məqsədilə sui-qəsd, soyqırım törədilməsində birbaşa və açıq şəkildə təhrikçilik, soyqırım törədilməsinə qəsd və soyqırımda iştirakdır. c) Soyqırım törətmiş şəxslərə universal yurisdiksiyanın prinsipləri tətbiq edilməlidir. d) Soyqırım cinayəti törədilərkən əmrin icrasına istinad etmək məsuliyyətdən azad etmir. e) Rəhbərlər soyqırım cinayətinin qarşısını almaq üzrə hərəkətləri həyata keçirmədikləri üçün məsuliyyət daşıyırlar. f) Soyqırım cinayətlərinə cinayət məsuliyyətinin tətbiqinə cəlbetmə müddəti tətbiq edilmir. g) Soyqırım cinayətinə münasibətdə qanunun retroatik tətbiqinə yol verilir. l) Soyqırım cinayəti törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilmələri üçün tələb edən ölkəyə verilməlidirlər[111]. Beynəlxalq Məhkəmə Xocalı qətliamını soyqırım kimi tanımalı, cinayətkarlar cəzalarını almalıdırlar.

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra Xocalı soyqırımında iştirakı fotolarla sübuta yetirilən 80 yaşlı Conik Tevosyan[112], eləcə də əsirlikdə olan azərbaycanlıları işgəncələrlə qətlə yetirən erməni terrorçular Lüdviq Mkrtçyan və Alyoşa Aramaisoviç Xosrov-

---

[110] *Xocalı soyqırımı. Qarabağ Azadlıq Təşkilati. Bakı: Elgün nəşriyyatı, 2016, s.7.*
[111] *Yenə orada, s.7-8.*
[112] *Xocalı canilərindən biri 28 il sonra Şuşada yaxalandı – Azərbaycanın axtarışa verdiyi Conik Tevosyan ələ keçdi. 22.11.2020. https://konkret.az/xocali-canilerinden-biri-28-il-sonra-susada-yaxalandi-azerbaycanin-axtarisa-verdiyi-conik-tevosyan-ele-kecdi-fotolar/*

yan[113] Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilərək həbs edildilər.

### *1.4. Azərbaycanlı hərbi əsir və girovların hüquqlarının pozulması*

Beynəlxalq humanitar hüquq əsasən üç sənəddə ifadə edilir: 1907-ci il Quru müharibəsi qanunları və adətləri haqqında Haaqa konvensiyası, 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyaları və 1977-ci il Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına I əlavə protokol və insan hüquqlarına hörmət prinsipinin əks olunduğu beynəlxalq hüquq sənədləri. İnsan hüquqlarına hörmət prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsində ümumi formada təsbit olunmuş, sonralar bir sıra mühüm beynəlxalq sənədlərdə, o cümlədən 1948-ci il 10 dekabr tarixli İnsan Hüquqları Haqqında Ümumi Bəyannamədə dəqiqləşdirilmişdir[114]. Beynəlxalq sənədlər silahlı münaqişələrdə vətəndaşların hüquqlarının qorunmasında vacib mexanizmdir və bu sənədlər insan hüquqlarının qorunması istiqamətində Təhlükəsizlik Şurasına kömək edə bilər[115]. Lakin yuxarıda adı çəkilən beynəlxalq sənədlərlə yanaşı, insan hüquqlarına hörmətlə birbaşa bağlı olan bir çox konvensiyalar – 1907-ci il Quru müharibəsi qanunları və adətləri haqqında IV Haaqa konvensiyası, 1949-cu il 12 avqust tarixli Müharibə za-

---

*[113] Azərbaycanlı əsirlərə işgəncə verən ermənilər məhkəmə qarşısında. 09.06.2021.azvision.az*

*[114] Всеобщая декларация прав человека принята повозглащена резолюцией 217 A(III) Генеральной Ассамблеей от 10 декабря 1948 года. http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml*

*[115]Dadaşova R.B.Xocalı soyqırımını törədənlərin mühakiməsi insan hüquqlarının müdafiəsi, beynəlxalq münaqişələrin nizama salınması prosesinə təsir edən amildir. Respublika qəzeti, 25 fevral 2016-cı il.*

manı mülki şəxslərin müdafiəsinə dair IV Cenevrə konvensiyası və 1977-ci il Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına I əlavə protokol, 1954-cü il Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa konvensiyası, 1999-cu il ona əlavə protokol, Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il 10 dekabr tarixli konvensiya, Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında 1980-ci il konvensiyası BMT-nin üzvü olan Ermənistan tərəfindən mütəmadi olaraq pozulmuşdur[116].

Əsir, itkin düşmüş, girov götürülnüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 2017-ci il 23 fevral tarixli məlumatına əsasən qeydiyyatdan keçən itkin düşmüş şəxslərin sayı 3868 nəfərdir. Bunlardan 3123 nəfəri hərbçi, 745 nəfəri mülki şəxslərdir. 62 nəfəri uşaq (20 nəfər qız, 42 nəfər oğlan), 262 nəfər qadın, 302 nəfər (152 nəfər qadın) qocadır. Əsir, girov götürülmələri barədə məlumatlar daxil olmuş şəxslərin sayı 873 nəfərdir. Onlardan 591 nəfəri hərbçi, 282 nəfəri mülki şəxslərdir. 29 nəfəri uşaq (7 nəfər qız, 22 nəfər oğlan), 99 nəfər qadın, 112 nəfər (63 nəfər qadın) qocadır[117].

Bu şəxslərin əksəriyyəti erməni əsirliyində öldürülmüş, işgəncələrə, xəstəliklərə dözməyərək özlərini intihar etmiş, qalanları gizlədilərək Ermənistan və işğal edilmiş Azərbaycan ərazilərində ağır fiziki işlərdə işlədilirdilər. 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarına əsasən hərbi əsirlər ədavəti olmayan hökumətdə saxlanılmalıdırlar, ayrı-ayrı şəxslərin evində,

---

[116] *Hüseynov L.N. Beynəlxalq hüquq: Dərslik, Bakı: Hüquq ədəbiyyatı, 2002, s.314.*
[117] *Xocalı yaddaşı. Bakı: Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası. 2017, s.32.*

yaxud onları əsir götürən hərbi hissələrdə saxlanılmamalıdırlar, onlarla həmişə humanitar rəftar olunmalı, heç bir hərbi əsir fiziki işgəncəyə məruz qalmamalı, eksperiment obyekti olmamalıdır[118]. 1949-cu il Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə konvensiyasıının 26-cı maddəsi münaqişə tərəflərinin itgin düşənlərin axtarışını yüngülləşdirməyi nəzərdə tutur[119]. Həmin konvensiyaya I əlavə protokolun 33-cü maddəsi konkret olaraq bu problemə həsr edilmişdir. Müharibə qurtaran kimi münaqişə tərəfləri itgin düşən şəxsləri axtarmalıdır, əks tərəf belə şəxslərin axtarışı üçün bütün zəruri məlumatları təqdim etməlidir[120]. 1949-cu il Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə konvensiyasının 138-ci maddəsində nəzərdə tutulduğu kimi, saxlanılmış şəxslər, yaxud saxlanıldığı zamanda ölmüş şəxslər haqqında məlumat verilir, ölənlərin çıxarılması təşkil edilir[121]. Məlumat Beynəlxalq Qırmızı Xaç Komitəsi və onun mərkəzi məlumat agentliyi vasitəsilə, yaxud münaqişə tərəflərindən birbaşa verilir. Lakin Ermənistan itkin düşmüş şəxslərin sayını BQXK-dan gizlədirdi. Baş Məclisin 2004-cü il 20 dekabr tarixli 59/189 saylı qətnaməsi silahlı münaqişələr zamanı itgin düşmüş şəxslər haqqında münaqişə tərəflərini məlumat verməyə, müvafiq tədbirlər görməyə

---

*[118] The Geneva conventions of 12 august 1949. International Commite of the Red Cross, 224 p.; Международное право: Учебник / Отв.ред. Колосов Ю.М., Кузнецов В.И. М.: Международные отнощения, 1998, s.357.*

*[119] The Geneva conventions of 12 august 1949. International Commite of the Red Cross, s.48.*

*[120] Дополнительный Протокол I к Женевским конвенциям от 12 августа 1949 года, касающихся защиты жертв международных вооруженных конфликтов. 8 июня 1977 года. http://www1.umn.edu/humantrs/russian*

*[121] Geneva convention relative to the protection of civilian persons in time of war of 12 august 1949. http://www.un.org/en/genocideprevention/documents/atrocity-crimes/Doc.33_GC-IV-EN.pdf, s.58.*

çağırır[122]. İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında, xüsusən də 2, 3, 5, 8, 10 və 13-cü maddələrdə itgin düşənlərin sayını bilmək hüququ göstərilir[123]. Baş Məclisin 2007-cı il 14 fevral tarixli 61/155 saylı[124], 2009-cu il 18 mart tarixli 63/183 saylı[125] qətnamələrində də belə çağırışlar vardır. Avropa Şurası Parlament Assambleyasının itkin düşən şəxslərlə bağlı 2007-ci il 1553 saylı qətnaməsində silahlı münaqişə zamanı itkin düşən şəxslər haqqında tərəflərin məlumat verməsinin zəruriliyi, itkin düşənlərin sayının gizli saxlanılmasından Parlamentin narahatlıq keçirdiyi, Dağlıq Qarabağ münaqişəsi zamanı 4499 azərbaycanlının itkin düşdüyü göstərilir[126]. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 2017-ci il 23 fevral tarixli məlumatına əsasən, 1437 nəfər Azərbaycan vətəndaşı, 351 hərbçi, 1086 mülki şəxs, o cümlədən 342 qadın, 210 uşaq (74 qız, 136 oğlan), 285 nəfər qoca (108 qadın) erməni əsirliyindən azad edilmişdir[127]. Ermənilər beynəlxalq hüquq normalarını pozaraq hərbi əsirlərlə bərabər, dinc əhaliyə də işgəncələr vermiş, onları vəhşicəsinə döymüş, təhqir etmiş, alqı-satqı obyektinə çevirmiş, əksər halda əsirlərin sahibindən külli miqdarda pul aldıqdan sonra onları

---

[122] *Пропавщие без вести лица A/RES/59/18920 декабря 2004 года. http:/-/www.un.org/ru/ga/third/59third_res.shtml*

[123] *European Convention on Human Rights, 30p. http://swww.echr.coe.int/-Documents/Convention_ENG.pdf, s.6-8, 11; Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.349.*

[124] *Resolution adopted by General Assembly 61/155, http://mfa.gov.az/files/file/UN*

[125] *Resolution adopted by General Assembly 63/183. http://mfa.gov.az/files/file/UN*

[126] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.349.*

[127] *Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası. 23.02.2017-ci il tarixinə olan məlumat. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar. http://www.human.gov.az*

geri qaytarmamış, işgəncələrlə öldürmüş, yaxud əsir və girovların daxili orqanlarını satmış, onların üzərində eksperiment aparmışlar[128]. 1948-ci il 10 dekabr tarixli İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 5-ci maddəsində yazılır: "Heç kəs onun ləyaqətini alçaldan qeyri-insani müraciətə və cəzaya düçar edilməməlidir[129].

Baş Məclisin 1974-cü il 14 dekabr tarixli qətnaməsinə əsasən qəbul etdiyi Fövqəladə hallarda və silahlı münaqişələr dövründə qadınların və uşaqların müdafiəsi haqqında bəyannamənin 1-ci bəndində deyilir ki, mülki əhaliyə, xüsusən də onun ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara saysız-hesabsız əzab-əziyyətlər gətirən hücumlar, bombalamalar qadağan edilir və belə hərəkət pislənilməlidir[130]. 5-ci bəndə görə isə müharibə edən tərəflərin hərbi əməliyyatların gedişində və ya işğal edilmiş ərazilərdə həbs etmə, işgəncə vermə, güllələmə, kollektiv cəzalandırma, mənzilləri dağıtma və yaşayış yerlərindən zorla qovma daxil olmaqla, qadınlara və uşaqlara qarşı törətdikləri bütün repressiya və qəddar, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər hesab edilir.

Pekində keçirilən 4-cü Ümumdünya qadınlar konfransının yekun sənədinə Azərbaycan nümayəndə heyətinin təkidi ilə aşağıdakı məzmunda müddəa daxil edildi: "Hərbi münaqişələr zamanı qadınların girov götürülməsi qadınlara qarşı zorakılığın formalarından biri hesab edilsin"[131]. 1989-cu il Uşaq hüquqları Konvensiyasının 4-cü maddəsində yazılır: "Silahlı münaqişələr za-

---

[128] *Erməni cinayətləri (sənədlər əsasında). Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi. I c., Bakı: Vətən, 2004.*

[129] *Всеобщая декларация прав человека принята повозглащена резолюцией 217 A(III) Генеральной Ассамблеей от 10 декабря 1948 года. http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml*

[130] *İnsan hüquqları-Beynəlxalq müqavilələr toplusu, Bakı: Azərbaycan, 1998, s.290.*

[131] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.333.*

manı mülki əhalinin qorunması, beynəlxalq hüquq normalarına riayət etmək üçün iştirakçı dövlətlər uşaqların qorunması və onların münaqişə zonasından çıxarılmasını təmin etmək məqsədilə bütün mümkün tədbirlərdən istifadə etməlidirlər"[132]. Azərbaycan ərazilərinin işğalı zamanı əsir götürülən onlarla uşaq Ermənistanda saxlanılmış, işgəncələrə məruz qalmış, öldürülmüşdür.

Azərbaycan Respublikası XİN-nin verbal notasında qeyd edilirdi ki, Spitak şəhəri yaxınlığındakı düşərgədə saxlanılan təxminən 300 azərbaycanlı əsir və girovdan 23 nəfər güllələnmişdir. Ermənistan XİN-nin mətbuat xidməti "qaçmağa cəhd etdikləri üçün 8 azərbaycanlı əsirin güllələndiyini etiraf etmişdir"[133]. Azərbaycan Respublikası XİN Ermənistan hökumətinin müharibədə müdafiəsiz qurbanların hüquqlarını pozaraq insanlarla qeyri-insani rəftar etdiyini, 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarına zidd olaraq ermənilərin törətdikləri cinayətlər barədə istintaqın nəticə vermədiyini nəzərə alaraq, dünya birliyini, Beynəlxalq Qırmızı Xaç Komitəsini və digər beynəlxalq humanitar təşkilatları cinayət faktlarını araşdırmağa çağırdı. 1993-cü il martın 23-də BQXK-nin təşəbbüsü ilə Azərbaycan 10 meyit ala bildi. Azərbaycanın səhiyyə orqanları və Şotlandiyadan olan müstəqil ekspert həkim Derek Paundor hərbi əsirlərin güllələnməsini təsdiq etdi"[134]. Səhiyyə Nazirliyinin Məhkəmə tibbi ekspertiza komissiyasının təhqiqatları Ermənis-

---

[132] *Конвенция ООН; конвенция о правах ребенка. М.: РИОР, 2006, s.17.*

[133] *Письмо представителя Азербайджана от 21 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/206, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.168-169.*

[134] *Письмо представителя Азербайджана от 26 апреля 1994 года на имя Генерального секретаря, Документ S/1994/505, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.117.*

tan XİN mətbuat xidmətinin dediklərini rədd edərək sübut etdi ki, əsirlər ölümqabağı döyülmüş, işgəncələrə məruz qalmışlar. Hərbi əsirlər R.R. Ağayev, E.Q. Əhmədov, E.Ş.Məmmədov, Q.K. Məmmədov, F.Q. Quliyev, E.M. Əhmədov gicgah nahiyyəsindən güllələnmişlər, B.A.Qiyasov isə yaxın məsafədən sinəsindən güllələnmişdir. R.R.Ağayev, E.Ş.Məmmədov və E.M.Əhmədovun qulaqları kəsilmişdi, həmçinin R.R.Ağayevin daxili orqanları – ürəyi, qaraciyəri, dalağı çıxarılmışdı. İ.S.Nəsirovun cəsədində onun uzun müddət ac qaldığını sübut edən kaxeksiyanın (kəskin çəki itirmə, psixi dəyişiklik) izləri var idi. F.Q. Hüseynovun cəsədində isə çoxlu işgəncə izləri tapılmışdı[135].

Rusiyanın və ABŞ-ın hüquq müdafiə qurumları, ABŞ-ın "New York Times" qəzeti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişatında insan hüquqlarının pozulduğunu, başları kəsilmiş, başlarının dərisi soyulmuş meyitlərin, bir nəfərin diri-diri başının dərisinin soyulduğunun şahidi olduğunu yazırlar[136]. Adı çəkilən mənbələrə istinad edən ABŞ konqresmeni nümayəndələr palatasında çıxış edərək konqresmenləri Xocalı soyqırımını tanımağa çağırdı. Deputat Berton bildirdi ki, ermənilər Xocalıda törətdiklərini müharibənin sonunadək özləri üçün taktiki addım kimi qəbul etmişlər[137].

BMT nümayəndələri də Ermənistanda girov və əsir saxlanılan insanlara vəhşicəsinə işgəncələr verilməsinin şahidi olmuşdular. Belə ki, BMT-nin Bakıdakı nümayəndəsi Mahmud Əl-Səidə Qazax şəhərində erməni girovluğunda olmuş azərbaycanlı

---

*[135] Письмо представителя Азербайджана от 1 апреля 1994 года на имя Генерального секретаря, Документ S/1994/393, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.15.*

*[136] Письмо постоянного представителя Азербайджана при Организаций Объединенных Наций от 24 февраля 2005 года на имя Генерального секретаря // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.37-38.*

*[137] Yenə orada.*

mülki sakinin cəsədi göstərildi. Bu insan girovluqda qəddarlığa, vəhşiliyə məruz qalmış, əl və ayaq barmaqları sapla qopardılmış, sinəsinə papiros basılmışdı. Bu fakt Mahmud Əl-Səid tərəfindən də təsdiq olundu[138].

1994-cü il mayın 12-də bağlanmış Atəşkəs haqqında sazişə müvafiq olaraq Ermənistan Azərbaycan torpaqlarına hücumu dayandırmalı idi. Sazişdə girov götürülən mülki şəxslərin danışıqsız, təcili azad edilməsi, hərbi əsirlərin BQXK, yaxud digər beynəlxalq təşkilatlar vasitəsilə mübadiləsi nəzərdə tutulmuşdu[139]. Münaqişə tərəfləri minalanmış sahələr və rayonlarda qurulmuş dağıdıcı vasitələr haqqında bir-birinə və ATƏT-in müşahidəçilərinə məlumat verməli idilər[140]. Lakin Ermənistan nəinki atəşkəs sazişinə əməl etmədi, həmçinin insan hüquqlarını, o cümlədən hərbi əsir və girovların hüquqlarını kobudcasına pozmaqda davam etdi. Atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələri dinc sakinləri girov götürdülər. 2014-cü il iyulun 11-də Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcər rayonu Şaplar kəndində öz ata-baba yurdlarını, yaxınlarının məzarlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüşdülər. Azərbaycan vətəndaşı Həsən Həsənov isə öldürülmüşdür. İşğal altında olan Dağlıq Qarabağda qanunsuz məhkəmə qurul-

---

*[138] Письмо представителя Азербайджана от 15 августа 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26307, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.210.*

*[139] Письмо представителя Швеции от 9 июня 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/687, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s. s.376-378.*

*[140] Yenə orada.*

muş, məhkəmənin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmişdir[141]. 44 günlük Vətən müharibəsi zamanı, rəşadətli Azərbaycan Ordusunun şanlı qələbəsindən sonra bu insanlar azad oldular. 2020-ci il dekabrın 14-də əsir və girovların qarşılıqlı qaytarılmasına başlanıldı. 2014-cü ilin iyulundan erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərov da Bakıya gətirildilər.

Beləliklə, aparılan tədqiqatları ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərin hüquqi mühakiməsinin həyata keçirilməsi məqsədilə Xüsusi Tribunalın yaradılması vacibdir. 2004-cü ildə BMT-nin seçkili strukturlarında Azərbaycan yüksək səviyyədə təmsil olunmuş, Azərbaycanın BMT yanındakı dami nümayəndəsi Baş Məclisin, İqtisadi və Sosial Şuranın vitse-prezidenti seçilmişdir. Azərbaycan nümayəndə heyətinin ciddi səyləri nəticəsində həmin orqanlarda münaqişələrin gedişində girov götürülmüş qadın və uşaqların, itgin düşmüş şəxslərin vəziyyəti ilə bağlı məsələlər haqqında qətnamələr qəbul edilmişdi[142]. 2006-cı ildə İnsan Hüquqları Komissiyasının əvəzinə yeni orqan, yəni İnsan Hüquqları Şurası yaradılarkən Azərbaycan da səs çoxluğu ilə Şuraya daxil oldu və erməni iddiaları, onun acı nəticələri haqqında əsil həqiqətləri dünya birliyinə çatdırmaq imkanları yarandı.

---

*141 BQXK əməkdaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşüblər 03.11.2016. http://kaspi.az/az/bqxk-emekdaslari-dilqem-esgerov-ve-sahbaz-quliyevle-grusubler/pages/q.pdf*

*142 Azərbaycan Respublikasının XİN mətbuat katibinin şərhi // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.80.*

## *1.5. Azərbaycanda qaçqın və məcburi köçkün problemi: görülən tədbirlər*

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı və azərbaycanlıların öz tarixi torpaqlarından terror yolu ilə qovulması nəticəsində 1988-1992-ci illərdə indiki Ermənistan ərazisindən 250 mindən çox azərbaycanlı qaçqın düşdü. 1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf 7 rayonunu işğal etməsinin nəticəsi olaraq 700 minə yaxın azərbaycanlı məcburi köçkün vəziyyətinə düşdü və Respublikanın müxtəlif şəhər və rayonlarında məskunlaşdılar[143].

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərindən çıxarılan, ölkəmizin şəhər və rayonlarında məskunlaşan insanların qayğısına qalmaq məqsədilə yaradılan Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2001-ci il 7 sentyabr tarixli fərmanına əsasən Füzuli ərazisində 800 ailəlik 4 qəsəbənin, Ağdam ərazisində 500 ailəlik 4 qəsəbənin, 2002-ci il 13 may tarixli fərmanına əsasən Biləsuvar ərazisində 2560 ailəlik 13 qəsəbənin bütün sosial-texniki infrastrukturu ilə birlikdə tikintisini başa çatdırmış, məcburi köçkünlər yeni qəsəbələrə köçürülmüşdür. Fond Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2004-cü il 4 fevral tarixli sərəncamına əsasən 386 ailəlik qəsəbələrin tikintisini davam etdirmişdi[144]. Azərbaycanda Prezident, hökumət

---

[143] *Dadaşova R.B. Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində yaranmış qaçqın probleminin həlli üçün BMT-nin fəaliyyətinin gücləndirilməsi perspektivləri //AMEA-nın Xəbərləri, 2009, №11, s.245.*

[144] *Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahıl qüvvələri tərəfindən Azərbayanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2005-ci illər). Bakı, iyul 2005, s.141.*

tərəfindən qaçqın və məcburi köçkünlərə qayğı göstərilməsinin yüksək nümunə olduğunu qeyd edən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının direktoru Anne-Villem Balyavel Azərbaycanı Cenevrədə nümunə olaraq misal çəkəcəyini bildirdi və bu məqsədyönlü planı digər ölkələrdə də tətbiq etməyi tövsiyə etdi. A.V.Balyavel dedi ki, Büronun Tbilisidə olan nümayəndəsi həmin planı dərindən öyrənərək Gürcüstana tətbiq etmək üçün Bakıya gəlir[145]. Qeyd etmək lazımdır ki, Azərbaycan BMT-nin dörd təşkilatı – Uşaq Fondu (YUNİCEF), İnkişaf Proqramı (UNDP), Əhali Fondu (UNFPA), Ümumdünya Ərzaq Proqramı (WFP) tərəfindən bir nümunə kimi seçilmişdir[146].

Məcburi köçkünlərin və qaçqınların qəbulu, yerləşdirilməsi, güzəranları ilə əlaqədar məsələləri həll etmək üçün yaradılan Qaçqınların və Məcburi köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Ermənistan tərəfindən işğal edilmiş ərazilərdən gələn şəxslərin problemləri haqqında BMT-yə məlumatlar göndərdi, çətin vəziyyətdə olan insanların öz yurdlarına qayıtmasına yardım etməyə çağırdı. Adı çəkilən komitənin BMT Baş katibinə məlumatına görə, 1993-cü il aprelin 9-da Kəlbəcər rayonunun işğalı nəticəsində məcburi köçkün vəziyyətinə düşən 10888 ailə Azərbaycanın 43 rayonunda ümumi yaşayış yerlərində, klublarda, məktəblərdə, turist bazalarında, sanatoriyalarda, qonaq evlərində məskunlaşmışdı. Baş katib Kəlbəcər rayonu əhalisinə beynəlxalq təşkilatların yardım etməsinin vacibliyini bildirdi[147].

---

[145] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.179.*

[146] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 9-cu kitab, Bakı: Azərnəşr, 2012, s.324.*

[147] *Доклад Генерального секретаря в соответствии с заявлением Председателя Совета Безопасности в связи с ситуацией в отношении Нагорного Карабаха, Документ S/25600 Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.70.*

1993-cü il aprelin 10-da BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndələri Gəncə və Daşkəsəndə oldu, Kəlbəcərdən köçkün düşən 50 min əhaliyə isti çadır, yataq, ərzaq malları ilə yardım etdi. Qaçqın və məcburi köçkünlərin Azərbaycanın bütün şəhər və rayonlarında sosial infrastrukturlarda məskunlaşması, həmin müəssisələrin fəaliyyətini dayandırması işsizliyin artmasına, orta və ali məktəblərin əksəriyyəti qaçqın və məcburi köçkünlərə verildiyi üçün təhsil sisteminin zəifləməsinə, əhalinin iqlim şəraitini dəyişməsi və çətin şəraitdə yaşaması xroniki xəstəliklərin yayılmasna səbəb oldu. Belə ki, Azərbaycanın işğal olunmuş ərazilərindən gələn 81917 nəfər ictimai binalarda, 83029 nəfər yataqxanalarda, 34887 nəfər təhsil müəssisələrində və uşaq bağçalarında, 24634 nəfər sanatoriya, pansionat, istirahət evləri və turist bazalarında, 47608 nəfər çadır düşərgələrində, 5263 nəfər vaqonlarda, 27734 nəfər fin tipli evlərdən ibarət qəsəbələrdə, 95620 nəfər qohum evlərində, 25722 nəfər zəbt olunmuş evlərdə və bağ evlərində, 9125 nəfər tikintisi yarımçıq qalmış binalarda, 26757 nəfər ferma, qazma və yol kənarlarında məskunlaşmışdılar[148].

İşğal edilmiş Azərbaycan ərazilərində 311 kənd təsərrüfatı müəssisəsi, 145 yeni yaradılmış, müasir texnika ilə təchiz edilmiş üzümçülük – şərabçılıq sovxozları, məşhur Qarabağ cins-cıdır atları yetişdirən Ağdam atçılıq sovxozu, 135 kolxoz və 31 təsərrüfatlararası müəssisə və s. dağıdıldı[149]. Ermənistanın işğalı nəti-

---

[148] *Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahıl qüvvələri tərəfindən Azərbayanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2005-ci illər). Bakı, iyul 2005, s.26.*

[149] *Həsənov T.G. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı: Çaşıoğlu, 2002,*

cəsində 647,5 min hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi dövriyyədən çıxdı[150]. Nəticədə işsizlik problemi yarandı.

Münaqişənin ilkin mərhələsində dünya ictimaiyyətinə qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə bağlı verilən informasiyanın qıtlığı ucbatından humanitar yardım çox az göstərildi. Ümummilli lider Heydər Əliyevin dünya ictimaiyyətini problemlə bağlı təfsilatı ilə tanış etməsi belə yardımların bir neçə dəfə artırılmasına səbəb oldu. BMT Baş Məclisi 1993-cü il dekabrın 20-də qəbul etdiyi "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardım" adlı 48/114 nömrəli qətnamədə bütün dövlətləri, təşkilatları, BMT-nin proqramlarını, ixtisaslaşmış qurumları, digər hökumətlərarası, qeyri-hökumət təşkilatlarını azərbaycanlı qaçqın və məcburi köçkünlərə kifayət qədər maliyyə, tibbi, maddi kömək göstərməyə çağırdı[151]. Qətnaməyə müvafiq olaraq Baş katib Azərbaycanda olan qaçqın və məcburu köçkünlərin vəziyyəti ilə maraqlanmalı, xeyirxah xidmətlər göstərməli, həmçinin Qaçqınlar üzrə Ali komissarlıq BMT-nin müvafiq qurumları ilə əməkdaşlıq edərək müvafiq xidmətlər göstərməli idi. Baş Məclisin 49-cu sessiyasında Baş katib bu barədə məruzə etməli idi. Bu qətnamə qəbul edildikdən sonra ölkəmizdəki ağır humanitar vəziyyət bir qədər yüngülləşdi.

1994-cü il fevral-mart aylarında tələbatı öyrənmək məqsədilə regiona 14 nəfərdən ibarət iki missiya göndərildi. Departament həmin ilin may ayında Cənubi Qafqaz üzrə üç rəsmi məsləhətləşmə və bir neçə qeyri-rəsmi iclaslar keçirdi. Birinci rəsmi görüşdə BMT nümayəndələri və qeyri-hökumət təşkilatla-

---

[150] *Yenə orada, s.53.*

[151] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.64-66.*

rı, ikincidə Cənubi Qafqaz və Tacikistan nümayəndələri, üçüncü-də donor ölkələr iştirak etdilər[152].

1994-cü ildə BMT-nin Baş katibi Butros Butros Qali Bakının N.Nərimanov rayonunda məskunlaşmış Laçın, Şuşa və Qubadlıdan olan məcburi köçkünlərlə görüşdü, onların vəziyyəti ilə maraqlandı. Bu dövrdən etibarən qaçqın və məcburi köçkünlərə humanitar yardım artırıldı. Butros Butros Qali Cənubi Qafqaz regionuna rəsmi səfərini başa çatdırdıqdan sonra BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səiddən Azərbaycana humanitar yardımı iki dəfə artırmağı xahiş etdi və bu barədə Prezident Heydər Əliyevə bildirdi. 1995-ci il martın 29-da donor ölkələrin, beynəlxalq təşkilatların məşvərətçi qruplarının Parisdə keçirilən iclasında Mahmud Əl-Səid Azərbaycana humanitar yardımı genişləndirməyi nəzərdə tutan hesabatı bütün beynəlxalq təşkilatlarda, donor ölkələrdə, maliyyə-kredit yardım təşkilatlarında BMT-nin rəsmi sənədi kimi yaydığını bildirdi[153]. Butros Butros Qali münaqişənin nəticələrini öyrənmək üçün Ermənistanda və Azərbaycanda olduqdan sonra Təhlükəsizlik Şurası sədrinin 1995-ci il 26 aprel tarixli bəyanatında qaçqın və məcburi köçkünlərə yardım məsələsi yenidən təsdiq edildi[154]. Cənubi Qafqazda 1995-1996-cı illər humanitar proqram çərçivəsində hər iki ölkəyə ərzaq, qeyri-ərzaq, geyim vəsaitləri göndərildi, təhsil və səhiyyə sahəsində humanitar yardımlar edildi. 1995-ci il 31 iyul məlumatına görə Ermənistana 10,5 milyon dollar, Azərbaycana 12,8 milyon dollar həcmində

[152] *Гали Б.Б. Во имя мира и развития 1994 Доклад о работе Организации за период с сорок восьмой до сорок девятой сессии Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1994, s.182-183.*
[153] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.129-131.*
[154] *ООН и современные международные отношения / Отв. ред.доктор юридических наук Г.П.Жуков. М.: Наука, 1986, s.35.*

humanitar yardım göndərildi[155]. Qaçqın və məcburi köçkünlərin sayı Azərbaycanda 1 milyon, Ermənistanda təxminən 200 min olsa da, humanitar yardımda elə də fərq qoyulmadı. Butros Butros Qali 1994-cü il məruzəsində ümumiyyətlə, Cənubi Qafqazda 1,4 milyon, o cümlədən Ermənistanda 550000, Azərbaycanda 447000, Abxaziya daxil olmaqla, Gürcüstanda 440000 məcburi köçkün olduğunu qeyd edir[156]. Bu da Ermənistanın "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərin sayının artırılması", "neft müqaviləsindən böyük gəlir götürən" Azərbaycana humanitar yardımın azaldılması barədə təbliğatının nəticəsi idi. Arsen Melik-Şahnazarov yazdığı və internet saytında yerləşdirdiyi kitabın "Nizamasalmasız nizamasalma" adlı XV fəslində Azərbaycanda olan qaçqın və məcburi köçkünlərin sayının saxtalaşdırılaraq, 400 min əvəzinə 1 milyondan çox qaçqın adına beynəlxalq təşkilatlardan yardım alınmasını, Azərbaycanın "Dağlıq Qarabağ respublikası"na qarşı hərbi təcavüz etməsini, beynəlxalq birlikdə problem barədə yalan məlumatlar yaymasını və buna görə hələ də problemin həll edilməməsini bildirirdi[157]. Qondarma Dağlıq Qarabağ respublikasının "prezident əvəzi" Leonard Petrosyan da Baş katib Kofi Annana 1997-ci il 7 avqust tarixli məktubunda Azərbaycanda 1 milyondan artıq qaçqın və məcburi köçkün olması barədə məlumatların saxta olduğunu yazırdı: "Dağlıq Qarabağ müdafiə ordusu tərəfindən tutulan 7 rayonun əhalisi 483,9 min nəfər idi. Ağdam və Füzulinin

---

[155] *Гали Б.Б. Навстречу новым вызовам 1995, Доклад о работе Организации за период с сорок девятой по пятидесятую сессию Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1995, s.321.*

[156] *Гали Б.Б. Во имя мира и развития 1994 Доклад о работе Организации за период с сорок восьмой до сорок девятой сессии Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1994, s.184.*

[157] *Шахназаров А.М. Нагорный Карабах: факты против лжи, Информационно-идеологические аспекты Нагорно-Карабахского конфликта, http:// www.google.com*

bir hissəsinin tutulduğunu nəzərə alsaq, göstərilən rayonlardan məcburi köçkünlərin sayı təxminən 420 mindir. Onlardan 45 mini 1997-ci ildə öz yurdlarına qayıtmışlar. Beləliklə, göstərilən 7 rayondan 375 min nəfər qaçqın və məcburi köçkün düşmüşdür. Ermənistandan gələn 168 min və Dağlıq Qarabağdan gələn 40 min nəfəri də ona əlavə etsək, cəmi 583 min nəfər qaçqın və məcburi köçkün vardır”[158]. Bu məktubun BMT Baş katibinə yazılmasında məqsəd Azərbaycana göstərilən humanitar yardımın azaldılmasını tələb etmək və “Dağlıq Qarabağ respublikası”nı dünya birliyinə tanıtmaq, beynəlxalq təşkilatlardan yardım almaq idi. L.Petrosyan yazırdı: “Azərbaycandan fərqli olaraq Dağlıq Qarabağ respublikası öz qaçqın və məcburi köçkünlərinə beynəlxalq təşkilatın xətti ilə yardım almır... Beynəlxalq təşkilat tərəfindən qaçqınlar milli əlamətlərinə görə faktiki olaraq ayrı-seçkiliyə məruz qalır”. L.Petrosyan Baş katibə məktubunda Azərbaycandan 600 min erməninin çıxarıldığını qeyd edirdi[159]. Halbuki münaqişə başlayanadək DQMV və digər rayonlarda təxminən 268 min erməni yaşayırdı və bu ermənilər Ermənistanın təcavüzkar siyasətinin qurbanı olaraq Azərbaycandan çıxmışlar. Qeyd etmək lazımdır ki, İkinci Qarabağ müharibəsindən sonra da ermənilər guya Dağlıq Qarabağdan 90 min erməninin qaçqın olduğunu bildirirlər. Halbuki Prezident İlham Əliyevin Ağdamın azad edilməsi münasibətilə Xalqa etdiyi müraciətdə qeyd etdiyi kimi “Dağlıq Qarabağ ərazisində və işğal edilmiş bizim torpaqlarda İkinci Qarabağ müharibəsinə qədər maksimum 60-65 min insan yaşayıb”[160].

---

[158] *Письмо Генеральному секретарю ООН, Кофи Аннану, от и.о.президента НКР Леонарда Петросяна, 17 августа 1997 года, http://www.google.com*

[159] *Yenə orada.*

[160] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.139.*

Azərbaycanda olan 1 milyondan çox qaçqın və məcburi köçkündən təqribən 700 mini məcburi köçkündür, 250 mini Ermənistandan çıxarılmış qaçqınlardır, 50 mini 1992-ci ildə Özbəkistandan qovulmuş Axıska türkləridir, 11 mini isə üçüncü ölkələrdən, əsasən də Çeçenistan, Əfqanıstan, İraq, Fələstin və digər ölkələrdən olan, sığınacaq axtaran şəxslərdir[161]. Böyük Britaniya tədqiqatçısı Tomas de Vaal yazır ki, Azərbaycan dünyada məcburi köçkünlərin sayına görə birinci yerdə durur. Mütləq rəqəmlər Əfqanıstanda, Konqoda ola bilər, lakin Azərbaycanda hər on nəfərdən biri Qarabağ müharibəsinin qurbanıdır[162].

Azərbaycanda yaranan humanitar fəlakəti aradan qaldırmaq üçün ölkədə fəaliyyətə başlayan ilk təşkilatlardan biri kimi BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 1993-1995-ci illərdə qaçqın və məcburi köçkünlərin gündəlik vacib ehtiyaclarının ödənilməsi – çadır, ərzaq, geyim və s. ilə yardım edilməsilə məşğul olurdusa, sonrakı dövrdə BMT-nin İnkişaf Proqramı və Dünya Bankı ilə birlikdə uzunmüddətli inkişaf proqramını həyata keçirdi. Müharibədən zərər çəkmiş ərazilərə məcburi köçkünlərin qayıtması üçün dövlət proqramına QAK və Dünya Bankının birgə dəstəyi və 1999-cu ilin fevralında Azərbaycan hökuməti, BMT İnkişaf Proqramı yardımlar göstərdi. QAK və Dünya Bankı tərəfindən imzalanan Anlaşma haqqında memorandumda qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış məskənlərində şəraitlərini yaxşılaşdırmaq üçün birgə strategiya müəyyən edildi[163]. QAK 1999-cu ilin sentyabrından qaçqın və məcburi köçkünlərə 41 milyon dollar, 10 milyon dollar dəyərində isə on-

---

*[161] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 10-cu kitab, Bakı: Azərnəşr, 2012, s.263.*

*[162] Ваал Т. Черный сад Армения и Азербайджан между миром и войной. М.: Текст, 2005, s.293.*

*[163] Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.141.*

ları sığınacaqla təmin etməkdən ötrü ayırdı[164]. 2004-cü il sentyabrın 24-də BMT Baş Məclisinin 59-cu sessiyasında Prezident İlham Əliyev BMT təsisatlarına, donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara qaçqın və məcburi köçkünlərə yardımın artırılması zəruriliyini bildirdi və bu barədə Baş katib Kofi Annanla bir daha danışdı[165]. 2004-cü ildə Qaçqınlar üzrə Ali Komissar R.Libbersinin Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə və digər rəsmi şəxslərlə görüşərək məcburi köçkünlərin Bərdə və Biləsuvarda müvəqqəti məskunlaşdığı yerlərdə olması humanitar problemin həllinə kömək etdi[166].

Ümummilli lider Heydər Əliyev Azərbaycanın işğal olunmuş ərazilərinin azad edildikdən sonra bərpa edilməsi işinə başlamaq xahişi ilə Dünya Bankına müraciət etdi[167]. 1997-ci il iyunun 27-də Dünya Bankının Azərbaycana 70 milyon dollar güzəştli kredit ayırması haqqında sənəd imzalandı. Dünya Bankının Prezidenti Ceyms Vulfensan Heydər Əliyev ilə görüşündə hər il Azərbaycana əlavə olaraq 50 milyon dollar kredit ayırdığını bildirdi[168]. 1993-2004-cü illərdə qaçqın, məcburi köçkün, aztəminatlı əhalinin sosial müdafiəsi ilə bağlı göstərilən 640 milyon dollar həcmində yardımın 110 milyon dolları BMT agentliklərinin, qalanı isə ABŞ və digər ölkələrdən olan beynəlxalq humanitar təşkilatların payına düşür[169].

---

[164] *Yenə orada, s.171.*

[165] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, s.132-134.*

[166] *Azərbaycan Respublikasının XİN mətbuat katibinin şərhi // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.80.*

[167] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.277.*

[168] *Yenə orada.*

[169] *Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahıl qüvvələri tərəfindən Azərbayanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2005-ci illər). Bakı, iyul 2005, s.130.*

1998-ci il sentyabrın 28-də Azərbaycan ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Ərazilərin bərpası layihəsi üzrə inkişaf üçün kredit haqqında saziş və İşğaldan azad olmuş ərazilərin bərpası və yenidən qurulması üzrə agentlik arasında layihə haqqında saziş imzalandı[170].

Ümummilli lider Heydər Əliyevin 1996-cı il 12 iyul tarixli fərmanı ilə İşğaldan azad olmuş ərazilərin bərpası üzrə Dövlət Komissiyası və onun işçi orqanı olan Bərpa Agentliyi yaradıldı. Bərpa Agentliyinin təşkilati xərclərini BMT İnkişaf Proqramı öz üzərinə götürdü. Horadiz qəsəbəsində evlərin, ictimai binaların bərpa edilməsini, kiçik iş yerlərinin açılmasını bu qurum həyata keçirdi[171]. BMT İP Əlillər üçün peşə-sınaq bərpa mərkəzlərinin yaradılması layihəsini maliyyələşdirdi, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin yaradılmasında böyük rol oynadı.

Ümumdünya Ərzaq Proqramı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində zərər çəkənlərin normal qidalanmasına kömək məqsədilə ölkədə fövqəladə ərzaq yardımı proqramı həyata keçirdi. 1999-cu il yanvarın 14-də BMT-nin Ümumdünya Ərzaq Proqramının Şərqi Avropa və MDB ölkələri üzrə şöbə müdiri Robert Hauzerin rəhbərliyi altında Azərbaycana gələn nümayəndə heyəti ölkədaxili qaçqınlara yardımı davam etdirməyin əsas məqsəd olduğunu bildirdi[172]. 2000-ci ilə qədər Azərbaycana 75 min ton (4 milyon dollar dəyərində) ərzaq məhsulları gətirildi[173]. İlham Əliyev 2005-ci il fevralın 25-də BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatının rəhbəri Con

---

[170] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.336-339.*

[171] *Yenə orada, s.143.*

[172] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 19-cu kitab, Bakı: Azərnəşr, 2006, s.29.*

[173] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.141.*

Pauell ilə görüşündə qaçqın və məcburi köçkünlərə yardımın artırılması zəruriliyini bildirdi[174].

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə təhsil, elm, mədəniyyət abidələrinə böyük zərər dəymiş, eyni zamanda qaçqın və məcburi köçkünlərin Respublikanın digər şəhər və rayonlarında yerləşən ictimai binalarda, o cümlədən orta və ali təhsil müəssisələrində məskunlaşdırılması təhsil sisteminin zəifləməsinə səbəb olmuşdu. Ermənistanın Azərbaycan uşaqlarına vurduğu psixoloji, fiziki, mənəvi zərbələri sadalamaqla qurtarmır. İşğal zonasında olan uşaqların əksəriyyətinin valideynləri, bacı və qardaşları, yaxınları gözləri qarşısında əzab-işgəncələrlə qətlə yetirilmişdi. Həmin uşaqların bəzilərinin psixoloji reabilitasiyası uzun müddətdən sonra mümkün olsa da, əksəriyyəti psixoloji gərginlikdən ömürlük ağır xəstəliklərə düçar olmuş, yaxud da vəfat etmişdir.

Azərbaycanın işğal olunmuş ərazilərindən 200 mindən artıq uşaq misilsiz işgəncələrə və qeyri-insani rəftara məruz qalaraq yurd-yuvalarından zorakılıqla qovularaq öz torpaqlarında qaçqın vəziyyətinə düşmüşdülər. Qaçqın və məcburi köçkünlərin məktəblərdə, kitabxanalarda, bağçalarda və digər ictimai binalarda yerləşdirilməsi, uşaqların təhsil aldıqları məktəbləri bir neçə dəfə dəyişdirməsi, şəraitə uyğunlaşmama uzun müdət şagirdlərin və tələbələrin təhsilinə mənfi təsir göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin UNESCO-nun məsul şəxsləri ilə danışıqlarından sonra, 1999-cu il noyabrın 18-də UNESCO ilə elm, təhsil, mədəniyyət sahəsində yardımların edilməsini, abidələrin bərpasını, mühafizəsini nəzərdə tutan əməkdaşlıq barədə memorandum imzalandı. Azərbaycanın UNESCO-da xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Ermənistanın işğal etdiyi

---

[174] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 2011, s.198.*

ərazilərdə elmə, təhsilə, mədəniyyətə, iqtisadiyyata və s. sahələrə vurduğu zərərlər barədə kitabçalar hazırlandı[175].

Azərbaycan 1992-ci il 21 iyul tarixində 1989-cu il 20 noyabr tarixli Uşaq hüquqları Konvensiyasına qoşuldu. Konvensiyanın 22-ci maddəsində qaçqın uşaqlara lazımi qaydada müdafiə və humanitar yardım göstərilməsi nəzərdə tutulur[176]. 39-cu maddədə yazılır ki, iştirakçı dövlətlər hər hansı növ etinasızlığın, istismarın və ya sui-istifadənin, işgəncələrin, yaxud hər hansı sərt, rəhmsiz və ya ləyaqəti alçaldan rəftarın, cəzanın, yaxud münqişələrin qurbanı olmuş uşaqların fiziki və psixoloji cəhətdən bərpasına və sosial reinteqrasiyasına kömək etmək üçün bütün lazımi tədbirləri görürlər[177]. Ümummilli lider Heydər Əliyev Uşaqların həyatının müdafiəsi və inkişafına dair BMT bəyannaməsini imzalayarkən Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində meydana çıxan 1 milyondan çox qaçqın və məcburi köçkünün əksəriyyətinin uşaq olduğunu, Ermənistanın beynəlxalq hüquq normalarına məhəl qoymayaraq 50-dən artıq azsaylı uşağı əsirlikdə saxladığını bildirmişdi[178].

---

[175] *The series of "The true facts about Garabagh war against Azerbaijan, Targeting cultural heritage". Baku : Heydar Aliev Foundation, 2007, 280 p. ; Activité des organizations terrorists armeniénnes contre l'Azerbaidjan, Série réalités sur le Karabagh. Bakou : Fondation Heidar Aliyev, 2006, 12 p. ; Brève information sur l'histoire du Karabagh, Série réalités sur le Karabagh. Bakou: Fondation Heidar Aliyev, 2006, 12 p. ; Génocide de Khodjali, Série réalités sur le Karabagh. Bakou: Fondation Heidar Aliyev, 2006, 12 p. ; Le commencement du conflit du Karabagh, Série réalités sur le Karabagh. Bakou: Fondation Heidar Aliyev, 2006, 12 p. ; Les consequences de l'agression Armenien contre l'Azerbaidjan, Serie réalités sur le Karabagh. Bakou : Fondation Heidar Aliyev, 2006, 12 p.*

[176] *Конвенция о правах ребенка принята резолюцией 44/25 Генеральной Ассамблеи от 20 ноября 1989 года.http://www.un.org*

[177] *Uşaq hüquqları, Beynəlxalq standartlar və yerli qanunvericilik. Bakı: İsmayıl NPM, 2000, s.21.*

[178] *Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.229.*

Uşaq hüquqlarının müdafiəsi barədə hələ 1924-cü ildə Millətlər Cəmiyyəti Uşaq hüquqları haqqında Cenevrə bəyannaməsi, 1948-ci ildə Baş Məclis İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə, 1959-cu ildə Uşaq hüquqları bəyannaməsi, 1989-cu il 20 noyabr tarixdə Uşaq hüquqları Konvensiyasını qəbul etmişdi. Bütün bu beynəlxalq hüquqi sənədlərə əməl etməyən Ermənistan əsir saxladığı dinc sakinləri, o cümlədən uşaqları, qadınları Azərbaycana qaytarmaqdan imtina etmişdir.

II Dünya müharibəsi veteranlarının Beynəlxalq Uşaq Fondunun Azərbaycan şöbəsi Ermənistan tərəfindən girov götürülmüş 69 uşağın BMT-nin köməyi ilə öz vətənlərinə qaytarılması, əksəriyyəti uşaq olan qaçqın və məcburi köçkünlərin öz yurdlarına dönməsi üçün zəruri tədbirlər görülməsi tələbi ilə müraciət etdi[179]. Lakin nəticələrdən də göründüyü kimi, BMT Uşaq Fondunun fəaliyyəti istənilən səviyyədə olmamışdır.

1988-1989-cu illərdə Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlının qovulması, yəni "etnik təmizləmə" əməliyyatları nəticəsində qətlə yetirilən 216 azərbaycanlıdan 23-ü uşaq olub. Ancaq şahidlər öldürülən uşaqların sayının daha çox olduğunu deyirlər. 1988-ci il dekabrın 5-də ermənilər Hamamlı şəhərində (Spitak) 17 azyaşlı uşağı iri diametrli boruya dolduraraq, hər iki tərəfini qaynaq ediblər. Borunu hündür uçurumdan dərəyə ataraq körpə uşaqları qətlə yetiriblər. Həmin ilin noyabrında Böyük Qarakilsədə (Quqark) 70-ə yaxın 5-12 yaşlarındakı uşaqları yenə boruya doldurub, hər iki tərəfini bağlayaraq vəhşicəsinə qətlə yetirmişlər. Qətliamın üstünü yalnız 1988-ci ilin dekabrında Ermənistanda baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər açmışlar. 1988-1994-cü illərdə erməni terror qrupları və silahlı birləşmələri minlərlə Azərbaycan uşağının vəhşicəsinə qətlə yetirilmələrinə, yaralanmalarına,

---

[179] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.47.*

itkin və əsir düşmələrinə, eləcə də bir və ya hər iki valideylərini itirmələrinə səbəb olublar.

Ermənilər tərəfindən girov götürülən uşaqların əksəriyyəti öldürülmüş, yaxud ömürlük şikəst edilmişdi. 1993-cü il martın 31-də Kəlbəcər işğal olunarkən Laçın rayonunun mühasirədə qalmış Şamkənd kəndindən olan Səma Kərimova 2 yaşlı qızı Hümbətova Nurlanə ilə birlikdə girovluqda olduğu müddətdə məruz qaldığı mənəvi və fiziki işgəncələrə dözməyərək intihar etmişdi. Ermənilərin boyun nahiyəsinə avtomat qundağıyla vurduqları zərbələr nəticəsində Nurlanə görmə qabiliyyətini itirmiş, əzab-əziyyətlər çəkən qardaşı Rüfət isə ağır şəkər xəstəliyinə düçar olmuşdur. Kəlbəcər rayonunun işğalı zamanı girov götürülən Gülcamal Quliyevanın yenicə dünyaya gəlmiş oğlu Arzu Hacıyevə erməni həkimi Aida Serobyan naməlum tərkibli iynələr vurmuş, ömürlük şikəst qalan Arzu 10 yaşında vəfat etmişdir. Girov götürülərkən 3 yaşı olan Şövqi Əliyevin isə bazu sümüyü Xankəndində erməni həkimləri tərəfindən çıxarılıb, nəticədə Şövqi ömürlük şikəst olmuşdur[180]. Ermənilərin vəhşiliklərini göstərən belə faktları sadalamaqla qurtarmır.

Atəşkəsdən sonrakı dövrdə də terror fəaliyyətini davam etdirən Ermənistan onlarla uşağın ölümünə səbəb olmuşdur. Ermənilərin minaladığı ərazilərdə mülki sakinlər, o cümlədən uşaqlar minaya düşərək həlak, yaxud da şikəst olurlar. Bundan başqa, ermənilər uşaqları cəlb etmək üçün oyuncaq formasında partlayıcı maddələrdən istifadə edirlər. 2011-ci il iyulun 15-də Əlibəyli kəndinə daxil olan Tovuz çayına ermənilər tərəfindən buraxılmış partlayıcı qurğu quraşdırılmış "itəbənzər" uşaq oyuncağını ərazidə oynayan Cəfərov Elsəvər və Şahmalıyeva Aygün taparaq evə gətirmiş və “oyuncaq”la oynayan zaman

---

[180] *Böyümək imkanı əlindən alınmış uşaqlar. 11.07.2017. http://1905.az/-boeyuem%C9%99k-imkani-%C9%99lind%C9%99n-alinmis-usaqlar/ Böyümək*

partlayış baş vermiş, nəticədə 13 yaşlı Şahmalıyeva Aygün həlak olmuş, anası isə yaralanmışdı[181]. Yenə həmin il 2011-ci il martın 8-də Ağdamın işğal olunmuş Şıxlar kəndi istiqamətində erməni snayperinin atəş açması nəticəsində başından ağır yaralanan Orta Qərvənd kənd sakini 9 yaşlı Fariz Bədəlov həyatını itirdi. 2015-ci il aprelin 4-ü axşam saatlarında Ermənistan silahlı qüvvələrinin Ağdamın cəbhə xəttindən xeyli uzaqda yerləşən Üçoğlan kəndini reaktiv artilleriyadan və toplardan atəşə tutması nəticəsində 16 yaşlı Pakizə Məhərrəmli baş nayihəsindən yaralandı. 2016-cı il aprelin 4-də düşmən Ağdam rayonunun Əhmədağalı kəndini atəşə tutan zaman Qaraş Dadaşov qoyunlarını otararkən həlak oldu. 2016-cı il aprelin 5-də erməni silahlı qüvvələrinin atəşkəsi pozması nəticəsində Tərtər rayonunun Həsənqaya kənd sakini 16 yaşlı Həsənova Turanə dünyasını dəyişdi[182]. 2016-cı il iyulun 14-də erməni silahlı bölmələrinin açdığı atəş nəticəsində Tovuzun Ermənistanla təmas xəttində yerləşən Əlibəyli kəndində 12 yaşlı Nərmin Xanbabayeva, onun 8 yaşlı qardaşı Tuncay ağır yaralandılar. 2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndinin atəşə tutulması nəticəsində 2 yaşlı Quliyeva Zəhra və nənəsi həlak oldular. 2017-ci il avqustun 8-də Ermənistan silahlı qüvvələrinin Tovuz rayonunun Qaralar kəndini atəşə tutması nəticəsində 13 yaşlı Ramin Yusifov ağır yaralandı[183].

---

[181] *13 yaşlı qızın faciəvi ölümü ilə bağlı BMT Baş Katibinə məktub göndərilib.- 04.08.2011. https://www.bbc.com/azeri/azerbaijan/2011/08/110804_girl_-death_un_letter*

[182] *Ermənilərin qətlə yetirdiyi azərbaycanlı uşaqlar - Adlar və fotolar. http://goldnews.az/az/news/dc4839c8-42d8-4897-81fe-9b2c17fe68-b6/ermnilrin-qtl-yetirdiyi-azrbaycanl-usaqlar-adlar-v/read*

[183] *Ermənilər 194 azərbaycanlı uşağı qətlə yetirib. 05.07.2017. https://azvision-.az/news/121083/ermeniler-194-azerbaycanli-usagi-qetle-yetirib-.html*

İkinci Qarabağ müharibəsində 100 nəfər həlak olan mülki əhalidən 1-i körpə, 10-u uşaq, 27-si qadın idi[184].

Qaçqın və məcburi köçkünlərin sosial-iqtisadi şəraitinin çətinliyi malyariya epidemiyasının yayılmasına səbəb oldu. 2004-cü ildə ÜST-nın dəstəyi ilə 2005-2009-cu illər üçün Malyariya ilə mübarizə milli planı hazırlandı.

Qaçqın və məcburi köçkünlərin sosial problemləri qismən həll edilsə də, BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının sədri Kayser Zamanın dediyi kimi, "Azərbaycanlılar öz ana yurdlarına qayıtmaqları uğrunda mübarizə edirlər"[185]. Ümummilli lider Heydər Əliyev BMT-nin Baş katibi Kofi Annana 1999-cu il 5 iyul tarixli məktubunda qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının bərpası məqsədilə işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasına, onların öz torpaqlarına qayıtmasına səy göstərməyə və Azərbaycan xalqının qanuni mənafeyini dəstəkləməyə çağırdı[186]. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında BMT Təhlükəsizlik Şurasının "Dağlıq Qarabağ münaqişəsinə dair" adı altında qəbul etdiyi 4 qətnamənin hər birində qaçqın və məcburi köçkünlərə humanitar yardım edilməsi və öz yurdlarına təhlükəsiz qayıtmasına kömək göstərilməsi Baş katibdən və müvafiq beynəlxalq qurumlardan xahiş edilir. Bununla belə işğalçı Ermənistanın öz silahlı qüvvələrini Azərbaycan torpaqlarından çıxarmaması bu problemin həllinə imkan vermirdi.

---

*[184] Ermənistanın öldürdüyü mülki şəxslərdən 1-i körpə, 10-u uşaq, 27-si qadındır.30.10.2020. ttps://modern.az/az/news/262835/ermenistaninoldurduyu-mulkisexslerden1-i-korpe-10-u-usaq-27-si-qadindir-resmi*

*[185] Письмо представителя Азербайджана от 15 ноября 1993 года на имя Генерального секретаря, Документ S/26762, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.251.*

*[186] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 20-ci kitab, Bakı: Azərnəşr, 2007, s.431.*

2002-ci il ilə müqayisədə 2012-ci ildə yoxsulluğun səviyyəsi 50%-dən 6%-ə qədər düşdü. Azərbaycanda 1 milyon 100 mindən çox iş yerləri açıldı[187]. Bununla belə insanların əsas məqsədi, arzuları öz doğma yurdlarına qayıtmaq idi. 30 illik məcburi köçkün həyatından sonra Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun şücaəti, xalq arasında birlik sayəsində insanlara öz doğma yurdlarına qayıtmaq nəsib oldu. Hazırda işğaldan azad edilmiş ərazilərdə yüksək səviyyədə quruculuq işləri gedir, yaşamağa şərait yaradılır. 2020-ci il 10 noyabr tarixi Azərbaycan xalqı üçün tarixi bir gün oldu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri müharibənin dayandırılması haqqında üçtərəfli bəyanat imzaladılar. Bəyanatda hunmanitar məsələlər, həmçinin məcburi köçkünlər və qaçqınların Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara geri qayıtması məsələləri də nəzərdə tutulur.

## *1.6. İşğal edilmiş ərazilərdə Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizm siyasəti*

İşğal edilən ərazilərdə çoxlu miqdarda tarixi, mədəni, dini abidələr, incəsənət əsərləri məhv edildi, yaxud Ermənistana aparılaraq, xarici ölkələrdə satıldı, onların hansı ölkəyə məxsus olduğu, irsi, milli kökləri dəyişdirildi. İlkin hesablamalara görə, işğal nəticəsində Azərbaycanın tarix və mədəniyyət abidələrinə vurulmuş zərər aşağıdakı kimi dəyərləndirilir: dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümu-

*[187] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışıarı, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2013.pdf, s.52.*

mi miqdarı: 84 883 726$; Dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi miqdarı: 46 066 086$; işğal olunmuş ərazilərdəki daşınan tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi hesabı: 47 050 188$; işğal olunmuş ərazilərdəki tarix və mədəniyyət abidələrinə dəyən zərərin ümumi hesabı: 177 000 000$[188].

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məlumatına görə işğal altındakı torpaqlarımızda tarixi-dini abidələrin təqribi sayı 403-dür. Onlardan 67-si məscidlər, 144-ü məbədlər (Alban irsinə aid kilsələr, sovmələr və monastırlar), 192-i ziyarətgahlardır (pirlər, türbələr, ocaqlar, məqbərələr)[189].

Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq niyyətlərinə haqq qazandırmaq məqsədi ilə Qafqaz Albaniyasının xristian kilsəsinə aid bütün kilsə, məbəd və monastrlarını erməni kilsələri və monastırları kimi təqdim edirlər. Halbuki Qafqaz Albaniyasının memarlıq abidələrini tədqiq etmiş alimlərin fikrincə, bu abidələr bir çox xarakterik xüsusiyyətlərinə və memarlıq planlaşdırma üslublarına görə erməni dini memarlıq abidələrindən tamamilə fərqlənirlər[190].

Ermənilər işğal edilən ərazilərdəki tarixi abidələrin saxtalaşdırılmasını bir neçə istiqamətdə həyata keçirirdilər: Birincisi, ərazinin baxımlı yerlərində erməni xaçdaşları və kilsələri tikdirirdilər. Azərbaycanın qədim dövlətlərindən biri olan Albaniya eramızdan əvvəl IV-III əsrlərdən bizim eranın VIII əsrinə qədər,

---

*188 Ermənilər Azərbaycana məxsus qədim tikililər üzərində özlərinə "tarix" yaradırlar. http://tele-inform.com/?p=25543*

*189 Məmmədov N. İşğal altindaki tarixi-dini abidələrimiz. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, s.5.*

*190 Dağlıq Qarabağdakı qədim Alban abidələri. http://big.az/13978-Dagliq_Qarabagdaki_qedim_Alban_abideleri.html*

yəni ərəb xilafəti tərəfindən işğal edilənə qədər mövcud olmuşdur. Bu dövlətin ən mühüm vilayətlərindən biri sovet dövründə Dağlıq Qarabağ ərazisi adlandırılan ərazi olmuşdur. Alban dövlətinin mövcud olduğu dövrlərdə Şimali Azərbaycanın bütün bölgələrində alban-xristian dininə aid məbədlər, bazilikalar və sovmələr meydana gəlməyə başlamış, Şərq xristianlığına məxsus memarlığın bütün növləri inkişaf etmişdi. Ermənistanın Azərbaycan mədəni abidələrini saxtalaşdırması istiqamətində gördüyü işlərdən ən əsası da tarixi alban məbədlərinin qriqoryanlaşdırılmasıdır. Qarabağda alban memarlığını özündə əks etdirən IV-XVI əsrlərə aid bir neçə alban kilsəsi bizim dövrə qədər gəlib çatmışdır. Onların arasında Laçın rayonunda yerləşən Ağoğlan monastrı, Kəlbəcər rayonunda Xudavəng monastrı, Xocavənd rayonunda Amaras monastrı, Ağdərə rayonunda Müqəddəs Yelisey məbəd kompleksi, Ağdərə rayonunda Gəncəsər monastrı və digərlərini göstərmək olar. Monastr kompleksinin kompozisiyası, heykəltaraşlıq nümunələri və diofizit xarakterli elementlər bu abidələrin çoxəsrlik ənənələri olan Qafqaz Albaniyasının memarlığına aid olduğunu təsdiq edir. Azərbaycanın tarixi abidəsi olan Yelisey məbədi (Ağdərə), Həsənriz məbədi (Kəlbəcər) və digər abidələrdə alban yazıları silindi, həmin abidələrin albanlara məxsus olan əşyaları dağıdıldı. Yelisey məbədində saxlanılmış alban hökmdarı III Vaçaqanın qəbri və üzərindəki yazı təmamilə məhv edildi. Ermənilər qədim Albaniyanın çox böyük əhəmiyyət daşıyan abidələrini – alban dini abidələri monastırları olan Kəlbəcərdəki Xotabank (VI-VII əsr), Laçındakı V-XI əsr abidələrini, Ağdamın Kəngərli kəndində olan kilsəni erməni abidələri kimi qələmə verməyə çalışırlar. Bu abidələr üzərində olan qədim alban yazısı, divarlarda ornamentlər və xaçlar erməni simvolları ilə əvəz edilmişdir[191]. Kəlbəcərdə olan V-XVII

---

[191] *Письмо представителя Азербайджана при Организаций Объединенных*

əsrlərə aid Alban məbədləri, Müqəddəs Yaqub kilsəsi, Qırmızı məbəd, Urek məbədi, onlarla məscid, qəbiristan, ziyarətgahlar və bir çox tarixi-dini abidələr məhv edilmişdir.

Ermənilər Azərbaycanın işğal altındakı ərazilərində qalan tarixi abidələri erməniləşdirmək üçün erməni diasporunun maliyyə dəstəyi ilə xaricdən arxeoloqlar da gətirirdilər, qədim Azərbaycan və alban abidələrini erməni abidələri adı altında "bərpa" edirdilər[192]. 2009-cu il 15 dekabr tarixində Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrini müdafiə təşkilatı ictimai birliyi ABŞ Konqresinin Dağlıq Qarabağ separatçılarına yardım edilməsi qərarı ilə bağlı etiraz bəyanatı yaydı[193]. Bəyanatda göstərilir ki, ABŞ-ın maliyyə yardımı hesabına təkcə 1992-2009-cu illər ərzində Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında yüzlərlə inzibati yaşayış mərkəzi dağıdılaraq xarabalığa çevrilmişdir. Müsəlman dini abidələri siyahısına daxil olan 600 məscid, türbə, qəbirüstü abidə və digər ibadətgahlar ermənilər tərəfindən dağıdılaraq yararsız hala salınmışdır. Qarabağın dünya əhəmiyyətli Azıx, Cəbrayıl rayonunun Tağlar mağaralarında qazıntılar aparılmış, Ağdam, Xocalı, Xankəndi ərazilərində və Qarqar çayı boyunca yerləşən bütün kurqanlar Ermənistanın ekspedisiya qrupları tərəfindən dağıdılmış, əldə edilmiş bütün əşyalar isə Ermənistana daşınılmışdır. Şuşa, Əsgəran, Şahbulaq, Ağdərə, Kəlbəcər və Laçın rayonları ərazilərində 30-dək arxeoloji qazıntı aparılmış, burada ABŞ-

---

*Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря Приложение 1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.110*

*[192] Qarabağdaki tarixi abidələrimiz kütləvi şəkildə saxtalaşdirilir. 09.01.2012. http://musavat.com/news/kivdf-layiheleri/qarabagdaki-tarixi-abidelerimiz-kutlevi-shekilde-saxtalashdirilir_115534.html*

*[193] "Azərbaycanin İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilati" ictimai birliyi ABŞ-ın separatçilara yardım ayırmasını pisləmişdir.15.12.2009. https://azertag.az/xeber/*

dan, İngiltərədən, Hollandiyadan, Norveçdən və digər ölkələrdən onlarla mütəxəssis iştirak etmişdir. Bundan əlavə, ABŞ-ın maliyyə vəsaiti hesabına Azərbaycanın işğal olunmuş ərazilərində 15 yeni erməni kilsəsi tikilmiş, alban dövrünə aid 700 tarix və mədəniyyət abidəsinin üzərindəki tarixlər, divar yazıları pozularaq, erməni mətnləri ilə əvəzlənmişdir. Azərbaycanın işğal olunmuş ərazilərinə Ermənistanda hazırlanmış 2 min erməni xaç daşı basdırılmışdır[194].

İkincisi, xristianlığa qədər olan tarix və mədəniyyət abidələrinin ermənilərə məxsusluğu barədə geniş təbliğat işi təşkil edirlər. Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın qədim şəhəri Şuşada ermənilərin genişmiqyaslı "tikinti işləri" 2008-ci ildən başladı. Ermənilər Şuşanın "erməni mədəniyyəti mərkəzi" olduğunu təbliğ edirdilər. Guya ki, tarixi binaların və abidələrin bərpası zamanı onların "qədim erməni mədəniyyətinə" aid olduğunu sübut edən çoxsaylı "dəlillər", xaçkarlar aşkar olunmuşdur. Dağlıq Qarabağ qaçqınları İctimai birliyinin sədri olan Sarasar Saryan da saxtakarlıqla bildirirdi ki, Şuşanın "qədim erməni şəhəri" olduğunu sübut edən çoxsaylı dəlillər aşkar edilmişdir: "Burada çoxlu erməni abidələri var, hətta indinin özündə də qazıntılar zamanı xaçkarlar tapırıq, hansı ki, onları nə vaxtsa məhv etməyə çalışıblar. Kifayət qədər çoxsaylı faktlar var ki, ermənilərin burada həmişə yaşadığını sübut etmək mümkün olsun". Saryan bir qədər də irəli gedərək deyir ki, "beynəlxalq ictimaiyyət Azərbaycanın Şuşa şəhərinə iddialarını pisləməlidir"[195].

Erməni tarixçiləri Ermənistanın Dağlıq Qarabağın ətraf bölgələrini işğal etməsinə haqq qazandırmaq məqsədilə son zamanlarda "Böyük Ermənistan"ın "paytaxtı Tiqranakert şəhəri"-

---

*[194] Yenə orada.*

*[195] Ermənilər Şuşanın tarixi abidələrini kütləvi şəkildə saxtalaşdırır. 13.05.2013 http://musavat.com/news/kivdf-layiheleri/ermeniler-shushanin-tarixi-abidelerini-kutlevi-shekilde-saxtalashdirir_151630.html*

nin qalıqlarının Türkiyənin Diyarbəkir şəhərində, Azərbaycanın işğal altındakı Ağdam bölgəsində təsbit edildiyini iddia etmişlər. Ermənilər Ağdam ərazisində apardıqları bu qazıntılar zamanı ərazidə 15-dən çox Xocalı mədəniyyətinə aid məşhur kurqanları (torpaq qəbirləri) dağıdaraq əldə etdikləri maddi sübutları Ermənistana daşıyıb aparıblar. Ağdam rayonu ərazisindəki Şahbulaq saray kompleksini təmir edərək kompleksin içərisində "Tiqranakert" adlı tarix muzeyinin yaradılmasını elan ediblər. Muzeyin açılışını təntənəli şəkildə qeyd edərək bunu bütünlüklə daxili və xarici internet şəbəkələrində yerləşdiriblər[196].

Ermənilər öz məqsədyönlü siyasətlərini həyata keçirmək üçün hətta ermənilərin Qarabağa yerləşdirilməsi tarixini sübut edən Ağdərə rayonunda 1978-ci ildə qurulan "Marağa-150" abidəsini məhv etdilər. Tarixdən məlumdur ki, ermənilər Rusiya-İran və Rusiya-Türkiyə müharibələri nəticəsində XIX əsrin 20-30-cu illərindən başlayaraq Çar Rusiyasının müstəmləkə siyasətinə uyğun olaraq Qafqaza, xüsusən də Qarabağa, Naxçıvana, İrəvana, Dərələyəzə köçürülmüşlər və onların miqrasiyası bir çox yazılı mənbələrdə, o cümlədən xarici tədqiqatçıların əsərlərində sübut olunmuşdur. Bu, həmçinin ermənilərin özləri tərəfindən də dəfələrlə etiraf edilmişdir. 1978-ci ildə Ağdərə rayonunda ermənilərin İran regionu olan Marağadan Qarabağa gəlmələrinin 150 illiyi münasibəti ilə ucaldılan abidə üzərində ermənicə "Marağa-150" yazılmışdır. Lakin bu abidə cəmi 10 il qalmışdır və 1988-ci ildə ermənilərin Azərbaycana ərazi iddiaları başlanan kimi o da yoxa çıxmışdır. Çünki bu abidə erməni miqrantlarının Qarabağa gəlməsinin başlanğıcını göstərirdi. Üçüncüsü, ermənilər xristianlıq dövrü abidələrinin ornamentləri

---

[196] *Ermənilər Ağdamda "Tiqranakert" muzeyi yaradıblar. http://musavat.-com/news/kivdf-layiheleri/ermeniler-agdamda-tiqranakert-muzeyi-yaradib-lar_100410.html*

üzərində dəyişiklik edərək abidələri erməniləşdirirdilər. Ermənistan hökuməti Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ətraf ərazilərin ermənilərə "məxsus"luğunu dünyaya göstərmək üçün "tarixi" və "mədəni" "sübut"lar yaradırdılar, yəni, mövcud daş plastikasının forma və məzmununu dəyişdirirdilər. Bu ərazilərdə mövcud olan milli-mədəni ornamentlər qədim türkdilli tayfaların etiqadı ilə əlaqədar təsviri sənətə gəlmiş bir çox orijinal süjetli motivlərdir. Buna misal olaraq, şamanların dini mərasimlərini, qədim türkdilli xalqlarda zoomorf anlayışlarla əlaqədar meydana çıxmış ongun quş totemlərinin, başlıca olaraq ov quşlarının – şahin, qartal və s. təsvirlərini göstərmək olar. Bütün bunlardan xəbərdar olan ermənilər azərbaycanlıların izlərini bu torpaqlardan silmək üçün ərazilərdəki totemləri ya məhv edir, ya da formasını dəyişdirirdilər[197].

Ermənilərin tarixi saxtalaşdırmasını xarici tədqiqatçılar da təsdiq edirlər. Rusiya Federasiyasının B.Yeltsin adına Ural Federal Universitetinin professoru Aleksandr Nesterov bildirib ki, tarix qədim zamanlardan siyasi məqsədlər, dövlətlərarası məsələlərin həlli, ərazi iddiaları, tarixi şəxsiyyətlərin və mədəniyyət abidələrinin milli mənsubluğu barədə iddiaları əsaslandırmaq üçün istifadə olunmuşdur. Bütün bunlar çox vaxt tarixi faktların saxtalaşdırılmasına gətirib çıxarmışdır. Hazırkı dövrdə də tarixdən müəyyən siyasi, ərazi iddialarını təmin etmək üçün qərəzli şəkildə istifadə olunur. Bu cür tarixi saxtalaşdırmanın bariz nümunəsi kimi professor A.Nesterov Azərbaycana dair həqiqətlərin ermənilər tərəfindən geniş şəkildə saxtalaşdırılmasını göstərmişdir. Rusiyalı alim qeyd edib ki, ermənilər azərbaycanlılara qarşı öz əsassız ərazi iddialarını əsaslandırmaq üçün real həqiqətlərin üstündən keçir, Azərbaycana aid tarixi faktları saxtalaş-

---

[197] *Ermənilər Azərbaycana məxsus qədim tikililər üzərində özlərinə "tarix" yaradırlar. 25.01.2015. http://tele-inform.com/?p=25543*

dırırlar, tarixi Azərbaycan torpaqlarında yerləşən və azərbaycanlılara məxsus qədim abidələri öz adlarına çıxır, tarixdə olmayan faktlar uydurur, gerçəklik barədə susur, tarixə süni əlavələr edirlər[198].

Dördüncüsü, ermənilər müsəlman dini abidələrini tamamilə dağıdıb məhv edirdilər. 2010-cu ildə işğal altındakı ərazilərə səfər edən isveçrəli jurnalist, "Wochenzeitung" və "Neues Deutschland" nəşrlərinin əməkdaşı Andre Vidmer də tarixi abidə və qəbiristanlıqların acınacaqlı vəziyyətini görmüş, Azərbaycanın Şuşa və Ağdamdakı bir çox mədəniyyət abidələrinin məhv edildiyini və ya ciddi zədələndiyini təsdiqləmişdi. Jurnalist bildirib ki, Ağdam xarabalığa çevrilib, talan olunduğundan burada heç bir infrastruktur obyekti qalmayıb: "Soyğunçuluq faktı mənimlə söhbətdə Dağlıq Qarabağın separatçı hökumətinin ABŞ-dakı nümayəndəsi Robert Avetisyan tərəfindən də təsdiqləndi". Vidmerin sözlərinə görə, "Şuşadakı məscid kimi Ağdamdakı məscid də çox acınacaqlı vəziyyətdədir: onlar hələ də mövcuddurlar, lakin pis vəziyyətdədirlər. Təkcə bir məscid yeni damla örtülüb, lakin təəssüf ki, dam, sadəcə, metaldandır, ona görə də bunun abidəni qorumaq üçün, yoxsa ondan öz məqsədləri üçün istifadəyə görə edildiyinə əmin deyiləm", – deyə jurnalist bildirmişdi (Məlum oldu ki, onlar həmin məscidi məsafə ölçmək üçün saxlayıblarmış. Azərbaycan Ordusu hücuma keçdiyi halda onlar bu məscid vasitəsilə məsafəni ölçməli imişlər - R.D.). Sonradan işğal altındakı ərazilərdəki erməni vandalizmini göstərən faktları yazdığına görə Vidmeri İrəvandan deportasiya etmişdilər[199].

---

[198] *Rusiyalı professor: "Ermənilər Azərbaycana aid tarixi faktları saxtalaşdırırlar" 06.05.2016. http://istiqlal.az/news/20373.html*

[199] *Qarabağdaki tarixi abidələrimiz kütləvi şəkildə saxtalaşdirilir. 09.01.2012. http://musavat.com/news/kivdf-layiheleri/qarabagdaki-tarixi-abidelerimiz-kutlevi-shekilde-saxtalashdirilir_115534.html*

Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn, beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilən əməllər törətmişdi və fürsət tapdıqca törətməkdədir. İşğal altındakı tarixi-mədəni abidələrimizin kütləvi məhvi və mənimsənilməsi ilk növbədə, 1954-cü ildə qəbul edilmiş Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Haaqa konvensiyasına ziddir[200]. Bu konvensiya hərbi münaqişələr zamanı hər bir dövlətin öz ərazisində və qarşı tərəfin ərazisində yerləşən mədəni dəyərlərin qorunmasını, arxitektura, incəsənət, tarixi abidələr, arxeoloji qazıntılar kimi daşınan və daşınmaz mədəni dəyərlərin müdafiə edilməsini iştirakçı dövlətlərin üzərinə vəzifə kimi qoyur. Konvensiyaya üzv olan dövlətlər qarşılıqlı öhdəliklərdən irəli gələn tədbirlər görməli, yanğın və ya struktur çöküntüsündən qorunması üçün təcili tədbirlərin planlaşdırılması, daşınar mədəni əmlakın qorunması, öz ərazisində, habelə digər iştirakçı dövlətlərin ərazisində məhv edilməsinə səbəb ola biləcək məqsədlərdən çəkinməli, silahlı münaqişələr zamanı mədəni irsə qarşı yönəlmiş hər hansı bir düşmənçilik hərəkətindən qaçınmalıdırlar. Bu konvensiya silahlı qarşıdurma zamanı mədəni irsin qorunmasına yönəlmiş dünya miqyaslı ilk beynəlxalq müqavilədir. Konvensiyaya əsasən mədəniyyət obyektlərinin müdafiəsi üçün məsuliyyət daşıyacaq hərbi qüvvələr daxilində xüsusi qurumlar yaradıla bilər. Konvensiyanın şərtlərini pozan dövlətə qarşı sanksiyalar tətbiq edilə bilər[201]. Konvensiyanın preambulasında göstərilir ki, "mədəni əmlaka ziyan vurmaq hər hansı bir

---

*[200] Конвенция о защите культурных ценностей в случае вооруженного конфликта. http://www.un.org/ru/documents/decl_conv/conventions/pdf/-hague54.pdf*

*[201] 1954 Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict http://www.unesco.org/new/en/culture/themes/armed-conflict-and-heritage/convention-and-protocols/1954-hague-convention/*

xalqın mənsubiyyətinə, mədəni irsinə ziyan vurmaq deməkdir[202]. Hər bir xalqın mədəni irsi bütün bəşəriyyətə məxsusdur.

İkincisi, 1999-cu ildə Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il tarixli Haaqa konvensiyasına dair İkinci Protokol qəbul edildi[203]. Bu beynəlxalq sənədə əsasən mədəniyyət əmlakı həm də milli qanunvericiliyə uyğun olaraq qorunmalıdır. Bu Protokolda on iki üzvdən ibarət Mədəni mülkiyyətin qorunması üzrə komitə də yaradılması nəzərdə tutulmuşdur. Protokola qoşulan dövlətlər mədəni mülklərini qorumaq üçün beynəlxalq və digər yardım növlərini də genişləndirməyi tələb edə bilərlər. Azərbaycan Respublikası 2000-ci ildə Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il tarixli Haaqa konvensiyasına dair İkinci Protokola qoşuldu.

Üçüncüsü, Ermənistan Arxeoloji irsin mühafizəsi haqqında 1992-ci il Avropa Konvensiyasını pozur. Azərbaycan Respublikası 1999-cu ildə Arxeoloji irsin mühafizəsi haqqında 1992-ci il Avropa Konvensiyasına qoşulmuşdur. Bu konvensiyanın 3-cü maddəsində deyilir ki, qanunsuz hər hansı qazıntı aparılması, yaxud da arxeoloji irs elementlərinin götürülməsi qadağandır, qazıntılar və digər potensial dağıdıcı metodlar yalnız bunun üçün xüsusi icazə almış ixtisaslı mütəxəssislər tərəfindən aparıla bilər[204]. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində qanunsuz arxeoloji qazıntılar aparmış və mədəni dəyərləri dağıt-

---

[202] *The 1954 Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Confl ict and its two (1954 and 1999) Protocols, United Nations Educational, Scientific and Cultural Organization, April 2010, s.9.*

[203] *Second Protocol to the Hague Convention of 1954 for the Protection of Cultural Property in the Event of Armed Conflict 1999 http://portal.-unesco.org/en/ev.php-url_id=15207&url_do=do_topic&url_section=201.html*

[204] *"Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasinin Qanunu. http://www.e-qanun.az/framework/3055*

maqla yanaşı, alban mədəni abidələrini saxtalaşdıraraq ermənilәşdirmişdir.

Dördüncüsü, mədəni və təbii irsin bəzi dəyərlərinin müstəsna maraq kəsb etdiyini və ona görə də bütün bəşəriyyətin ümumdünya irsinin bir hissəsi kimi qorunub saxlanmalı olduğunu nəzərə alaraq, UNESCO-nun 1972-ci ildə Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında qəbul etdiyi Konvensiya Ermənistan tərəfindən pozulmuşdur. Konvensiyanın 15-ci maddəsində göstərilir ki, universal dəyərə malik ümumdünya mədəni və təbii irsi müdafiə etmək məqsədilə "Ümumdünya irsi fondu" adlandırılan fond təsis edilir[205]. Bu konvensiyanın 19-cu maddəsində deyilir ki, "Konvensiyada iştirak edən hər hansı bir dövlət öz ərazisində yerləşən universal əvəzsiz dəyərin mədəni və ya təbii irsinin bir hissəsini təşkil edən əmlak üçün beynəlxalq yardım tələb edə bilər"[206].

Azərbaycan 1992-ci il 3 iyun tarixindən BMT-nin Elm, Təhsil və Mədəniyyət məsələləri üzrə təşkilatı olan UNESCO-nun üzvüdür. İşğal altında qalan tarixi abidələrdən altısı UNESCO-nun Ümumdünya irsi siyahısına daxil olan abidələr idi. Bu siyahıda Kəlbəcərin Vəngli kəndində Gəncəsər monastırı, Bağlıpəyə kəndində Xudavənd monastırı, Ağdamın Xaçındərbənd kəndində Qutlu Musa oğlu türbəsi (1314-cü il), Cəbrayılın Qumlaq kəndində On bir tağlı Xudafərin körpüsü (b.e.ə. V əsr), On beş tağlı Xudafərin körpüsü (b.e.ə. VII əsr), Şuşa Dövlət-Tarix-Memarlıq Qoruğunun adları var idi.

Ermənistan işğal etdiyi ərazilərdə mədəni dəyərləri saxtalaşdırmada, dağıtmada, bəzilərinin isə xarici ölkələrə satılmasında məsuliyyət daşıyır. Bu məsələlər tam aydınlığı ilə BMT

---

*[205] YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiya. http://unesco.preslib.az/az/page/ZkBp5YPq2F*

*[206] Convention Concerning the Protection of the World Cultural and Natural Heritage. https://whc.unesco.org/en/conventiontext/*

Baş Məclisinin 2002-ci il yanvarın 28-də qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə eyni adlı əlavədə göstərilmişdir[207]. Sənədin 28-ci maddəsində xüsusi vurğulanır ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir və bu zərər beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş bütün ziyanlardan, o cümlədən maddi və ya mənəvi ziyanlardan ibarətdir. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti"nin 34-cü maddəsində beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş zərərin ödəmə formaları müəyyən edilib. Bu maddədə göstərilir ki, ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər. Bu formalar həm ayrı-ayrılıqda, həm də bir-biri ilə bağlı istifadə edilə bilər"[208].

İşğal nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlarda dağıdılan muzeylər, məscidlər, abidələr tək Azərbaycan xalqının deyil, dünya mədəniyyətinin tərkib hissəsidir, onların mühafizə edilərək, gələcək nəsillərə çatdırılması bütün dünya xalqlarının borcu və ümdə vəzifəsi hesab edilməlidir. Ermənistan özünün işğalçı hərəkətlərinə haqq qazandırmaq üçün ələ keçirdiyi ərazilərin erməni torpaqları olduğunu, bu torpaqlarda tarixən yalnız ermənilərin yaşaması iddialarını əsaslandırmaq üçün

---

[207] *UN General Assembly Resolution 56/83 on responsibility of States for internationally wrongful acts, Annex Responsibility of States for internationally wrongful acts (Internet 2002, www.un.org - iwtr. onbekend). https://-www-.navigator.nl/document/openCitation/%20id9705bb241598de934cbb5510f38 8422e/un-general-assembly-resolution-56-83-on-responsibility-of-states-for-internationally-wrongful-acts-bijlage*

[208] *Yenə orada.*

Azərbaycan mədəniyyətini məhv edərək yerində yeni erməni "milli-mədəni dəyərlərinin yaradılması" üçün ciddi fəaliyyət göstərmişdir. Işğal olunmuş ərazilərdə qalan tarixi-dini, mədəniyyət abidələrini ya dağıdaraq izlərini silir, ya onları erməni abidələri adı altında saxtalaşdırır, ya da xarici ölkələrə satırdı. Sovet dövründə Azərbaycan ərazisində tarix-mədəniyyət abidələrinin pasportlaşdırılması natamam aparıldığından Qarabağda 2 mindən çox tarixi abidə sənədləşmədən kənarda qalmışdır, bu da ermənilərə, rəsmi olaraq sənədləşdirilməmiş yüzlərlə, minlərlə abidəni ilk dəfə öz adlarına sənədləşdirməyə şərait yaratmışdır. Azərbaycanın işğal olunmuş ərazilərdəki tarix və mədəniyyət abidələrini müdafiə təşkilatı ictimai birliyi bu problemi araşdırmışdı və məlum olmuşdu ki, Qarabağda işğal altında qalan tarixi abidələrin 70 faizi dövlət qeydiyyatında olmamışdır[209]. Təşkilat qeydiyyatda olan tarixi abidələrdən bəzilərinin – Kəlbəcər rayon Tarix-diyarşünaslıq muzeyi, Gəncəsər monastırı, Şuşa şəhərindəki Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidləri, Laçın rayonundakı Tarix-diyarşünaslıq muzeyi, Ağoğlan qəsri, Ağdam şəhərindəki Cümə məscidi və Şahbulaq qəsri, Zəngilan rayonundakı Tarix-diyarşünaslıq muzeyi, Xalqlar Dostluğu və Daş Heykəllər muzeylərinin erməni vandalizminə uğraması haqqında toplanan faktları Avropa İnsan Hüquqları Məhkəməsinə təqdim etməklə, Ermənistana qarşı məhkəmə iddiası qaldırmışdır. Lakin işğal olunmuş ərazilərdəki xeyli sayda abidələr dövlət qeydiyyatında olmadığından onların barəsində iddia qaldırmaq mümkün olmamışdır.

---

[209] *"Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyi Ermənistana qarşı qaldırılan məhkəmə iddiası ilə bağlı tədbir keçirib. 12.12.2011. https://apa.az/sosial_xeberler/-azerbaycanin-isgal-olunmus-erazilerindeki-tarix-ve-medeniyyet-abidelerini-mudafie-teskilati-ictimai-birliyi-ermenistana-qarsi-qaldirilan-mehkeme-iddia-si-ile-bagli-tedbir-kecirib.html*

Araşdırmanın nəticəsi olaraq qeyd etmək lazımdır ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində tarixi-mədəni abidələrə, o cümlədən bəşəri əhəmiyyətli mədəni sərvətlərə qarşı vandal siyasəti həyata keçirmiş və Ermənistanın belə fəaliyyəti Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında 1954-cü il tarixli Haaqa konvensiyasına, Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il tarixli Haaqa konvensiyasına dair İkinci Protokola, Arxeoloji irsin mühafizəsi haqqında 1992-ci il Avropa Konvensiyasına, Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında UNESCO-nun 1972-ci il Konvensiyasına və digər beynəlxalq hüquq sənədlərinə ziddir.

İşğal zamanı düşməndən qorumaq üçün Bakıya gətirilən bir çox tarixi abidələr Vətən müharibəsinin nəticəsində azad olunan ərazilərdə yenidən yerləşdirildi.

Ermənistan isə dağıtdığı, mənsubiyyətini dəyişdirdiyi, satdığı tarixi-mədəni abidələrə görə məsuliyyət daşıyır və zərərin əvəzini ödəməlidir.

## *1.7. Ermənilər tərəfindən ekologiyaya vurulan zərər və beynəlxalq hüquqda dövlətlərin məsuliyyəti prinsipi*

Ətraf mühitin mühafizəsi BMT Nizamnaməsində və digər əsas beynəlxalq hüquqi aktlarda təsbit edilmiş müasir beynəlxalq hüququn tanınmış prinsip və normaları ilə tənzimlənir. BMT-nin 1972-ci il Ətraf Mühit Proqramı ilk dəfə olaraq ümumdünya səviyyəsində ətraf mühit problemlərinin həllinə yanaşmaları müəyyənləşdirdi. 1992-ci ildə BMT-nin Ətraf mühit və inkişaf konfransı ətraf mühiti qorumaq üçün dövlətlər arasında ədalətli bir qlobal tərəfdaşlıq yaratmağı hədəfləyən Rio-de-Janeyro

Bəyannaməsini qəbul etdi[210]. Konfransın gündəliyinin ikinci hissəsi meşələrin qırılması, səhralaşma, quraqlıq və s. ilə mübarizə mövzusuna həsr olunmuşdu. Konfransın qərarına əsasən ətraf mühitin müasir və gələcək nəsillərin xeyirinə qorunması və yaxşılaşdırılması, insanın sağlam ətraf mühit hüququnun qorunması, bərpa olunan və bərpa olunmayan təbii ehtiyatlardan istifadə, çirklənmənin qarşısının alınması, ətraf mühitin radioaktiv çirklənməsinin yolverilməzliyi, hərbi mühitin və ya təbii mühitə təsir vasitələrindən istifadənin qadağan edilməsi, dövlətin təbii sərvətlərinə dair ayrılmaz suverenliyi, ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlıq prinsipləri daxil olmaqla, davamlı inkişafa yönəlmiş 27 prinsip müəyyən edildi[211].

Baş Məclis 1993-cü ildən başlayaraq minaların ixracına moratoriuma çağırdı, 25-dən çox dövlət bu çağırışa qoşuldu. 1980-ci il Qeyri-insani silah haqqında konvensiyanın iştirakçıları 1996-cı ildə bu konvensiyaya əlavə olaraq Yerüstü minalar haqqında protokol qəbul etdilər. Həmin protokola əsasən bütün minalar zərərsizləşdirilməli idi. 1997-ci ildə Ottavada Kanada, Norveç və b. ölkələrin təşəbbüsü ilə Yerüstü minaların istehsalı, tətbiqi və ixracının qadağan edilməsi haqqında beynəlxalq konvensiya qəbul edildi. BMT-nin əksər üzvləri minaların zərərsizləşdirilməsi proqramının həyata keçirilməsi üçün xahiş etdilər.

BMT eyni zamanda, minaaxtaranların hazırlanması, mina təhlükəsi haqqında əhalinin maarifləndirilməsi proqramını maliyyələşdirir, həyata keçirir. Anqola, Əfqanıstan, Bosniya, Herseqovina, Yəmən, Kamboca, Laos, Mozambik, Ruanda və Xorvatiyada həyata keçirilən belə proqramlar Azərbaycanda Ərazilərin Minalardan Təmizlənməsi üzrə Agentlik (ANAMA) və qeyri-hö-

---

[210] *Международное право: Учебник. Отв.ред. Ю.М.Колосов, В.И.Кузнецов. М.: Международные отношения, 1998, s.587.*

[211] *Международное право: Учебник. Отв.ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М.: Международные отношения, 2000, s.607*

kumət təşkilatları (məsələn, Beynəlxalq Avrasiya Mətbuat Fondu) arasında əməkdaşlıqda həyata keçirilir.

2021-ci il 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq Azərbaycan Ordusu tərəfindən azad edilən ərazilərdə bütün yaşayış məntəqələri Ermənistan tərəfindən dağıdılmış, yandırılmışdır, başqa sözlə, ”yanmış torpaq” taktikası həyata keçirilmişdir. Ermənistanın həyata keçirdiyi "yandırılmış torpaq" taktikası təkcə Azərbaycana qarşı deyil, həm də insanlığa qarşı cinayətdir. Ermənistanın “yandırılmış torpaq” taktikasını həyata keçirməsi bu torpaqların uzun müddət istifadəsini mümkünsüz edir, torpaqların səhralaşdırılmasına gətirib çıxarır. Hələ 1993-cü ildə xarici informasiya agentlikləri ermənilərin “yandırılmış torpaq” taktikasını həyata keçirməsi, Azərbaycan-İran sərhədboyu ərazinin yandırılması haqqında məlumat verir, bu taktikanın münaqişəni gərginləşdirdiyini qeyd edirdilər[212]. 2006-cı il 7 sentyabr tarixində BMT Baş Məclisi Azərbaycanın işğal olunmuş ərazilərindəki genişmiqyaslı yanğınlarla əlaqədar "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamə qəbul etdi. Qətnamədə təcili ətraf mühit əməliyyatlarının, yanğınların bölgənin ətraf mühit üçün qısa və uzunmüddətli nəticələrinin qiymətləndirilməsi və onun bərpası zərurəti vurğulanırdı. Bu məqsədlə qətnamədə tərəflərin əməkdaşlıq etmək istəyi qeyd edilirdi[213]. ATƏT-in fakt araşdırıcı missiyası baş vermiş yanğınların qısamüddətli və uzunmüddətli ətraf mühitə təsirlərinin qiymətləndirilməsini apararaq “yanğınların bölgəyə ekoloji və

---

[212] *Письмо представителя Азербайджана от 15 ноября 1993 года на имя Генерального секретаря, Документ S/26762, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.251-252.*

[213] *Резолюция принятая Генеральной Ассамблеей 7 сентября 2006 года, http: // www.un.org/ russian*

iqtisadi ziyan vurduğunu və ərazilərdə insan sağlamlığı və təhlükəsizliyi üçün hədə olduğunu vurğuladı[214].

Lakin bu faktların təsdiqi ancaq kağız üzərində qaldı və beynəlxalq birlik tərəfindən təpki görməyən Ermənistan “yandırılmış torpaq” taktikasını İkinci Qarabağ müharibəsi zamanı da davam etdirdi. Ermənistanın istifadə etdiyi yandırıcı silahlar, həm də meşələrin yandırılmasına səbəb oldu. Torpaqların yararsız hala salınması ilə yanaşı, təbabətdə işlədilən nadir bitkilər məhv edilmiş, yandırılan meşələrdən qaçan heyvanlar qonşu rayonların təsərrüfatına ciddi ziyan vurmuşdur.

Ermənistan müharibə qurtardıqdan sonra minalanmış ərazilərin xəritəsini Azərbaycan hökumətinə vermir. Müharibədən sonra da 150-dən çox hərbiçi, xidməti vəzifələrini yerinə yetirən jurnalistlər, yaxud mülki vətəndaşlar minaya düşmüş, həlak olmuş, yaxud sağlamlıqlarını itirmişlər. Beynəlxalq birlik Ermənistanın bu cinayətinə göz yummamalıdır. Yalnız 2021-ci il iyunun 12-də 15 nəfər erməninin Ermənistana təhvil verilməsi müqabilində Ağdam rayonu üzrə 97 min, iyulun 3-də Rusiyanın təşəbbüsü ilə Füzuli və Zəngilanda 92 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələr Azərbaycan tərəfinə təqdim edildi. Lakin bu xəritələr ekspertlər tərəfindən araşdırıldı. Verilən xəritələrin dəqiqliyi 25 faizdir[215]. 75 faizi yanlış olan xəritələrə əsasən minaların təmizlənməsi mümkün deyil, bu, insanların həyatını təhlükə altında qoya bilər. Ona görə də Azərbaycan sapyorları səbrlə torpaqları minalardan təmizləməlidirlər.

Ətraf mühitin mühafizəsi haqqında prinsipləri pozan dövlətlər məsuliyyətə cəlb edilməlidirlər. Bu məqsədlə Ermənistan üzrə Beynəlxalq Ekologiya Məhkəməsinin yaradılması zəruridir,

---

[214] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.10.*
[215] *Prezident İlham Əliyevin "CNN Türk"ə müsahibəsi. 14.08.2021. https://www.youtube.com/watch?v=5qRl-4Xxk7k*

yaxud BMT sanksiyalar tətbiq etmək səlahiyyətləri daxilində, beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq, Azərbaycana vurulan zərərin əvəzinin ödənilməsi və ekoloji təhlükəsizlik prinsiplərini pozan Ermənistanın məsuliyyətə cəlb edilməsi üzrə komissiya yaratmalıdır. Zərərin əvəzinin ödənilməsi məsuliyyətinin tətbiq edilməsi müsbət nəticələr verə bilər. Ermənilərin işğal edilən əraziləri yandırması qlobal səviyyədə ekoloji problem yaradır. Hər hansı bir dövlət digər dövlətə qarşı onun təbiətinin dağılmasına yönəldilmiş hərbi, yaxud digər vasitələrdən istifadə etməməlidir. Bu prinsip 1907-ci il Quru müharibəsinin adət və qanunları haqqında Haaqa konvensiyasında və ona əlavə 1949-cu il Müharibə zamanı mülki əhalinin qorunması haqqında Cenevrə konvensiyalarında, həmçinin 1977-ci il Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına I Əlavə protokolda, 1977-ci il Ətraf mühitə hərbi və istənilən ədavət yolu ilə təsir etməyin qadağan edilməsi haqqında konvensiyada, 1980-ci il Adi silahların konkret növlərinin qadağan edilməsi, yaxud məhdudlaşdırılması haqqında konvensiyada təsdiqini tapmışdır. 1980-ci il Adi silahların konkret növləri haqqında konvensiyaya əlavə olaraq Yandırıcı silahların qadağan edilməsi, yaxud məhdudlaşdırılması haqqında III Protokol yandırıcı silahların tətbiq edilməsi ilə meşə və digər növ bitki sahələrinin hücum obyekti edilməsini qadağan edir. 1977-ci il Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına I Əlavə protokolun 35-ci maddəsində yazılır ki, təbiətə geniş, uzunmüddətli və ciddi zərərlərin vurulması məqsədilə hərbi əməliyyat metodlarının tətbiqi qadağan edilir[216]. Ona görə ki, belə hallar təbiəti iflic edir və ümumilikdə bəşəriyyətə zərər vurur.

---

[216] *Международное право: Учебник. Отв.ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М.: Международные отношения, 2000, s.617.*

Ermənistanın işğalı ilə əlaqədar Azərbaycan meşələrin qırılması, yandırılması, səhralaşma problemləri ilə qarşılaşmışdır. Kəlbəcər, Ağdərə, Bərdə və Tərtər rayonları ərazisindən axan Tərtərçay, Azərbaycanın Gədəbəy, Tovuz və Ermənistanın Berd rayonu ərazilərindən axan Axınca çayının sol qolu Tovuzçay, Kəlbəcər, Ağdam və Bərdə rayonları ərazisindən keçən Xaçınçay və s. çayların mənbələri uzun müddət erməni işğalı altında olan bölgələrdə olduğu üçün həmin sulara ermənilər zəhərli maddələr axıtmışlar. Bu cür sulardan nəinki məişətdə, hətta kənd təsərrüfatı sahələrində istifadə edilməsi olduqca təhlükəlidir. Mənfur düşmən yayda suyu kəsir, qışda buraxırdı və su bütün torpaqları basırdı. 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonunun azad edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edən Prezident İlham Əliyev çıxışında qeyd etdi:" ... Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri vardır. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilmiş soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətləri vardır... Görün son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldurlar, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırıb aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər.

Araz, Kür və Ağstafa çayları üzərində inşa edilən onlarca su anbarı Ermənistan tərəfindən intensiv şəkildə çirklənməyə məruz qalmışlar. Ermənistanın Qafan rayonu və Azərbaycanın Zəngilan rayonu ərazisindən keçən Oxçuçaydan Araza, oradan Kürə və nəhayət, Xəzər dənizinə ağır metallar, turşu, qələvi və aşı maddələrlə zəngin tullantılar axıdılmışdır"[217].

---

[217] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.180-181.*

Bundan başqa, nüvə qalıqlarının, radioaktiv maddələrin ekoloji təhlükəsizliyi pozması probleminin bu gün gündəmdə olmasına baxmayaraq, Ermənistan radiaktiv maddələrin yayılmasının yolverilməzliyi prinsipini də pozur. Ermənistanda olan Metsamor AES-i Türkiyənin 16 km-də, İranın 60 km-də, Gürcüstanın və Azərbaycanın 120-150 km-də yerləşir və yalnız Azərbaycan üçün deyil, həm də region ölkələri üçün təhlükə törədir[218]. Əgər orada fəlakət olarsa, bütün Cənubi Qafqaz ölkələrinə, Yaxın və Orta Şərq ölkələrinə zərbə dəyəcək, Cənubi Qafqazın əksər hissəsində olan canlılar məhv olacaqdır. 2016-cı il aprelin 1-də Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammitində iştirak edən Prezident İlham Əliyev bu məsələni diqqətə çatdırdı: "Diqqətinizi yönəltmək istədiyim digər bir məsələ isə Ermənistanın 1976-cı ildə inşa edilmiş, köhnəlmiş atom elektrik stansiyasının istismarı ilə bağlıdır. Bu stansiya köhnələn reaktorunu soyutmaq üçün su qıtlığı yaşanan çox seysmik bir zonada yerləşir və region üçün birbaşa təhlükə doğurur. Elektrik stansiyasını istismardan çıxarmaq əvəzinə, Ermənistan onu 2026-cı ilə qədər istismar etməyi planlaşdırır. Bu isə o deməkdir ki, bütöv region, o cümlədən Ermənistanın özü də növbəti 10 il ərzində təhlükə içində yaşayacaqdır. Mən beynəlxalq birliyin diqqətini bu məsələyə yönəltmək istəyirəm ki, elektrik stansiyasının fəaliyyətinin dayandırılması və beynəlxalq ictimaiyyətin gözlədiyi qayda və prosedurlara əməl edilməsi üçün Ermənistana təzyiq göstərilsin[219].

Lakin dünya birliyi tərəfindən Ermənistana təzyiq göstərilmədi və region dövlətləri üçün çox təhlükəli olan AES fəaliyyət göstərməkdədir.

---

*[218] "Metsamor" AES region üçün aşkar təhlükə mənbəyidir. 25.05.2016. http://newtimes.az/az/politics/4525*

*[219] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 73-cü kitab, Bakı: Azərnəşr, 2018, s.170.*

# FƏSİL II

# ERMƏNİSTANIN DÜNYANI ALDATMAQ CƏHDLƏRİ VƏ ONUN BU SİYASƏTİNİN İFŞASI İSTİQAMƏTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK FƏALİYYƏTİ

## *2.1. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın informasiya müharibəsi və Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində dünya birliyinin Azərbaycan haqqında rəyinin müsbət istiqamətdə dəyişməsi*

Ordu olmadan, İnformasiya Kommunikasiya Texnologiyalarının hücumu ilə iqtisadiyyatda qeyri-sabitlik yaradıla bilər, dövlətin əsasları dağıdıla bilər[220]. Hələ münaqişənin başlanğıcında Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməklə yanaşı, yalan məlumatlar verir, dünya birliyində yalan məlumatlar yayır, Azərbaycan torpaqlarını işğal etdiyini və gələcəkdə özünə birləşdirmək niyyətlərini gizlətməyə çalışırdı.

Hər vasitə ilə BMT və eləcə də Təhlükəsizlik Şurasını həqiqəti bilməkdən yayındırmağa cəhd edən Ermənistanın BMT yanında daimi nümayəndəliyi Təhlükəsizlik Şurasına Azərbaycanın "Dağlıq Qarabağ respublikasına" hücumları, Rusiya və ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində rolunun mümkünlüyü haqqında yazırdı[221]. 1993-cü il mayın 3-də Ermənistanın BMT

---

[220] *Современная мировая политика: Прикладной анализ / Отв. Ред. А.Д.Богатуров. М.: Аспект Пресс, 2010, s.477.*

[221] *Письмо представителя Армении от 27 января 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25186, Совет Безопаснос-*

yanındakı daimi nümayəndəsi A. Arzumanyanın Təhlükəsizlik Şurasına göndərdiyi Ermənistan XİN-nin 1 may tarixli bəyannaməsində Azərbaycanın Ermənistana qarşı irimiqyaslı hərbi əməliyyatlar keçirməsi və Azərbaycanın hərbi əməliyyatların güclənməsində tam məsuliyyət daşıdığı göstərilmişdi[222]. Ermənistan rəhbərliyi yalan məlumat verirdi ki, Azərbaycan ərazisində bir nəfər də olsun Ermənistan əsgəri yoxdur. Belə bəyanatların verilməsində məqsəd Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ört-basdır etmək, danışıqlarda qondarma quruma tərəf statusu vermək idi. Halbuki, Ermənistan Şuşanı və Laçını işğal etdikdən sonra Laçın dəhlizindən Dağlıq Qarabağa hərbi texnika, canlı qüvvə, Ermənistanda, xaricdə təhsil alan hərbçilər göndərirdi[223]. London Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunun materiallarına əsasən, Dağlıq Qarabağ ərazisində Ermənistan Respublikasının 8 min hərbi qulluqçusu var idi[224]. Ermənistan tərəfindən yayılan saxta, yalan sənədlər dünya birliyini, o

---

*ти. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.132.*

*[222] Письмо представителя Армении от 3 мая 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25712, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.161-162.*

*[223] Письмо представителя Азербайджана от 16 марта 1993 года на имя на имя Председателя Совета Безопасности, Документ S/25424, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.290.*

*[224] Письмо представителя Азербайджана от 7 декабря 1993 года на имя Генерального секретаря, Документ S/26852, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.341-343.*

cümlədən BMT və eləcə də Təhlükəsizlik Şurasını həqiqəti bilməkdən yayındırmağa yönəldilmişdi.

Ermənistan dünya siyasətinə təsir edə bilən dövlətlərdə erməni diasporasından məharətlə istifadə edirdi. ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də hökumət səviyyəsində Azərbaycana hər cür yardım, o cümlədən humanitar yardım göstərilməsini qadağan edən qərarı – "Azadlığı dəstəkləmə aktı"na edilmiş 907-ci əlavəni qəbul etməsi erməni lobbisinin fəaliyyətinin nəticəsi idi. Həmin dövrdə ABŞ-da ermənilərin maraqlarını Amerika Erməniləri Milli Komitəsi müdafiə edirdi, Azərbaycan lobbizmi isə yox dərəcəsində idi. Harriman adına İnstitutda çalışan Ə.Rasizadə ABŞ-da Azərbaycan lobbisinin zəifliyi haqqında yazırdı: "Ermənilər çıxış edən yerdə onların səsini eşitməzsən, soydaşlarımız siyasətdən qaçır, bir-birinə yovuşmur, yaddırlar, heç təşkilatları yoxdur"[225].

Yalnız Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin düşünülmüş daxili və xarici siyasətinin nəticəsi olaraq dünya dövlətlərinin, eləcə də ABŞ-ın dövlətimizə münasibəti dəyişdi. Heydər Əliyev 1999-cu il aprelin 27-də ABŞ-da olarkən nüfuzlu konqresmenlərin bir qrupu ilə görüşdü, dövlət başçısı Azərbaycanın xarici siyasətini, Dağlıq Qarabağ probleminin həll edilməsi üçün ədalətli mövqeni təfsilatı ilə izah etdi. Konqresmen Çet Edvards Azərbaycan rəhbərinə öz minnətdarlığını belə bildirdi: "Bizə göstərdiyiniz liderlikdən bəhrələnərək, nümunə götürərək Konqresdə 907-ci maddənin ləğvinə həsr olunan müzakirələr zamanı eyni liderlik göstərəcəyik..."[226].

---

[225] *Cəfərova V.M. Dünya dövlətlərinin siyasi sistemi: ABŞ. Bakı: Elm, 2000, s.27.*

[226] *Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, V c., Bakı: Göytürk, 1999, s.221; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının nüfuzlu konqresmenlərinin bir qrupu ilə görüşdə söhbətindən – Vaşinqton, Kapitoli binası, 27 aprel 1999-cu il http://lib.aliyevheritage.org/az/-6606335.html*

Ermənistan öz təcavüzkarlıq planlarını gizlətmək üçün qondarma Dağlıq Qarabağ hakimiyyətindən istifadə edir, müstəqil dövlət kimi Dağlıq Qarabağın Azərbaycanla danışıqlar keçirməsi təşəbbüsünü irəli sürür, əsl təcavüzkar isə kənarda qalırdı. Məqsəd Dağlıq Qarabağın tərəf "dövlət" kimi danışıqlarda iştirak etməsi, Ermənistanın məsuliyyətdən kənarlaşdırılması idi. Ermənistan Prezidenti L.Ter-Petrosyan sülh əldə etmək məqsədi ilə Ermənistanın "Dağlıq Qarabağ hakimiyyəti"nə müraciət etdiyini Təhlükəsizlik Şurasına bildrərək, dünya birliyini əsl həqiqəti bilməkdən yayındırırdı[227].

Ermənistan özünü köməksiz, yazıq dövlət kimi göstərməkdə davam edərək "Rusiyanın vasitəçiliyi ilə əldə edilən atəşkəs haqqında sazişlərin Azərbaycan tərəfindən pozulması, blokadada olan Ermənistanı xarici aləmlə əlaqələndirən Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərində dəmiryolu, qaz kəmərinin partladılmasında Azərbaycan hökumətinin birbaşa iştirak etməsi" haqqında dünya ölkələrində yalan məlumatlar yaymağa və səhv fikir formalaşdırmağa çalışırdı. 1993-cü il yanvarın 27-də Ermənistanın BMT yanındakı daimi nümayəndəsi A.Arzumanyan Təhlükəsizlik Şurası sədrinə məktubda Azərbaycandan Ermənistana gətirilən bütün mallara 1989-cu ildən blokada qoyulduğunu, Ermənistanda fövqəladə vəziyyət haqqında məsələyə baxılmasını xahiş edirdi[228]. Ermənistan bir tərəfdən Azərbaycanın torpaqlarını

---

[227] *Письмо представителя Армении от 1 сентября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26393, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.296.*

[228] *Письмо представителя Армении от 27 января 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25181, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.130-131.*

işğal edir, digər tərəfdən Azərbaycanın təbii sərvətlərindən bəhrələnmək istəyirdi. Ermənistan "qabaqlama" siyasəti yeridərək, özünü ədalətli dövlət kimi dünya birliyinə təqdim etmək üçün bu addımları atırdı: "Əgər Azərbaycan bu xahişləri yerinə yetirmirsə, onda biz Təhlükəsizlik Şurasına Azərbaycana qarşı sanksiyalar qoyulması məsələsinə baxmaq təklifi ilə müraciət edirik"[229].

Blokada ilə əlaqədar kömək haqqında xahişlər, enerji böhranı Ermənistanın təcavüzkarlıq hərəkətlərinin ört-basdır edilməsinə xidmət edirdi. Çünki Ermənistan Azərbaycanla sərhəddində (768 km.) olan kommunikasiya sistemini özü dağıtsa da, bu dəmiryolundan başqa, Gürcüstan ərazisi ilə (164 km.) Qara dəniz limanlarına çıxmaq üçün, İran ərazisi ilə (35 km.) Yaxın və Orta Şərq ölkələrinə keçmək üçün kifayət qədər kommunikasiya əlaqələrinə malik idi[230]. Türkiyə ilə sərhəd isə (268 km.) Ermənistanın İstiqlaliyyət bəyannaməsinin 11-ci bəndində Türkiyəni soyqırımıda günahlandırması, torpaq, təzminat iddia etməsi və Azərbaycanın Kəlbəcər rayonunu işğal etməsindən sonra bağlanmışdı. Məlum olduğu kimi, Kəlbəcərin işğalından sonra Türkiyə Ermənistanla diplomatik əlaqələri kəsmişdir və hal-hazırki dövrdə də dövlətlər səviyyəsində əlaqələr yoxdur. Türkiyənin məqsədi sülhə nail olmaqdır. 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Qələbə Paradında iştirak etmək üçün Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikasinin Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında dedi: "Bizim də qapılarımızı Ermənistanın üzünə bağlamaq kimi bir dərdimiz yoxdur. Çünki biz sülhün göyərçinləri olmaq istəyirik, sülh addımları atmaq istəyirik. Üstəlik, bizim Ermənistan xalqına bir kinimiz yoxdur. Problem Ermənistanın hakimiyyəti ilədir. Mənim ölkəmdə 100 mindən çox erməni

---

[229] *Yenə orada.*

[230] *Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.65.*

var. Bunların arasında vətəndaşlıq hüququnu əldə edəni də var, əldə etməyəni də var. Amma biz onları da ölkəmizdə qonaq qəbul edirik. Niyə? Çünki bizim insanlara qarşı heç bir kinimiz yoxdur. Məqsəd xüsusilə bu sülhü formalaşdırmaq, möhkəmləndirməkdir. Addımlarımızı da buna görə atmalıyıq"[231].

Ermənistan aldığı humanitar yardımı sosial və iqtisadi problemlərə deyil, Azərbaycana qarşı işğalçılıq siyasətinin davam etdirilməsinə sərf etmişdir. 1993-cü il 29 yanvar tarixində Təhlükəsizlik Şurası Ermənistan və Naxçıvan Muxtar Respublikasına enerji verilməsindəki fasilələrin məhvedici nəticələrini aradan qaldırmaq məqsədilə bəyanat verdi[232]. Məhz Təhlükəsizlik Şurasının münaqişə tərəflərini fərqləndirməməsi nizamasalmanı təxirə saldı. Belə ki, BMT Nizamnaməsinə müvafiq olaraq üzv dövlətlər Ermənistanı beynəlxalq hüquq normalarına riayət etməyə məcbur edən sanksiyalar qəbul etməli idilər. Lakin bəyanatda Təhlükəsizlik Şurası üzvləri bütün imkanlı dövlətləri həm Ermənistana, həm də Azərbaycanın Naxçıvan Muxtar Respublikasına humanitar yardımın, yanacağın maneəsiz verilməsini təmin etməyə çağırdılar. Məsələ də aydındır: Azərbaycanda daxili sabitsizlikdən istifadə edən Ermənistan dünya birliyində münaqişənin əsl səbəbləri, nəticələri barədə dezinformasiya mühiti yaratmışdı. Təsadüfi deyildir ki, 1992-ci ildə ABŞ Konqresi məhz Mehri yolu bağlı olduğu üçün Azərbaycana qarşı 907-ci maddəni qəbul etmişdi[233]. Ümummilli lider

---

[231] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.275.*

[232] *Письмо представителя Азербайджана от 12 января 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25143, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.94-95.*

[233] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 41-ci kitab, Bakı: Azərnəşr, 2012, s.369.*

Heydər Əliyev beynəlxalq təşkilatın Bakı-İrəvan yolunun açılması haqqında təklifinə uyğun olaraq Ermənistanın Prezidenti R.Köçəryana ilkin addım kimi, bu yol üzərində olan 4 rayonun azad edilməsini təklif etdikdə, o, buna etiraz etdi və bildirdi ki, bu yol onlara lazım deyildir[234].

Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində dünya birliyinin Azərbaycan haqqında rəyi müsbət istiqamətdə dəyişdi. Heydər Əliyev dünya dövlətlərinə bildirdi ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın İranla həmsərhəd olan və dəmiryolunun keçdiyi Füzuli, Cəbrayıl, Zəngilan rayonlarını işğal etmiş, yolları dağıtmış, özləri-özlərini bu dəmiryolu kommunikasiyasından məhrum etmişlər. Həmin dəmiryolu Bakıdan başlayaraq, İran-Azərbaycan sərhədboyu təxminən 40 km. Ermənistan ərazisindən, sonra Naxçıvan Muxtar Respublikası ərazisindən keçib Ermənistana gedirdi[235].

Ermənistan təcavüzkar niyyətlərini gizlətmək məqsədi ilə BMT Baş katibinə göndərdiyi məktubunda Azərbaycan hökumətinin guya "etnik təmizləmə" siyasəti həyata keçirərək erməniləri Goranboyun Yuxarı və Aşağı Ağcakənd, Xanlar rayonunun Çaykənd kəndlərindən çıxarması, Bakı və Gəncədən olan azərbaycanlıları həmin yerlərdə yerləşdirməsi barədə yalan məlumat verdi. Bu məktuba cavab olaraq Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi BMT Baş katibinə Azərbaycanda etnik azlıqlara qarşı heç bir ayrı-seçkiliyin həyata keçirilməməsi, yuxarıda adları çəkilən kəndlərdə isə Ermənistandan gələn qaçqınların yerləşdirilməsi haqqında bildirdi[236].

---

[234] *Yenə orada, s.368-369.*

[235] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.53-54.*

[236] *Письмо постоянного представителя Азербайджана при Организаций Объединенных Наций от 2 февраля 2005 года на имя Генерального секретаря // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.102.*

Bəzi əcnəbi "tədqiqatçıların" yazıları dünya birliyində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında yanlış fikir yaradırdı. Məsələn, Rusiya tədqiqatçısı V.A.Derqaçev "Geosiyasət" kitabının "Böyük Qafqaz" adlanan fəslində bizim eradan bir neçə əsr əvvəl Dağlıq Qarabağın "Böyük Ermənistan" ərazisinə daxil olduğunu qeyd edərək, 1639-cu ildə Ermənistanın Türkiyə və İran arasında bölünməsi ilə əlaqədar Dağlıq Qarabağın yarım əsr erməni dövləti olduğunu və müasir Ermənistanda Qarabağın dövlətçilik tarixi olduğunu göstərir[237]. Belə yanaşma kökündən səhvdir. Müəllifin məntiqi ilə yanaşılsa, onda gərək indiki Rusiya ərazisinin tərkibində olan Şimali Qafqaz, Tatarıstan, Başqırdıstan, Sibir və b. ərazilər müstəqil olsunlar. Belə "alim"lərin olması, tarixi bilərəkdən, yaxud bilməyərəkdən saxtalaşdırması ictimai rəyin düzgün formalaşmasına mane olurdu.

Rusiya tədqiqatçısı A.Q.Zdravomıslov əsərinin "SSRİ-də millətlərarası münaqişələrin inkişafı. Tarixi-sosial oçerk" adlı I fəslində Cənubi Qafqazda olan münaqişələrdən, o cümlədən Dağlıq Qarabağ münaqişəsindən, gürcü-abxaz münaqişəsindən bəhs edir. Əsərdə bir sıra yanlış fikirlər mövcuddur. Müəllif Azərbaycan hökumətinin 70-80-ci illərdə Dağlıq Qarabağ regionunda milli siyasətdə tarazlığa nail ola bilmədiyini, inzibati, mədəni cəhətdən DQMV-i Ermənistandan təcrid etdiyini, nəticədə Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə uğrunda mübarizəyə qalxdığını və Ermənistanın Dağlıq Qarabağı birmənalı dəstəklədiyini göstərir. Müəllif Dağlıq Qarabağda olan etnik tərkib, Ermənistandan qaçqın, Dağlıq Qarabağdan məcburi köçkün düşən azərbaycanlıların sayı haqqında da yanlış məlumatlar verir[238].

---

[237] *Дергачев В.А. Геополитика: Учебник для вузов. М.: ЮНИТИ-ДАНА, 2004, 526 с.*

[238] *Здравомыслов А.Г. Межнациональное конфликты в постсоветском пространстве. М.: Аспект Пресс, 1999, 286 с.*

Böyük Britaniya tədqiqatçıları Karolina Koks və Con Elbnerin yazdıqları və internet saytında yerləşdirdikləri "Etnik təmizləmə: Dağlıq Qarabağda müharibə" adlı kitabda Azərbaycan təcavüzkar dövlət kimi xarakterizə edilmiş, Dağlıq Qarabağ ermənilərinin isə bu münaqişənin ilk qurbanı olduğu göstərilmişdir. Kitabda Azərbaycanın 4-cü sovet ordusu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti və Şaumyan rayonunun (1992-ci il aprelin 29-dan tarixi adı ilə Aşağı Ağcakənd adlanır) erməni kəndlərinə hücum etməsi, minlərlə erməni əhalisinin Ermənistan və Dağlıq Qarabağda qaçqın vəziyyətində yaşaması, Dağlıq Qarabağ və Ermənistanın blokadaya alınması, Dağlıq Qarabağ əhalisinə humanitar yardıma maneələr yaradılması, Azərbaycanın Dağlıq Qarabağın mülki əhalisinə qarşı qrad tipli raketlərdən və s. istifadə etməsi, qadın, uşaq və qocaları məhv etməsi kimi uydurmalar qeyd edilmişdir. Müəlliflər Türkiyə, Rusiya və İranın Dağlıq Qarabağda maraqları olması barədə qeyd edərək, Türkiyənin "erməni soyqırımı"nın davamı olaraq Azərbaycandan istifadə etməsi, Dağlıq Qarabağ münaqişəsini qızışdırması barədə yalanlar yazırlar[239]. Özlərinin şəxsi mülahizələri olmayan, erməni müəlliflərin əsərlərinə istinad edən adı çəkilən müəlliflər bilmirlər ki, problemi belə xarakterizə etməklə Ermənistanın işğalçılıq siyasətinə, Dağlıq Qarabağ ermənilərini guya müdafiə etdiklərinə haqq qazandırırlar. Halbuki Azərbaycanın torpaqlarını ilhaq etmək Ermənistanın xarici siyasətinin prioritet vəzifələrindən biridir və bu siyasətə müxtəlif don geyindirmək üçün onun güclü təbliğat mexanizmi vardır. Qeyd etmək lazımdır ki, kitab-

---

[239] *Шахназаров А.М. Нагорный Карабах: факты против лжи, Информационно-идеологические аспекты Нагорно-Карабахского конфликта, http:// www.google.com*

da göstərilən xəritədə Laçın da daxil olmaqla, Dağlıq Qarabağ Ermənistanın tərkibində göstərilmişdir[240].

Təcavüz başlayan zaman Ermənistan bir tərəfdən Dağlıq Qarabağın sənayesi və iqtisadiyyatının inkişafından, əhalinin sosial-iqtisadi təminatından narazı olduğunu, digər tərəfdən isə Dağlıq Qarabağ ermənilərinin özünü müdafiə etdiyini bildirirdi. Bütün bunlar yalan idi. Çünki Dağlıq Qarabağ Muxtar Vilayətində yüngül və yeyinti sənayeləri, tikinti materialları, kənd təsərrüfatı və digər sahələr üzrə müəssisələr daha çox inkişaf etmiş, əhali işlə təmin olunmuşdu. Azərbaycanın iqtisadi regionları arasında Abşeron, Gəncə-Qazax, Naxçıvan Muxtar Respublikasından sonra Dağlıq Qarabağ Muxtar Vilayəti sənayenin inkişafına görə 4-cü yerdə dururdu. Təkcə DQMV-də 137 sənaye və tikinti müəssisəsi fəaliyyət göstərirdi[241].

Ermənistan özünün təcavüzkar dövlət kimi ittiham olunmasından yayınmaq məqsədi ilə BMT Baş katibinə məktubunda Azərbaycanın xarici ölkələrdən silah və hərbi sursat alaraq münaqişəni qızışdırması[242], Azərbaycanın İranın hava məkanından istifadə edərək Ermənistanın cənub hissəsinə hücum etməsi barədə bildirirdi[243].

---

[240] *Caroline Cox and John Eibner, Ethnic cleansing in progress: war in Nagorno Karabakh, http://www.google.com*

[241] *Həsənov T.G. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı: Çaşıoğlu, 2002, s.45.*

[242] *Письмо представителя Армении от 3 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/112, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.107.*

[243] *Письмо представителя Армении от 16 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/181, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.154-155.*

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayan zamandan Azərbaycanın ədalətli mövqeyini birtərəfli qaydada müdafiə edən dövlət Türkiyə oldu və o, münaqişənin nizama salınması haqqında BMT Təhlükəsizlik Şurasına müraciətlər etdi, bəyanatlar verdi. Türkiyə rəhbərliyi Ermənistanı öz qonşusu Azərbaycana qarşı təcavüzü kəsməyə, Azərbaycan torpaqlarını tərk etməyə, BMT Nizamnaməsi və ATƏT prinsiplərinə riayət etməyə çağırırdı[244]. Ermənistan isə Türkiyəni problemə müdaxilə etməkdə günahlandırmaqla öz təcavüzkar siyasətini "Dağlıq Qarabağ xalqını müdafiə etmək" pərdəsi altında gizlədirdi.

Ermənistanın BMT yanındakı daimi nümayəndəsi A.Arzumanyanın Təhlükəsizlik Şurasının sədrinə göndərdiyi qondarma Dağlıq Qarabağ respublikasının "xarici işlər naziri"nin bəyanatında Azərbaycanın həbsxana və əsir düşərgələrində saxlanılan ermənilərlə qeyri-insani rəftar edilməsi, Beynəlxalq Qırmızı Xaç Komitəsi nümayəndələri ilə görüşlərə maneələr törədilməsi, BQXK-nə hərbi əsirlərin saxlanıldığı yerin göstərilməməsi, 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarının əksinə olaraq, erməni əsirlərə işgəncələr verilməsi barədə yalan məlumatlar verilirdi[245].

---

[244] *Письмо представителя Турции от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26665, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.145; Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.30-31.*

[245] *Письмо представителя Армении от 14 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/173, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.145.*

Yuxarıda aparılan tədqiqatları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, münaqişənin ilk mərhələsindən başlayaraq Ermənistan Dağlıq Qarabağ münaqişəsi haqqında BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməklə yanaşı, Azərbaycana qarşı yalanlarla dolu informasiya müharibəsi aparmışdır. Öz təcavüzkar siyasətini gizlətmək məqsədilə Birinci Qarabağ müharibəsi zamanı Ermənistan Azərbaycana qarşı dezinformasiya müharibəsini aşağıdakı formalarda həyata keçirmişdir:

Birincisi, Ermənistan guya Dağlıq Qarabağ regionunun tarixən ona mənsub olması, bu ərazidə yaşayan ermənilərin Azərbaycan hökuməti tərəfindən təhlükədə olması barədə dünyanı təkidlə inandırmağa çalışırdı.

İkincisi, Azərbaycan ərazisindəki münaqişədə iştirak etməməsi barədə yanlış məlumatlar verən Ermənistan dünya ictimaiyyətini aldadır, öz təcavüzkarlıq siyasətini gizlətmək üçün qondarma Dağlıq Qarabağ hakimiyyətindən istifadə edir, müstəqil dövlət kimi Dağlıq Qarabağın Azərbaycanla danışıqlar keçirməsi təşəbbüsünü irəli sürürdü.

Üçüncüsü, Ermənistan dünyanın nüfuzlu ölkələrində olan erməni diasporası və lobbisindən məharətlə istifadə edərək dünya dövlətlərinin siyasətinə təsir göstərirdi.

Dördüncüsü, Ermənistan blokadada olması barədə dünya birliyinə məlumatlar verir, aldığı humanitar yardımı sosial və iqtisadi problemlərə deyil, Azərbaycana qarşı işğalçılıq siyasətinin davam etdirilməsinə sərf edirdi. Digər tərəfdən, Ermənistan Azərbaycanda olan məcburi köçkün və qaçqınların sayı haqqında dünya birliyində yalan məlumatlar yayırdı.

Beşincisi, Dağlıq Qarabağın erməni əhalisinin sosial-iqtisadi, mədəni cəhətdən təmin olunmaması barədə dünya birliyində yalan məlumatlar yayan Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistanın iqtisadiyyatı ilə inteqrasiya etməsi ideyasını irəli sürürdü.

Altıncısı, Ermənistan Azərbaycanda etnik azlıqlara qarşı ayrı-seçkiliyin həyata keçirilməsi haqqında BMT-nin Baş katibinə yalan məlumatlar verməklə, dünya birliyində yanlış fikir yaratmağa cəhd edirdi.

Yeddincisi, Ermənistan təcavüzkar dövlət kimi ittiham olunmasından yayınmaq məqsədi ilə Azərbaycanın xarici ölkələrdən silah və hərbi sursat alması və münaqişəni qızışdırması barədə BMT-yə məlumatlar verirdi.

Səkkizincisi, Ermənistan, Türkiyəni problemə müdaxilə etməkdə günahlandırmaqla, öz təcavüzkarlıq siyasətini pərdələyir, Türkiyənin Azərbaycanı müdafiə etməsi müqabilində, Ermənistanın Dağlıq Qarabağ regionu ermənilərini müdafiə etməsinə haqq qazandırır, Türkiyə Respublikasının Ermənistanın humanitar yardım almasına mane olduğunu bildirir və bunun qarşısını almaq üçün BMT-nin xüsusi nümayəndəsinin bu regiona göndərilməsini xahiş edirdi.

Doqquzuncusu, Ermənistanın yalan informasiya verməsi hərbi əsirlərin Ermənistan ərazisində yerləşdirilməsini gizlətməyə yönəldilmişdi.

Azərbaycan əleyhinə yalan məlumatlar yaymaqla Ermənistan təcavüzkarlıq siyasətini gizlətməyə çalışır, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın daxili problemi olduğunu, Dağlıq Qarabağ ermənilərinin “xalqların öz müqəddəratını təyinetmə” prinsipi uğrunda mübarizə aparmasına “əsaslanaraq” mübarizə etdiklərini, Ermənistanın yalnız onların təhlükəsizliyini müdafiə etdiyini, Azərbaycanın Dağlıq Qarabağı işğal etdiyini və buna görə də məsuliyyət daşıması barədə dünya birliyinə bəyan edirdi. Ermənistan Dağlıq Qarabağ regionunu Azərbaycanın hərbi-siyasi qurbanı kimi qələmə verərək, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək məqsədi ilə yalnız diplomatik vasitələrdən istifadə etdiyini bildirsə də, Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti

nəticəsində Azərbaycana qarşı informasiya blokadasını yarmaq, Dağlıq Qarabağ probleminə dair həqiqətləri dünya birliyinə çatdırmaq mümkün oldu.

## *2.2. 44 günlük Vətən müharibəsi zamanı informasiya müharibəsi və Prezident İlham Əliyevin xarici Kütləvi İnformasiya Vasitələri nümayəndələri ilə müsahibələrinin siyasi qələbədə rolu*

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri növbəti dəfə atəşkəsi pozaraq, Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşən Tovuz rayonu istiqamətində Azərbaycan ərazilərini atəşə tutdular. Məqsədləri işğal etdikləri ərazilərin miqyasını artırmaq idi. Azərbaycan Ordusunun şücaəti nəticəsində düşmən layiqli zərbə alaraq geri oturduldu. Təcavüzkar Ermənistan Tovuz döyüşlərində də dezinformasiyadan yararlanmağa çalışdı:

Birincisi, Ermənistan əvvəllər də istifadə etdiyi üsuldan - yerli əhali arasında panika yaratmaq vasitəsindən istifadə etməyə cəhd etdi. Belə bir dezinformasiya yaydı ki, guya ermənilər postları ələ keçirmiş, Tovuz rayonunun sakinləri öz yurdlarını tərk edirlər.

İkincisi, guya Azərbaycan Ordusunun ağır texnikasının, tanklarının vurulması, ciddi itkilərə məruz qalması haqqında dezinformasiya yaydılar.

Üçüncüsü, yüksək döyüş əzmində olan Azərbaycan Ordusunun arxasında dayanan Azərbaycan xalqı arasında təxribat yaratmağa cəhd etdilər. Erməni xainlərini geri oturdarkən əsgərlərindən öndə gedən, düşmənlərə ağır itkilər yaşadan və qəhrəmancasına şəhid olan general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin xəyanətin qurbanı olmaları, yüksək hərbi təlim görmüş hərbi mütəxəssislərin deyil, hərbi xidmətə yeni

çağırılmış, heç bir hərbi təlim görməyən əsgərlərin döyüşə göndərilməsi haqqında şayiələr yayaraq, xalq arasında inamsızlıq yaratmağa cəhd etdilər. Lakin torpaqlarını itirmiş, mütəmadi olaraq Ermənistan tərəfindən atəşkəsin pozulması nəticəsində əsgərlərin, hərbiçilərin şəhid olmaları haqqında xəbər alan xalqın səbri tükənmişdi, Azərbaycanın qəhrəman oğulları əraziləri düşmənlərdən təmizləmək üçün könüllü olaraq Orduya getməyə hazır idilər. Prezident-Ordu-Xalq birliyi açıq-aydın göz qarşısında idi. Məhz bu birliyin nəticəsində Azərbaycan Ordusu əzmlə irəliləyərək torpaqlarımızı işğaldan azad etdi. Xalq Ordunu dəstəklədi, könüllü cəbhəyə getmək üçün çoxlu müraciətlər olundu. Lakin güclü Azərbaycan Ordusunun buna ehtiyacı yox idi. Ermənilər Azərbaycan seqmentində yayılan bəzi şərhləri skrin edərək paylaşırdılar. İşğal altında olan torpaqlarımızın azad edilməsini səbirsizliklə gözləyən xalqımız isə təxribatlara yol açılmasına imkan vermədi. Sosial şəbəkələrdə Ordumuza ruh yüksəkliyi verən, erməniləri qorxuya salan paylaşımlar edildi.

44 günlük müharibədə Ali Baş Komandan müzəffər Azərbaycan Ordusunun döyüşlərdəki uğurları ilə eyni vaxtda informasiya siyasətinin də başına keçərək Azərbaycanın haqq səsini dünya mediasına və birliyinə çatdırdı, diplomatik sahədə və informasiya müharibəsində uğurlarımız Qarabağın işğaldan azad edilməsi prosesində qələbəmiz üçün müstəsna əhəmiyyət kəsb etdi. Qərbin informasiya kanalları qərəzli suallar verir, ittihamlar irəli sürür, Ermənistanı müdafiə mövqeyindən çıxış edirdilər. Müharibə zamanı İlham Əliyev Rusiya, Türkiyə, Fransa, Böyük Britaniya, İspaniya, Almaniya, İtaliya, Yaponiya və ABŞ kimi bir neçə ölkədən olan media qurumlarına rus, türk və ingilis dillərində olmaqla, 26 müsahibə vermiş və 600-dan çox sualı cavablandırmışdır[246]. Sualların hər birini Prezident tarixi faktlarla

---

[246] *44 günlük diplomatiya dərsləri. 14.04.2021. https://news.day.az/azerinews/-1334002.html*

cavablandırırdı. İnformasiya əsrində düşməni bu istiqamətdə də yerinə oturtmaq lazım idi. Əksər xarici müxbirlərin ittiham dolu təşviqat xarakterli suallarına İlham Əliyev səbrlə, faktlarla cavab verirdi, həmin ittihamların onların öz ölkələrinə uyğun olduğunu vurğulayırdı. Jurnalistlər öz ölkələrini təmsil edirdilər, onların fikirlərini nümayiş etdirirdilər. Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusunun qələbələrini, düşmənləri işğal olunan ərazilərdən qovmalarını regionda maraqları olan bəzi ölkələr həzm edə bilmirdilər və müharibənin yarıda kəsilməsi üçün siyasi təzyiqlər göstərirdilər. Lakin Prezident İlham Əliyev Azərbaycan Ordusunun döyüş meydanındakı haqq işini diplomatik- siyasi müstəvidə illərlə formalaşdırılmış hüquqi baza əsasında təmin etdi. Prezident İlham Əliyev təkcə müxbirlərin ona ünvanladığı sualları cavablandırmırdı, eyni zamanda münaqişənin sonlandırılmasında və Azərbaycanı dayandırmaqda maraqlı olan dünya liderlərinə də səslənirdi.

Qərb müxbirlərinin ittiham dolu suallarının əsasında isə yenə də Ermənistanın yalan informasiyaları dayanırdı. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan dezinformasiyanı aşağıdakı istiqamətlərdə aparırdı:

- Azərbaycan Silahlı Qüvvələrinin mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan, o cümlədən kasetli raketlərdən istifadə etməsi;
- Azərbaycan Silahlı Qüvvələrinin mülki əhaliyə qarşı dronlardan istifadə etməsi (Fransa və Rusiya da dəlil gətirmədən belə bəyanatlar yayırdılar. Məqsəd müharibədə işğalçı Ermənistana kömək etmək üçün zəmin yaratmaq, Azərbaycanın mülki əhalisinə qarşı qadağan olunmuş silahlardan istifadə etmələrinə “haqq” qazandırmaq, müzəffər Azərbaycan Ordusunun nüfuzunu azaltmaq idi);
- Türkiyənin müharibədə hərbi iştirakı (Məqsəd Rusiyanı münaqişəyə cəlb etmək idi);

- Türkiyənin Mərkəzi Asiyanın türk xalqları ilə əlaqələrə birbaşa sahib olmaq üçün Ermənistanı yox etmək planı;
- minlərlə muzdlunun Türkiyədən keçməklə Suriyadan gətirilməsi;
- Azərbaycan Silahlı Qüvvələrinin erməni kilsələrini dağıtmaları;
- ermənilərin əsrlərboyu Qarabağda yaşamaları;
- azad mətbuatın, müxalifətin olmadığı bir yerdə ermənilərin də hüquqlarının pozulacağı (Məqsəd Azərbaycanın daxilində qarışıqlıq yaratmaq, eyni zamanda status almaq idi.) və s.

Prezident İlham Əliyev 2020-ci il sentyabrın 29-da "Rossiya-1"telekanalında yayımlanan "60 dəqiqə" proqramına[247], oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına[248], oktyabrın 4-də "Əl-Ərəbiyə" televiziya kanalına[249], oktyabrın 5-də Türkiyənin "TRT Haber" televiziya kanalına[250], oktyabrın 6-da Rusiyanın "Perviy kanal" televiziya kanalına[251], oktyabrın 7-də "CNN Türk" televiziya кanalına[252], oktyabrın 7-də "Euronews" televiziya kanalına[253] , oktyabrın 9-da "CNN İnternational" televiziya kanalının "Connect the World" verilişinə[254], oktyabrın 9-da "Sky News" televiziya kanalına[255], oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına [256] , oktyabrın 12-də Türkiyənin

---

[247]*Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.82-88.*
[248] *Yenə orada, s.107-126.*
[249] *Yenə orada, s.144-156.*
[250] *Yenə orada, s.157-177.*
[251] *Yenə orada, s.187-197.*
[252] *Yenə orada, s.199-217.*
[253] *Yenə orada, s.218-224.*
[254] *Yenə orada, s.237-250.*
[255] *Yenə orada, s.251-261.*
[256] *Yenə orada, s.262-281.*

”Haber Global” televiziya kanalına[257], oktyabrın 13-də Türkiyənin ”Haber Türk” televiziya kanalına [258] , oktyabrın 14-də “France 24” televiziya kanalına[259], oktyabrın 15-də Türkiyənin NTV televiziya kanalına[260], Rusiyanın “RİA Novosti” agentliyi üçün “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyi media qrupunun baş direktoru Dmitri Kiselyova[261], oktyabrın 16-da Türkiyənin “A Haber” televiziya kanalına[262], oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə[263], oktyabrın 21-də Yaponiyanın “Nikkei” qəzetinə[264], oktyabrın 24-də Fransanın “Figaro” qəzetinə[265], oktyabrın 25-də Amerika Birləşmiş Ştatlarının “Fox News” televiziya kanalına[266], oktyabrın 26-da İtaliyanın "RAİ 1" televiziya kanalına[267], oktyabrın 28-də Rusiyanın “İnterfaks” Agentliyinə[268], Almaniyanın ARD televiziya kanalına[269], noyabrın 2-də İtaliyanın “La Republica” qəzetinə[270], noyabrın 4-də İspaniyanın EFE İnformasiya Agentliyinə[271], noyabrın 9-da “BBC News”a[272] müsahibə verərək Ermənistanın informasiyalarının yalan olduğunu, onun terror siyasətinin mahiy-

---

[257] *Yenə orada, s.282-296.*
[258] *Yenə orada, s.301-325.*
[259] *Yenə orada, s.327-334.*
[260] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.5-25.*
[261] *Yenə orada, s.26-35.*
[262] *Yenə orada, s.37-64.*
[263] *Yenə orada, s.84-100.*
[264] *Yenə orada, s.114-137.*
[265] *Yenə orada, s.147-161.*
[266] *Yenə orada, s.162-183.*
[267] *Yenə orada, s.214-221.*
[268] *Yenə orada, s.224-260.*
[269] *Yenə orada, s.261-278.*
[270] *Yenə orada, s.310-318.*
[271] *Yenə orada, s.319-333.*
[272] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.23-55.*

yətini açıqladı, Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun olaraq ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizə apardığını bildirdi.

Birincisi, Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan, o cümlədən kasetli raketlərdən istifadə etməsi haqqında yalan məlumatlar verirdi. Almaniyanın ARD televiziya kanalına müsahibə alan jurnalistin: "Onlar (ermənilər – R.D.) iddia edirlər ki, Siz kasetli raketlərdən istifadə edirsiniz. Hətta Sizin orada və Dağlıq Qarabağda kasetli raketlərdən istifadə etdiyinizə dair "Amnesty International" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var idi. Nəyə görə Siz bu növ silahlardan istifadə edirsiniz?" sualına Prezident İlham Əliyev "Bununla bağlı heç bir sübut yoxdur. Mən istərdim ki, onlar buraya gəlsinlər və o dəlilləri təqdim etsinlər. Eyni zamanda, Gəncəyə, Tərtərə, Bərdəyə getsinlər və ermənilərin hansı növ silahlardan istifadə etdiklərini görsünlər. Qərəzsiz olsunlar..."[273] – cavab vermişdi.

Bu haqda "BBC News"un müxbiri də Prezidentə sual verdi: "Lakin eynilə, Siz kassetli silahlardan danışdıqda, sübut var ki, Siz də mülki yerlərdə, Stepanakertin (Xankəndi – R.D.) küçələrində kassetli silahlardan istifadə etmisiniz və bu, "Human Rights Watch" təşkilatı tərəfindən geniş şəkildə sənədləşdirilmişdir, şəkillər çəkilmişdir, videolar çəkilmişdir, şahidlər ifadə vermişdir. Onların hadisə yerinə getmək imkanı var idi. Nəyə görə Siz o dərəcədə qeyri-dəqiq ola bilən kassetli silahlardan mülki yerlərdə istifadə edirsiniz?". İlham Əliyev bildirdi ki, "bu, Ermənistanın növbəti yalanıdır. Ermənistan kassetli bombalardan istifadə edir. ... biz "Human Rights Watch" təşkilatı ilə əməkdaşlığı beş-altı il bundan əvvəl dayandırdıq. Yalnız indi bu müharibə başlayanda

---

[273] *İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi. 31.10.2020. https://president.az/articles/45111*

biz onları bura gəlməyə və öz gözləri ilə görməyə dəvət etdik. Biz onların bu halları təsdiqləməsini istəyirdik, çünki onlar üçün "yox" demək imkanı yox idi. Buna görə biz onları dəvət etdik. Beləliklə, bu təşkilata Azərbaycanda etimad yoxdur"[274].

Ermənistanın yalan məlumatlarının təsiri altında olan, qarşısına yalnız bu təcavüzkar dövləti müdafiə etmək məqsədini qoyan jurnalist təkidlə döyüş zonasında olmaq istəyini bildirdikdə, Prezident "...Siz bizim dağıdılmış kəndləri görə bilərsiniz. Siz Gəncədə olmusunuz. Yəqin ki, siz Bərdəyə də gedə bilərsiniz. Buna görə bizim gizlədiləsi bir şeyimiz yoxdur. Biz öz torpağımızda vuruşuruq. Erməni ordusu bizim torpağımızdadır, onlar təcavüzkardır və biz təcavüzün qurbanı olmuşuq. Lakin bu gün biz qisasımızı alırıq. Bu gün biz onlara yerini göstəririk və dediyim kimi, onlar qalan əraziləri könüllü olaraq boşaltmasalar, biz onları axıra qədər qovacağıq"[275] – dedi.

İkincisi, Ermənistan dezinformasiya yayırdı ki, Azərbaycan mülki əhaliyə qarşı dronlardan istifadə edir. Prezident İlham Əliyev oktyabrın 25-də Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibəsində bildirdi ki, bu, yanlış məlumatdır: "...Rusiya və Fransa, yeri gəlmişkən, açıq şəkildə buna münasibət bildirən yeganə ölkələr belə məsuliyyətsiz bəyanatlar verdilər. Sübutlar, dəlillər tələb edildi və hələ də tələb edilir. Müharibə 20 gündən çoxdur ki, yenidən başlayıb, indiyədək nə Rusiya, nə də Fransa tərəfindən heç bir dəlil və ya sübut təqdim olunmayıb..."[276].

---

*[274] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.34; İlham Əliyev "BBC News"a müsahibə verib. 09.11.2020. https://president.az/articles/45845*

*[275] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.35-36; İlham Əliyev "BBC News"a müsahibə verib. 09.11.2020. https://president.az/articles/45845*

*[276] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.169-170; Azərbaycan humanitar atəşkəs şərtlərinə əməl edir, mülki şəxslərə və obyektlərə hücum etmir. 28.10.2020. http://shirvanqazeti-*

İlham Əliyev oktyabrın 14-də “France 24” televiziya kanalına[277] müsahibəsində bildirdi ki, Azərbaycan Ordusu yalnız mülki vətəndaşların və hərbiçilərin həyatlarını təhlükədə qoyan hədəfləri vururlar. Müxbirin erməni kilsələrinin hədəfə alınması, muzdlulardan istifadə edilməsi, Türkiyənin müharibədə hərbi iştirakı kimi qərəzli ittihamlarını Prezident faktlarla təkzib etdi. Ermənistanın təcavüzkar siyasətinə toxunmayan müxbir Azərbaycanın Türkiyədən silah almasını, dronlardan istifadə etməsini bildirdikdə, Prezident Azərbaycan Ordusunun dronlardan istifadə etdiyini etiraf etdi və diplomatik surətdə bildirdi ki, “...Biz artilleriyadan, geniş çeşidli hərbi avadanlıqlardan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub. Bu onlar üçün ciddi ziyandır. Mənə maraqlıdır, onlar bu avadanlıqları almaq üçün bu qədər pulu haradan tapıblar, çox güman ki, onu pulsuz əldə ediblər”[278].

Üçüncüsü, əcnəbi müxbirlər müharibədə Türkiyənin hərbi iştirakını bildirir və qərəzli, ittiham dolu suallar verirdilər. Ermənistan Rusiyanı münaqişəyə cəlb etmək üçün Türkiyənin müharibədə birbaşa hərbi iştirakı haqqında yalan məlumatlar yayırdı[279]. Türkiyə Respublikası ədalətin carçısı kimi həmişə Azərbaycan Respublikasının haqq mübarizəsini dəstəkləmiş, yanında olmuşdur. Azərbaycan Türkiyə istehsalı olan hərbi avadanlıqlarla yanaşı, Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə etsə də, üçüncü dövləti müharibəyə cəlb

*az/samaxi-ih/360-azrbaycan-humanitar-atks-rtlrin-ml-edir-mlki-xslr-v-obyektlr-hcum-etmir.html*

[277] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.327-334.*

[278] *Yenə orada, s.334.*

[279] *İlham Əliyev “France 24” televiziya kanalına müsahibə verib. 14.10.2020. https://president.az/articles/43037*

etmək üçün Ermənistan həmişə Türkiyənin müharibədə hərbi iştirak etdiyini dünya birliyinin nəzərinə çatdırmağa çalışırdı. Erməni dezinformasiyasının təsiri altına düşən Qərb müxbirləri də Türkiyənin adını vurğulayırdılar. 44 günlük Vətən müharibəsində sonadək qardaş Türkiyə Respublikası Azərbaycana siyasi və mənəvi dəstək verdi. Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin başçılığı altında Azərbaycan Silahlı Qüvvələrinin düşmən üzərində qələbə çalacağına inanırdı. Eyni zamanda Türkiyə Respublikasının Azərbaycanı dəstəkləməsi bu inam hissini daha da artırırdı. Türkiyənin məhz siyasi dəstəyinin sayəsində Ermənistana hamilik edən bir çox mənfi qüvvələr müharibədə müdaxilə etməkdən çəkindilər[280].

İlham Əliyev oktyabrın 24-də Fransanın "Figaro" qəzetinə[281] verdiyi müsahibəsində bildirdi ki, "Türkiyə əsla münaqişəyə cəlb edilməyib. Ermənistanın Azərbaycana qarşı hücum həyata keçirdiyi ilk saatlardan Türkiyə, Türkiyənin Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana güclü siyasi dəstək, beynəlxalq hüququn norma və prinsiplərinə dəstək verdilər. Azərbaycan tərəfində heç bir əcnəbi döyüşçü yox idi. Bu, dezinformasiyadır. Bu, müəyyən ölkələrin bəzi rəsmiləri tərəfindən yayılmışdır. Lakin bu vaxtadək, toqquşmalar başlayandan sonra iyirmi gündən çox bir müddətdə nə Fransadan, nə də Rusiyadan heç bir dəlil təqdim olunmamışdır"[282].

Fransanın "Figaro" qəzetinin müxbirinin "ermənilər deyirlər ki, onlar Gəncəni ona görə bombardman etdilər ki, Gəncədə

---

*[280] Prezident İlham Əliyevin "CNN Türk"ə müsahibəsi. 14.08.2021. https://www.youtube.com/watch?v=5qRl-4Xxk7k*

*[281] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.147-161; Prezident İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi. 28.10.2020. http://yeniheyet.az/siyaset/2213-prezident-lham-liyevin-fransann-figaro-qzetin-msahibsi.html*

*[282] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.151-152.*

Tükiyənin bir neçə F-16 qırıcı təyyarəsi var idi və bu F-16 qırıcı təyyarələrindən biri erməni təyyarəsini vurmuşdu" deməsinə cavab olaraq İlham Əliyev bildirdi ki, "Türkiyənin F-16 qırıcı təyyarələri ona görə Azərbaycandadır ki, toqquşmalar başlamadan öncə onlar birgə hərbi təlimdə iştirak edirdilər və onlar yerdədilər, onlar səmada deyillər. Ermənistanın Su-25 təyyarəsi dağa çırpılmışdır və onlar bunu guya Türkiyə F-16 qırıcı təyyarəsi tərəfindən vurulduğu kimi qələmə verməyə çalışırdılar"[283]. "...Azərbaycana hərbi avadanlığı ən çox təchiz edən Türkiyə və İsrail deyil. Bu, Rusiyadır. Lakin Ermənistandan fərqli olaraq, Azərbaycan Rusiyadan aldığı silahlara görə pul ödəyir. Ermənistan Rusiyadan silahları pulsuz əldə edir. Biz həmçinin İrandan, Ukraynadan, Belarusdan silah alırıq"[284].

Oktyabrın 26-da İtaliyanın "Rai-1" televiziya kanalına müsahibədə Prezident İlham Əliyev Ermənistan ərazisində Rusiyanın MiQ-29, Su-30 təyyarələrinin olduğunu, Rusiyanın Gümrüdəki 5 minlik bazasından vaxtaşırı olaraq Ermənistan silahlı qüvvələrinə təchizat göndərildiyini bildirdi[285].

Dördüncüsü, Türkiyənin Mərkəzi Asiyanın türk xalqları ilə əlaqələrə birbaşa sahib olmaq üçün Ermənistanı yox etmək planı haqqında yalan məlumatlar yayılırdı. Fransanın "Figaro" qəzetinin müxbirinin qərəzli olaraq, "Siz düşünmürsünüz ki, Türkiyənin Mərkəzi Asiyanın türk xalqları ilə birbaşa əlaqəyə sahib olmaq üçün Ermənistanı silmək planı vardır?"[286] sualına cavab olaraq, İlham Əliyev bildirdi ki, bu, Ermənistanın növbəti yalanıdır: "...Mənim Paşinyan hakimiyyətə gəlməzdən əvvəl Er-

---

[283] *Yenə orada, s.150-151.*
[284] *Yenə orada, s.152-153.*
[285] *Yenə orada, s.217-218; İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib. 26.10.2020. https://president.az/articles/44514*
[286] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.159.*

mənistan liderləri ilə müzakirə etdiyim sülhməramlı planda kommunikasiyalara açıq-aydın istinad var idi. Sülh sazişi imzalanandan sonra bütün kommunikasiyalar açılır, o cümlədən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında. Beləliklə, Türkiyənin, Azərbaycanın və Mərkəzi Asiyanın quru əlaqəsi olacaq. Bu gün bizdə bu yoxdur. Lakin Türkiyənin həmin regionla Azərbaycan vasitəsilə əlaqəsi var. Biz bir neçə il bundan əvvəl Bakı–Tbilisi–Qars dəmir yolunu tikdik. Beləliklə Türkiyə malları Gürcüstan, Azərbaycan və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə daşınır...”[287].

Beşincisi, minlərlə muzdlunun Türkiyədən keçməklə Suriyadan gətirilməsi haqqında dezinformativ məlumatlar yayılırdı. Ermənistan Suriyadan olan 300 döyüşçünün Azərbaycan tərəfində vuruşduğunu buldirirdi. Məqsəd ölkəmizin nüfuzuna xələl gətirmək və döyüş meydanında əsgərlərimizin mərdliyinin əhəmiyyətini azaltmaq idi. Fransanın “Figaro” qəzetinə müsahibə verərkən Prezident məsələyə belə aydınlıq gətirdi: “Digər bir məsələ ondan ibarətdir ki, Azərbaycana əcnəbilər lazım deyil, çünki Azərbaycanın 100 min nəfərdən ibarət nizami ordusu var, müasir avadanlığı var, 30 ildir ki, işğaldan əziyyət çəkən motivasiyalı insanları var...”[288].

Altıncısı, Ermənistan dezinformasiya yayırdı ki, guya Azərbaycan Silahlı Qüvvələri erməni kilsələrini dağıdırlar. Halbuki, özləri qəsdən kilsələri atəşə tuturdular ki, Azərbaycanın haqq mübarizəsinə ləkə yaxsınlar, müharibəni xristian-islam qarşıdurmasına yönəldərək xristian ölkələrini üçüncü tərəf kimi müharibəyə cəlb etsinlər. Prezident İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibə alan müxbirin “necə olub ki, Dağlıq

---

[287]*Yenə orada, s.159-160.*
[288]*Yenə orada, s.152-153.*

Qarabağda kilsəyə zərbə endirilib" ittihamına çox tutarlı cavab verdi: "Bakıdakı erməni kilsəsi bizim tərəfimizdən qorunub saxlanıb. Biz onu dağıtmamışıq. Biz onu qoruyuruq. Biz orada minlərlə erməni kitabı saxlayırıq. Onlar isə işğaldan azad edilmiş Zəngilanda məsciddə donuz saxlayırdılar. Fərq bundadır"[289].

İlham Əliyevin oktyabrın 24-də Fransanın "Figaro" qəzetinə müsahibəsi zamanı müxbirin Azərbaycanın öz torpaqlarını azad etməsi uğrunda mübarizəsinin guya xristian-islam qarşıdurması olduğuna işarə edən "Qafqaz regionunda digər xristian ölkəsi olan Gürcüstanla münasibətləriniz necədir?" sualına İlham Əliyev bildirdi ki, Türkiyə kimi, Gürcüstan ilə münasibətlərimiz də mükəmməldir: "...Gürcüstanın xristian, Azərbaycanın müsəlman ölkəsi olması faktının heç bir fərqi yoxdur. Biz bu regiona bu nöqteyi-nəzərdən baxmırıq"[290].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 6-da "BBC News"a müsahibəsi zamanı jurnalistin guya Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni kilsəsini atəşə tutması, BBC-nin bu hadisəyə şahid olması və lentə alması ittihamlarına Ali Baş Komandan belə cavab verdi: "Əlbəttə, bu, feyk xəbərdir. Biz Qərb mediasını yaxından müşahidə edirik və bu qırx gün ərzində mənim bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi. Ermənistan tərəfində heç nə baş vermir. Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 (sonra rəqəm 100 oldu – R.D.) nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq Bərdəyə hücum etmək üçün kassetli bombalarla "Smerç"dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim

---

[289] *Yenə orada, s.159-160.*
[290] *Yenə orada, s.160-161.*

ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir. Buna görə sizin BBC, sizin həmkarlarınız o hadisələrin orada "şahidi" olub. Mən buna inanmıram"[291].

Yeddincisi, Ermənistan ermənilərin əsrlərboyu Qarabağda yaşamaları haqqında dezinformasiya yayırdı. Almaniyanın ARD televiziya kanalına müsahibə alan jurnalistin ermənilərin Dağlıq Qarabağda əsrlərboyu yaşaması ilə bağlı sualına İlham Əliyev tarixi faktlarla cavab verdi: "...Onlar Dağlıq Qarabağa 1805-ci, 1813-cü, 1828-ci illərdə imzalanmış Kürəkçay, Gülüstan və Türkmənçay sülh sazişlərindən sonra köçürülməyə başlayıblar. İnternetdə görə bilərsiniz. Bu sazişlərdə ermənilər qeyd olunmur. Ermənilər sonradan Çar Rusiyası tərəfindən Şərqi Anadolu və İrandan regionun etnik və dini tərkibini dəyişdirmək məqsədilə gətiriliblər... həmin sənədlərə baxın, internetdə var və siz görə bilərsiniz. Əgər siz erməni əhali ilə bağlı hər hansı qeyd tapsanız, deyərsiniz ki, mən səhv edirəm. Beləliklə, bu, belə olub. Lakin digər məsələ ondan ibarətdir ki, bəli, onlar 200 il ərzində orada yaşayıblar və "Qarabağ" sözü Azərbaycan sözüdür, erməni sözü deyil. Siz bilirsiniz onlar Dağlıq Qarabağın qondarma paytaxtını necə adlandırırlar? Stepanakert. Bilirsiniz kimin şərəfinə adlandırılıb? Stepan Şaumyanın. Erməni əsilli rus bolşeviki Stepan Şaumyan 1918-ci ildə azərbaycanlılara qarşı soyqırımı törətmiş cinayətkar dəstənin rəhbəri idi. Əgər bu, qədim Ermənistan ərazisi idisə, niyə Qarabağ adlandırılır? Niyə paytaxt şəhər hansısa qədim adla deyil, Stepanakert adlanır? Çünki onlar orada 200 il yaşayıblar. 1978-ci ildə orada yaşayan ermə-

---

[291] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.32; İlham Əliyev "BBC News"a müsahibə verib. 09.11.2020. https://president.az/articles/45845*

nilər Dağlıq Qarabağa gəlişlərinin 150 illiyi münasibətilə abidə ucaltdılar. Bu, tarixdir..."[292].

Səkkizincisi, Ermənistan Azərbaycanın daxilində qarışıqlıq yaratmaq, eyni zamanda Dağlıq Qarabağa status almaq üçün guya azad mətbuatın, müxalifətin olmadığı bir yerdə ermənilərin də hüquqlarının pozulacağını xarici nümayəndələrə bildirirdi. "BBC News"un müxbiri Azərbaycanda azad mətbuatın, müxalifətin olmadığnı, ermənilərin azərbaycanlılarla birgə necə yaşayacaqlarını bildirdikdə, İlham Əliyev belə cavab verdi: "Əgər siz bu sualı qaldırdınızsa, mən də sizə bir sual verə bilərəmmi? Siz cənab Assanjla baş verənləri necə qiymətləndirirsiniz? Bu, sizin ölkədə azad mətbuatın təzahürüdür?". "Bağışlayın, o, Ekvador səfirliyində neçə il keçirdi və nəyə görə? O, indi haradadır? Jurnalist fəaliyyətinə görə siz həmin şəxsi girov saxladınız, əslində, mənəvi və fiziki olaraq onu öldürdünüz. Bunu siz etmisiniz, biz yox. İndi o həbsxanadadır. Siz bu işlərlə məşğul olduğunuz halda, sizin azad mətbuat haqqında danışmağa mənəvi haqqınız yoxdur"[293]. Bununla Prezident müxbirin ittihamlarının onu təmsil etdiyi dövlətə aid olduğunu, başqa sözlə, öz dövlətlərində olmayan demokratiyadan danışaraq başqa dövlətlərin daxili işlərinə müdaxilə etməməyi bildirdi.

Prezident İlham Əliyev təkcə müxbirlərin ona ünvanladığı sualları cavablandırmırdı, eyni zamanda münaqişənin sonlandırılmasında və Azərbaycanı dayandırmaqda maraqlı olan dünya liderlərinə də səslənirdi.

Müntəzəm görüşlərin, Rusiya kanallarına əsaslandırılmış müsahibələrin verilməsi, Prezident İlham Əliyevin ali diploma-

---

[292] *İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi. 31.10.2020. https://president.az/articles/45111*

[293] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.38; İlham Əliyev "BBC News"a müsahibə verib. 09.11.2020. https://president.az/articles/45845*

tik səriştəsinin və Türkiyə Respublikasının siyasi dəstəyinin nəticəsi olaraq Rusiya 44 günlük Vətən müharibəsi zamanı açıq müdaxilə etmədi, müharibədə hərbi iştirak etmədi. İlham Əliyevin ticarət, nəqliyyat, energetika, humanitar, turizm, innovasiyalar gənclər siyasəti üzrə sahələrini əhatə edən yeddi "Yol Xəritəsi" çərçivəsində proqramı, Azərbaycanda rus dilinin inkişafına və tədrisinə lazımi diqqət göstərilməsi, rusdilli məktəblər və Rusiyanın ali təhsil müəssisələrinin filiallarının fəal işləməsi haqqında fikirləri, Paşinyanın Sorosun əli ilə hakimiyyətə gəlməsi haqqında göstərdiyi faktlar, II Dünya müharibəsində Azərbaycanın ümumi Qələbəyə böyük töhfə verməsi, II Dünya müharibəsi illərində SSRİ ordusuna qarşı erməni Qaregin Ter-Arutyunyanın casusluq etməsi haqqında faktlara əsaslanan müsahibələri[294] münasibətlərə müsbət təsir etdi.

Ermənistanın üçüncü dövləti münaqişəyə cəlb etmək cəhdləri tam iflasa uğradı. Azərbaycan Ordusunun şanlı qələbələrini görən Rusiya Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi.

[294] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.82-88, 187-197, 262-281; Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.5-25, 26-35, 84-100, 224-260.*

# FƏSİL III

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN DİPLOMATİK YOLLA HƏLL EDİLMƏSİ İSTİQAMƏTİNDƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ DAİMİ ÜZVLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

## *3.1. ABŞ ilə münasibətlər*

### *3.1.1. ABŞ-ın BMT-də mövqeyi*

Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çinin veto qoymaq hüququ olduğu üçün beynəlxalq təhlükəsizliyi müdafiə etməkdə onların hüquqları daha çoxdur. Lakin bu beşlik veto hüququndan öz geosiyasi maraqları üçün bəhrələnir və ona görə də daimi üzvlər ilə müvəqqəti üzvlər arasında bir növ həmrəylik azalır, ənənəvi olaraq diplomatiya həmin beş ölkənin, xüsusən də ABŞ və Rusiyanın xeyirinə işləyir. BMT yaradılarkən Təhlükəsizlik Şurasının daimi üzvlərinə veto hüququnun verilməsində məqsəd hegemon dövlətlər arasında vahidlik prinsipinin yaradılması idi. Təşkilatın təsis edilməsi zamanı ABŞ Prezidenti F.Ruzvelt veto hüququnu dəstəkləsə də, böyük dövlətlərin veto hüququ kiçik dövlətlərin təhlükəsizliyini pozduğu üçün Amerika xalqı və senatının bu təklifi dəstəkləməyəcəyini bildirdi[295]. Stalin Ruzveltə yazdığı məktubunda dörd dövlətin vahidlik prinsipini müdafiə etdiyini aşağıdakı kimi ifadə edirdi: ”Bu ölkələr arasında qarşılıqlı şübhə yeri olmamalıdır”[296]. Böyük Britaniyanın Baş naziri U.Çerçil də

---

[295] *Уткин А.И. Дипломатия Франклина Рузвельта. Свердловск: Издательство Урал. Университета, 1990, s.433-434.*
[296] *Yenə orada, s.434.*

böyük dövlətlərin yekdil fəaliyyətinin BMT-də böyük məna kəsb etdiyini bildirmişdi. O, bu barədə Stalinə məxfi məktubunda da yazmışdı[297]. Lakin hazırda ABŞ veto hüququndan NATO mərkəzçiliyi siyasətini reallaşdırmaq, Rusiya isə keçmiş sovet məkanında öz niyyətlərini həyata keçirmək məqsədi ilə istifadə edir. Beynəlxalq münasibətlərin yeni sisteminin formalaşmasında ABŞ yalnız iqtisadi hegemonluğa meyil etmir, o həm də dünyanın iqtisadi baxımdan zəngin və strateji əhəmiyyətli regionlarında mövqeyini möhkəmləndirməyə cəhd edir. İki qütblü dünya sisteminin süqutundan sonra fövqəldövlət mövqeyini əldən verən Rusiya isə yenidən keçmiş SSRİ məkanında möhkəmlənməyə cəhd edir.

BMT yaradılandan ABŞ ənənəvi olaraq veto hüququndan öz maraqlarını müdafiə etmək üçün istifadə etmişdir. ABŞ siyasi xadimləri və hüquqşünasları BMT-nin "hirsli veto" hüququndan istifadə etdiyini yazırlar[298]. ABŞ tədqiqatçısı və diplomatı H.Kissincer hesab edir ki, dünyada ABŞ, Avropa, Çin, Yaponiya, Rusiya, Hindistan kimi altı əsas güc mərkəzi olsa da, XXI əsrin beynəlxalq sistemində ABŞ inteqrasiya rolu oynayacaqdır[299].

ABŞ BMT Təhlükəsizlik Şurasının yaradılmasından bəri 83 qətnamə layihəsinə veto qoymuşdur. Soyuq müharibə başa çatdıqdan sonra veto hüququndan ən çox ABŞ istifadə etmişdir.

---

[297] *Переписка председателя Совета Министров СССР с президентами США и премьер министрами Великобритании во время Великой Отечественной войны 1941-1945гг.: в 2томах, Переписка с У. Черчиллем И.К.Эттли, Т1(июль 1941г.- ноябрь 1945г.), М.: Политической литературы, 1986, s.227.*

[298] *Федоров В.Н., Ефимов Г.К. ООН и поддержание международного мира. М.: Знание, 1969, s.40-45.*

[299] *Геополитика: Антология. М.: Академический Проект Культура, 2006, s.14.*

1991-ci ildən sonra 14 qətnaməyə veto qoymuşdur[300]. 14 qətnamədən 13-ü İsrail ilə bağlı qətnamə idi və onlara veto qoymaqla, ABŞ Yaxın Şərqdə strateji müttəfiqi olan İsrail üçün siyasi müdafiəni təmin etmişdir. Şərqi Qüdsdəki İsrail qəsəbələrinin fəaliyyətini pisləyən qətnamələrə, İsrailin məskunlaşma fəaliyyətlərini pisləyən və onların dayandırılmasını tələb edən qətnaməyə, Qəzzadan İsrail qoşunlarının çıxarılmasının tələb edilməsi, təhlükəsizlik divarının tikintisinin qanunsuz olması və İsrail tərəfindən həyata keçirilən hərəkətlərin qınanması ilə bağlı bir çox çağırışlara ABŞ tərəfindən veto qoyulmuşdur. 2002-ci il 30 iyun tarixində ABŞ Bosniyadakı BMT-nin sülhməramlı mandatını yeniləmək barədə qətnaməyə də veto qoydu. Amerika nümayəndəsi bu qərarın "Bosniya xalqına yönəldilmədiyini", amerikalı sülhməramlıları Beynəlxalq Məhkəmənin məsuliyyətindən azad etmək tələbi ilə verildiyini bəyan etdi[301].

BMT-ni ən çox maliyyələşdirən dövlət ABŞ-dır, BMT büdcəsinin 22 faizini, yəni 600 milyon dollar ödəyir. Bu, BMT-ni maliyyələşdirmə üçün müəyyənləşdirilən ən yüksək həddir. ABŞ, eyni zamanda, hər il fərdi qaydada 10 milyard dollar, müntəzəm üzvlük haqqı verir. Bunun 3,8 milyard dolları sülhməramlı missiyalara, 5,5 milyard dolları müxtəlif təşkilatlara və proqramlara yönəldilir[302]. ABŞ qərarların qəbul edilməsində təzyiq vasitəsi kimi BMT-ni daha çox maliyyələşdirməsindən də yararlanır, ona görə də Təhlükəsizlik Şurasının daimi üzvlərindən BMT-ni daha çox maliyyələşdirən ABŞ-ın statusu fərqlidir. 2017-ci ilin dekabr

---

[300] *Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012, s.14.*

[301] *Yenə orada, s.13-15.*

[302] *«Попытка продемонстрировать влияние»: почему США сократили индивидуальный взнос в бюджет ООН. https://russian.rt.com/world/-article/464228-ssha-oon-shantaj*

ayında ABŞ 2018-2019-cu illər üçün BMT-yə fərdi üzvlük haqqını 285 milyon dollar azaltdı. Bunun da səbəbi Baş Məclisin Qüdsü İsrailin paytaxtı kimi tanımaması idi[303].

### *3.1.2. Münaqişənin həll olunması istiqamətində ABŞ ilə aparılan danışıqlar*

Azərbaycan və ABŞ arasında diplomatik əlaqələr 1992-ci il martın 17-də quruldu. ABŞ Dövlət Departamenti 1992-ci il mayın 21-də bəyanat verərək bildirdi ki, ABŞ "hərbi əməliyyatlar, yaxud qüvvə tətbiqi nəticəsində Dağlıq Qarabağın, Naxçıvanın, yaxud digər ərazinin statusunda birtərəfli qaydada dəyişikliyi tanımayacaqdır"[304]. Rusiyaya nisbətən ABŞ bir qədər ciddi mövqe tutdu, Ermənistan Prezidentinə etiraz məktubu göndərdi. "The New York Times" qəzetinin 1993-cü il 7 aprel tarixli nömrəsində "Qafqazda hərbi əməliyyatlar yeni qaçqınlar axını yaradır" adlı məqalədə yazılırdı: "Kəlbəcərə ermənilərin hücumu, oranı işğal etməsi, erməni ordusuna Qarabağın şimaldan cənuba qonşu Ermənistana birləşən torpaqlarına nəzarətinə imkan verdi..."[305]. ABŞ jurnalisti Deyvid Bayndrın "Birləşmiş Ştatlar Ermənistanı Qafqazda yeni hücumlara bəhanəsinə görə məzəmmət edir" adlı məqaləsində ABŞ-ın Qafqazda vəziyyətə münasibəti belə şərh edilir: "Dövlət katibi Uorren Kristofer ABŞ hökumətini İrəvan hökumətindən təcili ordusunu çıxarmağı

---

*[303] Yenə orada.*
*[304] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.28.*
*[305] Письмо представителя Азербайджана от 8 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25573 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.51-52.*

tələb etməyə çağırdı... Ermənistan Prezidenti Levon Ter-Petrosyana etiraz məktubu göndərildi. Bu etiraz sübut edir ki, ABŞ iki Qafqaz respublikası arasında münaqişədə birinci dəfə olaraq bir tərəfi açıq tənqid etmişdir”[306].

ABŞ-da böyük erməni lobbisinin fəaliyyət göstərməsi ikitərəfli münasibətlərin inkişafına təsir edir. Birləşmiş Ştatlarda yaşayan ermənilər Rusiyada yaşayan ermənilərdən sonra Ermənistandan kənarda yaşayan ikinci ən böyük erməni lobbisi hesab edilir. ABŞ-da erməni diasporu və erməni təşkilatları siyasi lobbiləşdirmə ilə məşğul olurlar. Erməni lobbisinin yalan məlumatlarına inanaraq 1992-ci il oktyabrın 24-də ABŞ konqresi “Azadlığı müdafiə aktı”na “907-ci əlavə”ni qəbul etdi. “Azadlığı müdafiə aktı” və ona “907-ci əlavə”nin dəstəklənməsi, hər il Ermənistana göstərilən humanitar yardımın çoxaldılması və uydurma “erməni soyqırımı”nın beynəlxalq səviyyədə zorla tanıdılması istiqamətlərində fəaliyyət ABŞ-da yaşayan ermənilərin əsas fəaliyyət istiqamətləridir. “907-ci əlavə”də yazılırdı ki, Azərbaycan hökuməti Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücündən istifadəni dayandırdıqdan sonra ABŞ Azərbaycana yardım edəcəkdir. Konqresin bu cür qərar qəbul etməsi üçün formal əsas bu olmuşdur ki, guya Azərbaycan Ermənistan Respublikasını blokadada saxlayır.

1992-ci ildə “Azadlığı müdafiə Aktı”na “907-ci əlavə”ni qəbul edən ABŞ administrasiyası yalnız Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində 2002-ci ildə Konqresə Azərbaycana yardımın 46% artırılması, Ermənistana yardımın 22% azaldılması barədə müraciət etdi[307]. 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra Azərbaycan beynəlxalq

---

[306] *Yenə orada.*

[307] *Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.70.*

terrorizmə qarşı mübarizədə ABŞ-ı dəstəkləyən ilk dövlətlərdən biri oldu, oktyabr ayının sonlarında ABŞ Senatı "907-ci əlavə"-nin müvəqqəti dayandırılması barədə Prezidentə səlahiyyət verdi. Lakin 2002-ci ildə ABŞ Konqresi Dağlıq Qarabağa maliyyə yardımı ayırdı, Prezident də bunu təsdiq etdi[308]. Erməni diasporasının təsiri ilə ABŞ Konqresinin erməni məsələləri üzrə işçi qrupuna daxil olan bir sıra üzvləri işğal nəticəsində yaradılmış qondarma qurumun tanınmasını, Dağlıq Qarabağ əhalisinin öz müqəddəratını təyinetmə hüququnu dəstəkləsə də və "Dağlıq Qarabağ respublikası"na yardımın artırılmasını xahiş etsə də, 2005-ci ilin fevralında "ABŞ və Dağlıq Qarabağ" başlığı altında faktlar siyahısında ABŞ-ın Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımadığı, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi, Dağlıq Qarabağın statusunun isə tərəflər arasında danışıqlar nəticəsində müəyyənləşdirilməsi zəruriliyi göstərilmişdi[309]. Bununla belə, 2008-ci il mart ayında BMT Baş Məclisinin Azərbaycanın ərazi bütövlüyünün tanınması barədə qətnaməsinin əleyhinə səs verən dövlətlərdən biri də ABŞ oldu[310].

Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ ilə əməkdaşlıq etməsi münasibətlərə müsbət istiqamətdə öz təsirini göstərdi.

Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə 2012-ci il mayın 4-də Nyu-Yorkda "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda BMT Təhlükəsizlik Şurasının iclası keçirildi. İlham Əliyev iclasda çıxış edərək

---

*[308] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 42-ci kitab, Bakı: Azərnəşr, 2012, s.200.*

*[309] Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.70.*

*[310] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.71-72.*

vurğuladı: "Terrorçuluğun aydın tərifi və beynəlxalq terrorçuluqla bağlı konvensiya həll olunmamış bəzi məsələlərin, o cümlədən terror hərəkətlərinin təşkil edilməsi, maliyyələşdirilməsi, təşviq edilməsi, təlimatlandırılması, digər birbaşa və dolayı yolla dəstəklənməsindən çəkindirmək məsələlərinin həllinə töhfə verə bilər..."[311].

Ümummilli lider Heydər Əliyev 1992-ci ilin dekabrında ABŞ konqresi tərəfindən qəbul olunmuş "Azadlığı müdafiə aktı" və ona "907-ci əlavə" ilə əlaqədar 1993-cü il sentyabrın 2-də ABŞ-ın Prezidenti Bill Klintona, vitse prezidenti Albert Qora, Konqresin spikeri Tomas Foliyə müraciət etdi: "...Azərbaycan xalqı, habelə erməni-azərbaycanlı münaqişəsi haqqında həqiqəti bilənlərin hamısı bunu çox böyük ədalətsizlik və ya yolverilməz anlaşılmazlıq kimi qarşılamışlar. Mənə məlum olduğuna görə, Azərbaycan barəsində bu ayrı-seçkilik tədbiri Azərbaycan tərəfindən Ermənistanın uydurma "blokadası" ilə əlaqədar nəzərdə tutulmuşdur. Həmin tədbir Qərbin kütləvi informasiya vasitələrində Ermənistan tərəfindən aparılan yaxşı təşkil olunmuş təbliğat kampaniyasının bəhrəsidir və onun gerçəkliklə heç bir əlaqəsi yoxdur. Əvvəla, Ermənistan Respublikasının digər dövlətlər (Türkiyə, İran, Gürcüstan) ilə sərhədləri var və bu sərhədləri Azərbaycan blokadaya almaq iqtidarında deyildir. İkincisi, söhbət Azərbaycan ilə Ermənistan arasında nəqliyyat kommunikasiyalarından gedir ki, onlar da beş ildən çoxdur Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində dağılmışdır. Bundan nəinki Ermənistan, həm də Naxçıvan Muxtar Respublikasında yaşayan azərbaycanlılar böyük əziyyət çəkirlər. Biz bu kommunikasiyaların bərpası üçün öz tərəfimizdən hər şeyi et-

---

[311] *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışıarı, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2012.pdf, s.100.*

məyə hazırıq. Lakin bundan ötrü atəşi dayandırmaq və sülh danışıqlarına başlamaq lazımdır..."[312].

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması tərəflər üçün qarşılıqlı surətdə faydalı olmaqla yanaşı, Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanmasına da kömək edən amillərdən biri idi. Kəmərin təhlükəsizliyinin təmin edilməsi və Türkiyə ilə əlaqələri daha da möhkəmləndirmək məqsədilə Heydər Əliyev neft kəmərinin Türkiyə ərazisindən keçməsini önəmli hesab etdi. Müqavilə bağlandıqdan sonra, sentyabrın 25-də Azərbaycan Prezidenti ilk dəfə ABŞ-a rəsmi səfər etdi, sentyabrın 26-da ABŞ Prezidenti Bill Klintonla görüşərək çox əhəmiyyətli danışıqlar apardı[313] .

Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarında Azərbaycanın vəziyyətini anlatmaq və Ermənistanın Azərbaycana təcavüzünün qarşısını almaqdan ötrü tədbirlər həyata keçirilməsi üçün dövlət nümayəndələri ilə, alimlərlə görüşünü və digər fəaliyyətlərini Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl yüksək qiymətləndirdi[314].

Heydər Əliyev 1994-cü il sentyabrın 28-də BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da olarkən ABŞ-ın Kolumbiya Universitetinin keçmiş Sovet İttifaqını öyrənən Harriman İnstitutunda professorlar və elmi işçilər ilə görüşdü[315]. Həmin İnstitutun professoru Tadeuş Svyatixovskinin Azərbaycan haqqında yazdıqları obyektiv olsa da, professorlar və elmi işçilərin əksəriyyətinin mövqeyi yanlış idi. ABŞ konqresmenləri arasında da fikir-ayrılığı var idi. Məsələn, konqresmen

---

*[312] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.125-126.*

*[313]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.324-325.*

*[314]Yenə orada, s.327-328.*

*[315]Yenə orada, s.298-299.*

Qreq Laflin Azərbaycan haqqında ədalətli mövqedə olsa da, konqresmenlərin əksəriyyəti yanlış mövqedə idilər. Prezident Heydər Əliyev konqresmenlərlə görüşündə "Azərbaycanın narazılığını bildirirəm. Bildirmək istəyirəm ki, biz bu cür əlavə ilə heç vaxt razı ola bilmərik. O, Azərbaycanın zərərinə olan bir əlavədir və müəyyən qədər, Azərbaycanın ərazi bütövlüyünün şübhə altına alınmasını əks etdirir"[316] – dedi. 1997-ci ildə ABŞ Konqresi başqa bir əlavə qəbul etmək istədi. Demokrat Partiyasından olan senator Con Porterin təklifi ilə hazırlandığına görə "Porter əlavəsi" adlandırılan həmin qanun layihəsində 1997-ci il üçün Azərbaycana yardım nəzərdə tutulsa da, bu əlavədə Dağlıq Qarabağ ayrıca, müstəqil tərəf kimi qeyd olunurdu. ABŞ Konqresində konqresmen Porterin təklifi ilə qəbul edilmiş "Porter əlavəsi"nin müzakirəsi ilə əlaqədar bəyanatında 1996-cı il iyunun 13-də Heydər Əliyev vurğuladı: "... Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir, işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaş qaçqın düşübdür. Xüsusən onu qeyd etmək istəyirəm ki, bu işğal nəticəsində Azərbaycanı Ermənistana bağlayan, Naxçıvana, Dağlıq Qarabağa bağlayan dəmir yolu xətti işğal altındadır. Şübhəsiz ki, belə bir şəraitdə Azərbaycanın Ermənistanı blokadaya alması haqqında söhbət ola bilməz. Xüsusən 1992-ci ildən, qərar qəbul olunandan sonra keçən vaxt və bu dövrdə gedən proseslər də onu göstərir ki, Azərbaycan özü böyük bir təcavüz altındadır. Bilirsiniz ki, Azərbaycan özü blokadadadır – şimal tərəfdə dəmir yollarımız və dəniz yolumuz Rusiya tərəfindən kəsilibdir. Ona görə də biz dəfələrlə Amerika Birləşmiş Ştatlarının dövlət orqanları qarşısında məsələ qaldırmışıq ki, Azərbaycana qarşı olan bu ədalətsiz qərar ləğv edilsin"[317].

---

[316] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 1998, s.441-442.*
[317] *Yenə orada, s.439-440.*

Heydər Əliyev "Porter əlavəsi"nin Konqresin nümayəndələr palatasında qəbul edilməsinin Azərbaycan-Amerika əlaqələrinə zərbə vuracağını və onun qəbul edilməsinin qarşısının alınması vacibliyini vurğuladı: "...Biz bilirik ki, Amerika Birləşmiş Ştatlarında parlament, Konqres prezidentdən və ya hökumətdən asılı deyil, onların buna təsir etmək gücü o qədər böyük deyildir, Konqres bəzən belə qərarlar qəbul edir. Amma mən sizə açıq deyirəm, bizim ictimaiyyət Amerika Birləşmiş Ştatlarını böyük bir dövlət kimi qəbul edir. Adamlara izah etmək mümkün deyil ki, prezident istəmir, amma kimsə qəbul edir. Ancaq qəbul edilən qərar Azərbaycana zərbə vurur, Azərbaycan-Amerika əlaqələrinə zərbə vurur... Yenə də qeyd edirəm, əgər qəbul olunan hər bir qərar, yaxud da ki, tədbir, – kim tərəfindən qəbul edilməsindən asılı olmayaraq, – ədalətli olsa, ona etiraz etmək mümkün deyildir. Ancaq ədalətsiz qərarla barışmaq olmaz". Heydər Əliyevin ABŞ Prezidenti Bill Klintona və digər rəsmilərə müraciətindən sonra "Porter əlavəsi"nin qəbul edilməsinin qarşısı alındı. Nəticədə, "Porter əlavəsinə" dəyişiklik edilərək, Dağlıq Qarabağı Azərbaycandan ayrı, müstəqil tərəf kimi göstərən ifadə dəyişdirildi. O, "Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycana yardım" formasına salındı[318].

1997-ci il iyulun 27-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə oldu. Bill Klinton, vitse prezident Qor, dövlət katibi xanım Olbrayt, başqa dövlət rəhbərləri, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annan, bütün ölkələri təmsil edən səfirlər, Təhlükəsizlik Şurasının üzvləri, NATO-nun baş katibi Xavyer Solana və Amerika ilə əməkdaşlıqda çox böyük əhəmiyyət kəsb etdiyinə görə neft şirkətləri

---

*[318] İşğalçıya yardım göstərən dövlətin obyektivliyi hər zaman sual altında olacaq. 13.04.2010. http://www.yeniazerbaycan.az/Musahibe_e5632_az.html*

ilə görüşlər keçirdi. Nyu-York, Vaşinqton, Hyüston, Çikaqo şəhərlərində oldu, mətbuat mərkəzlərində mətbuat işçiləri ilə, institutlarda, tədqiqat mərkəzlərində, tanınmış siyasi xadim Henri Kissincerlə görüşlər keçirdi[319]. Heydər Əliyev münaqişənin nizama salınması istiqamətində ABŞ-ın səylərinin artırılmasını və münasibətlərin inkişafına mane olan "907-ci əlavə"nin ləğvinə kömək göstərilməsini xahiş etdi[320]. Amerika-Azərbaycan əlaqələrinə aid sənədlər imzalandı. Bunların içərisində ən əsas məsələ Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsində Minsk qrupunun həmsədri kimi Amerika Birləşmiş Ştatlarının iştirakı haqqında idi. Həmin vaxtda ABŞ Konqresinin üzvü konqresmen Kinq 907-ci maddənin ləğv olunması üçün xüsusi qərar layihəsi təqdim etmişdi.

Səfər zamanı 5 mühüm sənəddə – Amerika–Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat, Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilə, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə birgə bəyanat, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat imzalandı[321].

Amerikanın "Şevron", "Mobil", "Eksson", "AMOKO" şirkətləri ilə çox mühüm müqavilələr imzalandı. Azərbaycan ABŞ-ın terror əleyhinə əməliyyatlarını dəstəklədikdən sonra, 2002-ci

---

*[319] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 11-ci kitab, Bakı: Azərnəşr, 2003, s.5-6.*

*[320] Yenə orada, s.61-63.*

*[321] Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 2 sentyabr 1997-ci il. № 657.*

ildən etibarən iki ölkə arasında hərbi-texniki və təhlükəsizlik məsələləri geniş müzakirə edildi.

Dünyada gedən proseslərə təsir edən bir ölkə və münaqişənin həllində vasitəçi rolunu oynamaq səlahiyyətinə malik olan Minsk qrupunun həmsədri kimi ABŞ-ın rolunu qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buşun dəvəti ilə 2006-cı il aprelin 25-28-də Vaşinqtonda rəsmi səfərdə oldu. Səfər ikitərəfli münasibətlərin inkişafına yönəldilmişdir. Prezident Buşla görüş zamanı ikitərəfli münasibətlərə aid məsələlər, xüsusən də siyasi və iqtisadi islahatlar sahəsinə, enerji təhlükəsizliyi və nəqliyyata, terrorçuluqla mübarizəyə aid məsələlər müzakirə edildi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün geniş müzakirələr oldu. Prezident İlham Əliyev Azərbaycanın mövqeyini bir daha ifadə etdi: "Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaqdır. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın zəbt edilmiş torpaqlarından çıxmalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinə zəmanət də verilməlidir. Eyni zamanda, oraya sülhməramlı qüvvələrin gətirilməsi məsələsi də müzakirə oluna bilər"[322]. Amerika Prezidenti bildirdi ki, Amerika çalışır Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun və tərəflər razılığa gəlsinlər[323].

Aprelin 28-də İlham Əliyev ABŞ-ın müdafiə naziri Donald Ramsfeld ilə görüşdü. Donald Ramsfeld ölkələrimiz arasında əlaqələrin inkişafından, o cümlədən hərbi sahədə əməkdaşlıqdan məmnunluğunu bildirdi, Azərbaycanın antiterror koalisiyasında fəaliyyətini yüksək dəyərləndirdi[324].

---

[322] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 16-cı kitab, Bakı: Azərnəşr, 2014, s.298.*

[323] *Yenə orada, s.298.*

[324] *Yenə orada, s.300.*

2016-cı il martın 30-da Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti dəfə Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə oldu. ABŞ-ın Dövlət katibi Con Kerri, ABŞ Dövlət katibinin müavini Tomas Şennon, bir sıra konqresmenlər, Amerika–İsrail İctimaiyyətlə Əlaqələr Komitəsinin (AIPAC), Avrasiya Yəhudilərinə Dəstək Milli Koalisiyasının və Əsas Amerika Yəhudi Təşkilatlarının prezidentləri Konfransının (CPMAJO) rəhbərliyi, vitse-prezidenti Co Bayden, Amerika Birləşmiş Ştatlarının ictimai xadimləri – "Armitage International" şirkətinin prezidenti Riçard Armitac və Karnegi Fondunun prezidenti Uilyam Börns ilə görüşlərində İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verdi, bu münaqişənin həll olunmasının vacibliyini vurğuladı. Prezident həmsədr ölkə kimi, ABŞ Prezidenti Barak Obamanın mövcud status-kvonun yolverilməzliyi ilə bağlı mövqeyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı[325]. Aprelin 1-də İlham Əliyev çıxışında Azərbaycan Respublikasının nüvə materiallarının yayılmamasına böyük əhəmiyyət verdiyini, nüvə materiallarının yayılması ilə bağlı meydana çıxan təhdidləri və ölkəmizin yerləşdiyi coğrafi mövqeyi nəzərə alaraq, nüvə materiallarının qanunsuz trafiki üçün Azərbaycan ərazisindən mümkün istifadənin qarşısının alınmasına böyük əhəmiyyət verildiyini bildirərək, vurğuladı ki, beynəlxalq səviyyədə tanınan sərhədlərimizin bir hissəsinin işğal altında olması və ərazilərimizin 100 faizinə nəzarət etmək imkanı olmadığı üçün proqramları tam şəkildə icra etmək olmur[326]. Prezident həmçinin Ermənistanın 1976-cı ildə inşa edil-

---

[325] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 73-cü kitab, Bakı: Azərnəşr, 2018, s.153-163.*
[326] *Yenə orada, s.170.*

miş, köhnəlmiş atom elektrik stansiyasının istismarına diqqəti cəlb etdi, bunun region üçün təhlükə yaratdığını, elektrik stansiyasının fəaliyyətinin dayandırılması və beynəlxalq ictimaiyyətin gözlədiyi qayda və prosedurlara əməl edilməsi üçün Ermənistana təzyiq göstərilməsini tövsiyə etdi[327].

2020-ci il 44 günlük Vətən müharibəsində ABŞ Azərbaycanın daxili işinə müdaxilə etmədi. ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsində jurnalistin "Siz Prezident Trampın və onun administrasiyasının münaqişə ilə bağlı söylədiklərindən məmnunsunuzmu?" sualına İlham Əliyev belə cavab verdi: "Düşünürəm ki, Prezident Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik. Biz görürük ki, ABŞ-ın mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir... ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin, eyni zamanda, Prezident Trampın açıq siyasəti burada – Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir"[328].

Co Bayden 2021-ci il yanvarın 20-dən prezident seçildikdən sonra Türkiyə ilə ABŞ arasında gərgin vəziyyət Azərbaycanın da ABŞ ilə münasibətlərinə təsir etdi. ABŞ Prezidenti Co Baydenin Ağ Evin rəsmi saytında verilən açıqlamada 1915-ci il hadisələrini "soyqırım" kimi tanıması Vətən müharibəsində

---

[327] *Yenə orada, s.170.*
[328] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.177-178.*

Türkiyənin Azərbaycanın yanında olması və Azərbaycanın qələbələrinə qısqanclıqla yanaşma ilə izah etmək olar. Türkiyə Prezident Administrasiyasının Kommunikasiyalar İdarəsinin rəhbəri Fahrettin Altun 1915-ci il hadisələrinin "soyqırım" kimi tanınmasını "həqiqətlərlə heç bir əlaqəsi olmayan və yalnız siyasi hesablamalara söykənən böhtan" kimi səciyyələndirdi[329]. Vətən müharibəsi zamanı heç bir müdaxilə etməyən ABŞ Qələbədən sonra Ermənistanı müdafiə etdi. Bunun əsas səbəbi Türkiyənin Cənubi Qafqazın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsi olan Azərbaycanla isti münasibətləri, Türkiyə üçün Mərkəzi Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək Zəngəzur dəhlizinin açılması və Rusiya sülməramlılarının Laçın dəhlizində yerləşdirilməsidir. Hər iki dövlətə – Türkiyəyə və Rusiyaya ABŞ rəqibi kimi baxır. Minsk qrupunun həmsədr dövlətlərindən olan ABŞ və Fransa Cənubi Qafqazda olan proseslərdən kənarda qalmaq istəmirlər. Fransa Prezidenti Azərbaycan-Ermənistan sərhədində baş verən delimitasiya prosesi ilə bağlı bildirib ki, delimitasiya yalnız danışıqlar yolu ilə və "güc tətbiq etmədən" həyata keçirilməlidir[330]. Halbuki ermənilərə heç bir güc tətbiq olunmur. Həmin ərazilər Azərbaycanın əzəli əraziləridir. Sovet dövründə Ermənistana verilmişdir. Hətta erməni terrorçuları sərhədi keçməyə cəhd edərkən belə, Azərbaycan Ordusu onlara atəş açmadı, yalnız zərərsizləşdirdi.

---

[329] *24 aprel açıqlaması: Biden üçün "soyqırım" ifadəsini istifadə etmək nəyə görə vacibdir? 24.04.2021. https://www.bbc.com/azeri/region-56871463*

[330] *Fransadan Azərbaycan-Ermənistan dialoquna yardım vədi, Azərbaycan "erməni silahlı dəstə" üzvlərinin işini məhkəməyə göndərib. 01.06.2021. https://www.bbc.com/azeri/azerbaijan-57307939*

### *3.2. Rusiya ilə münasibətlər*
### *3.2.1. Rusiyanın BMT-də mövqeyi*

Soyuq müharibə illərində SSRİ də veto hüququndan istifadə edərək "arzuedilməz" qətnamələrin qarşısını alırdı. Sovet İttifaqı Təhlükəsizlik Şurasında digər daimi üzvlərlə müqayisədə daha çox veto gücündən istifadə edirdi. 1946-cı ildən SSRİ 119 qətnaməyə veto qoymuşdu[331]. Sonrakı illərdə də belə vəziyyət davam etdi. Rusiya 1993 və 2004-cü illərdə Kipr haqqında iki qətnaməyə veto qoydu, digər 14 üzv isə qətnamənin lehinə səs verdi. Bu, Rusiyanın Balkan bölgəsinə olan maraqları ilə bağlı idi. Rusiya 1994-cü ildə Bosniya və Herseqovina, 2009-cu ildə Gürcüstan böhranı ilə bağlı qətnaməyə veto qoydu. 1998-ci ildə Rusiya Çin ilə birlikdə Yuqoslaviyanı qorumaq üçün Təhlükəsizlik Şurasının NATO-nun Kosovaya müdaxiləsi məsələsinə icazə verən qətnamələrinə, 2007-ci ildə Birmaya dair qətnaməyə, 2008-ci ildə Zimbabvedə insan hüquqlarının pozulmasının pislənməsinə dair qətnaməyə veto qoydu[332]. Çünki bu dövlətlərin Rusiya və Çin ilə sıx iqtisadi əlaqələri vardır.

Krım məsələsi Təhlükəsizlik Şurasında yeddi dəfə müzakirə edilsə də, daimi üzvlər arasında yekdil fikir olmadığı üçün yekun qətnamə qəbul edilmədi. 2014-cü il martın 15-də keçirilən iclasda 13 dövlət səs versə də, Rusiya veto qoyduğu üçün qətnamə qəbul edilmədi. ABŞ-ın BMT yanındakı nümayəndəsi Samanta Pauer Rusiyanın veto hüququndan sui-istifadə etdiyini aşağıdakı kimi ifadə etdi: "BMT-də Rusiyanın Təhlükəsizlik Şurasının qətnamələrinə veto qoymaq hüququ var. Lakin onun hə-

---

[331] *Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012, s.12.*

[332] *Вето в Совете Безопасности – Китай https://www.un.org/securitycouncil/ru/content/veto-china*

qiqətə veto qoymaq hüququ yoxdur". Fransanın BMT yanındakı nümayəndəsi Jerar Aro da bildirdi ki, Fransa Krımla bağlı Rusiyanın mövqeyini dəstəkləmir[333]. Martın 27-də Baş Məclis Ukraynanın ərazi bütövlüyü barədə qətnamə qəbul etdi[334]. Həmin qətnamədə Ukraynanın ərazi bütövlüyünün pozulmasına yönəlmiş hərəkətə etiraz əksini tapmışdı. Baş Məclisdə iştirak edən 100 dövlətdən 58-i Rusiyanın mövqeyini dəstəkləmədi. Rusiyanın mövqeyini Ermənistan da daxil olmaqla 10 dövlət müdafiə etdi. Təhlükəsizlik Şurasında qəbul edilən qətnamələrdən fərqli olaraq Baş Məclisdə qəbul edilən qətnamələrə veto qoymaq imkanı olmadığı üçün Rusiya adı çəkilən qətnaməyə veto qoya bilmədi. Beləliklə, BMT Krımın Rusiyaya birləşdirilməsini tanımadı. Baş Məclisin qətnaməsi tövsiyə xarakteri daşısa da, Rusiyanı beynəlxalq hüquq prinsiplərini pozması barədə xəbərdar etdi.

Keçmiş SSRİ ərazisində öz nüfuzunu bərpa etməyə, yeni müstəqil dövlətlərin inkişafına mane olmağa cəhd edən Rusiya məqsədlərinə müxtəlif üsullarla, əksər halda, etnik, dini ixtilaflar yaratmaqla, beynəlxalq aləmdə öz mövqeyindən yararlanmaqla nail olmağa çalışır. Rusiya qitədə təhlükəsizlikdə ATƏT-in fəaliyyətinə, postsovet məkanında münaqişələrin "nizama salınmasında" MDB-nin fəaliyyətinə, yaxud "nizama salmanı" tək həyata keçirməyə üstünlük verir. Cənubi Qafqaz Rusiyanın milli təhlükəsizliyini təmin etmək baxımından Moskvanın diqqət mərkəzində qalmaqdadır. Bu regionda münaqişələrin nizama salınmasına vasitəçilik etməsi, ATƏT-in Minsk qrupunda həm-

---

[333] *Споры по Крыму в Совбезе ООН:США говорили о санкциях, а Россия – о правах.glavred.info/politika/spory-po-krymu-vsovbeze-oon-ssha-govorili-o-sankciyah-a-rossiya-o-pravah-274140.html*

[334] *UN General Assembly adopts resolution affirming Ukraine's territorial integrity. 28.03.2014. http://web.archive.org/web/20160304092536/http://-news.xinhuanet.com/english/world/2014-03/28/c_126325576.htm*

sədrlik etməsi, yaxud MDB sülhməramlılarını münaqişə regionuna göndərmək canfəşanlığı da bununla izah edilir.

### *3.2.2. Münaqişənin həll olunması istiqamətində Rusiya ilə aparılan danışıqlar*

Azərbaycanın Rusiya ilə sərhədinin uzunluğu 390,3 km-dir. Rusiyada rəsmi qeydiyyatda olan 600 mindən çox azərbaycanlı, Azərbaycanda isə 140 mindən çox rus yaşayır. Rusiya Federasiyası ərazisində, həmçinin müvəqqəti yaşayıb-işləyən bir milyondan çox Azərbaycan vətəndaşı var. Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlər 1992-ci ilin aprelində qurulmuşdur. Həmin il oktyabrın 6-da iki ölkə arasında Rusiya sərhəd qüvvələrinin 1993-cü il iyunun 1-dək Azərbaycandan çıxarılmasına dair üç protokol imzalandı. 1993-cü il martın 13-dək Rusiya hərbi hissələri Azərbaycandan çıxarıldı[335]. Lakin Rusiya SSRİ-nin devrilməsi ilə əlaqədar müstəqil olmuş dövlətlərin müstəqilliyi ilə barışa bilmir, hələ də onları özünkü hesab edirdi. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin hazırladığı "Rusiya və BMT" adlı məlumat kitabçasında yazılır ki, MDB məkanında sabitliyi saxlamaq üçün Rusiya BMT ilə qarşılıqlı fəaliyyət göstərir[336]. Digər bir yerdə isə qeyd edilir ki, keçmiş SSRİ məkanında milli azlıqların hüquqlarının qorunması Rusiyanın xarici siyasətinin prioritet vəzifəsidir[337]. Belə yanaşma bir daha göstərir ki, Rusiya yeni müstəqil dövlətlərin ərazisinə öz nüfuz dairəsi kimi baxır.

---

[335] *Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. 1 hissə. Bakı: Mütərcim, 2015, s.525-526.*

[336] *Россия и ООН. Информационно-статистический справочник. К 50-летию образования ООН. Москва, Министерство Иностранных Дел Российской Федерации, 1995, s.29.*

[337] *Yenə orada, s.30.*

Rusiya Ermənistanın hərbi təcavüzündən, Cənubi Qafqazda sabitsizlikdən istifadə edərək keçmiş sovet respublikalarında əvvəlki hərbi-siyasi nüfuzunu bərpa etməyə çalışırdı. 1992-ci ildə çağırdığı "Vətəndaş qurultayı"nda Rusiya Federasiyasının Prezidenti B.Yeltsin BMT daxil olmaqla, beynəlxalq təşkilatların Rusiyaya keçmiş Sovet İttifaqı ərazisində sülh və sabitliyi təmin etmək kimi xüsusi səlahiyyət vermək anı çatdığını bildirdi[338].

Azərbaycanın MDB-yə daxil olmaması Rusiyanı qıcıqlandırırdı. Heydər Əliyev 1993-cü il iyun ayında Azərbaycan Respublikasına rəhbərlik etməyə başladıqdan sonra ilk addımlardan biri MDB-yə daxil olmaq oldu. Ümummilli lider Respublikada MDB-yə daxil olmaq üçün psixoloji mühit yaratmaq məqsədi ilə bir neçə ay işləməli oldu. Çünki ölkəmizdə MDB-yə qarşı münasibət çox mənfi idi. Bunun da səbəbləri var idi. MDB-də aparıcı dövlət olan Rusiya Ermənistanın işğalçılıq siyasətini müdafiə edirdi, 1990-cı ildə Rusiya qoşunlarının Bakıya yeridilməsi, əhalinin yanvarın 20-də və fevralın sonlarınadək qətlə məruz qalması insanlarda belə fikir yaratmışdı ki, Rusiya ilə münasibətlər yaradılmamalı və onun yaratdığı təşkilatla əməkdaşlığın heç bir əhəmiyyəti olmayacaq. Bu məsələ ictimaiyyət, əmək kollektivləri, politoloqlar, ziyalılar tərəfindən müzakirə edildi və belə nəticə əldə edildi ki, Azərbaycanın MDB tərkibində olması zərurətdir. 1993-cü il sentyabrın 24-də Heydər Əliyev Moskvada Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imzaladı.

Ermənistan işğal etdiyi ərazilərin sahəsini genişləndirməyə çalışırdı. İşğalçılara qarşı mübarizə məqsədilə Ümummilli lider Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa

---

[338] *Письмо представителя Азербайджана от 12 марта 1993 года на имя на имя Председателя Совета Безопасности, Документ S/25408, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.281-282.*

müraciət etdi, ciddi hərbi-təşkilati tədbirlər həyata keçirildi. Noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırıldı. Azərbaycan Ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri də düşməndən azad edildi. Çiçəkli dağı və b. strateji yüksəkliklər ələ keçirildi, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı. Döyüşlərdə düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş Vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar, nəinki Ermənistanı, həmçinin onu müdafiə edən qüvvələri də ciddi təşvişə saldı[339]. Ermənistanın himayəçiləri onu hərbi cəhətdən daha da möhkəmləndirmək, müasir silahlarla təmin etmək üçün müharibəni dayandırmaqda maraqlı idilər. 1993-1995-ci illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin beynəlxalq məsələlər üzrə müşaviri olmuş Qabil Hüseynli Bişkek Protokolu ilə bağlı bəzi məqamlara belə aydınlıq gətirmişdir: "Azərbaycan artıq Rusiyanın ciddi dəstəyi ilə hərbi əməliyyatlar aparan ermənilərə qarşı dayana bilmirdi. Ermənilərin maksimum məqsədi Dağlıq Qarabağ ətrafında təhlükəsiz bufer zonası yaratmaq idi. Bundan əlavə, ermənilərin daha ciddi niyyətlərindən biri Yevlaxı ələ keçirmək, Murovdan enərək Gəncəyə girmək və bu hissəni Bakıdan ayırmaq idi. Çox təhlükəli vəziyyət yaranmışdı və Azər-

---

[339] *Azərbaycana qarşı elan olunmamış müharibə. http://supremecourt.gov.-az/static/view/168*

baycan Rusiyanın təklif etdiyi atəşkəsə razılıq verdi”[340]. Rusiya vasitəçilik təklifini irəli sürdü və atəşkəs sənədinin Bişkekdə imzalanmasını təklif etdi. Azərbaycan Respublikası belə bir şəraitdə 1994-cü il mayın 8-də Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası, Qırğızıstan Respublikası Parlamentinin, Rusiya Federal Məclisi və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə Bişkekdə keçirilən görüşdən sonra Bişkek protokolunu imzaladı. Mayın 12-də Atəşkəs haqqında saziş bağlandı. Azərbaycan tərəfi sənədə iki əlavə ilə imza atmışdı. Bişkek protokolunun 5-ci abzasında "tutulmuş ərazilər" sözləri "işğal olunmuş ərazilər" sözləri ilə əvəzlənmiş və atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək müşahidəçilərin isə "beynəlxalq müşahidəçilər missiyası" olması qeyd olunmuşdur.

Ermənistanda və Gürcüstanda hərbi bazası olan Rusiya Azərbaycanda da hərbi baza qurmağa çalışırdı. Azərbaycan Respublikası buna icazə vermədi. Rusiya, həmçinin Azərbaycan neftinin yalnız öz ərazisindən keçməsini istəyirdi. 1994-cü il sentyabrın 20-də Rusiyanın "Lukoyl" şirkəti, sonralar isə, 2013-cü ilin avqustunda "Rosneft" şirkəti ilə Azərbaycan Neft Şirkəti arasında müqavilələrin bağlanması, 1995-ci il oktyabrın 9-da qəbul olunan qərara əsasən isə neft kəmərlərindən birinin Rusiya ərazisindən Novorossiysk limanına, ikincisinin isə Gürcüstan ərazisi ilə Qara dənizdəki Supsa limanına çəkilməsi[341] münasibətlərə müsbət təsir etdi.

1994-cü il noyabrın 17-də Prezident Heydər Əliyev Rusiyaya rəsmi səfər etdi. Səfərdə əsas məqsəd Azərbaycan-Rusiya münasibətləri, o cümlədən Dağlıq Qarabağ məsələsi, yəni Er-

---

[340] *Bişkekdə kəsilən atəş: Azərbaycan hansı protokolu imzalayıb? Keçmiş dövlət müşaviri: “Biz tamam başqa sənədə imza atmışıq”. 12.05.2011. https://modern.az/articles/13776/1/*

[341] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, s.336-337.*

mənistanın Azərbaycana hərbi təcavüzü, müharibəyə son qoyulması barədə müəyyən fikir mübadiləsi, Böyük Sazişin əldə olunması haqqında danışıqlar aparmaq idi[342].

Rusiya həm də Azərbaycanı Çeçenistana yardım etməkdə günahlandırırdı. Heydər Əliyev Azərbaycan ərazisindən Çeçenistana silah və yaraqlıların keçməsi haqqında yalana qəti etirazını bildirdi[343].

Münaqişənin ilkin mərhələlərindən aydın idi ki, Rusiya bölgəni nəzarət altında saxlamaq üçün Ermənistandan bir vasitə kimi istifadə edirdi. 1995-ci il martın 16-da Moskvada Rusiya və Ermənistan arasında 25 il müddətinə müqavilə imzalandı. Bu müqaviləyə görə, Ermənistan Respublikasındakı Rusiya hərbi düşərgələrinə hərbi baza statusu verildi. Rusiya Müdafiə Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri 1993-1995-ci illər ərzində Ermənistana qanunsuz olaraq ümumi dəyəri 1 milyard dollar olan silah və döyüş sursatı göndərdi[344]. Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın belə hərəkəti münaqişənin nizama salınmasında onun ədalətli mövqe tutmadığını sübut edirdi. Bu məsələ ilə bağlı 1997-ci ilin mart ayında Heydər Əliyev Boris Yeltsinə məktub göndərdi, Rusiyaya rəsmi səfəri zamanı bu barədə danışdı. B.Yeltsin təqsirkarların aşkar ediləcəyini bildirdikdə, Heydər Əliyev təkcə təqsirkarların aşkar edilməsi deyil, həm də bu silahların aşkar edilərək, Ermənistandan alınıb Rusiyaya qaytarılmasının lazım olduğunu vurğuladı[345]. Həmin il iyul ayında Heydər Əliyevin Rusiyaya səfəri zamanı Rusiya-Ermənistan-

---

[342] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.512-513.*

[343] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 23-cü kitab, Bakı: Azərnəşr, 2008, s.31-35.* .

[344] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 20-ci kitab, Bakı: Azərnəşr, 2007, s.87.*

[345] *Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, s.43.*

Azərbaycan Komissiyası yaradılması haqqında razılıq əldə edildi. Komissiya istər Ermənistanda, istərsə də Azərbaycanda Rusiya silahlarının haradan göndərildiyini araşdırmalı idi[346]. 1997-ci il iyulun 28-də BMT-nin iqamətgahında Baş katib Kofi Annan ilə görüşən Heydər Əliyev Rusiyanın Ermənistana qanunsuz yollarla külli miqdarda silah verdiyini və BMT-nin bu məsələ barəsində ciddi tədbir görməsinin vacibliyini bildirdi[347]. Rusiyanın Ermənistana silah göndərməsi münaqişəni daha da gərginləşdirirdi. 1998-ci il aprelin 28-də Moskvada Rusiya-Ermənistan-Azərbaycan Komissiyasının iclasında Rusiyanın Ermənistana qanunsuz silah satması məsələsi müzakirə edildi.

Aparılan tədqiqatlar göstərir ki, münaqişənin həll edilməməsinin səbəbi Minsk qrupunun həmsədrliyinə Rusiyanın daxil olmasının Ermənistana münaqişənin onun xeyrinə həll olunacağına ümid verməsidir. Cəzasız qalan, Rusiyanın havadarlığından ruhlanan Ermənistan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə məhəl qoymadı. Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə səlahiyyətli nümayəndəsi Vladimir Kazimirov hərbi əməliyyatları dayandırmamaqda, atəşkəsi pozmaqda Azərbaycanı saxtakarlıqla günahlandıraraq deyirdi: "Hərbi əməliyyatlar dayandırılmadan qüvvələr çıxarıla bilərmi? Bəs kim bu əməliyyatları kəsmək istəmir? Təhlükəsizlik Şurası bu qətnamələri yerinə yetirməyənləri cəzalandırmağı bacarmadı... Danışıqlar ermənilərin mövqelərinə görə həllini tapmadı. Belə ki, Bakı Dağlıq Qarabağın statusuna toxunmaq istəməyərək, hətta Şuşa və Laçından qüvvələrin çıxarılmasına təkid etdi"[348]. ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi barədə "ümumi dövlət" təklifini Rusiya-

---

[346] *Yenə orada, s.44.*
[347] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.42.*
[348] *Казимиров В. Карабах и резолюции Совета Безопасности ООН. 14.11.2004. www.regnum. ru/news/358916.html*

nın keçmiş Baş naziri Y.Primakovun dəstəkləməsi də göstərdi ki, Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Ermənistanın xeyirinə həll edilməsinə çalışır. Erməni tədqiqatçı A.Enokyan Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibəti barədə yazır ki, Rusiya Dağlıq Qarabağın təhlükəsizliyini Dağlıq Qarabağın Rusiyanın, yaxud Ermənistanın tərkibinə daxil olması, yaxud müstəqil dövlət olmasında görür[349].

Dağlıq Qarabağ münaqişəsi, Türkiyəyə qarşı irəli sürülən qondarma "erməni soyqırımı" məsələsi və torpaq iddiası ilə bağlı problemlərin olması Ermənistanın Rusiya ilə münasibətlərini inkişaf etdirirdi. Ermənistan və Rusiya arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi ilə başlayan hərbi əlaqələr Ermənistan sərhədlərinin rus hərbçiləri tərəfindən qorunmasına dair 30 sentyabr 1992-ci il tarixli müqavilə ilə ikitərəfli səviyyədə həyata keçirilməyə başlandı. Ermənistan və Rusiya arasında 21 oktyabr 1994-cü ildə imzalanan müqavilə Rusiyaya Gümrü və İrəvanda iki hərbi baza qurmasına icazə verdi. 2002-ci ilin sentyabrında Rusiya Federasiyası ilə Ermənistan arasında imzalanan ittifaq münasibətləri haqqında birgə bəyanat bu iki ölkənin hərbi əməkdaşlığını daha da möhkəmləndirdi. 2010-cu ilin avqustunda Gümrüdə Rusiya hərbi bazasının icarə müddəti 2044-cu ilə qədər uzadıldı. Eyni zamanda müqavilənin mətni də dəyişdirildi. Belə ki, müqavilədə MDB ölkələrindən başqa digər ölkələrin Ermənistana hücum edəcəyi təqdirdə Rusiyanın müdafiəsi nəzərdə tutulur[350].

Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün özünün vasitəçilik

---

[349] *Енокян А. Армения: противоречивые подходы к урегулированию Карабахского конфликта // Центральная Азия и Кавказ, 2002, № 1, с.115-121.*
[350] *Аббасбейли А.Н. Внешняя политика Российской Федерации в XX1веке. Баку: Элм, 2005, s.121.*

səylərini təklif etmiş və bunları reallaşdırmaq üçün bir neçə dəfə cəhd etmişdir. 1993-cü il noyabrın 20-də Azərbaycan hərbi əməliyyatların dayandırılması və erməni silahlı birləşmələrinin işğal edilmiş ərazilərdən çıxarılması haqqında Rusiyanın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sazişin layihəsini aldı. Lakin bu təşəbbüs reallaşmadı. Xüsusi tapşırıqlar üzrə səfir, Rusiya prezidentinin şəxsi nümayəndəsi Vladimir Kazimirov Azərbaycandan Ermənistana gedərkən Azərbaycan ərazisində erməni silahlı qüvvələri tərəfindən atəşə tutuldu. Xarici işlər nazirinin və hətta Nazirlər Soveti rəhbərliyinin şəxsində Rusiya rəhbərliyi erməni tərəfinin Rusiya prezidentinin xüsusi nümayəndəsinə qarşı, etikadan kənar mövqeyi ilə əlaqədar çox kəskin bəyanatla çıxış etdi və üzr istəməyi tələb etdi. Lakin erməni tərəfi bunu etmədi. Beləliklə, həmin danışıq prosesi yarımçıq qaldı[351].

Bundan başqa, 1994-cü il fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiyanın müdafiə nazirləri Azərbaycanın işğal edilmiş ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılmasını nəzərdə tutan protokolu imzaladılar. Martın 1-dən atəşin dayandırılması haqqında razılaşma əldə edilmiş, həm də nəzərdə tutulmuşdur ki, üç gündən sonra qoşunların çıxarılmasına başlanacaqdır. Lakin bu da heç bir nəticə vermədi[352].

1997-ci il iyulun 27-də Heydər Əliyev Rusiya Prezidenti Boris Yeltsinin dəvəti ilə Rusiyaya rəsmi səfər etdi. Azərbaycan-Rusiya əməkdaşlığını daha da sıxlaşdıran dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə, valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında ikiqat vergi qoyulmasına yol verilməməsi və gəlir vergisinin

---

[351] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.440-441.*

[352] *Yenə orada, s.464-465.*

ödənilməsindən yayınmanın qarşısının alınması haqqında, Rusiya Federasiyası və Azərbaycan Respublikası vətəndaşlarının vizasız gəliş-gedişi haqqında sazişlər imzalandı. Rusiyadan Ermənistana qanunsuz yolla silah verilməsi məsələsinə aydınlıq gətirilməsi məqsədi ilə üçtərəfli komissiya yaradıldı[353].

2001-ci il yanvarın 9-11-də Rusiyanın Prezidenti Vladimir Putin Azərbaycana rəsmi səfər etdi. Dağlıq Qarabağ münaqişəsilə bağlı V.Putin bildirdi ki, münaqişə Rusiyanın Cənubi Qafqaz ölkələri ilə sıx əməkdaşlığına mane olur və onun həlli vacibdir. İki ölkə arasında ticarət-iqtisadi, maliyyə-bank, enerji, sərhəd, hərbi və hərbi-texniki əməkdaşlıq, Azərbaycandakı rus icması, Rusiyadakı azərbaycanlı diasporası ilə əlaqədar məsələlər müzakirə edildi[354].

2002-ci il yanvarın 24-26-da isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rusiyaya rəsmi səfər etdi. Səfər zamanı 18 bənddən ibarət birgə bəyanat, 2010-cu ilə qədər uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında dövlətlərarası müqavilə, iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında saziş, həmçinin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ballistik raketlərin izlənməsi sisteminin tərkib hissələrindən olan Qəbələ radiolokasiya stansiyasının statusu, istifadə prinsipləri və şərtləri haqqında saziş imzalandı[355]. 2003-cü il fevralın 26-27-də Rusiyanın müdafiə naziri Sergey İvanovun Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında 10 maddədən ibarət saziş im-

---

[353] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 10-cu kitab, Bakı: Azərnəşr, 2002, s.241-242.*

[354] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 32-ci kitab, Bakı: Azərnəşr, 2010, s.35-40.*

[355] *Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. 1 hissə. Bakı: Mütərcim, 2015, s.555-556.*

zalandı. Sazişə əsasən tərəflər dövlətlərin müdafiə ehtiyacları və təhlükəsizliyi üçün hərbi təyinatlı məhsulların və maddi-texniki vəsaitlərin qarşılıqlı təchizatının həyata keçirilməsi, hərbi-texniki xidmətlərin təqdim edilməsi, hərbi təyinatlı məhsulların yaradılması və istehsalı zamanı mövcud kooperasiya əlaqələrinin saxlanılması və inkişafı istiqamətində əməkdaşlıq edəcəkdilər[356].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya ilə münasibətlərin inkişaf etdirilməsinə çalışmışdır. 2006-cı il fevralın 21-23-də Azərbaycanda "Rusiya İli"nin təntənəli açılış mərasimində iştirak etmək üçün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bakıda işgüzar səfərdə oldu. Dövlət başçıları Rusiyada "Azərbaycan ili"nin uğurla keçdiyini, çoxlu tədbirlər və hadisələrlə əlamətdar olduğunu vurğuladılar və Azərbaycanda "Rusiya ili"nin də eyni müvəffəqiyyətlə başa çatacağına əminliklərini ifadə etdilər. Bildirildi ki, belə tədbirlərin keçirilməsi siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişafına təkan verəcək, ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Münasibətlərin tarixindən danışdılar, humanitar, iqtisadi sahələrdə uğurlu addımlar atıldığını vurğuladılar[357].

Vladimir Putinin şərəfinə təşkil edilmiş mərasimdə Prezident İlham Əliyev nitqində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi probleminə toxunaraq bildirdi: "Biz qeyri-adi heç nə, beynəlxalq hüququn, yaxud da insan məntiqinin normal çərçivəsindən kənara çıxan heç nə tələb etmirik. Biz yalnız onu tələb edirik ki, torpaqlarımız işğaldan azad olunsun, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq prinsipləri əsasında nizama salınsın. Onda

---

[356] *Yenə orada, s.561-562.*
[357] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 15-ci kitab, Bakı: Azərnəşr, 2014, s.149.*

qaçqın-köçkünlərimiz öz evlərinə qayıdarlar. Onda sülh olar, regionda sülh təmin edilər"[358].

Vladimir Putin isə "Rusiya-Azərbaycan münasibətlərinin əhəmiyyətini dərindən bildiyinə görə böyük siyasi xadim Heydər Əliyevin siyasətinin, hətta Azərbaycan üçün ən ağır illərdə və Rusiya–Azərbaycan münasibətlərinin çox mürəkkəb dövründə belə, normal dövlətlərarası münasibətlərə qayıtmaq imkanı verdiyini" vurğuladı[359].

2013-cü ildə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvətilə Azərbaycana növbəti rəsmi səfər etdi. Azərbaycan Prezidenti ilə təkbətək görüşdə Vladimir Putin nitqində vurğuladı ki, "Rusiya Azərbaycan ilə ticari-iqtisadi əlaqələrdə liderlərdəndir və 2-ci yeri tutur, ticarət dövriyyəsi artır. Həm Rusiya, həm Azərbaycan tərəfindən ticarət dövriyyəsinin strukturu kifayət qədər sanballıdır. Əlaqələrimiz bir çox sahələr üzrə inkişaf edir. Burada tam əminliklə demək olar ki, bu əlaqələr şaxələndirilmiş xarakter daşıyır və təşəbbüslərin çoxluğu, o cümlədən Azərbaycan tərəfindən humanitar sahənin inkişafına yönələn təşəbbüslər sevindiricidir"[360].

Rusiya Prezidenti Azərbaycanda rus dilinin inkişafına və tədrisinə lazımi diqqət göstərildiyini, rusdilli məktəblər və Rusiyanın ali təhsil müəssisələrinin filiallarının fəal işlədiyini qiymətləndirdi[361]. Tarixi dostluq əlaqələrini qoruyub saxlamaq üçün xüsusilə mədəni əlaqələrin daha da möhkəmləndirilməsi sahəsində işlər görülmüşdür. Rusiyanın bütün televiziya kanal-

---

[358] *Yenə orada, s. 161.*

[359] *Yenə orada, s.161-162.*

[360] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 58-ci kitab, Bakı: Azərnəşr, 2018, s.85.*

[361] *Yenə orada, s.87.*

ları Azərbaycana yayımlanır. Azərbaycanda Rusiya və Moskva günləri keçirilir və s.

Üçüncü dəfə 2015-ci il iyunun 12-13-də Vladimir Putin I Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Azərbaycana gəldi. V.Putin və İlham Əliyev ikitərəfli və beynəlxalq məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş məsələləri müzakirə etdilər.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana növbəti rəsmi səfəri İran, Rusiya və Azərbaycan liderlərinin ilk üçtərəfli görüşü əsnasında 2016-cı il avqustun 8-də oldu. Tez-tez baş tutan görüşlər münasibətlərin inkişafına yeni təkan verirdi. Qarabağ məsələsinə toxunan V.Putin bu problemin hər kəsə ümumi, sovet keçmişimizdən miras olduğunu bildirdi: "Biz bir məqsədə nail olmağa çalışacağıq: Ermənistan və Azərbaycan kompromisli, lakin hər iki tərəf üçün məqbul olan həll tapmalıdır, burada qalib gələn tərəf olmamalıdır, qalib gələn – iki ölkənin xalqları olmalıdır. Hər iki dövlət hiss etməlidir ki, onlar bu mürəkkəb məsələni bu günümüzün mənafeyi və gələcək nəsillər üçün həll ediblər"[362].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə keçirilən növbəti üçtərəfli görüş 2017-ci il noyabrın 1-də Tehranda oldu. İlham Əliyev görüşün əhəmiyyətini belə dəyərləndirdi: "Üçtərəfli əməkdaşlıq formatının regional təhlükəsizlik üçün böyük əhəmiyyəti vardır. Hesab edirəm ki, bizim uğurlu əməkdaşlığımız regionda sabitliyin, təhlükəsizliyin təmin edilməsində çox mühüm rol oynayır"[363].

---

[362] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 75-ci kitab, Bakı: Azərnəşr, 2018, s.81.*

[363] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 83-cü kitab, Bakı: Azərnəşr, 2019, s.155.*

Heydər Əliyev Mərkəzində keçirilən IX Azərbaycan–Rusiya Regionlararası Forumun rəsmi açılışı mərasimində iştirak etmək üçün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2018-ci il sentyabrın 27-də Azərbaycana növbəti səfər etdi. Bu, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana beşinci səfəri idi[364]. Müntəzəm görüşlərin, Rusiya kanallarına çox əsaslandırılmış müsahibələrin verilməsi, İlham Əliyevin ali diplomatik səriştəsinin nəticəsi olaraq, Rusiya, bəzi nüansları nəzərə almasaq, 44 günlük Vətən müharibəsi zamanı müdaxilə etmədi.

İlham Əliyev 2019-cu il dekabrın 30-da Rusiya Federasiyasının "Rossiya-24" televiziya kanalına müsahibəsində Rusiya Prezidenti ilə dəfələrlə görüşdüyünü, ticarət, nəqliyyat, energetika, humanitar, turizm, innovasiyalar gənclər siyasəti üzrə sahələri əhatə edən yeddi «Yol Xəritəsi» çərçivəsində proqramı fəal surətdə reallaşdırdıqlarını bildirdi[365]. II Dünya müharibəsində Azərbaycanın ümumi Qələbəyə böyük töhfə verdiyini qeyd etdi: "120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi. Ona görə ki, həmin illərdə Azərbaycan sənayesi inkişaf etmişdi. Həmçinin sovet ordusu üçün neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Azərbaycan təmin edirdi, bunlar olmasa idi, müharibədə qalib gəlmək mümkün olmazdı. Biz bilirik ki, Hitler ordusunun çox hücumlarının uğursuz olması yalnız yanacağın vaxtında gətirilməməsinin nəticəsi idi. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa çalışırdı"[366].

---

*[364] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 89-cu kitab, Bakı: Azərnəşr, 2019, s.208-209.*
*[365] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 99-cu kitab, Bakı: Azərnəşr, 2020, s.207.*
*[366] Yenə orada, s.223.*

Prezident faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi məsələsində hər hansı siyasi korrektlikdən uzaq olmağın vacibliyini bildirdi: “MDB məkanında faşistlərin qəhrəmanlaşdırılması, Ermənistanda baş verənlər, İrəvanda faşistlərin əlaltısı Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulması yolverilməzdir. Njde ləqəbi ilə məşhur olan bu adam SMERŞ[367] tərəfindən həbs edilərək, 25 il azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölübdür. Ona bəraət verilməmişdi. İndi belə bir adama Ermənistanda 6 metr hündürlüyündə heykəl qoyulur, küçələrə, meydanlara onun adı verilir. Ermənistan rəhbərliyi faşizmi dəstəkləyən bir casusu hər vəchlə qəhrəmanlaşdırmışdır[368].

İlham Əliyev 2020-ci il mayın 7-də Rusiyanın TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində müxbirin “Bu gün Azərbaycanda 9 May Qələbə bayramını necə qəbul edirlər” sualını cavablandırarkən də həmin məsələlərə toxundu[369]. İlham Əliyevin bu mövzuda müsahibəsi Rusiyanın beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malik nüfuzlu “Natsionalnaya oborona” (“Milli müdafiə”) jurnalının may buraxılışında dərc edildi. Müsahibənin bir yerində deyilirdi ki, “2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dö-

---

*[367] Rus dilində “СМЕРть Шпионам” (Casuslara Ölüm) ifadəsinin qısaldılmış formasıdır. II Dünya müharibəsi illərində SSRİ ordusunun casuslara qarşı yaratdığı kəşfiyyat bölümüdür. 1943-cü ildə yaradılmış, 1946-cı ildə fəaliyyətini dayandırmışdır.*

*[368] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 99-cu kitab, Bakı: Azərnəşr, 2020, s.225-226.*

*[369] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 103-cü kitab, Bakı: Azərnəşr, 2020, s.6-12.*

zümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Məruzədə deyilir: "Ermənistanın keçmiş hakim Respublika Partiyası üçüncü Reyx ilə əməkdaşlıq etməsi barədə məlumat olan millətçi təmayüllü Qaregin Njde kimi heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir. Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi Ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr edilmiş 12 cildlik "1941–1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" nəşrinin 6-cı cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyat fəaliyyəti" sərlövhəli məqalədə deyilir: ""Dromedar" Abverqrup-114 haqqında agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı tapıb və həbs ediblər. O, İkinci Dünya müharibəsi dövründə Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agenti cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə çatdırılmasında iştirak edibdir. SMERŞ əməkdaşları 17 təxribatçını tutub, qalanlar barəsində axtarış elan ediblər". Njde Avropanın yəhudi əhalisinə qarşı Holokostda da iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionunu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya üçün həlak olan Ermənistan üçün həlak olur". Burada, necə deyərlər, şərhə ehtiyac yoxdur[370].

2020-ci il iyulun 12-16-da Ilham Əliyev Vladimir Putinlə telefon vasitəsilə danışıqlar apardı. Ermənistan-Azərbaycan sər-

[370] *Yenə orada, s.38-44.*

hədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribat və itkilər haqqında məlumat verdi. Yaşayış məntəqələrinin dağıdıldığını bildirdi. İlham Əliyev Ermənistanın əsas məqsədinin üçüncü tərəfi münaqişəyə cəlb etmək olduğunu vurğuladı. Prezident Ermənistan-Azərbaycan sərhədində başvermiş toqquşmalar başa çatdıqdan sonra iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu V.Putinin diqqətinə çatdırdı. Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək, bu günə qədər Rusiyadan Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğunu bildirdi və Rusiya Prezidentindən bu məsələyə aydınlıq gətirməsini istədi[371].

Vətən müharibəsi zamanı Ermənistanın üçüncü dövləti münaqişəyə cəlb etmək planının məhv edilməsi üçün Prezident İlham Əliyevin xarici Kütləvi İnformasiya Vasitələrinə müsahibələr verməsinin çox böyük əhəmiyyəti oldu.

2020-ci il sentyabrın 29-da "Rossiya-1"telekanalında yayımlanan "60 dəqiqə" proqramında Prezident İlham Əliyev Ermənistanın İkinci Qarabağ müharibəsində Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi ittihamlarını rədd etdi[372]. Prezident vurğuladı ki, "Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur"[373].

İlham Əliyev oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına müsahibəsində müxbirin "Azərbaycanda Rusiyaya müna-

---

*[371]Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, s.143-144.*
*[372] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, s.83.*
*[373] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.84.*

sibət dəyişibdirmi” sualına cavab olaraq bildirdi ki, Rusiyaya və Rusiya Federasiyasında yaşayan ruslara Azərbaycanda yalnız müsbət münasibət vardır. Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir edilirsə, bunlar Rusiyanın nüfuzunu artırmır. Rusiya rəhbərliyinin diqqətinə çatdırıram ki, belə münasibət bizim planlarımızda olan qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə müəyyən çətinliklər yaradacaq. Rusiya mediasında üzləşdiyimiz informasiya hücumu Rusiya ilə münasibətlərə böyük zərər vurub. Bu münasibətləri qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazımdır[374]. Beləliklə, Azərbaycan Prezidenti münasibətlərə zərər vurmamaq üçün Rusiya Prezidentinə səsləndi.

Oktyabrın 15-də Rusiyanın “RİA Novosti” agentliyi üçün «Rossiya Seqodnya» Beynəlxalq İnformasiya Agentliyi media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verən Prezident İlham Əliyev ermənilərin bölgəyə kütləvi köçürülməsinin 1813 və 1828-ci illərdə başladığını bildirdi: “XIX əsrin əvvəlində Qarabağ və Şuşa xanı İbrahimxəlil – onun statusu məhz belə olub – Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olması barədə general Sisiyanovun şəxsində Çar Rusiyası ilə müqavilə bağlayıb. Kürəkçay müqaviləsi adlanan bu sənədin mətni internetdə yer- ləşdirilib. Onunla hər kəs tanış ola bilər. Bu müqavilədə Qarabağ xanlığının erməni əhalisi barədə bircə kəlmə də deyilməyib”[375]. Regionun tarixini təfsilatı ilə danışan Prezident vurğuladı ki, “Rusiya imperiyası dağılandan sonra, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil erməni dövləti yaradıldı. Azər- baycan Xalq Cümhuriyyəti bütün bu ərazilər çərçivəsində yara- dılmışdı. Üstəlik, Azərbaycan Xalq Cümhuriyyəti onun yaradıl-

---

[374]*Yenə orada, s.275-276.*

[375] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 106 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.33.*

masının elan edilməsinin ertəsi günü İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsi barədə qərar qəbul etdi. Bu da tarixi faktdır. 1921-ci ildə Qafqaz Bürosu Dağlıq Qarabağın, bəzi yalançı tarixçilərin dedikləri kimi, Azərbaycana verilməsi haqqında deyil, onun Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi"[376].

Oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində İlham Əliyev Ermənistana qanunsuz silah keçirildiyini bildirdi: "Qarşı tərəfə, erməni tərəfinə gəldikdə isə Azərbaycan Rusiya tərəfinə belə bir narahatlığını çatdırıb ki, qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bu barədə məlumatlar var, uçuşların xəritələri, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə bildirilib. Əlbəttə, bu, cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Zəruri hallarda bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya (Beynəlxalq Mülki Aviasiya Təşkilatı – R.D.) müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır. Yeri gəlmişkən, bütün bu məlumatlar mətbuatda var... Bu sxemdə erməni mənşəli rusiyalı iri sahibkarların əli var, bu məsələdə beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var. Rusiyaya müraciətimiz, o cümlədən bu məsələnin araşdırılmasına yönəlmişdi"[377].

---

[376] *Yenə orada, s.34.*

[377] *Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsi. 23.10.2020. http://www.saatli-ih.gov.az/news/315.html*

İlham Əliyev onu da vurğuladı ki, Ermənistan hakimiyyətində təmsil olunan insanlar vaxtilə Rusiya səfirliyinə yumurta atır, "Rusiyalı işğalçılar, rədd olun" şüarları ilə çıxış edirdilər. Buna görə də Rusiyanın siyasi isteblişmentinin müəyyən hissəsinin bu cinayətkar terrorçu rejimi dəstəkləməsi təəccüblüdür: "Paşinyan Sorosun əlaltısıdır. Bu insan əvvəllər həmişə Ermənistanın Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdi. Onun partiyası "Çıxış" adlanır, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxış, Avrasiya İqtisadi Birliyindən çıxış. Paşinyanın bütün komandası praktik olaraq Qərbin, Soros Fondunun, "Amnesty International", "Transparency", "Human Rights Watch", "Freedom House"un maliyyələşdirdiyi qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarətdir"[378].

İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində Ermənistanın münaqişəni beynəlmiləlləşdirmək, Rusiyanı birbaşa müharibədə iştiraka sürükləmək üçün hər şeyi etdiyini bildirdi: "Mənim bildiyimə görə, bu, Rusiya tərəfindən rədd edilmişdir və Rusiyanın xarici işlər naziri bununla bağlı bəyanat vermişdir. Ola bilsin, bunu lap dəqiqliklə ifadə etmirəm, lakin belə bir mesaj var idi ki, döyüş Azərbaycanın ərazisində aparılır. Əgər Azərbaycan, əgər istənilən ölkə Ermənistana hücum etsə, onda Rusiya öhdəliyini yerinə yetirməlidir. Lakin döyüş bizim torpağımızda gedir ..."[379]. Prezident qonşu dövlətlərin mövqeyi ilə bağlı onu da əlavə etdi ki, "bu yaxınlarda İranın Ali Rəhbəri Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini boşaltmalı olduğu ilə bağlı bəyanat vermişdir. Bu, iki qonşu ölkənin reaksiyasıdır. Türkiyənin mövqeyi yaxşı bəllidir. Türkiyə həmişə beynəlxalq hüququ və BMT Təh-

---

[378] *Yenə orada.*

[379] *İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. 05.11.2020. https://president.az/articles/45475*

lükəsizlik Şurasının qətnamələrini dəstəkləyir. Həmçinin Gürcüstan da dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bu, bizim qonşuların mövqeyidir"[380].

Prezident İlham Əliyevin Ermənistanın yalan informasiyalarını faktlarla təkzib etməsi dünya dövlətlərinin münaqişəyə mövqeyini dəyişdirdi. Vladimir Putin çıxışında "Rusiyanın münaqişənin həllində əvvəlki kimi bitərəfliliyini, balanslı mövqeyini qoruyub saxlayacağını, hərbi əməliyyatların dayandırılmasının zəruriliyini, prosesə aşkar müdaxilə etmək niyyətində olmadığını" bildirdi. Putin, həmçinin "Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində öhdəliklərini yerinə yetirməyə hazırdır, amma hərbi əməliyyatlar Ermənistan ərazisində aparılmır" deməklə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu vurğuladı[381].

Eyni zamanda, Rusiya Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə əlaqədar yaranmış reallığı nəzərə alır, işğal faktı ilə Azərbaycan xalqının heç vaxt barışmadığını qəbul etməsi məlum olur. Belə ki, Putin Azərbaycanın müstəqil dövlət olduğunu, hətta Ermənistanın belə, Qarabağın müstəqilliyini tanımadığını bildirdi[382].

Putinin çıxışı nümayiş etdirdi ki, Ermənistanın digər ölkələri üçüncü tərəf kimi münaqişəyə cəlb etmək cəhdləri tam iflasa uğrayıb. Azərbaycan həm hərb meydanında, həm də siyasi meydanda qalibdir. Rusiya Ermənistanın avantüralarına qoşulmaq niyyətində deyil. Vasitəçi kimliyini qorumaq və hər iki tərəfə təsir imkanlarını əldə saxlamaq üçün Rusiya Ermənistanın

---

[380] *Yenə orada.*

[381] *Putinin Ermənistanla öhdəliklər barədə çıxışı. 07.10.2020. https://www.youtube.com/watch?v=fzlFqmRm60M*

[382] *Rusya lideri Putin: Azerbaycan kendi topraklarını kurtardı. 17.11.2020 - 18.11.2020. https://haberglobal.com.tr/dunya/rusya-lideri-putin-azerbaycan-kendi-topraklarini-kurtardi-78973*

xeyirinə seçim etməyəcək. Belə ki, Rusiya siyasətini hansısa ölkənin simpatiya və ya antipatiyasına, siyasətçilərin bəyanatlarına görə qurmur, onun öz yolu, öz strategiyası var. V.Putin Sorosun dəstəyi ilə hakimiyyətə gələn Paşinyanın rəhbərlik etdiyi Ermənistanla deyil, Azərbaycan və Türkiyə ilə əməkdaşlığa üstünlük verir. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış edərkən, Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında Qarabağ münaqişəsində Rusiyanın mövqeyini belə qiymətləndirdi: "Xüsusilə mən burada cənab Putinin yanaşmalarını kənara qoya bilmərəm. Onun müsbət yanaşmaları da bu prosesi müsbət istiqamətdə aparmağa kömək etdi və iş bu səviyyəyə qədər gəlib çıxdı"[383].

Azərbaycan Ordusunun uğurları hesabına status-kvonun olmaması və təmas xəttinin aradan qaldırılması reallığı hamı tərəfindən qəbul edildi.

Rusiya Prezidentinin çıxışındakı digər maraqlı məqam isə səsləndirdiyi "5+2 formatı" ilə bağlı idi. Əvvəllər Rusiyanın xarici işlər naziri Sergey Lavrovun tərəflərə təqdim etdiyi planda həmin formul öz əksini tapmışdı. Lakin Azərbaycan bu planın böyük bir qismini özü yerinə yetirmişdi, dörd rayonun, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının mərkəzləri də daxil olmaqla, böyük hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olan Hadrut qəsəbəsi artıq işğaldan azad olunduğu üçün "5+2 formulu"nun kompromis variant kimi təklif olunması mənasını itirmişdi. Azərbaycan Ordusunun rəşadətli mübarizəsi nəticəsində torpaqlarının böyük bir hissəsi azad olunan Azərbaycanın bunu qəbul etməsi mümkünsüz idi. Artıq Azərbaycan

---

[383] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.274.*

Dağlıq Qarabağ separatçılarına hər hansı status verilməsi məcburiyyətində deyildi. İşğal altında olan torpaqların azad edilməsi zamanı nə qədər general və əsgərlər şəhid oldular?! Münaqişənin diplomatik yollarla həll edilməsi prosesində Azərbaycan Dağlıq Qarabağ ermənilərinə ən yüksək muxtariyyat statusunun veriləcəyini bildirirdi. Münaqişənin hərbi çərçivədə həlli və Azərbaycan Ordusunun qələbələri, torpaqların azad edilməsi, Ermənistanın mülki əhaliyə qarşı raket hücumu göstərdi ki, hər hansı status üçün separatçıların haqqı yoxdur.

2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatı imzalamaq üçün Ermənistanı Rusiya da məcbur etdi[384]. Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə bu məsələni vurğuladı: "... Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox! Biz və Prezident Putin. Bu reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı"[385].

### *3.3. Çin ilə münasibətlər*

#### *3.3.1. Çinin BMT-də mövqeyi*

Öz iqtisadi potensialına görə ABŞ və Rusiyadan sonra üçüncü yerdə olan Çin ABŞ-ın ən böyük potensiallı rəqibidir. Çin ordusu öz sayına görə (2,3 milyon) ABŞ ordusunu (1,5 milyon) geridə qoyur. ABŞ Mərkəzi Asiyada möhkəmlənməklə, Rusiya kimi Çini də əldə saxlamağa çalışır. Mərkəzi Asiyanın əksər ölkəsi "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçısıdır, onlardan bəzisi isə NATO-nun tamhüquqlu üzvü olmağa çalışır. Çinin Şanxay Əməkdaşlıq Təşkilatı üzvləri ilə beynəlxalq əlaqələrini

---

[384] *Yenə orada, s.58-61.*
[385] *Yenə orada, s.293.*

inkişaf etdirməsini də bu nöqteyi-nəzərdən izah etmək olar. ABŞ-ın Asiyada əsas strateji məqsədlərindən biri iki nəhəng dövlətin Çin və Rusiyanın anti-amerikan hərbi-siyasi yaxınlaşmasına yol verməməkdir. Amerika tədqiqatçısı E.Rubinstayn "Rusiya və Amerika: rəqabətdən barışığa doğru" kitabında yazır: "Rusiya Avrasiyanı zəbt edir, ABŞ-a, Avropaya və Yaponiyaya qarşı Çin Rusiya və İranla koalisiyaya daxil olacaq"[386]. Çinin Rusiya ilə alyans yaratması Asiya-Sakit okean regionunda möhkəmlənmək üçün ABŞ-ı Çinlə tarixən ziddiyyətləri olan Yaponiyaya arxalanmağa sövq edir. Bununla bağlı olaraq Rusiya tədqiqatçısı N.Nartov qeyd edir: "ABŞ-ın Asiya-Sakit okean regionunda geopolitik hegemonluğuna Yaponiya-Çin alyansı son qoya bilər"[387]. Rusiya tədqiqatçısı M. Aleksandrov yazır ki, "Çinə XXI əsrdə özünün geosiyasi rəqibi kimi baxan ABŞ hətta Çini zəiflətmək üçün Sintszyan-Uyğur Muxtar Dairəsində olan uyğur separatçılarını maliyyələşdirir, silahlandırır"[388]. ABŞ Tayvanın Çinlə birləşməsi məsələsini tanımır. Beləliklə, Çin və ABŞ arasında olan ziddiyyətlər yalnız Çinin mülayimliyi ilə üzə çıxmır.

Çin də həmkarları kimi veto hüququndan geosiyasi, iqtisadi və s. maraqları üçün istifadə edir. Rusiya kimi Çinin də Birma və Zimbabvedə iqtisadi maraqları olduğu üçün, 2007-ci ildə Birmada və 2008-ci ildə Zimbabvedə insan hüquqlarının pozulmasını pisləyən iki qətnaməyə Çin Rusiya ilə birlikdə veto qoydu.

Bundan başqa, 1997-ci ildə Çin Qvatemalada atəşkəsin yoxlanılması üçün müşahidəçilərin yerləşdirilməsinə icazə verməyi nəzərdə tutan qətnaməyə, 1999-cu ildə BMT sülhməramlılarının Makedoniyada yerləşməsi barədə qətnaməyə veto qoy-

---

[386] *Геополитика: Антология. М.: Академический Проект Культура, 2006, s.15.*
[387] *Нартов Н.А. Геополитика: Учебник для вузов / Под ред. проф. В.И.Староверова. М.: Единство 2003, s.272.*
[388] *Александров М. Военно-политическая стратегия НАТО в Закавказье на примере Азербайджана // Россия и мусульманский мир, 2005, № 5, s.61.*

du. Çünki Makedoniya və Qvatemalanın Tayvan ilə siyasi əlaqələri var idi. Beləliklə, Çin veto hüququndan Tayvanı müstəqil suveren dövlət olaraq tanıyan ölkələri cəzalandırmaq üçün siyasi silah olaraq istifadə etdi[389].

Veto qoymaqdan başqa, daimi üzvlər Təhlükəsizlik Şurasına gələn mübahisəli bir məsələnin qarşısını almaq üçün lobbiçilik də edirlər. Avstraliya tədqiqatçısı John Langmor qeyd edir ki, Çin beynəlxalq ictimaiyyətin fikrini nəzərə alaraq, 1973-cü ildə Liviyaya uçuşa qadağa qoyulması barədə BMT Təhlükəsizlik Şurasının qətnaməsinə veto qoymadı[390]. Çin, Rusiya, Almaniya, Braziliya və Hindistanla birlikdə yalnız səs vermədən qaçdı. Bu, daimi üzvlərin vetodan istifadə etmələrini nəzərə çarpdırmamaları və beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün maneə kimi görünməmələri üçün lazım idi.

Şri Lankada olan şəraitin müzakirəsi zamanı Çin və Rusiya Təhlükəsizlik Şurasının gündəliyindən Sri Lanka ordusunun cinayətlərinə dair mümkün bir qərar qəbul etməyi çıxarmağı bacardı. Rusiya və Çin tərəfindən veto hüququnun tətbiqinin ən son nümunəsi Suriyadakı vəziyyət və bu iki ölkənin müxalifəti ilə bağlıdır. BMT üzvləri 2011-ci il 27 aprel tarixdə Suriyadakı şəraiti müzakirə etmək üçün toplandıqda Böyük Britaniya və Fransa nümayəndələri bir qətnamə ilə razılaşa biləcəklərini ümid edirdilər. Ancaq onlar Rusiyanın və Çinin müqaviməti ilə qarşılaşdılar. 2011-ci ilin iyun ayında Qərbi Avropa ölkələri yenidən Suriya məsələsini Təhlükəsizlik Şurasında müzakirə etməyə çalışdıqda Çin və Rusiya Təhlükəsizlik Şurasının Yaxın

[389] *Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012, s.12-13.*

[390] *Yenə orada, s.15.*

Şərqin zəif bir bölgəsində strateji bir ölkəni sabitləşdirə biləcəyini dəstəkləməyəcəklərini açıq şəkildə bildirdilər[391].

Nüvə problemi ilə bağlı İrana qarşı qəbul edilən qətnamələri Çin və Rusiya təhdid etdilər. Çünki İran Rusiya və Çinin əhəmiyyətli ticarət tərəfdaşıdır. Eyni zamanda, Rusiya və Çin ABŞ-la rəqibdir. Çox güman ki, Çin və Rusiya gələcəkdə də İrana qarşı hərbi əməliyyata icazə verən hər hansı qətnaməyə veto qoyacak və ya bu cür qətnamələrin həyata keçirilməsinin qarşısını almaq üçün veto təhdidindən istifadə edəcəklər.

ABŞ-ın Avrasiyada strateji məqsədlərindən biri Atlantik okeanını Sakit okean ilə birləşdirən keçmiş Böyük İpək yolu məkanında möhkəmlənmək və Avrasiya Mərkəzi Kommunikasiya sistemi üzərində nəzarət etməkdir. Rusiya tədqiqatçısı A.F Panarin yazır ki, Çin və Hindistan bitərəfləşdirilmədən ABŞ uzunmüddətli hegemon ola bilməz[392]. Çin gücləndikcə Yaponiya ABŞ üçün daha böyük əhəmiyyət kəsb edir. ABŞ-ın yeni dünya nizamının yaradılmasında güclü müttəfiqə ehtiyacı vardır və buna görə də o, Şərqi Asiyada Yaponiya ilə təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirir, Yaponiya ilə ittifaq Birləşmiş Ştatların Asiyada başlıca siyasəti olaraq qalır. ABŞ-dan sonra BMT-ni daha çox maliyyələşdirən dövlətlər Yaponiya və Almaniyadır. ABŞ-ın bu dövlətlərin Təhlükəsizlik Şurasına daimi üzv kimi qəbul edilməsinin tərəfdarı olması da bir tərəfdən bununla bağlıdır. Z.Bzejinski yazır: "İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdən biri olan Yaponiya liderlik iqtidarında olan bir dövlət olsa da, bu vəziyyətdən istifadə etmir, regional dominant dövlət olmağa cəhd etmir, Amerikanın tabeliyi altında siyasət yeritməyə üstünlük verir. Uzaq Şərqdə təhlükəsizliyin təmin edilməsin-

---

[391] *Yenə orada, s.17-18.*

[392] *Панарин А.Ф. Стратегическая нестабилность в XXI веке. М.: Алгоритм, 2003, s.42.*

də Amerikanın rolu Yaponiya ilə əməkdaşlıqdan asılıdır. Yeni dünya nizamının yaradılmasında güclü müttəfiqə ehtiyacı olan ABŞ Şərqi Asiyada Yaponiya ilə təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirir, güclü tərəfdarlar toplamaq üçün fəal çıxış edir”[393].

Z.Bjezinski yazır: “Yaponiya ABŞ ilə müasir dünya problemlərinin həll edilməsində sıx əməkdaşlıq etməklə, dünya səviyyəsində təsir edə bilən bir dövlət ola bilər. Amerika rəhbərliyi bu istiqamətdə Yaponiyaya kömək etməlidir. Ümumi iqtisadi məkan yaratmaqdan bəhs edən azad ticarət barədə Amerika-Yaponiya sazişi iki ölkə arasında münasibətləri möhkəmləndirə bilər. Məhz Yaponiya ilə sıx əlaqələr yaratmaqla ABŞ regionda Çinin cəhdlərinin qarşısını ala bilər”[394].

### *3.3.2. Münaqişənin həll olunması istiqamətində Çin ilə aparılan danışıqlar*

Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin Azərbaycanın müstəqilliyini tanıyan və Bakıda səfirliyini acan ilk dövlətlərdən biridir. 1992-ci il aprelin 2-də Azərbaycan və Çin arasında diplomatik münasibətlər quruldu.

Çin Xalq Respublikasının beynəlxalq aləmdə tutduğu mövqe ilə bağlı Azərbaycan Respublikası onunla münasibətlərin gücləndirilməsi istiqamətində fəaliyyət göstərdi. Çin dövlətinin Azərbaycanda ticarət-iqtisadi maraqları var. Çin Xalq Respubli-

---

[393] *Збигнев Бжезинский. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы) Перевод О. Ю. Уральской М.: Междунар. отношения, 1998, http://www.chat.ru/~scbooks, s.61.*
[394] *Yenə orada, s.247.*

kasının sədri Tszyan Tszeminin dəvətinə əsasən 1994-cü il 7-9 mart tarixlərində Prezident Heydər Əliyev Azərbaycan nümayəndələrinin böyük bir qrupu ilə Çində oldu. Çin ilə Azərbaycan arasında ticarət, iqtisadiyyat, elm, mədəniyyət, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi imkanları müzakirə edilərək, razılaşma nəticəsində sənədlər imzalandı. Beynəlxalq vəziyyətin aktual məsələləri, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və nəticələri haqqında da fikir mübadiləsi oldu. Çin Xalq Respublikası və Azərbaycan ölkələr arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzaladılar. Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirən dövlətlərarası əlaqələrə dair daha yeddi sənəd imzalandı. Prezident Heydər Əliyev Dövlət Şurasının Baş naziri Li Penlə də görüşdü. Bütün bu görüşlərdə Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün əsil mahiyyətini və münaqişənin nizama salınması üçün Azərbaycanın ədalətli mövqeyini diqqətə çatdırdı[395].

Azərbaycan kifayət qədər sanballı iqtisadi potensiala malik olsa da, müstəqilliyinin ilk illərində dərin sosial-iqtisadi böhran keçirirdi. Çin Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsi ilə görüşün keçirilməsi Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsində çox mühüm vasitə idi. Görüş zamanı Heydər Əliyev Azərbaycanın kifayət qədər sanballı iqtisadi potensiala, həm sənaye, həm də kənd təsərrüfatı potensialına malik olduğunu qeyd etdi. Prezident, həmçinin Pekində İctimai Elmlər Akademiyasının alimləri, mütəxəssisləri, əməkdaşları ilə görüşdü və Azərbaycanın Çinlə əlaqələrinin tarixi və gələcək

[395] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.458-464.*

perspektivləri haqqında danışdı[396]. Çində 1949-cu ildən Tayvan problemi mövcuddur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Dağlıq Qarabağa iddiaları nöqteyi-nəzərdən Azərbaycan və Çin oxşar problemlər yaşayırdı. Danışıqlar zamanı Çin Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir. Azərbaycan da Çinin ərazi bütövlüyünü dəstəkləyir.

Lakin 1998-ci ilin sonlarında Çinin bir şirkətinin Ermənistana 8 ədəd hücum xarakterli "Tayfun" raketi satması Azərbaycanın Çinə etirazına səbəb oldu. Çin ilə Ermənistan arasında həmin raketlərin alqı-satqısı dayandırıldıqdan sonra münasibətlərdəki gərginlik aradan qaldırıldı[397].

Çin Azərbaycan ilə enerji sahəsində də əməkdaşlıq edir. Belə ki, 2002-ci ilin iyun ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Çinin Şengli şirkəti arasında qarşılıqlı memorandum imzalanmışdır[398]. Çin şirkətləri Azərbaycanda "Kürsəngi-Qarabağlı" və "Cənub-Qərbi Qobustan" layihələrində iştirak edirlər. Azərbaycanın Çində ticarət nümayəndəsi, Lucouda Azərbaycan Ticarət Evi, Urumçidə və Şanxayda Azərbaycan şərab evləri fəaliyyət göstərir. Azərbaycanda bank, sığorta, kənd təsərrüfatı, sənaye, tikinti, ticarət, xidmət sahələrində 120-dək Çin kapitallı şirkət qeydiyyatdan keçib. Çin şirkətləri Azərbaycan iqtisadiyyatına 832 milyon dollar investisiya yatırıblar.

---

*[396] Yenə orada, s.473-474.*

*[397] Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı: Mütərcim, 2015, s.274.*

*[398] Azərbaycan və Çin arasında əməkdaşlığın yeni səhifəsi ARDNŞ və "Şengli" şirkətləri arasında hasilat və pay bölgüsü haqqında müqavilə imzalanmışdır. 04.06.2003. https://azertag.az/xeber/Azarbaycan_va_Chin_arasında_amakdaslıgın_yenı_sahıfası_ARDNŞ_va_Şenglı_sırkatları_arasında_hasılat_va_pay_bolgusu_haqqında_muqavıla ımzalanmısdır-983445*

Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətinin 55 faizi Azərbaycanın payına düşür[399].

Azərbaycanla Çin arasında elm və təhsil sahəsində geniş əlaqələr var. Bakıda Azərbaycan-Çin dostluq cəmiyyəti də qurulmuşdur.

Çinin xarici işlər naziri Lyu Tszyançao 2007-ci ildə Azərbaycanın Dağlıq Qarabağ regionunda keçirilən "prezident seçkiləri" ilə əlaqədar aşağıdakıları bildirdi: "Çin hökuməti Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə hörmət edir, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ barədə qətnamələrini dəstəkləyir"[400].

2014-cü il may ayında Çinə işgüzar səfər edən Prezident İlham Əliyev Çin Xalq Respublikasinin sədri Si Cinpin ilə görüşdü. Görüşdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında energetika, infrastruktur, nəqliyyat, ticarət dövriyyəsinin artırılması, texnologiyalar, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, humanitar, investisiya qoyuluşu və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu.

Söhbət zamanı beynəlxalq məsələlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı[401].

2015-ci il dekabrın 8-11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə oldu və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşdü. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan

---

[399] *Çin şirkətləri Azərbaycan iqtisadiyyatına 832 milyon dollar investisiya yatırıb. 27.11.2019. https://vergiler.az/news/economy/5828.html*

[400] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.37.*

[401] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 63-cü kitab, Bakı: Azərnəşr, 2018, s.43.*

Prezident İlham Əliyev dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyannamədə bu problemin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü əsasında həll edilməsinin əksini tapmasının önəmli olduğunu vurğuladı. Dövlət başçısı Çinin münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini yüksək qiymətləndirdi, Azərbaycanın da "Vahid Çin" prinsipinə dəstək verdiyini bildirdi. İki ölkənin rəhbərləri arasında şəxsi dostluğun münasibətlərin inkişafına töhfə verdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu və bunun Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən birini təşkil etdiyini dedi. Terrorizm, təcavüzkar separatizm, ekstremizm kimi təhlükələrlə mübarizədə hər iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın önəmini qeyd edən İlham Əliyev Çin şirkətlərinin Azərbaycanda energetika sektorunda fəaliyyət göstərdiyini, Respublikanın informasiya-kommunikasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğuladı[402]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin "Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə"ni imzaladılar[403]. Bundan başqa, iqtisadiyyat, energetika, kənd təsərrüfatı, nəqliyyat, təhsil, ədliyyə sahələrində əməkdaşlıq üçün müqavilələr imzalandı[404].

Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Çin 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılmasına və qarşılıqlı iq-

[402] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 71-ci kitab, Bakı: Azərnəşr, 2018, s.343-344.*
[403] *Yenə orada, s. 345.*
[404] *Yenə orada, s.345-346.*

tisadi əlaqələrin qurulmasına yönəlmiş “Bir Kəmər-Bir Yol” adlı yeni iqtisadi inkişaf strategiyası elan etdi. Strategiya iki əsas inkişaf istiqamətini – “İpək Yolu İqtisadi Kəməri” və “Dəniz İpək Yolu” – əhatə edir, malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasını nəzərdə tutur. 2016-cı ildə Azərbaycan və Çin “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzaladılar. ABŞ siyasi eksperti Piter Teys Azərbaycanın “Bir Kəmər-Bir Yol” adlı layihədə rolu haqqında bildirdi ki, “Pekinin tranzit üçün Azərbaycan ərazisini seçməsi təsadüfi deyil. Azərbaycanın dəmir yolları səmərəliliyinə görə dünyada ilk yerlərdən birini tutur, Mərkəzi Asiya ölkələrinin iqtisadi cəhətdən böyüməsi üçün vacibdir. Bu dəmir yolları Cənub-Şərqi Asiya və Cənub-Şərqi Avropa arasında ticarəti inkişaf etdirir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dəmir yolu nəqliyyatının inkişafı və ümumilikdə milli iqtisadiyyatın gücləndirilməsi istiqamətində böyük bir siyasət yürüdür”[405].

## *3.4. Böyük Britaniya və Fransa ilə münasibətlər*

### *3.4.1. Böyük Britaniyanın və Fransanın BMT-də mövqeyi*

Son dəfə Fransa və Böyük Britaniya veto hüququndan 1989-cu il dekabrın 23-də Panamada şəraitə dair ABŞ-la birgə istifadə etmişlər. O vaxta qədər isə Fransa 15 qətnaməyə veto qoydu. Bu 16 qətnamənin 15-nə Fransa Böyük Britaniya və ABŞ ilə birlikdə veto qoymuşdur. Yalnız 1 qətnaməyə – 1976-cı il fevralın 6-da Qəmər adalarında şəraitə dair qətnaməyə tək

---

*[405] Ekspert: "Azərbaycanın dəmir yolları Çinin “Bir Kəmər-Bir Yol” təşəbüssünün vacib hissəsidir". 26.11.2019. https://report.az/analitika/azerbaycan-cinin-bir-kemer-bir-yol-tesebussu-nun-vacib-hissesidir/*

Fransa veto qoydu[406]. Belə ki, 1976-cı ildə Qəmər adaları hökuməti yenidən BMT-dən dövlətin ərazi bütövlüyünün qorunması üçün tədbirlər görməsini tələb etdi. Qəmər Adaları Respublikasının suverenliyini tanımaq istəməyən Fransa BMT-nin Fransanı həmin adaları tərk etməyə çağırdığı qətnaməyə veto qoydu[407].

Böyük Britaniyanın mövqeyi ABŞ-ın siyasətinə uyğundur. ABŞ-ın İraqa hücumu barədə qətnaməni Böyük Britaniya dəstəklədi, Rusiya və Fransa ABŞ-ın İraqa qarşı hücumu əleyhinə çıxdı, Çin İraq probleminin BMT səviyyəsində diplomatik-siyasi yolla həll edilməsinə üstünlük verdiyini bildirdi[408].

Böyük Britaniya Amerika üçün öz əhəmiyyətini hələ də saxlayır. Bununla bağlı olaraq Z.Bjezinski yazır: “Böyük Britaniya geostrateji fiqur deyil, gələcək Avropada liderliyə iddia etmir, ənənəvi olaraq Avropada tarazlıq yaratmağa çalışır. Siyasi birləşməni inkar edən Böyük Britaniya azad ticarət əsasında iqtisadi inteqrasiyaya, xarici siyasətin əlaqələndirilməsinə, Avropa İttifaqından kənarda təhlükəsizlik və müdafiəyə üstünlük verir, nadir hallarda Avropa İttifaqında öz nüfuzundan tam istifadə edir” [409].

Soyuq müharibə dövrü başa çatdıqdan sonra Fransa heç bir qətnaməyə veto qoymadı, lakin bu gücdən bir neçə dəfə isti-

---

*[406] Вето в Совете Безопасности — Франция. https://www.un.org/-securitycouncil/ru/content/veto-france*

*[407] Afrika dövlətlərindən hələ də xərac alan, beynəlxalq hüququ saymayan Fransa – Təhlil. 26.11.2020. https://apa.az/az/xeber/siyasi/Afrika-dovltlrin-dn-hl-d-xrac-alan-beynlxalq-huququ-saymayan-Fransa-colorredTHLILcolor-616919*

*[408] Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı: Təknur 2011, s.108.*

*[409] Збигнев Бжезинский. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы) Перевод О. Ю. Уральской М.: Междунар. отношения, 1998, http://www.chat.ru/~scbooks, s.59.*

fadə etməklə təhdid etdi, istəmədiyi layihələrin gündəmə gətirilməsinin qarşısını aldı. İraqa qarşı müharibəyə icazə verən hər hansı qətnamələrə veto qoymaqla hədələyən Fransa 2003-cü ildə İraqa hücum barədə qətnamənin qəbul edilməsinin qarşısını aldı[410].

2010-cu ilin noyabr ayında Qərbi Saxarada olan etirazlara qarşı Mərakeş qüvvələr tətbiq etdi. Fransa müttəfiqi Mərakeşə dəstək vermək məqsədilə "cib vetosu"ndan istifadə edərək qətnamənin müzakirəyə gətirilməsinə mane oldu[411].

Fransa yalnız Avropa İttifaqında deyil, həm də Aralıq dənizi ölkələrində, Şimali Afrikada – Mərakeşdə, Tunisdə, Əlcəzairdə öz nüfuzunu möhkəmlətməyə cəhd edir. Fransanın nöqteyi-nəzərindən vahid və müstəqil Avropanın yaradılması Fransanın rəhbərliyi altında Avropanın birləşdirilməsi və eyni zamanda Avropa qitəsində Amerikanın rəhbər rolunun təxminən məhdudlaşdırılması yolu ilə ola bilər.

### *3.4.2. Münaqişənin həll olunması istiqamətində Böyük Britaniya ilə aparılan danışıqlar*

Azərbaycan və Böyük Britaniya arasında diplomatik münasibətlər 1992-ci il martın 11-də quruldu. Böyük Britaniyanı dünya siyasətində sanballı, siyasi çəkisi olan, dünya iqtisadi sistemində çox mühüm yer tutan, zəngin tarixi və gözəl ənənələri olan ölkə kimi nəzərdə tutan Prezident Heydər Əliyev bu dövlət ilə hərtərəfli əməkdaşlıq yaratmaq üçün Böyük Britaniyanın Baş naziri Con Meycorun dəvəti ilə 1994-cü il 22-24 fevral tarixlə-

---

*[410] Yenə orada, s.23.*

*[411] Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012, s.17.*

rində İngiltərədə rəsmi səfərdə oldu. Ümummilli liderin fəaliyyəti və Böyük Britaniya hökumətini Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatlandırmasının nəticəsi olaraq Böyük Britaniya hökuməti Azərbaycan Prezidenti ilə rəsmi görüşdən dərhal sonra Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə humanitar yardım etdi[412]. Bu vaxta qədər Böyük Britaniyada Azərbaycan haqqında informasiya çox az idi. Prezident Heydər Əliyevin İngiltərəyə səfərində əsas məqsəd müstəqil Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında əlaqələri genişləndirmək və inkişaf etdirməkdən, iqtisadi əlaqələr yaratmaqdan ibarət idi. Zəngin iqtisadi potensialı olan Azərbaycan Respublikası iqtisadi siyasətini düzgün istiqamətləndirməli, bütün dünya ölkələri ilə, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərlə öz iqtisadi əlaqələrini genişləndirmək planlarını həyata keçirərək, xarici ölkə şirkətlərinin, firmalarının, iş adamlarının Azərbaycana maraq göstərməsinə xüsusi diqqət ayırmalı idi.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın İngiltərə iş adamları tərəfindən cəlb edildiyini çox yaxşı bilirdi. İngiltərədə iş adamları ilə görüşən Heydər Əliyev İngiltərə ilə iqtisadi əlaqələrin tarixini xatırladaraq Azərbaycanda kapital qoymaq, iş görmək, müştərək müəssisələr yaratmaq üçün geniş imkanlar olduğunu vurğuladı: “... Bu gün mən "Britiş Petroleum" şirkətinin prezidenti ilə görüşərkən o, dedi ki, bir neçə ildir “Bi-Pi” şirkəti “Statoyl” ilə birlikdə Azərbaycanda iş görür. Lakin mən ona xatırlatdım ki, “Britiş Petroleum” bir neçə il yox, hələ əsrimizin əvvəllərində, təxminən 90 il bundan qabaq Azərbaycana gəlmiş və Bakıda neft istehsalında iştirak etmişdir. Cari əsrin əvvəllərində, yəni 1920-ci ilə qədər İngiltərə biznesmenləri Azərbay-

---

[412] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.351-352.*

canda geniş fəaliyyət göstərmiş, çox işlər görmüşlər. Şübhəsiz ki, onlar Azərbaycan neftinin çıxarılmasında iştirak etməklə böyük mənfəət də götürmüşlər. Amma həmin proses təxminən 1920-ci ildə kəsilmiş, sonrakı dövrdə əlaqələr olmamışdır. Bu gün isə məmnuniyyət hissi ilə qeyd etmək olar ki, həmin əlaqələr bərpa olunur və onların daha da genişlənməsi üçün addımlar atırıq"[413].

Səfər zamanı Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlər haqqında 8 sənəd, o cümlədən neft sənayesi sahəsində əməkdaşlıq haqqında memorandum imzalandı. Heydər Əliyev Kral Beynəlxalq Münasibətlər İnstitutunda keçirdiyi görüş zamanı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ərazisinin işğal edildiyini, qaçqın və məcburi köçkün kütləsinin yarandığını, 350 min nəfər əhalisi olan Naxçıvan Muxtar Respublikasının tam blokada vəziyyətinə düşdüyünü, indiki Ermənistan ərazisinin bir hissəsinin Azərbaycan torpaqları olduğunu diqqətə çatdırdı[414].

Müstəqilliyin ilk illərində Böyük Britaniyada azərbaycanlı diasporası yox idi. Orada yaşayan varlı ermənilər isə Ermənistanın xeyirinə təbliğat aparır və ictimai fikri Azərbaycanın əleyhinə yönəldirdilər. Böyük Britaniyada olarkən Heydər Əliyev Londonda azərbaycanlılarla görüş keçirdi və onların daha sıx birləşməsinin, milliliklərini saxlamalarının, bütün dünya azərbaycanlılarının birləşərək Azərbaycanın indiki vəziyyətini dünya ictimaiyyətinə, Avropa ölkələrinə, dövlət dairələrinə, informasiya orqanlarına doğru-düzgün çatdırmağın vacibliyini vurğuladı[415].

---

[413] *Yenə orada, s.416-417.*
[414] *Yenə orada, s.424-428.*
[415] *Yenə orada, s.432-436.*

Heydər Əliyev həmçinin xarici işlər naziri Duqlas Herd, ticarət naziri Maykl Hezltayn, energetika və kənd təsərrüfatı nazirləri, dənizaşırı ərazilərin inkişafı üzrə nazir baronessa Çolker, dövlət naziri Duqlas Hoqq ilə də görüşdü. Avropa Bankında oldu. Birləşmiş Krallığın parlamentinə dəvət olundu, həm Mühafizəkarlar Partiyasını təmsil edənlərlə, həm Leyboristlər Partiyasının nümayəndələri olan parlament üzvləri ilə, həm də lordlarla, o cümlədən azərbaycanlılara o qədər də rəğbəti olmayan baronessa Koksla danışdı.

Qeyd etmək lazımdır ki, Birləşmiş Krallığın parlamentində dostluq fraksiyası, yaxud Birləşmiş Krallığın parlamenti ilə Azərbaycan arasında parlamentlərarası qrup fəaliyyət göstərir.

Prezident Heydər Əliyev bütün görüş və söhbətlər zamanı daxili və xarici siyasət məsələlərində Azərbaycan rəhbərliyinin mövqeyini dəqiq və aydın şərh etdi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin 1988-ci ilədək, yəni münaqişə başlanana qədər iqtisadi vəziyyətlərinin çox gözəl olduğunu, hüquqlarının qorunduğunu, heç bir haqsızlığa düçar edilmədiklərini bildirdi. Reallıqlarla tanış olmaq üçün Baş nazir Con Meycoru, Böyük Britaniya parlamentinin üzvlərini Azərbaycana rəsmi səfərə dəvət etdi.

1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti və Böyük Britaniyanın "Britiş Petroleum" şirkəti arasında müqavilə bağlandı.

1995-ci il yanvarın 4-də Böyük Britaniyanın xarici işlər və birlik işləri üzrə dövlət katibi Malkolm Rifkindin Azərbaycana rəsmi səfəri böyük əhəmiyyət kəsb etdi[416].

Böyük Britaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Birinci Qarabağ müharibəsi zamanı Böyük Bri-

---

[416] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 3-cü kitab, Bakı: Azərnəşr, 1997, s.104-105.*

taniya Ağdam, Füzuli və onların ətrafında hərbi əməliyyatlarla əlaqədar bəyanat verdi, erməni silahlı qüvvələrini Azərbaycan torpaqlarını tərk etməyə çağırdı[417].

1998-ci il iyulun 19-24-də Heydər Əliyev Böyük Britaniyaya ikinci rəsmi səfər etdi[418], kraliça II Yelizaveta, Baş nazir Toni Bler, xarici işlər, müdafiə işləri və beynəlxalq inkişaf üzrə dövlət katibləri, energetika naziri, parlament üzvləri, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşdü. Xəzər dənizinin Azərbaycan sektorunda ingilis şirkətləri ilə əməkdaşlıqdan, Ermənistanın hərbi təcavüzünün nəticələrindən, münaqişənin sülh yolu ilə həlli üçün benəlxalq qurumların fəaliyyətindən danışdı.

Böyük Britaniya Azərbaycanın Avropa Şurasına, Ümumdünya Ticarət Təşkilatına üzv olmasını, NATO, Avropa İttifaqı ilə əməkdaşlığını da dəstəkləyir.

2012-ci il avqustun 6-da Böyük Britaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron ilə görüşdü. Azərbaycan ilə Böyük Britaniya arasında beynəlxalq təhlükəsizlik sahəsindəki münasibətlər müzakirə olundu, Azərbaycanın NATO və Əfqanıstandakı beynəlxalq koalisiyaya dəstəyi yüksək qiymətləndirildi[419].

Prezident İlham Əliyev 2018-ci il aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə növbəti dəfə bu ölkədə səfərdə oldu.

---

[417] *Письмо представителя Азербайджана от 28 июля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26187, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.131.*

[418] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 16-cı kitab, Bakı: Azərnəşr, 2005, s.277-278.*

[419] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 52-ci kitab, Bakı: Azərnəşr, 2017, s.150.*

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə Dövlət naziri Alan Dunkan ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı[420].

Böyük Britaniya İkinci Qarabağ müharibəsi dövründə Azərbaycanın haqlı mövqeyini müdafiə edərək, ərazi bütövlüyünü dəstəkləmişdir. Belə ki, BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 2020-ci il 29 sentyabr və 19 oktyabr tarixlərində müzakirələr keçirildikdən sonra Təhlükəsizlik Şurasının sədri adından bəyanat layihəsi hazırlandı. Əsasən Rusiya Federasiyası və Fransa tərəfindən hazırlanan bəyanat layihəsində BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə istinad öz əksini tapmamışdı. Azərbaycanın əleyhinə olan bu bəyanat layihəsi Qoşulmama Hərəkatı üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən və Böyük Britaniyanın vetosundan sonra qəbul edilməmişdir[421].

### *3.4.3. Münaqişənin həll olunması istiqamətində Fransa ilə aparılan danışıqlar*

Azərbaycan və Fransa arasında diplomatik əlaqələr 1992-ci il fevralın 21-də quruldu. Azərbaycanın müstəqilliyinin ilk illərində Fransa ilə əlaqələr son dərəcə zəif olmuşdur, Fransada Azərbaycan haqqında məlumat çox az olmuşdur. Dağlıq Qara-

---

*420 Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 86-cı kitab, Bakı: Azərnəşr, 2019, s.269.*

*421 İkinci Qarabağ müharibəsi. Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html; Qoşulmama Hərəkatının üzvləri BMT TŞ-də Azərbaycanın əleyhinə olan sənədin qəbul olunmasına imkan verməyib. 23.10.2020. https://report.az/qarabag/hikmet-haciyevden-aciqlama5234/*

bağdakı vəziyyət Fransada daim müzakirə edilir, lakin gecə-gündüz erməni təbliğatı aparılırdı. Fransada Azərbaycan haqqında qeyri-obyektiv mövqe formalaşmışdı. Bunun da səbəbi o idi ki, Fransada azərbaycanlılar olduqca az idi və onlar Fransanın ictimai-siyasi həyatında böyük təsir göstərmirdilər, ermənilər isə əsasən biznesdə, dövlət orqanlarında, Kütləvi İnformasiya Vasitələrində özlərinə vəzifələr tutmuşdular. 1993-cü il 19-22 dekabr tarixlərində Fransaya səfər edən Prezident Heydər Əliyev Fransa Prezidenti Fransua Mitteran ilə görüşdü, Fransa ilə Azərbaycan Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə, iqtisadi, elmi-texniki, mədəni əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqavilədə tələbə mübadilələri də nəzərdə tutulurdu. Heydər Əliyev Prezidentlə və xarici işlər naziri Alen Jüppe ilə görüşündə Fransa ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi, Ermənistan silahlı qüvvvələrinin Azərbaycana hərbi təcavüzü və bununla əlaqədar Azərbaycan Respublikasının vəziyyəti ilə bağlı məsələləri müzakirə etdilər[422].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iqtisadi əməkdaşlıqla əlaqədar həmin ölkələrin səylərini münaqişənin aradan qaldırılmasına yönəltməyə çalışırdı. Fransa şirkətləri ilə Azərbaycan arasında sıx əlaqələr yaradılmışdır[423].

1996-cı il oktyabrın 11-də Fransanın xarici işlər naziri Erve de Şarettin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana gəldikdən sonra Heydər Əliyev 1997-ci il yanvarın 13-15-də Fransaya ikinci rəsmi səfər etdi[424]. Fransa ilə Azərbaycan arasındakı iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə, inkişaf etməsinə

---

[422] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.292-297.*

[423] *Yenə orada, s.281-282.*

[424] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 1998, s.239-240.*

və sürətlənməsinə kömək məqsədilə Fransa-Azərbaycan Ticarət Palatası açıldı. Azərbaycanın "Lənkəran-dəniz" və 'Talış-dəniz" neft yataqlarının birgə işlənməsi və istifadəsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti və Fransanın Prezidenti Jak Şirakın iştirakı ilə ən iri "Elf Akiten" və "Total" şirkətləri arasında 25 il müddətində müqavilə imzalandı[425]. İmzalanmış müqavilə 25 il ərzində birgə iş görülməsini və təxminən 1,5 milyard Amerika dolları həcmində kapital qoyulmasını nəzərdə tuturdu.

Heydər Əliyev Fransada akkreditə olunmuş xarici jurnalistlərin suallarını cavablandırarkən Ermənistandakı, digər ölkələrdəki, o cümlədən də Fransadakı ekstremist, millətçi, təcavüzkar erməni dairələrinin qəzetlərdə böhtançı uydurmalar dərc etdirdiyini, Fransa ictimaiyyətinə yalan məlumat verdiyini vurğuladı[426]. Fransada yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə görüşündə bildirdi ki, “Mond” qəzetinə də, başqa qəzetlərə də məktublar göndərmək lazımdır və bildirmək lazımdır ki, ermənilər yazdıqları yalandır, siz Azərbaycana qarşı böhtan atırsınız, həqiqəti demirsiniz, dünya ictimaiyyətini aldadırsınız, cinayət edirsiniz”[427]. Fransanın 60 milyon əhalisi var, onun 300 mini ermənidir. 300 min erməni Fransaya təsir edə bilir[428].

1997-ci il martın 26-da Fransaya işgüzar səfəri zamanı Heydər Əliyev Fransanın Prezidenti Jak Şirakla, xarici işlər naziri Erve de Şarett ilə görüşdü. Kütləvi İnformasiya Vasitələrinə verilən müsahibələr Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin yayılmasına yönəldilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Fransa ilə münasibətləri inkişaf etdirməyə çalışmışdır. 2004-cü il 7-9 sentyabr tarixlərində Prezident İlham Əliyev Fransaya iş-

---

[425] *Yenə orada, s.244-245.*
[426] *Yenə orada, s.315-316.*
[427] *Yenə orada, s.327-328.*
[428] *Yenə orada, s.325-326.*

güzar səfər etdi. Səfər zamanı İlham Əliyev Fransa Prezidenti J.Şirak, Fransanın ATƏT-in Minsk qrupundakı həmsədri A.Jakolen, Senatın sədri K.Ponsele, YUNESKO-nun Baş direktoru Koyşiro Matsura ilə görüşdü. YUNESKO-nun mənzil qərargahında Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevaya YUNESKO-nun xoşməramlı səfiri adı verildi[429].

2005-ci il iyunun 21-də Fransa XİN Dağlıq Qarabağ regionunda separatçı rejim tərəfindən 2005-ci il iyunun 19-da keçirilən "seçkiləri" qanunsuz hesab etdiyi barədə bəyanat verdi[430].

2006-cı il fevralın 9-12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransada rəsmi səfərdə oldu. Fevralın 10-da Paris yaxınlığındakı Rambuye sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Ermənistan Respublikasının Prezidenti Robert Köcəryanla Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələr apardı[431].

Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirirdi. 2008-ci ilin aprelində Fransanın xarici işlər naziri Bernar Kuşner Azərbaycanın xarici işlər nazirinə göndərdiyi məktubunda yazırdı: "Fransa Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir, dəstəkləyir və dəstəkləyəcəkdir. Bununla əlaqədar Fransa heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımamışdır. Bu mövqe dəyişməz olaraq qalır. Bundan sonra da

---

[429] *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransa - Azərbaycan dostluq qrupunun sədri, senator Jan Buayenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən söhbətindən (10 sentyabr 2001-ci il) sənədinə tarixi ar arayış.. Tarixi arayış 10 iyul 2008-ci ildə tərtib olunub. https://lib.aliyev-heritage.org/az/1610074.html*

[430] *Yenə orada.*

[431] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 15-ci kitab, Bakı: Azərnəşr, 2014, s.122.*

digər münaqişələrin nizama salınmasının nəticələrinə baxmayaraq, Fransa Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır"[432].

2012-ci il sentyabrın 18-də Fransada işgüzar səfərdə olan Prezident İlham Əliyev Fransanın Prezidenti Fransua Olland ilə görüşdü. Görüşdə Fransa şirkətlərinin Azərbaycan iqtisadiyyatında fəal rolu və Fransanın ölkəmizə sərmayə qoymasının əhəmiyyəti vurğulandı, bu sahədə əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirildi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, bu istiqamətdə atılmalı olan addımlar da müzakirə edildi[433].

2014-cü il mayın 11-də Fransa dövlətinin başçısı Fransua Olland Azərbaycana rəsmi səfər etdi. Bakı Fransız Liseyinin açılışı oldu. İlham Əliyev və Fransua Olland "Azərbaycan Respublikası Prezidenti və Fransa Respublikası Prezidentinin Birgə Bəyanatı"nı imzaladılar. Elmi əməkdaşlıq, kənd təsərrüfatı, nəqliyyat, energetika, təhsil sahələrində sazişlər bağlandı[434].

Birgə mətbuat konfransında İlham Əliyev Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında yerləşən 7 rayonun erməni işğalı altında olduğunu bir daha vurğulayaraq bildirdi: "Bu münaqişəyə tezliklə son qoyulmalıdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. O ki qaldı xalqların öz müqəddəratının təyinedilmə prinsipinə, bu prinsipə hörmətlə yanaşırıq, ancaq bu hüquq ölkələrin beynəlxalq birlik tərəfindən tanınan sərhədlərini pozmamalıdır. Erməni xalqı isə

---

[432] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.37.*
[433] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 52-ci kitab, Bakı: Azərnəşr, 2017, s.344.*
[434] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 62-ci kitab, Bakı: Azərnəşr, 2018, s.292.*

artıq bir dəfə öz müqəddəratını təyin edib – müstəqil Ermənistan dövləti vardır[435].

Fransua Olland uzun müddət çəkən münaqişələrin həllinə nail olmaq üçün dialoqa açıqlığın vacibliyini qeyd etdi: "Minsk qrupunda həmsədr olan Fransa məsuliyyət daşıyır. Bu məsuliyyət gərginliyin aradan qaldırılması, etimadın yaradılmasını nəzərdə tutur. Bu gün bu məqsədlə biz Prezident Əliyevlə dialoq apardıq. Bu gün günün ikinci yarısında həmin dialoq Ermənistanda davam etdiriləcəkdir"[436].

2015-ci il aprelin 25-də Fransa Respublikasının Prezidenti Fransua Olland Azərbaycana işgüzar səfər etdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların son vəziyyəti ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın iştirakı ilə aprelin 25-də Azərbaycan Respublikasının təhsil naziri ilə Fransa Respublikasının milli təhsil, ali təhsil və tədqiqat naziri arasında "Azərbaycan–Fransız Universitetinə dair Niyyət Məktubu" imzalandı[437].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il martın 13-14-də növbəti dəfə Fransada oldu. Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. İkitərəfli münasibətlərin inkişafı baxımından qarşılıqlı səfərlərin böyük əhəmiyyətə malik olduğu vurğulandı. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, kənd təsərrüfatı, infrastruktur, kosmik sənaye, turizm, bərpaolunan enerji, ətraf mühit

---

[435] *Yenə orada, s.295-296.*

[436] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 62-ci kitab, Bakı: Azərnəşr, 2018, s.298.*

[437] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 68-ci kitab, Bakı: Azərnəşr, 2018, s.138.*

sahələrində səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı[438].

2017-ci il 14 may tarixindən Emmanuel Makron Fransanın Prezidenti oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Emmanuel Makronun dəvəti ilə 2018-ci il iyulun 19-20-də bu ölkədə səfərdə oldu. Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial, Fransa Respublikası Senatının sədri Jerar Larşe, Fransa Respublikası Milli Assambleyasının sədri Fransua de Rüji ilə görüşlərində Fransa–Azərbaycan ikitərəfli münasibətləri, beynəlxalq və regional məsələlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparıldı[439]. Fransanın 11 şirkətinin nümayəndələri ilə səmərəli görüşlər keçirildi. Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunuldu. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verdi. Ümidvarlıq ifadə olundu ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcəkdir[440].

2019-cu il yanvarın 15-də İlham Əliyev ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşdü. Söhbət zamanı Nikola Sarkozinin 2007–2012-ci illərdə Fransanın Prezidenti olduğu dövrdə Azərbaycan-Fransa münasibətlərinin möhkəmləndiyi vurğulandı, bir çox sahələrdə əlaqələrin böyük inkişaf yolu keçdiyi qeyd edildi. Qeyd olundu ki, həmin dövrdə təhsil sahəsində əməkdaşlığın yeni çərçivələri

---

[438] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 79-cu kitab, Bakı: Azərnəşr, 2019, s.54.*

[439] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 88-ci kitab, Bakı: Azərnəşr, 2019, s.156-157, 159,171.*

[440] *Yenə orada, s.173-174.*

məhz Prezident İlham Əliyev və Prezident Nikola Sarkozinin birgə səyləri nəticəsində mümkün olmuşdur[441].

Vətən müharibəsi başlayanda, 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona telefonla zəng etdi. Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd etdi və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğuladı. İlham Əliyev Ermənistan rəhbərliyinin danışıqlar prosesini pozduğunu, "Dağlıq Qarabağ Ermənistandır", "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatlarının danışıqlara ciddi zərbə vurduğunu bildirdi. Prezident həmçinin Ermənistanın növbəti təcavüzü nəticəsində mülki şəxslərin və hərbiçilərin həlak olduqlarını və Azərbaycan Silahlı Qüvvələrinin buna cavab olaraq, əks-hücum əməliyyatlarını həyata keçirdiyini, məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyiniin üzərinə düşdüyünü qeyd etdi[442].

Fransa Minsk qrupunun həmsədri olduğuna görə 44 günlük Vətən müharibəsində neytral olmalı idi. Lakin Fransa işğalçı, terrorçu Ermənistana ən çox dəstək göstərən ölkə oldu. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış edərkən Rəcəb Tayyib Ərdoğan bəyanatında Qarabağ münaqişəsində ATƏT-in Minsk qrupunun mövqeyindən bəhs edərkən, xüsusilə də Fransanın münaqişəni həll etmək niyyətinin olmadığını vurğuladı: "...Nə üçün 30 il Qarabağda bu zülm çəkdirildi? Minsk qrupu deyilən bu üçlüyün işi nə idi? On-

---

[441] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 92-ci kitab, Bakı: Azərnəşr, 2019, s.69.*

[442] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.61-62.*

lar dünyanın ən güclü ölkələri idi – Amerika, Rusiya, Fransa. Nə üçün vaxt bu qədər uzadıldı, niyə nəticə hasil olmadı? Məgər bunu həll edə bilməzdilərmi? Edə bilərdilər. Onda niyə vaxtı uzatdılar? Ancaq sonra xeyli müsbət mesajlar gəlməyə başladı. Bunların başında da Fransa. Daim qardaşıma (Prezident İlham Əliyevə – R.D.) zəng edirdi, ondan nəticələr əldə etməyə çalışırdı. Təbii, bəzən bizimlə də əlaqə qurmaq istədi, amma doğrusu, biz də cavab vermədik. Çünki bilirdik ki, dərdləri başqadır”[443].

Fransada təxminən 500 min erməni yaşayır. Fransanın Prezidenti Emmanuel Makron erməni seçicilərinin rəğbətini qazanmaq, hakimiyyətdə qalması üçün Ermənistana havadarlıq edir. Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə çalışmaq əvəzinə, Ermənistana dəstək verməklə münaqişəni qızışdırırdı. Fransa Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağla bağlı verdiyi son bəyanatında Azərbaycanın qədim şəhəri olan Şuşanı ermənilər kimi “Şuşi” adlandırması beynəlxalq hüquq normalarını pozur. Fransa Prezidentinin Azərbaycana qarşı ədalətsiz mövqedə dayanması Fransanı demokratik respublika kimi qələmə vermək cəhdinə ziddir. Qondarma Dağlıq Qarabağ respublikasının olmasını dəstəkləyən Fransa Prezidenti Korsikaya və digər etnik qrupların yaşadıqları ərazilərə müstəqillik verərmi? Əlbəttə, buna yol verməz.

Fransa yalnız Avropa İttifaqında deyil, həm də Aralıq dənizi ölkələrində, Şimali Afrikada – Mərakeşdə, Tunisdə, Əlcəzairdə öz müstəmləkəçilik siyasətini möhkəmləndirməyə cəhd edir. 100 il əvvəl Fransa Suriya və Livanı işğal altında saxlamışdır. Türkiyənin beynəlxalq iqtisadi zonasına daxil olan bu ərazilərdə Fransa həmin mövqelərini bərpa etmək məqsədilə Türkiyəyə qarşı təhdidlər, şantajlar etməyə cəhd edir, Türkiyənin sona qə-

[443] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda,108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.273-274.*

dər Azərbaycanın haqq mübarizəsinin yanında olduğunu bəyan etməsi və işğalçı, terrorçu Ermənistana qarşı sərt mövqedə olması Fransanın Ermənistanı dəstəkləməsinin digər səbəbidir. Dəfələrlə Türkiyəni 1915-ci ildə “erməni soyqırımı” törətməkdə günahlandıran Fransa, müstəmləkəsi olan Əlcəzairin 1954-cü ildən 1962-ci ilə qədərki dövrdə müstəqillik uğrunda mübarizəsində 1 milyon əlcəzairlini qətlə yetirmişdir. Fransanın Liviyada həyata keçirdiyi siyasət, Liviyanın bölünməsinə verdiyi dəstək də insanlıq ölçülərindən kənar siyasətdir. Yuxarıda qeyd etdiyimiz kimi, 1976-cı ildə Fransa Qəmər adalarının süverenliyinin tanınması haqqında qətnaməyə veto qoydu. Son zamanlarda Fransada Prezident Emmanuel Makron hakimiyyətinin təqaüdlə bağlı islahatlarına etiraz edən on minlərlə insan və polis əməkdaşları arasında iğtişaş yaranmış, tətil edən “sarı jiletlilər” atla, itlə döydürülmüşlər. onlarla insan öldürülmüşdür. Bütün bunlar demokratiyadan ağızdolusu danışan Fransanın demokratik dövlət olmadığını göstərir.

E.Makron bəyan edirdi ki, “Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib”, “Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermirik”. Prezident İlham Əliyev “TRT Haber” televiziya kanalına müsahibəsində Makronun bu açıqlamalarına cavab olaraq bildirdi ki, “Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub, bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə yeksan ediblər?!... ”[444] .

2020-ci il oktyabrın 6-da Rusiyanın “Perviy kanal” televiziya kanalıına[445], oktyabrın 7-də “CNN Türk” televiziya кanalına

---

[444] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.165-166.*

[445] *Yenə orada, s.187-197.*

müsahibə verən İlham Əliyev Fransa Prezidentinin Azərbaycana qarşı ədalətsiz mövqe tutduğunu, onun irəli sürdüyü ittihamlar haqqında sübut etməyi, əgər sübutu yoxdursa, Azərbaycan xalqından üzr istəməsini xahiş etdiyini bildirdi. İlham Əliyev Fransanın Azərbaycanın muzdlulardan istifadə etməsi haqqında ittihamına belə cavab verdi: "Bizim muzdlulara ehtiyacımız yoxdur. Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir..."[446].

Fransa Respublikası Senatının 2020-ci il noyabrın 25-də qəbul etdiyi "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsi haqlı olaraq Azərbaycanın, eyni zamanda qardaş Türkiyənin etirazına səbəb olmuşdur.

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında Qarabağ azad edildikdən sonra Fransanın parlamentdə "Qarabağ dövləti" qərarının qəbul etdirməsinə belə cavab verdi: "...Sən durub Qarabağı öz parlamentində qəbul etdirdiyin bir qərarla "Bura artıq bir dövlətdir və biz buranı bu şəkildə tanıdıq" – demək haqqına sahib deyilsən. Bunu Paşinyan belə, qəbul etmir. Amma Makron olaraq, sən durub belə, bir məsələni gətirib parlamentindən keçirməyə çalışırsan. Deməli, hələ siyasəti öyrənə bilməmiş, dövlət idarəçiliyini anlamamış, öyrənməmişdir, harada, nə, necə olur, bunu da bilmir. Sabah təbii ki, mənə hirslənəcək, bəlkə də bu axşam hirslənəcək, bu, ayrı bir məsələdir. Amma necə olursa olsun biz haqqı deməliyik. Bunu deməsək, vəzifəmizi yerinə yetirmiş olmarıq. Amma bunlara nail olacağıq"[447].

---

[446] *Yenə orada, s.192.*
[447] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda,108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.275-276.*

# FƏSİL IV

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BMT-DƏ İSLAHATLAR HAQQINDA İDEYA VƏ TƏKLİFLƏRİ

Azərbaycan Respublikası BMT-nin üzvü olduğu müddətdən ötən illər ərzində bu təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılmasına və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi vasitələrlə həllinə çalışmışdır.

BMT-nin fəaliyyətinin artırılması və qəbul etdiyi qətnamələrinin yerinə yetirilməsinə dair Azərbaycan Respublikası dövlətinin mövqeyini 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev etdiyi nitqlərində və müsahibələrində təqdim etmişdir. BMT-nin fəaliyyətinin hansı halda müsbət nəticə verə biləcəyi barədə Heydər Əliyev BMT Baş Məclisinin 1994-cü ildə keçirilən 49-cu sessiyasında çıxışında demişdir: "Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlər ilə möhkəmləndikdə müvəffəqiyyət gətirir"[448]. Ümummilli lider öz çıxışında Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirməkdə fəaliyyətinin gücləndirilməsinin, Şuranın tərkibinin genişləndirilməsinin, Baş Məclisin rolunun artırılmasının, Baş katibin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, üzv dövlətlər arasında sıx qarşılıqlı fəaliyyətin olma-

[448] *Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.310.*

sının zəruriliyini qeyd etmişdi[449]. Heydər Əliyev eyni zamanda, 2000-ci il sentyabrın 7-də Minilliyin Sammitində çıxışında ATƏT-in Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsi ilə bağlı fəaliyyətinin zəifliyini qeyd etmiş, BMT-də islahatlar aparmaq və Təhlükəsizlik Şurasının səmərəliliyinin artırılması yolu ilə bu məsələnin həll edilməsində BMT-yə ümid edildiyini bildirmişdi[450].

BMT-nin fəaliyyətinin səmərəliliyinin artırılması üçün islahatların aparılmasına dair Azərbaycan dövlətinin mövqeyini 2003-cü ildən sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etmişdir. Belə ki, Baş Məclisin 2003-cü ildə keçirilən 58-ci sessiyasında çıxış edən Prezident İlham Əliyev BMT-nin Təhlükəsizlik Şurasının üzvləri arasında qarşılıqlı anlaşılmazlıqların İraq ətrafında və digər münaqişə və böhranlarla bağlı məsələlərin Təhlükəsizlik Şurasının fəaliyyətinə mənfi təsir göstərdiyini bildirdi: "İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir, bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahat vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarım əsrlik reallıqlar öz əksini tapmalıdır. Azərbaycan Baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, xüsusilə Təhlükəsizlik Şurasının tərkibinin genişlənməsi ideyasını dəstəkləyir. Biz BMT mexanizmlərinin yenidən işlənməsi, xüsusilə də veto hüququna yenidən baxılması kimi məsələlərdə Şuranın daimi üzvlərinin xoş məramına ümid edirik"[451].

---

[449] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.11.*
[450] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 30-cu kitab, Bakı: Azərnəşr, 2010, s.13-14.*
[451] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 2008, s.190-191.*

BMT Baş Məclisinin 2004-cü il sentyabrın 24-də keçirilən 59-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid problemləri həll etməyə qadir olmamasının etiraf edilməsinin zəruriliyini aşağıdakı kimi vurğulamışdır: "Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha geniş məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidlərinə, risklərinə və təhlükələrinə qarşı daha operativ şəkildə cavab verməlidir. Ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir"[452].

2005-ci il Sammitində Baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, Təhlükəsizlik Şurasında islahatlar aparılmasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dəstəklədi. Kofi Annanın BMT-də islahatlar barədə təklifləri aşağıdakılardır: 1) Təhlükəsizlik Şurasının tərkibinin dəyişdirilməsi, veto hüququndan məsuliyyətlə istifadə edilməsi və Təhlükəsizlik Şurasının güc tətbiq etməsinin sanksiyalaşdırılması; 2) Baş Məclisdə müzakirələr prosesinin tezləşdirilməsi; 3) İqtisadi və Sosial Şurada islahatlar, iqtisadi və sosial sahədə müxtəlif hökumətlərarası təşkilatların qüvvələrinin səfərbər edilməsi; 4) Katiblikdə vahid mexanizmin yaradılması, Baş katib və heyət üzvlərinin öz vəzifələrini heç kəsdən asılı olmayaraq müstəqil həyata keçirməsi, BMT-nin əsas orqanları və Katiblik arasında funksiyaların bölünməsi, kadrların seçilməsi; 5) Beynəlxalq Məhkəmə yolu ilə mübahisələrə baxılması; 6) maliyyə çətinliyinin aradan qaldırılması; 7) regional təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi; 8) qanunsuz silah satışının qarşısının alınması; 9) BMT heyətinin təhlükəsizliyinin təmin edilməsi; 10)

---

[452] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, s.133.*

İnsan hüquqlarının müdafiəsi. Baş Məclisdə $^2/_3$ səs çoxluğu ilə İnsan Hüquqları Şurasının yaradılması 11) Nizamnamədən "düşmən dövlət", Qəyyumluq Şurası, Hərbi Qərargah Komitəsi ilə bağlı maddələrin çıxarılması[453].

2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvlüyünə keçirilən seçkilərdə 155 səs çoxluğu ilə Azərbaycan 2012-ci il yanvarın 1-dən 2013-cü il dekabrın 31-ə qədər BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvü seçildi. Bu hadisə BMT ilə əməkdaşlığın genişləndirilməsinə təsir edən amillərdən biri oldu. Azərbaycan Respublikası 2012-ci ilin mayında və 2013-cü ilin oktyabrında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyasını yerinə yetirdi. 2012-ci il mayın 4-də Prezident İlham Əliyevin sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının keçirilən iclasında Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirələr oldu. İclasda iştirak edən BMT Baş katibi Pan Qi Mun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə belə bir mövzunun BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınmasına öz müsbət fikrini bildirdi. BMT Baş katibi 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı da yüksək qiymətləndirdi[454].

Təhlükəsizlik Şurasının üzvü olduğu dövrdə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin milli maraqlarının qlobal səviyyədə inkişafı istiqamətində fəal səylər göstərildi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün müxtəlif aspektləri Təhlükəsizlik Şurasının müvafiq iclaslarında mütəmadi

---

[453] *Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı: Təknur 2011, s.131-137.*
[454] *Dadaşova R.B. Diplomatik portretlər. Bakı: Avropa, 2015, s.102.*

olaraq diqqətə çatdırıldı, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüquq prinsiplərinə hörmətin, həmçinin münaqişələr zamanı müharibə və insanlığa qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyi vurğulandı.

İlham Əliyev 2020-ci il sentyabrın 21-də BMT Baş Məclisinin 75-ci sessiyası çərçivəsində кeçirilmiş BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda videoformatda çıxışında yenidən BMT-də islahatların aparılmasına çağırdı: "Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Məclisin canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq"[455].

İlham Əliyev BMT-də islahatlar zamanı universal üzvlüyü təmin edən yeganə qlobal təsisat kimi BMT-nin qlobal iqtisadi idarəçiliyi əhatə etmək iqtidarında olduğunu və bu səbəbdən qlobal iqtisadi idarəçilikdə rolunun gücləndirilməsinin arzuolunan olduğunu bildirdi[456].

İlham Əliyev sentyabrın 24-də BMT Baş Məclisinin 75-ci sessiyasında çıxışında bildirdi ki, "Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması BMT-nin nüfuzunu sarsıdır. Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizmləri yaradılmalıdır"[457].

---

[455] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, s.314-316.*
[456] *Yenə orada, s.317.*
[457] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.35.*

Beləliklə, Ümummilli lider Heydər Əliyev BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlər ilə Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirməkdə fəaliyyətinin gücləndirilməsinin, Şuranın tərkibinin genişləndirilməsinin, Baş Məclisin rolunun artırılmasının, Baş katibin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, üzv dövlətlər arasında sıx qarşılıqlı fəaliyyətin olmasının zəruriliyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının tərkibinin genişlənməsi ideyasını dəstəklədiyini, BMT mexanizmlərinin yenidən işlənməsi, xüsusilə də veto hüququna yenidən baxılması, Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılması zəruriliyini bildirmişdir.

# FƏSİL V

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMA SALINMASI İSTİQAMƏTİNDƏ BMT, ATƏT VƏ MÜNAQİŞƏ TƏRƏFLƏRİNİN ƏMƏKDAŞLIĞI VƏ NƏTİCƏLƏRİ

## *5.1. Münaqişənin nizama salınması istiqamətində BMT, ATƏT və münaqişə tərəflərinin fəaliyyəti*

Azərbaycan Respublikasının müraciətinə və Baş Məclisin tövsiyəsinə əsasən 1992-ci il 14 fevral tarixli 742 saylı qətnamə ilə Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-yə üzv qəbul edildi. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT ilə əməkdaşlıq yaratdıqdan sonra Azərbaycan münaqişəni nizama salmaq üçün ona müraciət etdi. BMT Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq yerli mübahisələrin müzakirəsi Təhlükəsizlik Şurasına verilməzdən əvvəl regional və ya subregional təşkilatlara həvalə edilə bilər. 90-cı illərdən başlayaraq BMT vasitəçilik missiyasını regional və subregional təşkilatlarla əməkdaşlıqda həyata keçirməyə üstünlük verir. Lakin regional təşkilat ilkin mərhələdə münaqişənin öhdəsindən gələ bilmirsə və münaqişə genişlənirsə, onun nizama salınması məsələsi Təhlükəsizlik Şurasının öhdəsinə düşür. 1992-ci il yanvarın 20-də Azərbaycan ATƏT-ə üzv qəbul edildikdən sonra, martın 24-də Nazirlər Şurasının qəbul etdiyi qərara əsasən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün 11 dövlətdən (Azərbaycan, Ermənistan, ABŞ, Rusiya, Fransa, Almaniya, İsveç, İtaliya, Belarus, Türkiyə, Çexiya) ibarət Minsk qrupu yaradılsa da, Azərbaycanın ərazilərinin bir-birinin ardınca işğal edil-

məsi göstərdi ki, ATƏT bu problemi həll etməyə qadir deyildir. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması barədə ATƏT-in vasitəçilik missiyası 1996-cı ilin sonuna qədər Minsk konfransı çərçivəsində keçirilən danışıqlarda, 1997-ci ildən sonra isə Minsk qrupu həmsədrlərinin münaqişə tərəfləri ilə keçirdiyi görüşlər çərçivəsində həyata keçirildi. Minsk konfransının sədrləri 1992-1993-cü illərdə İtaliya, 1994-cü ildə İsveç, 1995-1996-cı illərdə Rusiya, Finlandiya, 1997-ci ildən etibarən Rusiya, ABŞ və Fransa oldu.

Dağlıq Qarabağ münaqişəsini nizama salmaq üçün ATƏT-ə geniş səlahiyyətlər verilmişdir. ATƏT nümayəndələri tərəfindən münaqişə tərəflərinin təmas xəttində monitorinqlər, münaqişə tərəflərinin dövlət başçılarının görüşləri keçirilirdi. Lakin monitorinqlər zamanı atəşkəsin pozulmasına baxmayaraq, Ermənistanın öz niyyətlərinin qarşısını almağa heç bir cəhd etməyən ATƏT ikili standart siyasəti yeridərək heç bir ciddi tədbir görmədi. 2002-ci il iyulun 20-də GÜÖAM-ın (Özbəkistan da o zaman GUAM təşkilatına daxil idi) üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşünün açılış mərasimində Ümummilli lider Heydər Əliyev vasitəçilərin ikili standart siyasətini aşağıdakı kimi ifadə etdi: ”Təcavüzkarların və separatçıların hərəkətləri ilə barışmaq meyilinin müşahidə edilməsi, bəzən isə münaqişə zonasındakı vəziyyəti möhkəmlətmək və qanuniləşdirmək cəhdlərinə açıq-aşkar göz yumulması, bəzi vasitəçilərin “baş vermiş faktlar” əsasında “asan” nizamasalmaya çalışması, etnik təmizləmələri və işğalı tanımağa cəhd göstərilməsi yalnız gərginliyin artmasına gətirib çıxarır və münaqişələrin həqiqətən ədalətli həlli perspektivini uzaqlaşdırır”[458].

---

[458] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 40-cı kitab, Bakı: Azərnəşr, 2012, s.49.*

Vasitəçilik missiyasının həyata keçirilməsində həmsədrlik qurumu mühüm rol oynaya bilər. Lakin Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk qrupunun həmsədrlərindən Rusiya və Fransa açıq surətdə Ermənistanı dəstəkləyirdi. ABŞ-ın isə "907-ci əlavəni"ni qəbul etməsi bu həmsədr dövlətin də münaqişəni düzgün qiymətləndirməməsini göstərirdi.

ATƏT çərçivəsində danışıqlar Romada 1992-ci il mayın 31-də başladı və silsilə şəklində bir neçə danışıqlar raundu oldu. 1993-cü il yanvarın 29-da Təhlükəsizlik Şurasının üzvləri qəbul etdikləri bəyanatda bütün dövlətləri humanitar vəziyyətin daha da pisləşməsinin qarşısını almaq məqsədilə Ermənistana və Azərbaycanın Naxçıvan bölgəsinə humanitar yüklərin, xüsusən də yanacağın daxil olmasına yardım etməyə çağırdılar[459]. Təhlükəsizlik Şurası Ermənistana qarşı siyasi, iqtisadi və digər sahələrdə sanksiyalar tətbiq etmək əvəzinə, dünya dövlətlərini bu təcavüzkar ölkəyə humanitar yardım göstərməyə çağırdı və münaqişə tərəflərini fərqləndirmədi. Ermənistan bu humanitar köməkdən Azərbaycan ərazilərini işğal etməkdə məharətlə istifadə edirdi.

1993-cü il martın 1-də Minsk qrupu çərçivəsində keçirilən danışıqların beşinci raundunda Ermənistan və Azərbaycan nümayəndələri vasitəçi olmadan, ikitərəfli danışıqlar keçirilməsi, beynəlxalq müşahidəçilərin münaqişə zonasına göndərilməsi barədə razılaşdılar. Martın 17-dən 23-dək Cenevrədə Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun qeyri-rəsmi məsləhətləşmələri keçirildi. Azərbaycan nümayəndələrinin təklifləri aşağıdakılar oldu: tərksilah və Minsk konfransı başlayanadək nizamsız silahlı qüvvələrin buraxılması; xarici hərbi heyətin çıxarılması; ağır silahlara nəzarət; Azərbaycanın Laçın rayonundan erməni silahlı qüvvələrinin çı-

---

[459] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.330-333.*

xarılması və Ermənistanın Azərbaycanla sərhədlərinə nəzarət qoyulması (ermənilər Ermənistan; azərbaycanlılar Azərbaycan tərəfdən), Azərbaycanın razılığı ilə Dağlıq Qarabağa Ermənistan tərəfindən edilən humanitar yardıma beynəlxalq nəzarət qoyulması, məcburi köçkünlərin öz yaşayış yerlərinə qayıtmasını təmin etmək üçün beynəlxalq nəzarət qoyulması[460].

Azərbaycanın təklif etdiyi tərksilah təklifini Azərbaycanın Dağlıq Qarabağ erməni əhalisinin təhlükəsizliyinə təminat verməməsi bəhanəsilə Ermənistan rədd etdi.

1993-cü il martın 27-dən aprelin 3-dək Ermənistan silahlı qüvvələri ölkədaxili sabitsizlikdən istifadə edərək Kəlbəcər rayonunu işğal etdi. Kəlbəcər rayonuna erməni təcavüzü başlayandan dərhal sonra Azərbaycan hökuməti bölgədə yaranmış vəziyyətlə bağlı BMT-nin Baş katibini, Təhlükəsizlik Şurasının sədrini məlumatlandırdı, Təhlükəsizlik Şurasının təcili iclas çağırmasını və Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətini pisləməyi tələb etdi. Türkiyə Azərbaycanın bu tələbini müdafiə etdi. Ərzaq, sənaye, enerji daşıyıcılarından məhrum olması haqqında Ermənistanın Təhlükəsizlik Şurasına məlumatlarına cavab olaraq Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi Həsən Həsənov Təhlükəsizlik Şurasına yazdığı məktubda çox önəmli bir sual verdi: "Ermənistan xarici aləmdən necə təcrid olunub ki, iri miqyaslı hərbi əməliyyatlar keçirməyə qabildir? ...Ermənistan Dağlıq Qarabağda hərbi ekspedisiya korpusu saxlayır[461].

---

[460] *Письмо представителя Азербайджана от 29 марта 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25488 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.323.*

[461] *Письмо представителя Азербайджана от 30 марта 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25491 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь,*

Aprelin 3-də Türkiyə hökuməti Təhlükəsizlik Şurasını təcili Azərbaycana qarşı təcavüzün qarşısını almağa və bütün Azərbaycan torpaqlarının azad edilməsini təmin etməyə çağırdı. Aprelin 5-də isə Azərbaycan Respublikasının Prezidenti Təhlükəsizlik Şurası sədrindən və Baş katibdən Azərbaycanın Kəlbəcər rayonunun dinc sakinlərinin xilası üçün BMT-nin müvafiq orqanlarının humanitar yardım göstərməsini, Təhlükəsizlik Şurası sədrinin Ermənistanın Azərbaycana qarşı açıq təcavüzkar siyasətini müzakirə etməsini, faktların təcili müəyyən edilməsi barədə komissiyanın döyüş zonalarına göndərilməsini xahiş etdi[462]. Bununla əlaqədar Təhlükəsizlik Şurası 1993-cü il 6 aprel tarixində bəyanat verdi. Lakin bəyanatda Ermənistanın yox, yerli erməni silahlı qüvvələrinin Kəlbəcər rayonuna müdaxiləsindən bəhs edir, bu qüvvələrin oradan çıxarılması tələb edilirdi. Təhlükəsizlik Şurası ATƏT çərçivəsində sülh danışıqlarını dəstəkləyir, müşahidəçilərin yerləşdirilməsi cədvəlini yerinə yetirməyə, atəşkəs barədə saziş əldə etməyə, maneəsiz humanitar yardım etməyə çağırırdı. Bəyanatda Təhlükəsizlik Şurası Baş katibdən ATƏT-lə məsləhətləşdikdən sonra faktları müəyyənləşdirərək məruzə etməyi xahiş etdi[463].

Baş katibin Təhlükəsizlik Şurasına məruzəsinin 10-cu maddəsində yazılırdı: "Dağlıq Qarabağın özünə və ətraf rayonlarına, xüsusən də Azərbaycanın Kəlbəcər və Füzuli rayonlarına son hücumlar bütün Cənubi Qafqaz regionunda sülh və təhlükə-

---

*февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.328.*

[462] *Письмо представителя Азербайджана от 8 ноября 1994 года на имя Генерального секретаря, Документ S/1994/1278, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за октябрь, ноябрь, декабрь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.31.*

[463] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.28.*

sizliyi dəstəkləmək üçün ciddi təhlükə yaradır..."[464]. Baş katib məruzəsində deyirdi: "Döyüşlərdə T-72 tanklarının, Mi-24 vertolyotlarının, müasir döyüş aviasiyasının olması göstərir ki, yalnız yerli etnik (ermənilər – R.D.) qüvvələr hücum etmir"[465]. Bəs kim bunları edir? Baş katib bunu müəyyənləşdirməli idi. BMT-nin Azərbaycanda olan rəsmi nümayəndəsi Mahmud Əl-Səid ATƏT-in nümayəndələrinə kömək göstərmək məqsədilə Ermənistanın hərbi təcavüzü haqqında faktlar toplamalı idi. Bu məqsədlə BMT missiyası 1993-cü il aprelin 9-10-da Qazaxda oldu. Missiya dinc sakinlərin maldarlıqla məşğul olarkən erməni qüvvələri tərəfindən hücumlara məruz qalması faktını müəyyənləşdirdi. Qubadlı, Fizuli və Ağdamda oldu, Qubadlının, Laçın dəhlizinin, Dağlıq Qarabağın Ermənistan Respublikası tərəfindən atəşə məruz qalmasının şahidi oldu. Yalnız həmin gün 6 nəfər həlak olmuşdu[466].

Təhlükəsizlik Şurası 1993-cü il aprelin 30-da Dağlıq Qarabağ münaqişəsi barədə 822 saylı ilk qətnaməni qəbul etdi. Qətnamədə yeril ermənilərin Azərbaycanın Kəlbəcər rayonuna hücumları ilə bağlı silahlı münaqişənin eskalasiyası, çoxsaylı mülki vətəndaşların məcburi köçkün olması, regionda, xüsusən də Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyət yaranmasında narahatlıq ifadə olunur, regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilər əldə etmək üçün güc tətbiq etməyin yolve-

---

[464] *Yenə orada, s.29.*

[465] *Шукуров И. Дипломатия мира (Об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.)). Баку: Азербайджан, 1997, s.71-72.*

[466] *Доклад Генерального секретаря в соответствии с заявлением Председателя Совета Безопасности в связи с ситуацией в отношении Нагорного Карабаха, Документ S/25600 Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.71-72.*

rilməzliyi təsdiq edilir, silahlı münaqişənin genişlənməsinin ağır nəticələnəcəyindən narahatlıq bildirilərək, sülh prosesinin ATƏT çərçivəsində həyata keçirilməsinin dəstəkləndiyi vurğulanırdı. Qətnamənin I bəndində möhkəm atəşkəs yaratmaq məqsədilə hərbi fəaliyyətin təcili dayandırılması, bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın yaxınlarda işğal edilmiş digər rayonlarından təcili çıxarılması tələb edilirdi. II bənddə Təhlükəsizlik Şurası maraqlı tərəfləri ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin həll edilməsi istiqamətində təcili danışıqlar aparmağa, problemin sülh yolu ilə həll edilməsini çətinləşdirən bütün hərəkətlərin qarşısını almağa çağırır. III bənddə Təhlükəsizlik Şurası regionda, xüsusən də münaqişənin zərər vurduğu rayonlarda mülki əhalinin vəziyyətini yüngülləşdirmək üçün maneəsiz humanitar yardım göstərməyə çağırır, yenidən bütün tərəflərin beynəlxalq humanitar hüquq prinsipləri və normalarına riayət etmək vəzifəsini təsdiq edirdi. IV bənddə Təhlükəsizlik Şurası Baş katibdən ATƏT-lə, həmçinin Minsk qrupunun sədri ilə məsləhətləşərək regionda, xüsusən də Azərbaycanın Kəlbəcər rayonunda vəziyyəti qiymətləndirməyi, Təhlükəsizlik Şurasına məruzə etməyi xahiş edirdi. V bənddə isə bu məsələlər ilə fəal məşğul olmaq qərara alınırdı[467].

Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələri arasında ixtilaf, dövlət orqanlarının nəzarət edə bilməməsi və gedən daxili çəkişmələrdən istifadə edərək Ermənistan öz təcavüzünə haqq qazandırırdı. Bir tərəfdən Ermənistan Azərbaycanı cavab verməyə təhrik edir, digər tərəfdən də ölkədə daxili çəkişmələr rayonların bir-birinin ardınca işğal edilməsinə səbəb olurdu. Daxili siyasətin sabitləşdirilməsi müharibədə udmaq üçün Azərbaycan üçün əsas çıxış yolu idi. Bunun

[467] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

üçün hakimiyyətə iradəli bir şəxs gəlməli idi. Görkəmli siyasi xadim Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına uğurla rəhbərlik etməsini, diplomatik xidmətlərini dərk edərək Azərbaycan xalqı çıxış yolunu Ümummilli liderin hakimiyyətə qayıdışında gördü. Belə ki, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına uğurla rəhbərliyi Naxçıvanı erməni işğalından xilas etdi. Xalqın tələbi ilə Heydər Əliyev Ali Sovetin sədri seçildi. 1993-cü il iyunun 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Prezident səlahiyyətləri Ali Sovetin sədrinə verildi. Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası adından daxili və xarici siyasətin dəyişməz qaldığını, ölkənin əvvəlki kimi demokratiya, siyasi pluralizm, bazar iqtisadiyyatı yolu ilə gedəcəyini, insan hüquqları və beynəlxalq hüquq normalarına riayət edəcəyini, xarici ölkələrlə iqtisadi əməkdaşlıq yaradacağını, vətəndaş müharibəsinin qarşısını almaq üçün ölkənin daxilində zəruri tədbirlər görüləcəyini bildirdi. Heydər Əliyev iyulun 5-də Ali Sovetdə ABŞ, Rusiya və Türkiyənin Bakıdakı səfirləri və BMT-nin Bakıdakı nümayəndəsi ilə görüş keçirdi, ABŞ, Rusiya, Türkiyə, BMT, ATƏT və beynəlxalq birliyi erməni silahlı qüvvələrinin Azərbaycana təcavüzünü dayandırmağa çağırdı, adları çəkilən dövlətlərin və qurumların heç bir zəruri tədbir görmədiyini, ermənilərin hücumlarının gücləndiyini bildirdi[468]. ATƏT-in Minsk konfransının sədri Mario Rafaelli xarici informasiya agentlərinin guya ermənilərin Ağdamı işğal etməsi barədə məlumat yayması ilə əlaqədar Bakıya gəlişini təxirə salması barədə Prezident Heydər Əliyev belə dedi: "... əgər siyasi və diplomatik addımlar yanlış informasiya əsasında qəbul edilibsə, bu, bizi sa-

---

*[468] Письмо представителя Азербайджана от 7 июля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26058, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.46-47.*

dəcə təəccübləndirir… ATƏM-in bu hərəkətindən sonra biz Ermənistanla təkbətək mübarizə aparmağa məcburuq, bu da problemin sülh yolu ilə həll edilməsinə zərbə vurur, regionda hərbi əməliyyatları qızışdırır..."[469].

ATƏT-in Dağlıq Qarabağda münaqişənin nizama salınması barədə təxirəsalınmaz tədbirlər planının müəllifləri olan Minsk qrupunun 9 üzvü arasında iyulun 22-23-də Romada məsləhətləşmələr keçirilən zaman, iyulun 23-də Ermənistan silahlı qüvvələri Ağdam şəhərini işğal etdi. İyulun 24-də Ümummilli lider Heydər Əliyev Ermənistanın Ağdam rayonuna hücumu və erməni təcavüzünün davam etməsini Təhlükəsizlik Şurasında müzakirə etməyi xahiş etdi[470]. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev 1993-cü il 26 iyul tarixində BMT Təhlükəsizlik Şurasının sədrinə və Baş katibə müraciət edərək qətnamənin qəbul edilməsinə nail oldu. Ümummilli lider bildirdi ki, Dağlıq Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Ermənistan Respublikasına tabe olmadıqları barədə erməni tərəfinin dedikləri tamamilə əsassızdır. Bütün ağır silahların, döyüş sursatının, canlı qüvvənin göndərilməsini, habelə hərbi əməliyyatlara bilavasitə rəhbərlik edilməsini Ermənistan Respublikası ilhaq olunmuş Laçın rayonu vasitəsi ilə həyata keçirir. Ermənistan yaranmış fasilədən istifadə edərək, Raffaellinin missiyası getdikdən sonra yeni güclü hücuma başlamışdır. Həmin hücum zamanı Ermənistanın silahlı qüvvələri Ağdam şəhərini işğal etmişlər. Bu xəyanətkar hərəkət hələ heç başlan-

---

[469] *Yenə orada.*

[470] *Письмо осуществляющего полномочия президента Азербайджанской Республики от 24 июля 1993 года на имя Председателя Совета Безопасности Документ S/26164, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.114-115.*

mamış olan sülh prosesinə sarsıdıcı zərbə endirmişdir. Bundan əvvəl Azərbaycan hökuməti Təhlükəsizlik Şurasına xəbərdarlıq etmişdi ki, prosesin uzadılması daha böyük fəlakətə gətirib çıxara biləcək təhlükəli vəziyyət yaradır. İndiki şərait BMT-nin Nizamnaməsinə uyğun olaraq Təhlükəsizlik Şurasına verilmiş səlahiyyətlər əsasında onun işə qarışmasını təkidlə tələb edir[471].

Təhlükəsizlik Şurası iyulun 29-da 14 bənddən ibarət 853 saylı qətnaməni qəbul etdi. Qətnamənin I bəndində Ağdam rayonunun, eləcə də Azərbaycanın digər rayonlarının işğal edilməsi, II bənddə mülki vətəndaşlara hücum, yaşayış məntəqələrinin bombalanması və artilleriya atəşinə tutulması pislənilirdi. III bənddə hərbi fəaliyyətin dərhal dayandırılması, işğalçı qüvvələrin Azərbaycanın Ağdam rayonundan və işğal edilmiş digər rayonlarından tam, qeyd-şərtsiz çıxarılması tələb edilirdi. IV bənddə maraqlı tərəflər atəşkəs barədə möhkəm sazişə nail olmağa və ona riayət etməyə, V bənddə regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə çağırılırdı. VI-VIII bəndlərdə münaqişənin nizama salınması üçün ATƏT-in Minsk qrupunun cəhdləri bəyənilir və dəstəklənirdi. Təhlükəsizlik Şurası IX bənddə 822 saylı qətnaməni, Minsk qrupunun təkliflərini yerinə yetirmək üçün Ermənistanı öz nüfuzundan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ regionu ermənilərinə təsir etməyə çağırırdı. X bənddə dövlətləri münaqişənin genişlənməsinə səbəb olan istənilən silah və hərbi sursat verməkdən çəkindirirdi. XI-XII bəndlərdə münaqişə zonasının mülki əhalisinə humanitar yardım edilməsi, XIII-XIV bəndlərdə Baş katibdən ATƏT-in və Minsk qrupunun sədrləri ilə məsləhətləşərək regionda vəziyyət barədə Təhlükəsizlik Şurası sədrinə məruzə et-

---

471 *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.45-46.*

mək xahiş edilir, bu məsələ ilə fəal məşğul olmaq qarşıya məqsəd qoyulurdu[472].

Yerlərdə vəziyyətlə tanış omaq üçün avqustun 12-13-də BMT-nin Bakıda müvəqqəti ofis rəhbəri Mahmud Əl-Səid Füzuli, Zəngilan, Bərdə, Ağdam, Tovuz və Qazaxda oldu. Mahmud Əl-Səid Ağdamın Azərbaycanın nəzarəti altında olan yeganə Qarvənd kəndinin icra hakiminin yanında olarkən bina raket atəşinə tutuldu. Mahmud Əl-Səid Zəngilan rayonunda erməni ordusunda xarici bayraqlar, xarici dövlət tanklarının olmasının Qazax və Zəngilanda erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş kəndlərin yandırılmasının şahidi oldu[473]. Lakin xarici bayraqların, silah və hərbi sursatın hansı dövlətə məxsus olması ilə bağlı təhqiqat aparılmadı. Mahmud Əl-Səid BMT-də məruzəsində Zəngilanın atəşə tutulmasının, Ermənistanın 20 km-də yerləşən, Dağlıq Qarabağla heç bir sərhədi olmayan Tovuz rayonunun, Qazax rayonunun fasiləsiz atəşə tutulmasının, evlərin, binaların dağıdılmasının şahidi olduğunu bildirmişdi[474]. Həmin vaxt Azərbaycan Respublikası Ali Sovetinin sədri olan Ümummilli lider Heydər Əliyev Ermənistanın təcavüzkarlığının şahidi olmuş BMT-nin Bakıdakı nümayəndəsi Mahmud Əl-Səidin Təhlükəsizlik Şurasına məruzə etdiyini bildirərək, 822 və 853 saylı

---

[472] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

[473] *Письмо представителя Азербайджана от 8 ноября 1994 года на имя Генерального секретаря, Документ S/1994/1278, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за октябрь, ноябрь, декабрь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.209.*

[474] *Письмо представителя Грузии от 26 января 1994 года на имя Генерального секретаря, Документ S/1994/88, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s. 240-241.*

qətnamələrin yerinə yetirilməməsi barədə Təhlükəsizlik Şurasından təcili iclas çağırmağı xahiş etdi[475]. Azərbaycan hökumətinin müraciətindən sonra Təhlükəsizlik Şurası üzvləri məsləhətləşərək avqustun 18-də növbəti bəyanatı qəbul etdilər. Bəyanat Ermənistanı öz nüfuzundan istifadə edərək işğalçı qüvvələrin Füzuli, eləcə də Kəlbəcər, Ağdam və yaxınlarda işğal edilmiş digər rayonlardan tam, qeyd-şərtsiz çıxarılmasına təsir etməyə çağırdı[476].

1993-cü il avqustun 18-də Heydər Əliyev yenidən BMT Təhlükəsizlik Şurasının sədrinə və Baş katibə müraciət etdi: "...Təcavüzkar BMT Təhlükəsizlik Şurasının qərarlarına və bütün beynəlxalq hüquq normalarına həyasızcasına məhəl qoymur. Füzuli rayonunda azərbaycanlılar yaşayan dinc kəndləri zəbt etməkdə və yandırmaqdadır, Füzuli şəhəri üzərinə güclü hücum əməliyyatı aparır, Cəbrayıl, Qubadlı istiqamətində ərazimizin içərilərinə doğru hücumu genişləndirir. Bərdə şəhərini və başqa yaşayış məntəqələrini ələ keçirməyə çalışır"[477].

Füzuli şəhərinə qarşı təcavüzün qarşısını almaq tələbi ilə Azərbaycan hökumətinin, İran İslam Respublikasının və Türkiyənin müraciətlərindən sonra, Təhlükəsizlik Şurası 1993-cü il avqustun 18-də 13 bənddən ibarət 874 saylı qətnamə qəbul etdi. Qətnamənin I bəndində maraqlı tərəflər Rusiya Federasiyası hökumətinin vasitəsilə, ATƏT-in Minsk qrupunun dəstəyi ilə effektli və daimi atəşkəs etməyə çağırıldı. II-VI bəndlərdə

---

*[475] Письмо представителя Грузии от 13 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26576, Совет Безопасности. Официальнее отчеты сорок восьмой годдополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.237.*

*[476] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.31.*

*[477] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.89-90.*

ATƏT-in Minsk qrupu çərçivəsində sülh prosesinin həyata keçirilməsi dəstəklənir, Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə "Təxirəsalınmaz tədbirlər qrafiki" alqışlanır, yaxınlarda işğal edilmiş ərazilərdən silahlı qüvvələrin çıxarılması, kommunikasiya və nəqliyyatın bərpa olunması daxil olmaqla, tərəflər həmin qrafiki həyata keçirməyə çağırılır, VII bənddə Baş katibdən Minsk konfransında iştirak etmək üçün nümayəndələr təklif etmək, konfrans açılandan sonra danışıqların keçirilməsi üçün yardım etmək xahiş edilirdi. VIII bənddə ATƏT-in müşahidəçilik üzrə missiya yaratması dəstəklənir, IX-XI bəndlərdə Baş katibdən bütün tərəflərin beynəlxalq humanitar hüquqa əməl etməsinə nəzarət etmək, bütün münaqişə rayonlarına humanitar yardım göstərmək, qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz yurdlarına qayıtmasına kömək etmək, XII-XIII bəndlərdə Baş katibdən, ATƏT-in sədrindən, Minsk konfransının sədrindən Minsk danışıqları prosesi, yerlərdə vəziyyətə dair, ATƏT və BMT-nin bu məsələdə əməkdaşlığına dair Təhlükəsizlik Şurasına məruzə etmək və bu məsələ ilə fəal məşğul olmaq xahiş edilirdi[478].

1993-cü il avqustun 23-də Cəbrayıl və Füzuli rayonları, avqustun 31-də Qubadlı rayonu işğal edildi[479]. Bu əməliyyatlar Ermənistanın müdafiə naziri S.Sarkisyan (sonralar Prezident oldu) tərəfindən birbaşa həyata keçirilirdi. Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov və Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi Nizami Bəhmanov Dağlıq

---

[478] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

[479] *Письмо представителя Азербайджана от 30 августа 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26381, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, s.288.*

Qarabağ üzrə ATƏT-in Minsk konfransı sədri Mario Rafaelliyə ünvanladıqları məktubda yazırdılar: "...Bizdə olan məlumatlara görə, Azərbaycanın işğal edilmiş rayonlarında Dağlıq Qarabağ erməni separatçı qüvvələrinin rəhbəri, indi isə bu hücumlara operativ rəhbərlik edən Serj Sarkisyan Ermənistan Respublikasının müdafiə naziri olmuşdur"[480]. Dövlətin məsul şəxslərinin başda keçmiş prezidentlər R.Köçəryan, S.Sarkisyan olmaqla terrorçu olmaları təbii ki, Ermənistanın terrorçu dövlət olduğunu göstərir.

Sentyabrın 9-dan 11-dək Moskvada, sentyabrın 22-dən 28-dək Parisdə olan Minsk qrupunun qeyri-rəsmi məsləhətləşmələrində Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasının həyata keçirilməsi barədə təklif edilən "Təxirəsalınmaz tədbirlərin dəqiq qrafiki"ndə "münaqişə tərəfləri" termini adı altında Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ rəhbərliyi nəzərdə tutulmuşdu. Münaqişə tərəfləri hərbi əsirləri və girovları dəyişdirməli, girovluqda olarkən ölənlərin, itkin düşənlərin siyahılarını bir-birinə verməli, Beynəlxalq Qırmızı Xaç Komitəsi nümayəndələrinin bu istiqamətdə işlərinə kömək etməli idilər. Qrafikdə "getmə" termini adı altında 1988-ci ilə qədər mövcud olan müvafiq sərhədlərə qayıtma nəzərdə tutulmuşdu. 1993-cü il noyabrın 2-dək, yəni Minsk konfransı açılana qədər Azərbaycanın işğal edilmiş ərazilərindən Dağlıq Qarabağ "rəhbərliyi" getməli, kommunikasiya və nəqliyyatda olan maneələr aradan qaldırılmalı, bərpaedici tədbirlər görülməli və bu tədbirlərin nəticələrini yoxlamaq üçün ən azı 15-20 ekspertdən ibarət ATƏT missiyası, imkan daxilində BMT nümayəndələri təyin

---

[480] *Письмо представителя Азербайджана от 13 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26583, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.94-95.*

olunmalı idi[481]. Qrafikdə Qubadlı, Ağdam, Füzuli rayonlarından işğalçı ordunun çıxarılması, torpaqların minalardan təmizlənməsi, Azərbaycandan Ermənistan və Naxçıvana əsas qaz kəmərinin yenidən işə başlaması, Qazax-İcevan dəmir yolunun açılması nəzərdə tutulmuşdu. Minsk konfransında "Təxirəsalınmaz tədbirlər qrafiki" imzalandıqdan sonra regiondan beynəlxalq humanitar yardımın maneəsiz keçməsi, Beynəlxalq Qırmızı Xaç Komitəsinin yardımı ilə girov və hərbi əsirlərin, yaxud onların cənazələrinin qaytarılması təmin edilməli, itkin düşənlərin taleyi ilə maraqlanmalı, daimi atəşkəs təsdiq edilməli, hərbi məqsədlə istifadə edilən müxtəlif növ silahların işlədilməsi, istənilən hücum əməliyyatı, hərbi manevr, hərbi texnika, sursatların daşınması, keşikçəkmə məqsədilə Kəlbəcər rayonunda yüngül silahlı heyətin olması, girovların oğurlanması, dinc sakinlərin qarəti və qətlinin qarşısı alınmalı, qanun pozuntusu olduqda münaqişə tərəfləri özləri öz tərəflərindən günahkarları cəzalandırmalı idilər[482]. 1993-cü il oktyabrın əvvəllərində Minsk konfransının sədri Mario Rafaelli həmin qrafiki Təhlükəsizlik Şurasının sədrinə göndərdi. Noyabrın 4-də Minsk konfransı qurtardıqdan sonra işğalçı ordunun Cəbrayıl rayonundan çıxarılması və oranın minalardan təmizlənməsi, Kəlbəcər rayonunun minalardan təmizlənməsi, Mardakert rayonundan işğalçı ordunun çıxarılması və minalardan təmizlənməsi nəzərdə tutulmuşdu. Azərbaycan hökuməti Kəlbəcər rayonunda sülhməramlı qüvvələrin əhalinin 1 faizi qədər, yəni 500-dək olması fikrini bildirmişdi[483].

---

[481] *Письмо представителя Италии от 1 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26522, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.43-46.*

[482] *Yenə orada.*

[483] *Yenə orada.*

Minsk qrupu erməni təcavüzünün nəticələrinin aradan qaldırılması məqsədi ilə yaradılsa da, Ermənistanın təcavüzkar siyasətinə ATƏT kifayət qədər reaksiya vermir, Ermənistan Azərbaycan ərazilərini bir-birinin ardınca işğal etdikcə, daha çox güzəşt tələb edirdi. Minsk qrupu Laçın rayonunun Dağlıq Qarabağ erməniləri üçün "həyati vacibliyini" bildirirdi. Halbuki "humanitar dəhliz" adlanan bu əsas yolla Ermənistandan Dağlıq Qarabağ regionuna hərbi sursat, canlı qüvvə gətirirdilər. Azərbaycan Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin tam hüquqlu tərəf kimi danışıqlarda iştirak etməsini nəzərdə tutan bu qrafiki qəbul edə bilməzdi. Qrafikdə Minsk konfransına qədər Şuşa və Laçın probleminə baxılması kənara qoyulurdu. Minsk qrupu Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağı münaqişə tərəfi kimi verməklə, dünya birliyini Ermənistanı təcavüzkar dövlət kimi müəyyənləşdirməkdən yayındırırdı. Sülhə mane olan əsas amil isə Ermənistanın təcavüzkar dövlət kimi tanınmaması idi. Minsk qrupu ikili standart siyasəti yürüdərək BMT Təhlükəsizlik Şurasının qətnamələrinin şərtsiz tələblərinə məhəl qoymadı, Ermənistan silahlı qüvvələrinin işğal edilən ərazilərdən çıxarılması üçün Azərbaycan tərəfə çoxlu ikimənalı tələblər irəli sürdü.

1993-cü il oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ermənistanın irimiqyaslı təcavüzünün qarşısını almaq üçün Təhlükəsizlik Şurasının təcili iclas çağırmasını, BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq Ermənistana qarşı hərbi, siyasi, iqtisadi sanksiyalar tətbiq etməyi xahiş etdi[484].

---

[484] *Письмо представителя Азербайджана от 26 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26647, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.137.*

Türkiyə hökuməti də Ermənistan silahlı qüvvələrinin Zəngilan və Horadiz ərazilərinə hücum edərək əhalini mühasirədə saxlaması, Türkiyə ilə sərhəddə gərgin vəziyyət yaranması barədə Təhlükəsizlik Şurasının nəzərinə çatdıraraq, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin qarşısının alınması və işğalçıların Azərbaycan ərazisindən çıxarılması məqsədilə tədbirlər görmək üçün təcili iclas çağırmağı xahiş etdi[485]. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı Türkiyə XİN Təhlükəsizlik Şurasına bəyanatında nəinki region dövlətlərini, həmçinin dünya birliyini təcavüzün qarşısını almağa çağırdı və Ermənistanın təcavüzünə son qoymaq üçün birinci növbədə separatçı qüvvələrin maddi-texniki cəhətdən təchiz olunmasının qarşısını almağa çağırdı və təcavüzkara qarşı sanksiyalar tətbiq etməyi vacib saydı[486].

İran İslam Respublikası Təhlükəsizlik Şurasının çağırılmasını, atəşkəs rejimini möhkəmləndirməyi, münaqişəni ədalətlə nizama salmağı xahiş etdi. İranın narahatlığına səbəb bir tərəfdən ərazisinin təhlükə altında qalması, bəzi hallarda artilleriya atəşinə məruz qalması, digər tərəfdən Azərbaycanın işğal edilən ərazilərindən qaçqınların ora axışması idi[487]. Belə ki, Zəngilanın

---

[485] *Письмо представителя Турции от 27 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26650, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.141.*

[486] *Письмо представителя Турции от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26665, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.145.*

[487]*Письмо представителя Исламской Республики Ирана от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26662, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год*

işğalı zamanı 30 min azərbaycanlı öz yurdlarını tərk edərək sığınacaq tapmaq məqsədilə İranın ərazisinə keçdi. 13 mindən çox qaçqın İmişli yolu ilə Azərbaycana qayıtdı. İlkin məlumata görə 11 minə yaxın insan Araz çayında boğulmuş, minlərlə insan itkin düşmüşdü[488].

Ermənistan 1993-cü il oktyabrın 29-da Zəngilan rayonunu işğal etdi, bütün yaşayış məntəqələrini yandırıb məhv edərək "yandırılmış torpaq" taktikasını həyata keçirdi. Los-Ancelosun "Tayms" qəzetinin 2 noyabr tarixli məlumatına görə, erməni silahlı qüvvələrinin irimiqyaslı yanğınlar törətməsini BMT-nin Azərbaycandakı missiyasının başçısı Mahmud Əl-Səid təsdiq etmişdi[489].

Təhlükəsizlik Şurası noyabrın 12-də 884 saylı 9 bənddən ibarət qətnamə qəbul etdi. Qətnamədə Azərbaycanın və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı, ərazilərin alınması üçün güc tətbiq etməyin yolverilməzliyi prinsipləri təsdiq edilirdi. I bənddə atəşkəsin pozulması, silahlı münaqişəni yenidən başlayaraq Zəngilan və Horadiz rayonlarının işğalı, dinc sakinlərə hücum, ərazinin güllәbaran edilməsi pislənilirdi. II bənddə Təhlükəsizlik Şurası Ermənistan hökumətini öz nüfuzundan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ ermənilərini qətnamələri həyata keçirməyə məcbur etməyə, silahlı münaqişəni davam etdirməsi üçün onları silahla təchiz etməməyə çağırırdı. III-VI bəndlərdə ATƏT-in Minsk qrupunun 9 üzvünün 1993-cü il 4 noyabr tarixli atəşkəs barədə bəyanatı qiymətləndirilirdi. Təhlükəsizlik

---

*дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.145.*

[488] *Yenə orada.*

[489] *Письмо представителя Азербайджана от 2 ноября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26682, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.162.*

Şurası 822 (1993), 853 (1993) saylı qətnamələri üzrə təxirə-salınmaz tədbirlər qrafikinə və Minsk qrupunun 1993-cü il 2-8 noyabr tarixli Vyanada keçirilən iclasında ona əlavələrə müvafiq olaraq maraqlı tərəflərdən hərbi əməliyyatları dərhal dayandırmağı, Zəngilan, Horadiz və işğal edilmiş digər rayonlardan işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını tələb edir, tərəfləri Rusiya Federasiyasının vasitəçiliyi, Minsk qrupunun dəstəyi ilə səmərəli və daimi atəşkəsə nail olmaq üçün danışıqları davam etdirməyə çağırırdı. VII-IX bəndlərdə Baş katibdən Azərbaycanın cənub sərhədləri daxil olmaqla, Zəngilan və Horadizdə mülki əhaliyə humanitar yardım göstərməsi, ATƏT sədrinin, Minsk konfransı sədrinin əvvəlcədən Minsk prosesi, qətnamələrin həyata keçirilməsi barədə Təhlükəsizlik Şurasına xəbər verməsi, onların BMT ilə əməkdaşlıq etməsi xahiş edilirdi[490].

1994-cü il fevralın 4-də keçirilən Vyana görüşündə ATƏT Rusiyanın vasitəçiliyini dəstəklədi. Rusiya Federasiyası Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyi Azərbaycan və Ermənistan arasında atəşkəsi etməkdə vasitəçiliyi öz üzərinə götürdü[491]. Azərbaycan Rusiyanın atəşkəs barədə saziş bağlamaq təklifini qəbul etsə də, Ermənistanın Dağlıq Qarabağa beynəlxalq hüquqi status verilməsi təklifini irəli sürməsi atəşkəs barədə sazişi pozdu.

1994-cü il aprelin 10-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin Goranboy, Ağdərə, Ağdam istiqamətində irimiqyaslı hücumu ilə bağlı milli televiziya ilə Azərbaycan xalqına və dünya birliyinə müraciət edən Prezident Heydər Əliyev Dağlıq

---

[490] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

[491] *Письмо представителя Швеции от 12 апреля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/423, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.37-38.*

Qarabağın erməni əhalisinin vətəndaşlıq təhlükəsizliyini, hüquqlarının müdafiəsini tanıdığını bildirdi. Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi Yaşar Əliyev Prezidentin müraciətini Baş katibə, Təhlükəsizlik Şurasına göndərdi. Müraciətdə təcavüzkar Ermənistan hökumətinin Dağlıq Qarabağ ermənilərindən öz məkrli məqsədləri üçün istifadə etdiyini vurğulayan Azərbaycan Respublikasının Prezidenti müharibənin Ermənistan yox, Azərbaycan ərazisində getdiyi halda, bəs nə üçün Gümrü, Üçkilsə, İrəvan və s. vətəndaşlarının Azərbaycanın Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı, Goranboy rayonlarında həlak olduqlarını dünya birliyinə sual verdi[492].

Rusiya regionda öz nüfuzunu möhkəmləndirmək məqsədi ilə 1994-cü ilin aprel ayında öz qoşunlarını atəşkəs xəttində yerləşdirmək barədə sazişin layihəsini Azərbaycana təqdim etdi, eyni zamanda erməni silahlı qüvvələrinə Ağdamın daha 18 kəndini, Ağdərə bölgəsinin bir neçə kəndini işğal etməkdə yardım etdi. Bərdə üçün təhlükə yarandı. Vəziyyət mürəkkəbləşdiyi üçün Azərbaycan mayın 8-də Bişkekdə ATƏT-in Minsk qrupu sədri Yan Eliassonun hazırladığı atəşkəs rejiminin möhkəmləndirilməsi barədə sazişi imzaladı[493]. Mayın 12-dən 16-dək Rusiya Prezidentinin xüsusi müşaviri səfir Vladimir Kazimirovun regiona səfəri zamanı atəşkəsin möhkəmləndirilməsi barədə layihə hazırlandı. Atəşkəs barədə sazişə müvafiq mülki şəxslərə, mülki obyektlərə qarşı hücumlar olmamalı, dağıdıcı gücə

---

[492] *Письмо представителя Азербайджана от 26 апреля 1994 года на имя Генерального секретаря, Документ S/1994/505, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.54-57.*

[493] *Письмо представителя Швеции от 9 июня 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/687, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.376-378.*

malik döyüş ehtiyatları görülməməli, tarixi və mədəni abidələrə zərər vurulmamalı, hərbi əsir və girovlar dəyişdirilməli, minalanmış ərazilər təmizlənməli, humanitar yardım maneəsiz keçirilməli, Azərbaycan Ermənistan yolu ilə Naxçıvanı təbii qaz və elektrik təchizatı ilə təmin etməli, Ermənistan avtomobil yolundan Naxçıvana humanitar yardım göstərilməsində istifadə edilməli idi və s.[494]. ATƏT və Rusiya Federasiyasının təşəbbüsləri nəticəsində atəşkəs rejimini möhkəmləndirmək barədə saziş 1994-cü il 12 may tarixində qüvvəyə mindi[495]. Saziş üzrə danışıqlar mayın 29-da başa çatdı. Sazişə görə atəşkəs rejimi pozulduqda atəşkəsi birbaşa pozanlar və ya bilavasitə pozanlar komandanlıq tərəfindən təcili məsuliyyətə cəlb edilməli idilər. Saziş qüvvəyə mindikdən sonra, 5 gündən gec olmayaraq, münaqişə zonasına atəşkəsə nəzarət məqsədilə ATƏT-in 34 müşahidəçidən ibarət missiyası göndərilməli, yaradılan Birgə Əlaqələndirmə Komissiyası ağır silahlanmaya, 14 gündən gec olmayaraq, ümumi sayı 66 olan ATƏT-in müşahidəçiləri atəşkəsə, ordunun tərxis edilməsinə, ağır silahlara, minaların təmizlənməsinə nəzarət etməli idilər. MDB, Rusiya müşahidəçi kimi nəzərdə tutulmuşdu[496]. Lakin Ermənistan tərəfindən Atəşkəs haqqında sazişə əməl edilmədi və atəşkəsi pozan təcavüzkar Ermənistan dövləti məsuliyyətə cəlb edilmədi.

Ümummilli lider Heydər Əliyevin xalqın çağırışı ilə Azərbaycana hakimiyyətə qayıdışından sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamə-

---

[494] *Yenə orada.*

[495] *Письмо представителя Азербайджана 27 мая 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/635, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.293.*

[496] *Yenə orada.*

tində BMT ilə əməkdaşlıq inkişaf etdirildi. 1994-cü il 29 sentyabr tarixində Baş Məclisin 49-cu sessiyasında çıxış edən Heydər Əliyev BMT-nin fəaliyyətinin perspektivləri haqqında demişdir: "Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmaq əzmindədir"[497]. Heydər Əliyev Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik hüququnu müdafiə etmək bəhanəsi ilə Ermənistanın Azərbaycan ərazilərini ilhaq etməsi, dövlət sərhədlərini zorakılıqla dəyişdirməsi, terror yolu ilə azərbaycanlı əhalinin öz yurdlarından qovulması barədə çıxış edərək bildirdi ki, hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etməsi və başqa dövlətin tərkibinə daxil olması xalqların öz müqəddəratını təyinetmə hüququ adı altında pərdələnir. Öz müqəddəratını təyinetmə hüququnun bu cür yozulması dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə ziddiyyət təşkil edir[498]. Belə ki, 1960-cı il Müstəmləkə ölkələri və xalqlarına müstəqilliyin verilməsi haqqında bəyannamədə, 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktda və 1975-ci il ATƏT-in Helsinki Yekun Aktında göstərilir ki, xalqların öz talelərini özlərinin həll etməsi hüququ vardır. BMT Nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndində yazılır ki, millətlər arasında, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə hörmət əsasında dostluq münasibətləri inkişaf etdirilməli, universal sülhün möhkəmləndirilməsi üçün digər tədbirlər görülməlidir[499]. Bu prinsip müstəmlə-

---

*[497] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.308-309.*

*[498] Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.308.; Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.11.*

*[499]Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.5.*

kə ölkələri və xalqlarının 50-60-cı illərdə azadlıq uğrunda mübarizəsi ilə bağlı idi. Hazırda isə müstəmləkə zülmü yoxdursa, heç bir xalq suveren dövlətin qanuni hakimiyyətinə qarşı mübarizə apara bilməz. Hazırda hər hansı etnik qrup, millət dövlətdən kənar yaşamır. Bu o deməkdir ki, istənilən xalqın öz müqəddəratını yeni xüsusi dövlət çərçivəsində təyin etməsi artıq mövcud olan dövlətin ərazisi hesabına həyata keçirilə bilər.

Digər tərəfdən BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində göstərildiyi kimi, müasir dövrdə əsasını beynəlxalq hüquq normaları təşkil edən beynəlxalq münasibətlərin qorunub saxlanılması üçün xalqların öz müqəddəratını təyin etməsi deyil, dövlətlərin suverenliyi prinsipi, ərazi bütövlüyü prinsipi aktuallıq kəsb edir. Həmin bənddə yazılır: ”Bütün üzvlər öz beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər”[500]. Baş Məclisin 1970-ci il 24 oktyabr tarixli Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında bəyannaməsində də dövlətlərin suverenliyi prinsipinin, ərazi bütövlüyü prinsipinin xalqların öz müqəddəratını təyinetmə prinsipindən daha çox əhəmiyyət kəsb etdiyi aşağıdakı kimi göstərilmişdir: “... öz müqəddəratını təyinetmə hüququ – heç bir vəchlə ərazi bütövlüyünün və siyasi suverenliyin bir hissəsinin və ya tamamilə bölünməsinə, dağılmasına gətirib çıxara biləcək hərəkətləri dəstəkləmək və sanksiyalaşdırmaq kimi şərh olunmamalıdır!..” “Hər dövlət başqa dövlətin ərazi bütövlüyü və müstəqilliyinin qismən və ya tamamilə bölünməsinə yönələn və gətirib çıxara biləcək hərəkətlərdən çəkinməlidir”[501].

---

*[500] Yenə orada, s.6.*

*[501] Декларация о принципах международного права, касающихся дружественных отнощений и сотрудничества между государствами в соответст-*

BMT-nin Baş katibi Butros Butros Qali etnik qrupların xalqların öz müqəddəratını təyinetmə prinsipindən sui-istifadə etmələri ilə bağlı öz narazılığını belə bildirmişdi: “Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır”[502]. 1994-cü il sentyabrın 29-da BMT-nin 49-cu sessiyasında çıxış edən Prezident Heydər Əliyev Baş katibin “təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyinetmə və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birilə ziddiyyət təşkil etməsinə yol vermək olmaz” fikri ilə razı olduğunu bildirdi[503].

1994-cü il oktyabrın 28-də ilk dəfə olaraq Azərbaycan Respublikasına səfər edən Baş katib Butros Butros Qali öz çıxışında Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi qətnamələrin 4 əsas prinsip üzərində qurulduğunu bildirdi: 1.Azərbaycan Respublikasının ərazi bütövlüyü. 2.Azərbaycanın sərhədlərinin toxunulmazlığı. 3.Torpaq zəbt etmək üçün güc işlədilməsinin yolverilməzliyi. 4.Bu üç prinsip əsasında işğal edilmiş bütün torpaqlardan qoşunların heç bir qeyd-şərt qoyulmadan, təcili çıxarılması[504].

Azərbaycanda sülhməramlı qüvvələrin iştirakına gəldikdə isə Butros Butros Qali üç variant olduğunu qeyd etdi:

---

*вии с Уставом Организации Объединенных Наций. Принята резолюцией 2625(XXV) Генеральной Ассамблеи ООН от 24 октября 1970 года. http://www.un.org/ru/documentes/decl_conv/declarations/intlaw_principles.shtml*

[502] *Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.308; Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.11.*

[503] *. Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.11.*

[504] *Yenə orada, s.87.*

1. Bilavasitə BMT-nin təyin etdiyi komandanın nəzarəti altında olan, tamamilə BMT-nin qoşunlarından ibarət qüvvələrin bu regiona gətirilməsi
2. Regiona MDB qoşunlarının göndərilməsi
3. Gürcüstanda tətbiq edilən variant – MDB qoşunları və BMT müşahidəçilərinin birgə səyləri[505].

B.B.Qali ilə danışıqlar başa çatdıqdan sonra keçirilən mətbuat konfransında jurnalistlərdən birinin "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Ermənistan parlamentinin qəbul etdiyi qərar hələ də qüvvədədir. Uydurma Dağlıq Qarabağ respublikasının deputatları Ermənistan parlamentinin işində iştirak edirlər. Ermənistan Respublikasını işğalçı kimi tanımaq üçün daha nə lazımdır?" sualına Butros Butros Qali belə cavab vermişdir: "Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ barədə mövqeyi tam aydındır. Bu mövqe işğalçı qoşunların Dağlıq Qarabağdan təcili olaraq və qeyd-şərtsiz çıxarılmasından ibarətdir" [506] . Lakin işğalçı qoşunlar hansı dövlətə məxsusdur? Bu, aydın deyil.

Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatların Cənubi Qafqazda münaqişələrin həll edilməsində rolu barədə aparılan sorğuda əhalinin əksəriyyəti BMT-nin fəaliyyətinə üstünlük verirdi[507].

1994-cü il dekabrın 6-da keçirilən ATƏT-in Budapeşt sammitində Dağlıq Qarabağ ətrafında baş verən münaqişənin dayandırılması, atəşkəs rejiminin qorunması, münaqişənin həlli yollarının axtarılması, Böyük sülh sazişinin hazırlanması ilə

---

[505] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.443-444; Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 50 kitabda, 9-cu kitab, Bakı: Azərnəşr, 2012, s.209.*

[506] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.441-442.*

[507] *Конфликт на Южном Кавказе в зеркале общественного мнения Азербайджана, Фонд Содействия Развитого предпринимательства и Рыночной экономики, s.8.*

bağlı vəzifələr ATƏT-in Minsk qrupuna və ona həmsədrlik edən Rusiya və Finlandiyaya tapşırıldı. Məhz Budapeştdə ATƏT-in Avropanın ümumi təhlükəsizlik tədbirlərində iştirak edə biləcək sülhməramlı qüvvələrinin yaradılması və münaqişə zonalarına göndərilməsi qərara alındı[508]. Türkiyənin Baş naziri Tansu Çillər bildirdi ki, ATƏT-in sülhməramlı qüvvələri və onun taleyi bu qüvvələrin Dağlıq Qarabağ münaqişəsinə son qoyulmasında imtahandan necə çıxacağından asılıdır. O, həmçinin dedi ki, ATƏT-in fəaliyyəti bu məsələnin həllindən asılıdır[509].

Minsk qrupu yanında ATƏT-in ilk sülhməramlı üç min nəfərlik çoxmillətli hərbi hissəsinin yaradılması və Qarabağa göndərilməsi razılaşdırıldı[510]. Sammitin yekun sənədi olaraq "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı siyasi bəyannamə, "ATƏM-in BMT ilə əməkdaşlığı" və "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnamələr qəbul edildi[511]. Sammitdə həmçinin Minsk konfransı həmsədrləri qurumunun yaradılması, yaxın zamanlarda silahlı münaqişənin kəsilməsi və regiona ATƏT-in sülhməramlı qüvvələrinin göndərilməsi barədə qərar qəbul olundu.

Butros Butros Qalinin münaqişə tərəfi kimi Ermənistanı və Azərbaycanı göstərdiyi məruzəsində Azərbaycan ərazisi olan Dağlıq Qarabağ regionunun erməni etnik qrupu tərəfindən işğal edilməsinin davam etdiyi və bunun Ermənistan və Azərbaycan arasında münaqişənin gərginləşməsinə səbəb olduğu bildirildi[512].

---

[508] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 11-ci kitab, Bakı: Azərnəşr, 2003, s.43.*

[509] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.577-578.*

[510] *Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik, Bakı: Azərbaycan, 2005, s.455.*

[511] *Yenə orada, s.457.*

[512] *Гали Б.Б. Во имя мира и развития 1994 Доклад о работе Организации за период с сорок восьмой до сорок девятой сессии Генеральной Ассамб-*

Təhlükəsizlik Şurası ATƏT-in Budapeşt sammitində qəbul edilmiş "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qətnaməni alqışladı [513].

Heydər Əliyev ATƏT-in Minsk qrupunun fəaliyyətini və Rusiyanın vasitəçilik səylərini bir-birinə yaxınlaşdırmağa, hətta bunları birləşdirməyə çalışmışdır. O, bu tövsiyələri ATƏT-in Minsk qrupunun başçısı Yan Eliassona, Rusiyanın vasitəçilik missiyasının rəhbəri Vladimir Kazimirova da etmiş, onların həm Bakıda, həm də Moskvada görüşlərinin təşkil olunmasına çalışmış, lakin Minsk qrupunun fəaliyyəti ilə Rusiyanın vasitəçilik səylərini birləşdirmək mümkün olmamışdır[514].

1995-ci il mayın 9-da Moskvada Heydər Əliyev Butros Butros Qali ilə görüşdü. Baş katib bildirdi ki, əgər Prezident razı olarsa, Azərbaycana xoşməramlı missiya göndərmək niyyətindədir. Missiyanın məqsədi BMT-nin münaqişəni nizamasalmada daimi maraq göstərməsini, problemin ATƏT və onun Minsk qrupu çərçivəsində həllini dəstəklədiyini sübut etmək, Azərbaycanda iqtisadi, siyasi islahatların keçirilməsi barədə məlumat əldə etmək, gələcəkdə BMT-nin xətti ilə yardımı artırmaq üçün qaçqınların ehtiyaclarını öyrənmək idi[515]. 1995-ci il oktyabrın 22-də BMT-nin 50 illik yubileyində iştirak etmək üçün ABŞ-da olan Prezident Heydər Əliyev Baş Məclisdə çıxışında Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin həyata keçirilmədiyini, ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticə vermədiyini bildirdi[516].

---

*леи, Организация Объединенных Наций, Нью-Йорк, 1994, s.255-256; Гали Б.Б. Навстречу новым вызовам 1995, Доклад о работе Организации за период с сорок девятой по пятидесятую сессию Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1995, s.320.*

[513] *Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, s.330-333.*

[514] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, s.578-579.*

[515] *Yenə orada, s.110.*

[516] *Azərbaycan BMT ailəsində. Bakı, 2000, s.23.*

1996-cı il yanvar ayında keçirilən ATƏT-in Lissabon zirvə toplantısında ATƏT-in 54 üzvündən 53-ü Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi prinsiplərini müəyyənləşdirən sənəd qəbul etdi[517]. Görüş ərəfəsində Ermənistan prezidentinin müşaviri Jerard Libardiyan heç bir sənədin qəbul olunmayacağı barədə bir neçə bəyanat verdi[518]. ATƏT-in Lissabon sammitində beynəlxalq hüquq prinsiplərini təsdiq edən bir sənədi tanımamaqla Ermənistan beynəlxalq müqaviləni pozdu. Hətta Ermənistanın Prezidenti Levon Ter-Petrosyan 1988-1991-ci illərdə Azərbaycanda ermənilərə qarşı soyqırım olduğunu və belə soyqırımın davam edə biləcəyini bildirdi. Prezident Heydər Əliyev ona etiraz etdikdə, L.T.Petrosyan bildirdi ki, Azərbaycan Prezidentinin Ermənistanı təcavüzkar elan etməsi onu belə cavab verməyə məcbur etmişdir[519]. Lissabon zirvə toplantısından sonra Rusiya, ABŞ, Fransa nümayəndələri Minsk qrupunun həmsədrləri oldu. Heydər Əliyev dünya dövlətlərinin BMT yanında akkreditə olunmuş nümayəndələri ilə görüşərək Azərbaycanın xəritəsini təfsilatı ilə izah etdi. Baxmayaraq ki, hələ 70-ci illərdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev Xankəndindən Ermənistana gedən dəmiryolu çəkdirmişdi və bu dəmiryolu Dağlıq Qarabağ regionunu həm Azərbaycanla, həm Rusiya ilə, həm də Ermənistanla birləşdirirdi, Prezident Heydər Əliyev Böyük sülh sazişinə nail olmaq üçün bildirdi ki, erməni tərəfi Dağlıq Qarabağla Ermənistan arasında nəqliyyat-kommunikasiya əlaqəsinin olması baxımından

---

[517] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.36.*
[518] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 1998, s.126.*
[519] *Yenə orada, s.127.*

Laçın rayonunu özü üçün vacib dəhliz hesab etdiyinə görə bu dəhliz beynəlxalq sülhməramlı qüvvələrin nəzarəti altına verilə bilər və dəhlizin parametrləri barədə Azərbaycanın konkret müzakirələri də vardır[520].

1997-ci ilin əvvəllərində Rusiya, Fransa və ABŞ-dan ibarət Minsk qrupunun həmsədrlər institutu təsis edildi. Bundan sonra Minsk qrupu çərçivəsində keçirilən görüşlər əvəzinə həmsədrlər münaqişə regionunda görüşlər keçirməyə başladılar. Bu vaxtdan etibarən Minsk konfransı həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin nizama salınması barədə yeni təkliflər irəli sürdülər. 1997-ci il iyunun 11-də həmsədrlər "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlı layihə təklif etdilər. "Paket" həlli adlandırılan bu layihədə Dağlıq Qarabağın statusu daxil olmaqla, bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu[521]. Sənəd BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanmasa da, münaqişəni sülh yolu ilə nizama salmaq məqsədilə Azərbaycan təklifi qəbul etdi. Ermənistan isə təklifi qəbul etmədi.

1997-ci il sentyabrın 19-da həmsədrlər "Dağlıq Qarabağda silahlı münaqişənin dayandırılması" adlı ikinci layihə təklif etdilər. Münaqişənin "mərhələli" həlli kimi tanınan bu layihədə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu. Birinci mərhələdə Laçın rayonu istisna olmaqla, erməni silahlı qüvvələri işğal edilən Dağlıq Qarabağ ətrafındakı 6 rayondan çıxarılmalı, qaçqınlar öz yurdlarına qayıtmalı, kommunikasiya məsələsi həll edilməli, ikinci mərhələdə Dağlıq Qarabağın statusu qəti olaraq müəyyənləşdirilməli və bununla eyni zamanda Laçın və Şuşa şəhərləri və keçmiş Şaumyan rayonu (İndi tarixi

---

*[520] Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, s.755.*
*[521] Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı: Təknur 2011, s.60.*

adı ilə Aşağı Ağcakənd adlanır) ilə bağlı məsələ həll edilməli idi. Bu sənəddəki layihəni həyata keçirmək üçün dəqiq mexanizm, konkret zaman çərçivəsi prinsiplərini pozan tərəflərə qarşı sanksiyalar tətbiq edilməsi müəyyənləşdirilmişdi[522].

Oktyabrın 10-da Strasburqda Azərbaycan və Ermənistan prezidentləri problemin "mərhələli" həlli təklifi ilə razılaşdılar. Lakin Ermənistanda radikal qüvvələrin reaksiyası nəticəsində Levon Ter Petrosyan istefa verdi, Strasburq bəyanatı donduruldu[523]. Sonralar Robert Köçəryan Ermənistan ərazisinin bir hissəsinin – Mehrinin Azərbaycana verilməsinə dair variantla razılaşsa da, Ermənistan parlamentində terror hadisələrindən sonra R.Köçəryan siyasi vəziyyətin mürəkkəbləşdiyini bəhanə gətirərək, qeyri-əməli mövqe tutdu. Ermənistan tərəfindən yönəldilən "Dağlıq Qarabag respublikasının prezidenti" Lukosyan Laçın, Şuşa istisna olmaqla, digər ərazilərin azad edilməsi hesabına Dağlıq Qarabağa Azərbaycandan şaquli asılılığı olmadan status verilməsini tələb etdi. Belə halda ATƏT dekabrın 2-də "mərhələli təklif"ə "Dağlıq Qarabag respublikası"nın münaqişə tərəfi kimi tanınmasını təklif edən maddə əlavə edilən variantı təqdim etdi. Ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizə aparan Azərbaycan Respublikası bu təklifi qəbul edə bilməzdi.

1997-ci ildən sonra, Ermənistan və Azərbaycanın ATƏT-in sənədlərində münaqişə tərəfi kimi tanınmasına, Dağlıq Qarabağın isə münaqişə tərəfi kimi tanınmamasına etiraz edən Arsen Melik-Şahnazarov ATƏT-in belə mövqeyini Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yaratdığı neft konsorsiumu ilə bağlayır, Minsk qrupu həmsədrlərindən olan Stiven Mənnin, Metyu Brayzənin ABŞ-da energetika işlərilə məşğul olması və

---

*522 Yenə orada.*

*523 Azərbaycan Respublikasının XİN mətbuat katibinin şərhi // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.76.*

M.Brayzənin xanımının – ABŞ-da Ankaranın maraqlarını müdafiə edən Zeyno Baranın mənşəcə türk olması ilə əlaqələndirirdi[524].

1998-ci il noyabrın 9-da Rusiyalı həmsədrin fəal iştirakı ilə "ümumi dövlət" adlı təklif verildi. Bu təklif beynəlxalq hüquq normalarına zidd olmaqla, ATƏT-in Budapeşt, Lissabon zirvə toplantılarında qəbul edilən sənədləri inkar edirdi. Həmsədrlər sözün əsl mənasında Azərbaycanın daxilində ikinci erməni dövləti yaratmaq təklifi verdilər[525]. "Ümumi dövlət" təklifinə görə, Dağlıq Qarabağ müvafiq atributları olan respublika kimi dövlət, ərazi qurumuna çevrilir, "ümumi dövlət" çərçivəsində ona Azərbaycanla bərabər subyektlilik verilirdi. Ermənilər "ümumi dövlət" təklifini müdafiə etdilər. Azərbaycan bu təklifi qəti olaraq rədd etdi.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşündə Heydər Əliyev Lissabon prinsiplərinin Ermənistan tərəfindən qəbul edilməsi üçün lazımi fəaliyyət aparmamaqda Minsk qrupu həmsədrlərini günahlandırdı[526]. İstanbul zirvə görüşündə 3 sənəd qəbul edildi: Avropa Təhlükəsizlik Xartiyası, İstanbul Bəyannaməsi, Avropada adi silahlar haqqında müqavilə. Avropa Təhlükəsizlik Xartiyasında ərazi bütövlüyünün, müstəqilliyin qorunması, təhlükəsizliyin təminatı əksini tapdı. İstanbul Bəyannaməsində konkret olaraq Avropadakı münaqişələr, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışılırdı[527].

---

[524] *Шахназаров А.М. Нагорный Карабах: факты против лжи, Информационно-идеологические аспекты Нагорно-Карабахского конфликта, http:// www.google.com*

[525] *Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı: Təknur 2011, s.60.*

[526] *Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranacağına yol verməri k". Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, s.90.*

[527] *Yenə orada.*

Sammitdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən yekun bəyannaməyə etiraz etdi. Heydər Əliyev Cənubi Qafqaz regionunun Avropanın ayrılmaz hissəsi olduğunu qeyd edərək ABŞ-ı, Avropa Birliyi ölkələrini, Rusiyanı, Türkiyəni, Gürcüstanı, Ermənistanı və ATƏT-in digər üzvlərini regionun problemlərini həll etməyə çağırdı və təhlükəsiz Avropanın yaradılması üçün Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunması təklifini irəli sürdü[528].

Regional münaqişələrin qarşısını almaq üçün əsas meyarlardan biri münaqişə tərəflərinin danışıqlar aparmasıdır. ATƏT çərçivəsində Azərbaycan və Ermənistan rəhbərləri 1999-2002-ci illərdə 20-dən çox görüş keçirsələr də, heç bir nəticə əldə edilmədi[529]. 1993-2000-ci illərdə Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsini ABŞ ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə müzakirə etmiş, Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir[530]. 2001-ci il 4-6 mart tarixlərində Paris, 3-7 aprel tarixlərində keçirilən Ki-Uest danışıqları da nəticə vermədi. Ki-Uestdə aparılan danışıqlar prosesində "Qobl planı" adlı layihənin qəbul edilməsi gözlənilirdi. Layihədə Ermənistanın Laçın, Azərbaycanın Mehri rayonlarından dəhlizlər mübadiləsi ilə Ermənistanın Dağlıq Qarabağla, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin təmin olunması göstərilmişdi. Lakin Ermənistan dəhlizdən əlavə Laçın və Kəlbəcər rayonlarını tələb etməklə, bu layihənin həyata keçirilməsinə imkan vermədi.

2001-ci il 3-4 dekabr tarixlərində keçirilən ATƏT-in Buxarest görüşündə münaqişə tərəfləri hərbi əsirlərin azad edilməsi də daxil olmaqla, beynəlxalq hüquq normalarına əməl etməyə

---

[528] *Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, V c., Bakı: Göytürk, 1999, s.429.*
[529] *Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranacağına yol verməik". Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, s.91.*
[530] *Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2003, s.372.*

çağırıldı. 2003-cü il dekabrın 1-2-də ATƏT-in Nazirlər Şurasının Maastrixtdə keçirilən iclasında münaqişə tərəfləri yenidən dialoqa çağırıldı. Lakin Ermənistanın pozuculuq siyasəti və ATƏT-in qətiyyətsiz mövqeyi nəticəsində heç bir nəticə əldə edilmədi. 2004-cü ildən Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin "Praqa prosesləri" çərçivəsində danışıqları başladı. Danışıqlar zamanı Azərbaycan nümayəndəsi yalnız Azərbaycan Respublikasının Konstitutsiyası əsasında Dağlıq Qarabağa status verilməsinin mümkünlüyünü, Azərbaycanın ərazi bütövlüyünün danışıqların predmeti olmayacağını bildirdi, işğal edilən ərazilərdən işğalçıların çıxarılmasını və yerli əhalinin öz yurdlarına qayıtmasına şərait yaradılmasını tələb etdi.

Prezident İlham Əliyev 2004-cü ilin sentyabrında Baş Məclisin 59-cu sessiyasında çıxış edərək Ermənistanın "etnik təmizləmə" siyasətinin nəticəsi olaraq 1 milyondan çox qaçqın və məcburi köçkün kütləsinin yaranması, hazırda isə işğal etdiyi ərazilərə erməni əhalinin köçürülməsi siyasətini həyata keçirərək demoqrafik dəyişikliklər etməsi, Azərbaycan hökumətinin nəzarəti altında olmayan, işğal edilən ərazilərdən qeyri-qanuni narkotik malların mübadiləsi, silah alveri məqsədilə istifadə edilməsi, bu ərazilərdə terrorçuların gizlənməsi barədə məruzə etdi. Ermənistanın cinayətlərinin və təcavüzkar fəaliyyətinin qarşısını almağa çağıran Prezident İlham Əliyev onu da əlavə etdi ki, hazırda Təhlükəsizlik Şurası silahlı münaqişələrin qarşısını almağa qadir deyil və beynəlxalq sülh və təhlükəsizliyi müdafiə məqsədilə təsis edilmiş bu orqanda islahat aparmaq, iş metodlarının səmərəliliyini artırmaq lazımdır[531].

---

[531] *Ильгам Алиев считает, что на "оккупированных азербайджанских территориях" укрываются террористы, 24.09.2004 Центр Новостей ООН, www.un.org*

Baş Məclisin 59-cu sessiyasında Azərbaycan Respublikasının nümayəndəsi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" məsələsini Baş Məclisdə müzakirəyə qoymaq təklifi ilə müraciət etdi. Azərbaycan nümayəndəsinin təklifi 43 səslə dəstəkləndi, 99 dövlət bitərəf qaldı, yalnız Ermənistan əleyhinə səs verdi[532]. Səsvermədən əvvəl çıxış edən Ermənistan nümayəndəsi bu məsələnin Baş Məclisdə müzakirə edilməsinə lüzum olmadığını bildirərək, bütün üzv dövlətləri təklifin əleyhinə səs verməyə çağırmışdı və öz çağırışını da onunla pərdələmişdi ki, "iki ölkə prezidentləri arasında danışıqlar getdiyi zaman bu məsələnin Baş Məclisdə müzakirə edilməsi regionda sülh və nizamasalma perspektivlərini dağıda bilər". Azərbaycan nümayəndəsi isə bu məsələnin Baş Məclisdə müzakirəsinin onun ölkəsi üçün vacib əhəmiyyət kəsb etdiyini bildirdi[533].

2005-ci ildə Baş Məclisdə Azərbaycan nümayəndəsi Ermənistanın işğal edilən ərazilərə ermənilərin köçürülməsi siyasətinə son qoymağı tələb etdikdə, Ermənistan nümayəndəsi bu dəfə də təqdim edilən faktlara öz etirazını və Baş Məclisin bu məsələyə müdaxiləsinə ehtiyac olmadığını bildirdi[534].

GUAM təşkilatına daxil olan Azərbaycan bu təşkilatın qəbul etdiyi qərarların həyata keçirilməsi üçün fəal mübarizə aparmışdır. Bu təşkilatın üzvlərinin mövqelərini ərazilərində mövcud olan regional münaqişələr yaxınlaşdırır. GUAM dövlətləri 2005-ci ildə Moldova Respublikasının şərq rayonlarında, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrində, Azərbay-

---

532 *Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.73.*

533 *В повестку дня 59-й сессии Генеральной Ассемблей ООН включен новый вопрос: Положение оккупированных территориях Азербайджана, 29.10.2004. Центр Новостей ООН, www.un.org*

534 *Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.73.*

can Respublikasının Dağlıq Qarabağ regionunda “dondurulmuş münaqişələr”in beynəlxalq sülh və təhlükəsizliyə ciddi zərər vurması, nəzarətdən kənar qalmış ərazilərdə terrorçuluğa, separatizmə, cinayətə, insan alverinə, narkotikin dövriyyəsinə və yüngül silahların satışına şərait yaranması, beynəlxalq vasitəçiliyin bu münaqişələri nizamasalmada heç bir nəticə verməməsi barədə Kişinyov bəyanatını qəbul etdilər. 2006-cı ilin avqust ayında GUAM ölkə başçılarının Baş Komitədə Baş Məclisin 61-ci sessiyasında ilkin məsələ kimi “dondurulmuş münaqişələr” barədə məsələyə baxmaq təklifi 15 səs lehinə, 16 səs əleyhinə verildiyi üçün təxirə salındı, 65 üzv dövlət isə bitərəf qaldı [535].

2007-ci il Baş Məcilsin 62-ci sessiyasında çıxış edən Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov bildirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən təhlükəli münaqişə olaraq qalır, ATƏT çərçivəsində danışıqlar heç bir səmərə vermir, Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilmir[536]. Baş Məcilsdə çıxış edən Ermənistanın -xarici işlər naziri Vardan Oskanyan isə Dağlıq Qarabağ münaqişəsinin “dondurulmuş münaqişə” olmadığını, bu istiqamətdə Azərbaycanla danışıqlar aparıldığını, BMT-də bu münaqişələrin müzakirəyə qoyulmasını lüzum bilmədiyini və danışıqların ATƏT çərçivəsində aparılmasına əhəmiyyət verdiyini qeyd etdi[537].

---

[535] *Члены ГУАМ оспорили рекомендацию генерального комитета и добились включения вопроса о затянувщихся конфликтах в повестке дня 61-й Генеральной Ассамблеей,14.09.2006. Центр Новостей ООН, www.un.org*

[536] *Глава МИД Азербайджан обеспокоен отсутствует результатов на переговорах под ОБСЕ по урегулированию конфликта с Арменией, 03.10.2007, Центр Новостей ООН,www.un.org*

[537] *Министр иностранных дел Арменией считает что ООН не место для урегулирования конфликта с Азербайджаном, 03.10.2007, Центр Новостей ООН, www.un.org*

Həmin ilin dekabrında Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın hazırladıqları "GUAM məkanında həlli yubanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün nəticələri" adlı qətnamənin layihəsi yayımlandı. Layihədə regionda olan münaqişələrin sülh və təhlükəsizliyi hədələdiyi bildirilirdi[538]. BMT-nin üzvləri, beynəlxalq və regional təşkilatlar münaqişənin nizama salınmasında təsirli fəaliyyət göstərməyə, qanunvericiliyə, insan, hüquq və əsas azadlıqlarına hörmət prinsiplərinə əsaslanaraq məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtmasına kömək etməyə çağırılırdı.

2008-ci ilin fevralında Azərbaycan tərəfindən Baş Məclisə təqdim edilən "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamənin layihəsi nəşr edildi. Həmin il martın 14-də Baş Məcils "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı 62/243 saylı qətnaməni qəbul edərək, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin toxunulmazlığı, ərazisini genişləndirmək üçün başqa dövlətin ərazilərinə müdaxilə etməmək prinsiplərini bir daha təsdiq etdi[539]. Qətnamədə yazılır ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ətraf rayonlarda olan silahlı münaqişə beynəlxalq sülh və təhlükəsizliyi pozmaqda davam edir, Cənubi Qafqaz ölkələrində humanitar vəziyyətə mənfi təsir göstərir[540]. Baş Məclis üzv dövlətləri Azərbaycanın ərazi bütövlüyünə, beynəlxalq tanınmış sərhədlərinə hörmət etməyə çağıraraq bildirdi ki, hər bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində vəziyyətin mürəkkəbləş-

---

[538] *Азербайджан, Грузия, Молдова и Украина предлагает принять резолюцию Генеральной Ассамблеей о затянувшихся конфликтах в странах ГУАМ, 07.12.2007, Центр Новостей ООН, www.un.org*

[539] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.71-72.*

[540] *Yenə orada.*

diyini etiraf etməli və vəziyyətin belə qalmasına şərait yaratmamalıdır. Qətnamədə işğal edilən ərazilərdən erməni silahlı qüvvələrinin tam, danışıqsız, təcili çıxarılması, məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün reabilitasiya da daxil olmaqla, müvafiq şərait yaratmaq zəruriliyi göstərilmişdi. Baş Məclis Azərbaycan Respublikası ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyəti tanımamağa, belə vəziyyətin saxlanılmasına kömək göstərməməyə çağırmışdı. Baş katib Baş Məclisin 63-cü sessiyasında qətnamənin həyata keçirilməsi barədə məruzə etməli idi[541].

Qətnamənin lehinə 39 səs, əleyhinə 7 səs verildi, 100 dövlət isə bitərəf qaldı. Qeyd etmək lazımdır ki, qətnamənin əleyhinə səs verən dövlətlər arasında Rusiya, ABŞ, Fransa da var idi. Baş Məclisin iclasında ATƏT-in Minsk qrupu həmsədrləri adından çıxış edən ABŞ-ın nümayəndəsi Aleksandro Vulff özlərinin belə mövqeyini qətnamənin 2007-ci ildə "tarazlaşdırılmış paket" formasında Minsk qrupunun təklif etdiyi nizamasalmanın bütün gedişatını özündə əks etdirməməsi ilə izah etdi[542]. 2007-ci ildə Minsk qrupunun həmsədrlərinin imzaladıqları Madrid sənədində Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi barədə referendum keçirilməsi, işğal edilmiş ərazilərdən erməni silahlı qüvvələrinin çıxarılması nəzərdə tutulmuşdu. 2008-ci ildə Baş Məcilsin 63-cü sessiyasında çıxış edən Ermənistan Prezidenti Serj Sarkisyan xalqların öz müqqədəratını təyinetmə hüququnun həyata keçirilməsinin silahlı münaqişələrin qarşısını almaqda əsas amil olduğunu qeyd edərək, "Azərbaycan hökumətinin faktiki olaraq 16 ildir ki, mövcud olan "Dağlıq Qarabağ respublikası"nı tanımadığını, Dağlıq Qarabağ münaqişəsinin

---

[541] *Yenə orada.*

[542] *Генеральная Ассамблея ООН приняла резолюцию о положении на оккупированных территориях Азербайджана, Центр Новостей ООН, http: //www.un.org/russian*

ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməli olduğunu" bildirdi. S.Sarkisyan Baş Məclisin 2008-ci il 14 mart tarixli qətnaməsinin münaqişə tərəflərindən birini dəstəklədiyini və nəticədə Azərbaycanda hərbi əhval-ruhiyyənin yeni dalğasını yaratdığını qeyd etdi. S.Sarkisyan, həmçinin Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxiləsini müdafiə etdi[543].

Qafqazda sülh və təhlükəsizlik Azərbaycan Respublikasının həmişə maraq dairəsində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Gürcüstan Respublikasının Prezidenti E.Şevardnadze ilə 1996-cı il martın 6-da "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında birgə bəyannaməni imzalayarkən demişdir: "Qafqaz millətlərarası münaqişələrdən, qeyri-sabitlikdən əziyyət çəkir, bizim başlıca vəzifəmiz regionda sülh və təhlükəsizliyi möhkəmlətməkdir. Bizim imzaladığımız bəyannamə hamı üçün açıqdır və biz ümid edirik ki, bizim ölkələr və qonşu regionun ölkələri ona qoşulacaqlar, kim bəyannaməni rədd edirsə, o, Qafqazda münaqişələrin tərəfdarı kimi özünü göstərir"[544]. Bəyannamədə aşağıdakı müddəalar irəli sürülürdü: 1. Dövlətlərin suverenliyinin beynəlxalq tanınmış sərhədlər hüdudlarında bərpa edilməsi, onların ərazi bütövlüyünün təmin olunması, qaçqınların təhlükəsiz və təminatlı daimi yaşayış yerlərinə qaytarılması. 2. İnsan hüquq və azadlıqlarına, o cümlədən milli azlıqlara mənsub olan şəxslərin hüquqlarına həmişə və hər yerdə hörmət edilməsi. 3. Nəqliyyat və digər kommunikasiya vasitələrinin daha da inkişafı və onların təhlükəsizliyi sahəsində əməkdaşlıq. 4. Qafqazın nadir təbiətinin mühafizəsi

---

*[543] События на Южном Кавказе свидетельствуют, что пришло время серьезно подойти к праву народов на самоопределение, заявил президент Армении, 25.09.2008. Центр Новостей ООН, www.un.org*

*[544] Шукуров И. Дипломатия мира (Об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.)). Баку: Азербайджан, 1997, s.297.*

məsələlərində, texnogen, təbii fəlakətlərin və silahlı münaqişələrin nəticələrinin aradan qaldırılmasında, beynəlxalq turizmin inkişafında hərtərəfli əməkdaşlıq. 5. Etnik və dini dözümlülük; Qafqazın – dünyanın ən sərvətli qoruğunun mədəni və dil rəngarəngliyinə qayğılı və hörmətli münasibət. 6. Beynəlxalq layihənin fəal dəstəklənməsi, xarici investisiyaların cəlb edilməsi və təşviqi[545].

İstər yuxarıda adı çəkilən bəyannamə, istər 1997-ci il 18 fevral tarixli "Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşməsi haqqında" bəyannamə, istərsə də digər sənədlər Qafqazda sülh və təhlükəsizliyin, sabitliyin yaradılmasına yönəldilmişdir. Heydər Əliyev Qafqazda sülh və təhlükəsizliyin BMT, ATƏT və MDB-dən deyil, Qafqaz dövlətlərinin özlərinin fəaliyyətindən asılı olduğunu bildirirdi[546].

Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə Türkiyə, Gürcüstan və oradan Avropa bazarına, Bakı-Novorossiysk neft kəməri vasitəsilə 1997-ci ildən Rusiyaya, oradan Avropa bazarına, Bakı-Supsa neft kəməri vasitəsilə 1999-cu ildən Gürcüstana, oradan Avropa bazarına çıxır. Hər bir region dövləti – Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya əməkdaşlıq edir, yalnız Ermənistan beynəlxalq hüquq prinsiplərini pozduğu üçün əməkdaşlıqdan kənarlaşdırılmışdır və bu da onun iqtisadiyyatının zəifləməsinə səbəb olur. Erməni iqtisadçısı V.Xaçatryan Dağlıq Qarabağ münaqişəsinin nəticəsində Ermənistanın iqtisadiyyatının zəiflədiyini, əhalinin təxminən 55%-nin kasıb vəziyyətdə yaşadığını, əmək qabiliyyətli əhalinin

---

[545] *Müqavilələr toplusu. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi / E.M.Məmmədyarovun ümumi redaktəsilə tərtib edilmişdir. I c., Bakı: Qanun, 2008, s.69-70.*

[546] *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, s.415.*

təxminən 1/3-nin işsiz olduğunu qeyd edirdi[547]. Lakin əhalisinin çətin vəziyyətdən xilas etməyin yollarını düşünməyən Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyannamənin maddələrinə əməl etməkdən yayınır, o, hələ də dərk etmir ki, Zəngəzur dəhlizi açıldıqdan sonra regionda olan layihələrə qoşula və iqtisadi inkişafa nail ola bilər.

Beləliklə, yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulmasına mənfi təsir edən əsas amillər BMT-nin qəbul etdiyi qətnamə və qərarların reallaşması mexanizminin olmaması, Nizamnaməni pozan dövlətə qarşı qəti sanksiyalar tətbiq edilməməsi, ATƏT-in Ermənistanın xeyirinə irəli sürdüyü təkliflər, Ermənistan tərəfindən atəşkəsin pozulması və ATƏT-in atəşkəsə nəzarətdə passiv müşahidəçi kimi çıxış etməsi idi. BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını ATƏT-in Minsk qrupuna həvalə etsə də bu, nəticə vermədi. Nizamnamənin 52-ci maddəsinə görə, yerli mübahisələrin həll olunması Təhlükəsizlik Şurasına verilməzdən əvvəl regional orqanlar tərəfindən tədbirlər görülə bilər. Lakin bu cür saziş və ya orqanlar və ya onların fəaliyyəti BMT-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır[548]. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də nizama salınması regional təşkilat olan ATƏT-ə həvalə edildi. Lakin ATƏT-in bu işdə ikili standart siyasəti yürütməsi, xüsusilə də 2008-ci il mart ayında Baş Məclisin Azərbaycanın ərazi bütövlüyünün tanınması barədə qətnaməsinə səsvermədə Minsk qrupu həmsədrlərinin əleyhinə səs verməsi bu qurumun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizama salacağına inamsızlıq yaratdı. Araşdırma-

[547] *Хачатрян В. Основные тенденции развития экономики Армении в 1991-2001 годах // Центральная Азия и Кавказ, 2002, № 2, с.152-153.*
[548] *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.32.*

lar göstərir ki, ATƏT-in Minsk qrupunun və Rusiya Federasiyasının səyləri nəticəsində yalnız atəşkəs barədə saziş imzalandı. Böyük sülh sazişinə isə Ermənistanın şərtləri mane oldu. Belə ki, Ermənistan Şuşa və Laçın şəhərləri üzərində nəzarətini saxlamaq, Dağlıq Qarabağa müstəqillik statusu vermək şərti ilə işğal etdiyi ərazilərin bir hissəsini qaytarmasına razı idi, azərbaycanlıların öz yurdlarına qayıtmasına etiraz edirdi. Azərbaycan tərəfi təcavüzkar Ermənistan Respublikasının bu tələbini qəti rədd edir, Dağlıq Qarabağın erməni icmasının təhlükəsizliyinə zəmanət verir, regionda kommunikasiyanın, o cümlədən Dağlıq Qarabağ ilə Ermənistan arasında humanitar dəhlizin normal işini qarşılıqlı əsasda bərpa etmək, lazım gələrsə, münaqişə zonasında beynəlxalq sülhsevər qüvvələrin yerləşdirilməsi və Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etmək məsələlərini təklif edirdi. Bütün bunlar isə ərazi bütövlüyü, işğal edilmiş ərazilərin azad edilməsi, qaçqınların öz yurdlarına qayıtması şərtilə ola bilərdi.

Azərbaycan Ermənistan Respublikasının təcavüzkar dövlət kimi tanınmasını tələb etsə də, münaqişə tərəflərinə tətbiq edilən "tərəflərin bərabər məsuliyyəti" münaqişənin həll edilməsinə ciddi mane oldu. 2009-cu ilin dekabr ayında ABŞ Konqresinin "Dağlıq Qarabağ respublikası" separatçılarına inkişaf üçün yardım ayırması[549] ABŞ-ın, eləcə də Cənubi Qafqazda Ermənistandan öz forpostu kimi istifadə edən və münaqişənin ilkin mərhələsindən ona dəstək duran Rusiyanın, antitürk siyasət yeridən Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizamasalmada ədalətli mövqe tutacaqları inandırıcı deyildi. Ermənistandan Dağlıq Qarabağ ərazisinə hərbi sursat, canlı qüvvə gətirilməsində dəhliz rolunu oynayan Laçın

---

[549] *Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.70.*

rayonunun Dağlıq Qarabağ ermənilər üçün "həyati vacibliyini" bildirən, Şuşa və Laçın probleminə baxılmasını kənara qoyan Minsk qrupunun həmsədr dövlətlərinin münaqişəni həll edəcəklərinə heç bir əsas yox idi.

Ermənistan silahlı qüvvələrinin işğal edilən ərazilərdən çıxarılması üçün Azərbaycan tərəfə çoxlu ikimənalı tələblər irəli sürən Minsk qrupunun həmsədr dövlətləri ikili standart siyasəti yürüdərək Təhlükəsizlik Şurasının qətnamələrinin şərtsiz tələblərinə məhəl qoymadılar.

Azərbaycan Ermənistanın təcavüzkar siyasəti barədə Təhlükəsizlik Şurasını məlumatlandıraraq, ona qarşı BMT Nizamnaməsinin 41 və 42-ci maddələrində nəzərdə tutulmuş iqtisadi münasibətləri tam, yaxud hissə-hissə kəsməyi, dəmiryolu, dəniz, hava, poçt-teleqraf, radio və digər məlumat vasitələri üzərində sanksiya tətbiq etməyi xahiş etdi[550]. BMT Nizamnaməsinin 34-cü maddəsinə müvafiq olaraq Təhlükəsizlik Şurasının beynəlxalq ixtilafa gətirib çıxara bilən istənilən mübahisəni və ya şəraiti, həmin mübahisənin və ya şəraitin beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyini müəyyən etmək məqsədilə təhqiq etmək hüququ vardır. Təhlükəsizlik Şurası təhlükəni müəyyən etdikdən sonra kollektiv tədbirlər və tövsiyələr verə bilər[551]. Baş katibin, BMT-nin münaqişə regionlarında olan nümayəndəsinin öz məruzələrində göstərdikləri faktlar Təhlükəsizlik Şurasına Ermənistana qarşı sanksiyalar tətbiq etməyə əsas verir. 39-cu maddəyə müvafiq olaraq Təhlükəsizlik Şurası

---

[550] *Письмо представителя Азербайджана от 26 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26647, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.137.*

[551] *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.23.*

sülhə təcavüz aktının olduğunu müəyyən edir, tövsiyələr verir, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması üçün 41 və 42-ci maddələrə müvafiq tədbirlər görülməsi barədə qərar qəbul edir. Əvvəlcə Təhlükəsizlik Şurası dinc yolla tədbirlər həyata keçirir. Nizamnamənin 40-cı maddəsində yazılır: "Vəziyyətin pisləşməsinin qarşısını almaq məqsədilə Təhlükəsizlik Şurası tövsiyələr verməzdən, yaxud 39-cu maddədə nəzərdə tutulmuş tədbirlər barədə qərar qəbul etməzdən əvvəl, maraqlı tərəflərdən onun zəruri hesab etdiyi müvəqqəti tədbirlərin yerinə yetirilməsini tələb edə bilər. Bu müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, mövqelərinə xələl gətirməməlidir". 41-ci maddəyə görə Təhlükəsizlik Şurası günahkar tərəfə qarşı iqtisadi sanksiyalardan və digər sanksiyalardan istifadə edə bilər. Əgər yuxarıda sadalanan tədbirlər kifayət etməzsə, 42-ci maddə tətbiq edilir. Yəni, Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələrinin vasitəsilə beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri olan tədbirlər görə bilər. Təhlükəsizlik Şurası münaqişə tərəflərini fərqləndirmədi və Ermənistana qarşı siyasi, iqtisadi və digər sahələrdə sanksiyalar tətbiq etmək əvəzinə, dünya dövlətlərini bu təcavüzkar ölkəyə humanitar yardım göstərməyə çağırdı.

Təhlükəsizlik Şurasının "Dağlıq Qarabağ münaqişəsinə dair" adı altında qəbul etdiyi bütün qətnamələrdə hərbi əməliyyatların kəskinləşməsi – yeni şəhər və rayonların işğal edilməsi, atəşkəsin dəfələrlə pozulması, şəhər və rayonların bombalanması, artilleriya atəşinə tutulması göstərilmiş, beynəlxalq hüquq normalarına əməl etməyə çağırışlar vardır[552]. Təhlükəsizlik Şurası 822 və 853 saylı qətnamələrində atəşkəs etməyi tələb edir, 874 saylı qətnaməsində tərəfləri möhkəm atəşkəs etməyə çağı-

---

[554] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

rır, 884 saylı qətnaməsində atəşkəsin pozulmasını pisləyir. Qətnamələr qəbul edildikdən sonra BMT-nin Baş katibi Butros Butros Qali münaqişə tərəflərinin atəşkəs barədə sazişi yerinə yetirmədiyi halda BMT-nin tədbir görməsi vacibliyini qeyd edərək, günahkar tərəfə, yaxud hər iki tərəf günahkardırsa, hər iki tərəfə qarşı məcburi tədbirlər görmək üçün hərbi imkan olduğunu vurğulamışdı. Onun fikrincə, əməliyyat Təhlükəsizlik Şurası tərəfindən sanksiyalaşdırılmalı, Baş katibin komandanlığı altında üzv dövlətlərin təqdim etdiyi ordu tərəfindən aparılmalı, sazişi pozan tərəf qərəzsiz müəyyənləşdirilməli, ona qarşı ədalətli tədbir görülməli idi[553].

Təhlükəsizlik Şurasının "Dağlıq Qarabağ münaqişəsinə dair" adı altında qəbul etdiyi qətnamələrin hər birində dövlətlərin suverenliyi, ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazilər əldə etmək üçün güc tətbiq etməyin yolverilməzliyi təsdiq edilir[554]. Dağlıq Qarabağın Azərbaycana məxsus olması təsdiq edilərək, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması tələb edilir. Belə qeydin olması hər şeydən əvvəl, hər hansı bir dövlətin ərazisini artırmaq cəhdlərini rədd edir. Suverenliyi tanıma və hörmət etmə müasir beynəlxalq hüququn sarsılmaz prinsiplərindən biridir. Bu prinsipi hər bir dövlət şərtsiz qəbul etməlidir və bu prinsiplərin qəbul edilməsi bütün iddiaların, müharibələrin qarşısını almağa xidmət edir.

Qətnamələrdə işğal edilmiş ərazilərdən bütün işğalçı qüvvələrin təcili çıxarılması göstərilmişdir. Lakin, işğalçının Ermənistan olduğu qeyd olunmamışdır. Bundan başqa, yalnız 853 saylı qətnamədə işğalçı qoşunların şərtsiz çıxarılması tələb olu-

---

[553] *Гали Б.Б. Укрепление потенциала Организации Объединенных Наций // Мировая экономика и международные отнощения, 1993, №4, s.9.*

[554] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

nur. 884 saylı qətnamədə isə buna oxşar olaraq, işğalçıların birtərəfli qaydada çıxarılması tələb olunur. Qətnamələrdə hüququn hipoteza və dispozisiya hissəsi olsa da, sanksiya hissəsi yox idi. Belə ki, qətnamələrdə yazılır ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından qeyd-şərtsiz çıxarılmalıdır[555]. Hipoteza hissəsi bitib, sanksiya hissəsi yoxdur. Yəni qətnamələrdə yazılmır ki, işğal edilmiş ərazilər boşaldılmazsa, Ermənistanı nə gözləyir? Qətnamələrdə sanksiyanın göstərilməsi vacib məsələdir.

Dövlətlər arasında toqquşmalar olduqda Təhlükəsizlik Şurası nadir hallarda hərbi hücuma təşəbbüs edən tərəfi və özünümüdafiə hüququ olan tərəfi müəyyənləşdirir. Bir qayda olaraq Təhlükəsizlik Şurası hücum edən, məsuliyyət daşıyan tərəfi müəyyənləşdirməməyə üstünlük verir, tərəfləri atəşkəs etməyə, öz ordusunu işğal edilmiş ərazilərdən çıxarmağa və münaqişəni dinc yollarla nizama salmağa cəhd etməyə çağırır. Təhlükəsizlik Şurası 853, 884 saylı qətnamələrdə Ermənistan hökumətini öz nüfuzundan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ ermənilərini Təhlükəsizlik Şurasının qətnamələrinə riayətə məcbur etməyə, silahlı münaqişəni davam etdirməsi üçün onları silahla təmin etməməyə çağırır, başqa sözlə, qətnamələrdə dolayısı ilə Ermənistanın münaqişənin üçüncü tərəfi olduğu göstərilir. Təhlükəsizlik Şurasının qəbul etdiyi bu qətnamələrdə BMT Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq sülhün pozulması, yaxud təcavüz aktı barədə qeyd edilmir, sülhü təhlükədə qoyan vəziyyət aydın göstərilmir. 39-cu maddədə qeyd edilir: "Təhlükəsizlik Şurası hər bir halda sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasını müəyyən edir və tövsiyələr verir və yaxud beynəlxalq sülhün və təhlükəsizliyin qo-

---

[555] *Yenə orada.*

runub saxlanması üçün 41-ci və 42-ci maddələrə uyğun olaraq hansı tədbirlərin görülməsi haqqında qərar qəbul edir"[556].

Beynəlxalq hüquq normalarının Beynəlxalq Məhkəmə vasitəsi ilə həyata keçirilməsi beynəlxalq münasibətlərin nizamlanmasında aktual problemlərdən biridir. Buna görə də Təhlükəsizlik Şurası təcavüz aktını müəyyənləşdirmədikdə, Beynəlxalq Məhkəmənin bu hüququ həyata keçirməsi barədə Nizamnaməyə əlavə edilməlidir. Beynəlxalq hüququn ümumi prinsiplərinin hüquqi əsasında nə dayanır? Beynəlxalq hüquqşünas F.İ.Kojevnikov yazır: "Beynəlxalq hüquq normaları beynəlxalq əlaqələrin, sülhün və təhlükəsizliyin təmin olunması vasitəsi olub, bəşəriyyətin, bütün sülhsevər xalqların tələblərini özündə əks etdirir"[557]. Cinayətlərdə məsuliyyət daşıyan şəxslər Beynəlxalq Hərbi Tribunala verilməli və cəzalandırılmalıdır, əks halda beynəlxalq hüquq normaları öz nüfuzunu, əhəmiyyətini itirir. Təcavüzkar müharibəyə görə məsuliyyət ilk dəfə 1945-ci ildə Avropa ölkələrindən olan hərbi cinayətkarların cəzalandırılması barədə London sazişində təsdiqini tapmışdır. 1946-cı ildə Beynəlxalq Hərbi Tribunal Nürnberqdə qərara almışdır: "Beynəlxalq hüquq əleyhinə cinayətləri abstrakt fərdlər yox, insanlar edir, yalnız belə cinayətləri törədən ayrı-ayrı şəxslərin cəzalandırılması yolu ilə beynəlxalq hüquqa riayət edilə bilər"[558]. 1946-cı ildə Baş Məclis Nizamnamədə və hazırda Beynəlxalq Hərbi Tribunalın qərarında əksini tapan beynəlxalq hüququn prinsiplərini təsdiq etdi. 1948-ci ildə Amerika hərbi tribunalı "müharibənin məsuliyyətinin rəhbər vəzifələrdə olan şəxslərin üzərinə

---

[556] *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.26.*

[557] *Блищенко И.П., Солнцева М.М. Мировая политика и международного право. М.: Международные отношения, 1991, s.110.*

[558] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.146.*

düşdüyünü" bildirdi[559]. Beynəlxalq hüquq kodeksi 1950-ci ildə sülhə qarşı cinayət törədənlərin məsuliyyət daşımaları və belə cinayətlərə görə cəzaya məhkum olunmaları barədə "Nürnberq prinsiplərini" hazırladı. Nürnberq Hərbi Tribunalı bildirdi ki, sülh əleyhinə cinayətdə bütün əhalini günahlandırmaq düzgün deyil, yüksək siyasi vəzifə tutan şəxslər cinayətdə məsuliyyət daşıyırlar. Kodeksin 16-cı maddəsində təcavüz cinayəti aşağıdakı kimi müəyyən edilir: "Dövlətin həyata keçirdiyi təcavüzə rəhbərlik edən, onu təşkil edən, onun planlaşdırılmasında fəal iştirak edən, yaxud bu barədə əmr edən şəxs təcavüz cinayətinə görə məsuliyyət daşıyır"[560]. Baş Məclisin 1970-ci il Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında bəyannaməsində "təcavüzkar müharibənin sülh əleyhinə cinayət olduğu, beynəlxalq hüquq nöqteyi-nəzərindən məsuliyyət daşıdığı" etiraf edilir. Təcavüzə görə rəhbər, yaxud təşkilatçının cəzalandırılması 1996-cı ildə hazırlanan Bəşəriyyətin təhlükəsizliyi və sülhə qarşı cinayət kodeksinin layihəsində də əksini tapmışdır[561]. Təhlükəsizlik Şurasının 2001-ci il 30 avqust tarixli 1366 saylı "Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu" adlı qətnaməsində keçmiş Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların rolu etiraf edilərək, belə tribunalların gələcəkdə silahlı münaqişələrin qarşısını almaqda rolu göstərildi[562]. Lakin indiyə qədər Ermənistan barədə heç bir beynəlxalq cinayət məhkəməsi yaradılmamışdır. Avstriya tədqiqatçısı E.Feyql yazır ki, Azərbaycan şəhəri olan Xocalı qeyri-müntəzəm sovet ordusunun köməyi ilə erməni əsgərləri tərəfindən məhv edildi. Bu, iyirminci

---

[559] *Yenə orada, s.147.*
[560] *Yenə orada, s.150-151.*
[561] *Yenə orada.*
[562] *Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/russian*

əsrin sonunda olan ən dəhşətli hadisə idi, Serbiyanın etdiyi qırğınlarla müqayisə edilə bilər. Ancaq Serbiya qatilləri beynəlxalq hüquq normalarına müvafiq cəzalarını alsalar da, Xocalı cinayətində məsuliyyət daşıyan ermənilər hələ də azaddırlar. Oxşar hadisə və nəticələr olan Ruandada da beynəlxalq hüquq normalarına müvafiq olaraq tədbirlər görülmüşdü[563]. Ermənistanın gələcəkdə növbəti cinayətlərinin qarşısını almaq üçün xüsusi tribunalın yaradılması vacibdir. Oxşar faciələrə yol verilməməsi üçün Xocalı soyqırımında və digər faciələrdə günahkar olanlar məsuliyyətə cəlb edilməlidirlər.

Hər bir dövlətin suverenliyinə hörmət etmək, dövlətlərarası münaqişələrdə güc tətbiq edilməsinə yol verməmək, müqavilələrə riayət etmək, təcavüzü qadağan etmək, başqa dövlətlərin daxili işlərinə müdaxilə etməmək müasir beynəlxalq hüququn əsas prinsiplərindəndir. Bu prinsiplər BMT Nizamnaməsində öz əksini tapmışdır və digər beynəlxalq təşkilatlar yaradıldıqda nizamnamələrini bu prinsiplərə müvafiq qəbul edirlər. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi BMT Nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndində aşağıdakı kimi birbaşa təsbit olunmuşdur: "Bütün üzvlər Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün, bu Nizamnaməyə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər"[564]. BMT-nin təcavüzkarı beynəlxalq hüquq normalarına hörmət etməyə məcbur etmək imkanı vardır. Bu nöqteyi-nəzərdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün hər şeydən əvvəl, BMT Ermənistan dövlət idarə-üsulunu başqa dövlətlərin və xalqların maraqları ilə hesablaşmağa məcbur etməli idi. Müna-

---

[563] *Erich Feigl. Armenian Mythomania. Armenian Extremism: Its Causes and Historical Context, 2007, www.google.az*

[564]*Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.6.*

qişənin siyasi yolla həll edilməsi üçün ilk növbədə dövlətin ərazi bütövlüyü bərpa edilməli, təcavüz və işğal faktları aradan qaldırılmalı, zərər çəkmiş tərəfə dəyən ziyan ödənilməli idi. Nizamnaməyə müvafiq olaraq bütün üzv dövlətlər BMT-yə üzvlükdən irəli gələn hüquq və imtiyazlardan istifadə etmək üçün üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməlidirlər. Nizamnamənin 2-ci maddəsinin 4-cü bəndində yazılır ki, istənilən dövlətin ərazi bütövlüyü, yaxud siyasi müstəqilliyinə qarşı güc tətbiq etmək beynəlxalq münasibətlərdə yolverilməzdir və BMT-nin məqsədləri ilə bir araya sığmır[565]. Nizamnamənin 1-ci maddəsinin 1-ci bəndində vurğulanır: "Sülh yolu ilə nizamasalma ədalətlilik prinsipinə müvafiq, hər hansı bir dövlətin milli maraqlarına zərər vurulmadan, suverenliyini pozmadan həyata keçirilməlidir"[566].

Yuxarıda deyilənləri ümumiləşdirərək, vurğulamaq lazımdır ki, danışıqlar prosesində Ermənistan həmişə xarici havadarları tərəfindən müdafiə edilmişdir. Buna görə də danışıqların Azərbaycan üçün heç bir əhəmiyyəti olmamışdır. Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev çıxışında danışıqlar prosesi ilə əlaqədar bildirmişdir ki, "rayonların Azərbaycana qaytarılması məsələsi danışıqların mərkəzində yerləşirdi. Bu bizim mövqeyimiz idi. Ancaq burada da mərhələli həll nəzərdə tuturdu. Biz də bunun tərəfdarı idik. Birinci mərhələdə 5 rayonun Azərbaycana qaytarılması, ikinci mərhələdə isə Laçın dəhlizi istisna olmaq şərti ilə Kəlbəcər və Laçın rayonunun Azərbaycana qaytarılması. Ermənistan tərəfi hər dəfə məsələ qaldırırdı ki, əgər bu 7 rayon Azərbaycana qaytarılacaqsa, mütləq Dağlıq Qarabağın statusu eyni vaxtda öz həllini tapmalıdır. O başqa məsə-

---

[565] *Yenə orada.*
[566] *Yenə orada, s.5.*

lədir ki, Ermənistan sadəcə olaraq, danışıqlarda iştirak edərək, imitasiya ilə məşğul idi və heç bir rayonu bizə qaytarmaq fikrində deyildi. Ancaq istənilən halda, onların mövqeyi belə idi ki, 5 rayon qaytarıla bilər, amma Laçın və Kəlbəcər rayonlarının Azərbaycana qaytarılması üçün Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini ya tanımalıdır, ya da ki, orada keçiriləcək səsverməni tanımalıdır, səsvermə üçün tarix müəyyən edilməlidir. Dağlıq Qarabağa müstəqillik verilərsə, o zaman Ermənistan Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytaracaq, ancaq Laçın dəhlizi Ermənistana veriləcəkdi, özü də dəhlizin eni müəyyən edilməmişdi. Bax, bu idi danışıqlar masasında olan məsələlər”[567].

44 günlük Vətən müharibəsində Qələbədən sonra Prezident İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Mixail Boчarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşiki qəbul etdi. İlham Əliyev bildirdi ki, artıq regionda vəziyyət dəyişmiş, Qarabağ münaqişəsi həll edilmişdir: “Hazırda regionda tamamilə yeni vəziyyət mövcuddur. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu. Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamadı. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi”[568]. “BMT-nin Thlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in qərarlarına, digər beynəlxalq təşkilatların

---

[567] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.192.*

[568] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.284.*

qərarlarına baxmayaraq, bu uzun illər ərzində münaqişə niyə həll olunmurdu? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun? Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır. Lakin hazırda bu, artıq fərq etmir. Münaqişə həll olunub”[569].

Prezident həmçinin Minsk qrupunu görüşə dəvət etmədiyini, öz ideyaları ilə gəldiklərini, əgər sözləri varsa demələrini bildirdikdə, həmsədrlər İlham Əliyevin mövqeyini bilmək istədiklərini və təklifləri yüksək dəyərləndirdiklərini, öz hökumətlərinə bu haqda məlumat verəcəklərini, əgər Azərbaycan Prezidenti razı olarsa, gələcəkdə regionda yenidənqurma işlərinin icrasında bacara biləcəkləri yardımdan məmnunluq duyacaklarını bildirdilər[570].

### *5.2. Təhlükəsizlik Şurasının Ermənistanı təcavüzkar dövlət kimi müəyyən etməsinə əsas verən amillər*

Ermənistanın təcavüzkar dövlət olaraq tanınmasına əsas verən amillər hansılardır? BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və beynəlxalq konvensiyalara müvafiq olaraq hər hansı bir dövlət başqa bir dövlətin ərazi bütövlüyünə hörmət etməli, beynəlxalq hüquq normalarına zidd hərəkətlərdən çəkinməlidir. Dövlətlərin ərazi bütövlüyünün pozulması prinsipinə riayət edilməməsi dövlətlərin suveren bərabərliyi, daxili işlərə müdaxilə etməmə, güc tətbiq etməmə və s. prinsipləri pozur. Ərazi bütövlüyü prinsipi BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində aşağıdakı kimi öz əksini tapmışdır: “Bütün üzvlər öz

---

[569] *Yenə orada, s.291.*
[570] *Yenə orada, s.295-298.*

beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər"[571]. Bu prinsip BMT Baş Məclisinin 1960-cı il 14 dekabr tarixli Müstəmləkə ölkələri və xalqlarının müstəqilliyinin təyin edilməsi barədə bəyannamədə belə təsbit edilmişdir: "Milli birlik və ölkənin ərazi bütövlüyünün qismən, yaxud tam pozulması BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə bir araya sığmır". "Bütün xalqların tam azadlıq, suverenlik, milli ərazilərinin bütövlüyü hüququ vardır"[572]. 1949-cu il Dövlətlərin hüquq və vəzifələri haqqında bəyannamənin 9-cu maddəsində, Baş Məclisin 1970-ci il 24 oktyabr tarixli Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququn prinsipləri haqqında bəyannaməsində[573] dövlətlərin ərazi bütövlüyünün saxlanması vacibliyi göstərilmişdir. Beləliklə, BMT-nin Nizamnaməsində və digər hüquqi aktlarda dövlətin ərazi toxunulmazlığına onun suverenliyi, xalqların öz suverenlik hüquqlarının həyata keçirilməsi şərti kimi baxılmışdır. Güc tətbiq etməmə prinsipi də BMT Nizamnaməsində, yuxarıda adları çəkilən sənədlərdə, BMT Baş Məclisinin 1974-cü ildə qəbul etdiyi

---

*[571] Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.6.*

*[572] Декларация о предоставлении независимости колониальным странам и народам. Принята резолюцией 1514(XV)Генеральной Ассамблеи от 14 декабря 1960 года. http://www.un.org/ru/documentes/decl_conv-/declarations/colonial.shtml*

*[573] Проект Декларации прав и обязанностей государств. 6 декабря 1949 года. http://www.un.org/ru/documentes/ods.asp; Декларация о принципах международного права, касающихся дружественных отнощений и сотрудничества между государствами в соответствии с Уставом Организации Объединенных Наций. Принята резолюцией 2625(XXV)Генеральной Ассамблеи ООН от 24 октября 1970 года. http:// www.un.org/ru/ documentes/decl_conv/declarations/intlaw_principles.shtml*

“Təcavüzün müəyyən edilməsi haqqında” qətnaməsində öz əksini tapmışdır[574].

BMT Baş Məclisinin 1974-cü il 3314 saylı “Təcavüzün müəyyən edilməsi haqqında” qətnaməsi təcavüzü aşağıdakı aktlarla təsnifləşdirir: a) Bir dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə hücumu, yaxud istənilən hərbi işğal, digər dövlətin ərazisini güc tətbiq etməklə ilhaq etmək. b) Digər dövlətin ərazisinə istənilən silahlı hücum. v) Dövlət, yaxud dövlət adından silahlı dəstələrin digər dövlətə qarşı yuxarıda sadalanan aktları həyata keçirmək üçün göndərilməsi. Bundan başqa qətnamənin 3-cü maddəsinin “g” bəndində göstərilir ki, dövlət öz ərazisində hər hansı bir dövlətə qarşı təcavüz törədilməsi üçün istifadə olunmasına imkan verməməlidir, əks halda bu əməlin özü təcavüz aktı hesab olunur[575]. BMT-nin Nizamnaməsinə müvafiq olaraq Baş Məclisin 1971-ci ildə qəbul etdiyi Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə yazılır: “Hər bir dövlət silahlı qrupların, yaxud qeyri-müntəzəm bölmələrin, o cümlədən muzdluların bir dövlətin sərhədlərindən keçərək digər dövlətə hücum etməsini təşkil etməkdən, yaxud həyata keçirməkdən çəkinməlidir”[576].

BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qəbul etdiyi bütün qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı təsdiq edilir[577]. Lakin heç bir qətnamədə Ermənistan təcavüzkar dövlət kimi müəyyənləşdirilməmişdir.

---

[574] *Resolution adopted by General Assembly 3314, 1974, www.un.org*
[575] *Yenə orada.*
[576] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.131.*
[577] *Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian*

BMT Baş katibi münaqişə bölgəsində vəziyyəti öyrənmək üçün regiona BMT-nin müşahidəçilər qrupunu göndərməyi qərara almış və 1992-ci il martın ortalarında BMT Baş katibinin xüsusi nümayəndəsi, ABŞ-ın dövlət katibi Sayrus Vensin başçılıq etdiyi nümayəndə heyəti Bakıda, Dağlıq Qarabağda, İrəvanda olmuşdu[578]. Azərbaycan hökuməti faktların toplanmasının Ermənistanın hərəkətlərini düzgün qiymətləndirməyə, Ermənistana qarşı müvafiq sanksiyaların tətbiqinə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasına və regionda sülh danışıqları aparılmasına imkan verəcəyini qeyd edirdi[579]. Lakin bu mülahizələr doğrulmadı. BMT nümayəndələri Ermənistanın təcavüzkarlıq siyasətini sübut edən faktlarla rastlaşsalar da, heç bir tədbir görülmədi. Azərbaycana qarşı elan olunmamış müharibə edən Ermənistan təcavüzkar siyasətini dünya birliyindən müxtəlif yollarla gizlətsə də, onun təcavüzkar dövlət olduğunu və Azərbaycan torpaqlarını özünə ilhaq etmək məqsədini sübut edən faktlar çoxdur və bu faktlar BMT Təhlükəsizlik Şurasına Ermənistanı təcavüzkar dövlət kimi müəyyən etməyə və ona qarşı sanksiyalar tətbiq etməyə əsas verirdi.

Birincisi, Ermənistan Ali Sovetinin 1989-cu ildə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirməsi barədə qərar qəbul etməsi onun təcavüzkarlıq siyasətini sübut edir. Azərbaycan dövlətinin suverenliyini pozmaqda davam edən Ermənistan Ali Soveti Azərbaycan ərazisində seçki dairəsi yaradılması və orada Ali Sovetə seçkilər keçirilməsi ba-

---

[578] *Письмо представителя Азербайджана от 12 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25582, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.60-62.*

[579] *Yenə orada.*

rədə qərar qəbul etdi. 1989-cu il 1 dekabr tarixli "Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" rəsmi sənədin qəbul edilməsi digər dövlətlərin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş siyasətdir. Çünki Ermənistan SSR və Azərbaycanın Dağlıq Qarabağ regionu heç vaxt vahid dövlət olmamışdır. Qərarın 3-cü maddəsində yazılır: "Ermənistan SSR Ali Soveti və Dağlıq Qarabağ Milli Soveti Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsini elan edir. Dağlıq Qarabağ əhalisi Ermənistan SSR vətəndaşlarıdır". 4-cü maddədə "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsini həyata keçirmək barədə praktik iş görmək üçün Ermənistan SSR Ali Soveti və Dağlıq Qarabağın birgə komissiya yaratması" göstərilmişdir. 6-cı maddədə qeyd edilir: "Vahid dövlət sistemində Ermənistan SSR və Dağlıq Qarabağın siyasi, iqtisadi, mədəni strukturlarının real birləşdirilməsini həyata keçirmək üzrə zəruri tədbirlər görmək Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinə, Ermənistan SSR Nazirlər Sovetinə, DQMV Milli Soveti Rəyasət Heyətinə həvalə edilir"[580]. Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzu ali qanunvericilik orqanı – Ali Sovet tərəfindən həyata keçirildi. Lakin Ermənistan nümayəndələri bu qərarların "kommunist rejimi" dövründə olması barədə bəyanatlar verdilər. Bu bəyanatlar o zaman parlament sədri olan Levon Ter-Petrosyanın 1990-cı il 23 avqust tarixli "Ermənistanın suverenliyi barədə bəyannamə"si ilə ziddiyyət təşkil edir. Belə ki, bəyannamənin preambulasında yazılır: "Bəyannamə Ermənistan SSR Ali Soveti və Dağlıq Qarabağ Milli Sovetinin 1989-cu il 1 dekabr tarixli "Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında"

---

[580] *Письмо представителя Азербайджана от 10 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/155, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.129-130.*

qərarına əsaslanır"[581]. 1990-cı ilin mayında qanun əleyhinə olaraq Azərbaycan ərazisində Ermənistan Ali Sovetinə seçkilər keçirildikdən sonra Ermənistan Ali Soveti deputatların, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ ərazisindən seçilən deputatların tanınması barədə qərarlar qəbul etdi. Bu qərarı həmin dövrdə Ermənistan Ali Sovetinin sədri L.Ter-Petrosyan imzaladı. Qanuna zidd olaraq seçilən bu deputatlar Ermənistan parlamentinin tam hüquqlu üzvü kimi bu və digər qanun və qərarlara səsvermədə iştirak edirdilər.

İkincisi, Ali Sovet Dağlıq Qarabağın iqtisadi inkişaf planları daxil olmaqla, Ermənistanın iqtisadi inkişafı barədə dövlət proqramı qəbul etdi. Ermənistan BMT və ATƏT-ə daxil olarkən, Ali Sovet bildirdi ki, beynəlxalq hüquqa əsaslanaraq, "Dağlıq Qarabağ respublikası"nı Azərbaycanın tərkib hissəsi kimi tanımayan Ermənistan Ali Soveti aşağıdakı qərarı qəbul etdi: "Ermənistan Respublikası tərəfindən "Dağlıq Qarabağ respublikası"nın müdafiəsi və onun əhalisini təchiz etmək; Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu göstərən sazişləri qeyrimümkün hesab etmək; Ermənistan Respublikasında hərbi səfərbərlik keçirmək"[582]. Beynəlxalq hüquqa əsaslanaraq "Dağlıq Qarabağ respublikası"nı Azərbaycanın tərkib hissəsi kimi tanımadığını bəyan edən Ermənistan bu normaları dərk etmədən, xalqların öz müqəddaratını təyinetmə prinsipini nəzərdə tutur. Xalqların öz müqəddəratını təyinetmə dedikdə, müstəmləkə ərazisinin müstəqilliyi və xalqların öz dövlətlərinin idarə edilməsində iştirakı nəzərdə tutulur. Bu prinsip həmçinin xarici işğal zamanı və mövcud dövlətin ərazi bütövlüyünü dəstəklə-

---

[581] *Yenə orada.*

[582] *Письмо представителя Азербайджана от 19 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25634, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.90.*

yərkən tətbiq edilir. Doğrudur, xalqların öz müqəddaratını təyinetmə hüququna bütün dövlətlər hörmət etməlidirlər. Lakin, xalqların öz müqəddəratını təyinetmə prinsipi dedikdə, xalq nəzərdə tutulur. Ermənilərin artıq qonşu dövlətlər hesabına olsa da, öz dövləti vardır. Azərbaycanın Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər isə etnik qruplardan biridir. Başqa sözlə, Azərbaycan çoxmillətli dövlətdir, onun ərazisində bir çox etnik qruplarla yanaşı ermənilər də yaşayırlar.

Üçüncüsü, separatçıların parlamentin üzvü olması Ermənistanın Azərbaycana qarşı təcavüzünü bir daha sübut etdi. Ermənistanın suverenliyi barədə referendum keçiriləndən sonra Ali Sovet yuxarıda sadalanan qərarları ləğv etmək barədə heç bir akt qəbul etmədi. "Dağlıq Qarabağ respublikası" adlı silahlı qüvvələrin başçısı Robert Köçəryan 99 nömrəli seçki dairəsindən deputat seçildi[583].

Dördüncüsü, Dağlıq Qarabağ regionunda separatçılığı yayan və ona rəhbərlik edən şəxslər Ermənistanda hakimiyyətdə idilər. 1998-2008-ci illərdə Ermənistanın Prezidenti olan Robert Köçəryan və 2008-ci ildən 2018-ci ilə qədər Prezident olan Serj Sarkisyan Dağlıq Qarabağ regionunun və ətraf rayonların işğalında birbaşa iştirak etmişdilər. 1988-ci il fevralın 12-də azərbaycanlılara qarşı ilk mitinq məhz R.Köçəryanın rəhbərliyi altında təşkil edilmişdir. Hadisələrin ilk aylarından Xocalı şəhərinin girəcəyində 4 evin yandırılması və azərbaycanlı ev sakinlərinin bir neçəsinin yaralanması ilə nəticələnən təxribat aksiyası konkret olaraq Robert Köçəryanın, Serj Sarkisyanın, Arkadi Qukasyanın təşkilatçılığı və bilavasitə rəhbərliyi altında törədil-

---

[583] *Письмо представителя Азербайджана от 20 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25641, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.94.*

mişdir. 1988-ci il oktyabr ayının axırında Əsgəran rayon təhsil şöbəsinə azərbaycanlıların əleyhinə təbliğat aparmaq üçün Xankəndindən gəlmiş və yığıncaq təşkil etmiş R.Köçəryan çıxışında türklərin və azərbaycanlıların ermənilərə qarşı uydurma "soyqırımı"nı təşkil etmələrini xatırladaraq pedaqoji kollektivə bu faciələri heç vaxt yaddan çıxarmamağı və şagirdləri millətçi ruhunda tərbiyə etməyi tapşırmışdı. Yığıncaqda iştirak etmiş Cəmilli kənd məktəbinin direktoru Qasım Qırxqızlı və onun müavini Quliyev Xudayar bildirmişlər ki, onlar R.Köçəryanın millətçi çıxışına öz etirazlarını bildirərək iclası tərk etmişlər[584].

Ermənistanın sonrakı Prezidenti S.Sarkisyan Xankəndi şəhərində anadan olmuş, təhsilini İrəvan şəhərində almışdır. 2008-ci ilin fevral ayında Ermənistanın prezidenti seçilən S.Sarkisyan hadisələr başlayan dövrdə Xankəndi Şəhər Komsomol Komitəsinin birinci katibi vəzifəsində işləyirdi. O, "Krunk" və "Daşnaksütun"un fəallarından olmuşdur. Xankəndində yaşayan ermənilərin silahla təmin edilməsini, azərbaycanlıları daşıyan Ağdam-Şuşa marşurutunda işləyən avtobusların əvvəlcə daş-qalaq edilməsini, sonra odlu silahla atəşə tutulması nəticəsində 25 nəfərin qətlə yetirilməsini, 1989-cu ildə Ağdamdan Şuşaya uçan "Mi-8" vertolyotunun vurulmasını, Malıbəyli kəndinə ilk hücumu, Əsgəran-Ağdam rayonlarının sərhədində iki azərbaycanlının qətlə yetirilməsini S.Sarkisyan təşkil etmişdi. Həmin dövrdə S.Sarkisyan Ermənistandan odlu silah və döyüş sursatlarının gətirilməsi və Dağlıq Qarabağ regionunda yaşayan ermənilərə paylanılması ilə məşğul olurdu[585]. Böyük Britaniyalı jurnalist, Karnegi Fondunun məşhur tədqiqatçısı Tomas de Vaalın Ermənistanın Prezidenti Serj Sarkisyanla müsahibəsində Xocalı soyqırımı barədə S.Sarkisyan

---

[584] *R.Köçəryan və S.Sarkisyan Dağlıq Qarabağdakı soydaşlarımıza qarşı törədilən zorakılıqların müəllifləridir.http://1905.az/r-kocəryan-və-s-sarkisyan-dagliq-qarabagdaki-soydaslarimiza-qarsi-torədilən-zorakiliqlarin-muəllifləridir*
[585] *Yenə orada.*

belə deyir: "Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu"[586].

Beşincisi, Ermənistan müdafiə nazirinin 1993-cü il martın 10-da Azərbaycanın Ağdərə rayonuna gizli gəlişi, orada yerləşən erməni hərbi hissələrinin döyüş qabiliyyətini yoxlaması, erməni hərbi əsirlərin ifadələri sübut edirdi ki, Ermənistan Azərbaycana qarşı hərbi təcavüzdə birbaşa iştirak edir. Belə ki, Azərbaycan Ordusu Kəlbəcər rayonunun Çanlı kəndi yanında hücumun qarşısını alarkən Ermənistanın bir neçə hərbi qulluqçusu əsir götürüldü. Əsirlər arasında Gümrü (Leninakan) şəhərindəki 4-cü hərbi komissarlıq bölməsinin rəisi kapitan Qriqoryan Aşot Ağasieviç, yenə Gümrü şəhəri 2-ci hərbi komissarlıq bölməsi rəisinin baş köməkçisi baş leytenant Badoyan Samvel Derenikoviç də var idi[587]. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, BMT-nin Bakıda akkreditə olunmuş diplomatik korpusu, həmçinin yerli, xarici jurnalistlərin erməni hərbi əsirləri ilə görüşü təşkil edildi. Görüşdə Erməni hərbi əsirlər birmənalı olaraq bildirdilər ki, Azərbaycan ərazisində müharibəni Ermənistan aparır, hətta onlar Ermənistanın müxtəlif şəhərlərində bir neçə dəfə keçirilən müharibə əleyhinə mitinqlərə qarşı çıxmışlar. 1994-cü il yanvarın 14-də İrəvanda müharibə əleyhinə keçirilən mitinqi isə hakimiyyət nümayəndələri özləri qovmuşdular[588].

---

[586]*Sarkisyan Xocalı faciəsindən danışdı. 26.02.2014. http://etatist.com/xeber/-12189-sarkisyan-xocal-facisindn-dand.html*

[587] *Письмо представителя Азербайджана от 1 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/108, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.103.*

[588] *Yenə orada.*

Ermənistan silahlı qüvvələrinin Böyük Qarakilsədə [589] yerləşdirilmiş 83-cü briqadası 1992-ci ilin mayın 18-də işğal edilmiş Laçın rayonuna nəzarəti ələ aldı, avqustun 23-də Füzuli rayonunu işğal etdi[590]. BMT nümayəndəsi Azərbaycan ərazisində döyüşlərdə T-72 tankları, Mi-24 təyyarələri, müasir döyüş aviasiyasının olmasını və yalnız yerli etnik qüvvələrin (ermənilərin) hücum etmədiyini təsdiq etdi. Bəs bunları kim edirdi? BMT-nin Baş katibi bunu müəyyənləşdirmədi, Dağlıq Qarabağ özünümüdafiə qüvvələrinin işlətdiyi silahların mənbəyinin aydınlaşdırılması üzrə komissiya yaradılmadı. 1998-ci ildə Ermənistanda prezident seçkiləri zamanı ATƏT-in müşahidəçiləri öz məruzələrində bildirdilər ki, Azərbaycanın Kəlbəcər rayonunda çoxlu erməni hərbi qulluqçuları vardır[591]. ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağda böhranların qarşısının alınması üzrə beynəlxalq qrupunun 2005-ci ildə etdiyi məruzədə Dağlıq Qarabağ regionunda erməni əsgərlərinin qulluq keçdiyi göstərilirdi[592]. Məruzədə Dağlıq Qarabağda olan orduda xidmət edən əsgərlərdən səkkiz min beş yüzünün Dağlıq Qarabağdan olan erməni, on mininin Ermənistandan olan erməni olduğu, Ermənistandan olan keçmiş çağırışçıların isə zorla işğal edilmiş

---

*[589] Böyük Qarakilsə İrəvan quberniyasının Aleksandropol qəzasının Pənbək bölgəsində 1930-cu ildə yaradılmış kənd olmuşdur. 1935-ci ilə qədər Böyük Qarakilsə adlanmışdır. 1935-ci ildən 1993-cü ilə qədər Kirovakan, 1993-cü ildən etibarən isə Vanadzor adlandırılmışdır. Əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Böyük Qarakilsə rayonunun ərazisi Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının Qazax qəzasına daxil olub.*

*[590] Письмо представителя Азербайджана 8 июня 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/688, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.378-380.*

*[591] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.122.*

*[592] Yenə orada, s.123.*

ərazilərə göndərildiyi göstərilirdi[593]. Dağlıq Qarabağda olan şəxslər etiraf edirdilər ki, Ermənistan zabitləri təlimlər keçirlər[594].

Altıncısı, Kəlbəcəri işğal etmək məqsədilə Azərbaycan ərazisinə göndərilən Ermənistan hərbi qulluqçuları əsir götürülərkən əldə edilən sənədlər, onların üzərində tapılmış Ermənistan silahlı qüvvələri baş ştabının rəisi general-leytenant Q.Andresyanın imzaladığı "Sekretno ekr № 1" qrifi ilə Kəlbəcərin işğalı və işğal edilən Azərbaycan torpaqlarının əldə saxlanılmasına dair hərbi xəritənin (miqyası 1:50000), Laçın və Kəlbəcərin alınmasında xidmətlərinə görə hərbi rütbə verilməsi barədə sənədlərin olması Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü sübut edən faktlar idi[595]. Azərbaycan ərazilərini işğal etmək üçün yerli ermənilərin ordu qurmaqdan ötrü insan potensialı, maliyyə-iqtisadi gücü və hərbi-sənaye kompleksi yox idi, işğalı xarici hamiləri tərəfindən dəstəklənən Ermənistan həyata keçirirdi.

Yeddincisi, Ermənistanın azərbaycanlıların soyqırımını həyata keçirməsi, səkkizincisi, Ermənistanın hərbi əsir və girovları öz ərazisində saxlaması, doqquzuncusu, Ermənistanın

---

*[593] Yenə orada, s.339.*

*[594] The Armenia – Azerbaijan conflict. Courtesy of the Ministry of Foreigh Affairs of the Republic of Azerbaijan// Journal "Diplomatiya Aləmi" (World of Diplomacy), 18-19/2008, 2009, s.19.*

*[595]Письмо представителя Азербайджана от 5 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/147, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.124.; Письмо представителя Азербайджана от 4 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/141, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.120.; Письмо представителя Азербайджана от 1 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/108, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, s.103.*

Azərbaycana qarşı terror aktları həyata keçirməsi onun təcavüzkar dövlət kimi müəyyənləşdirilməsinə əsas verən digər faktlar idi.

Onuncusu, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının yaşayış məntəqələrinin işğala, dağıntılara məruz qalması, bu yaşayış məntəqələrində "etnik təmizləmə" həyata keçirilməsi, terror yolu ilə azərbaycanlıların daimi yaşayış yerlərindən qovulması Ermənistanı təcavüzkar dövlət adlandırmağa əsas verirdi.

On birincisi, Ermənistanda hökumət səviyyəsində əhali arasında Kəlbəcər, Qubadlı, Zəngilan rayonlarına köçürülmə siyasəti ilə bağlı fəal iş aparılması Ermənistanın Azərbaycan ərazilərinə təcavüzkarlığını sübut edən digər fakt idi. Belə ki, Ermənistan vətəndaşlarının işğal edilmiş ərazilərdə yerləşdirilməsi qanuna zidd idi. Beynəlxalq praktikada məlumdur ki, dövlət sərhədləri dəyişərkən vətəndaşlar qanuni olaraq bir dövlətdən digərinə köçürülürlər. Vətəndaşlığın dəyişdirilməsi optasiya (başqa dövlətin vətəndaşlığına keçmə hüququ) nəticəsində həyata keçirilə bilər və bu halda da könüllü seçki tətbiq edilir. İstər transfert (köçürülmə) yolu ilə, istərsə də optasiya yolu ilə vətəndaşların köçürülməsi dövlətlərin qarşılıqlı müqaviləsi əsasında ola bilər. İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə komitənin 1995-ci il 17 avqust tarixli Bosniya və Hersoqovinada vəziyyət barədə qərarında yazılırdı ki, regionda demoqrafik tərkibin dəyişdirilməsi üçün istənilən cəhd beynəlxalq hüququn pozulması deməkdir. Xüsusi məruzəçi Əl-Xasaun İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə komitəyə məruzəsində əhalinin köçürülməsini beynəlxalq hüquq normalarının qadağan etdiyini qeyd etdi. Bu fikir komissiya tərəfindən bəyənildi[596]. 1949-cu il Cenevrə kon-

---

[596] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.350.*

vensiyaları demoqrafik tarazlığı artırmaq məqsədilə işğal edilmiş ərazilərə işğalçı dövlətin əhalisinin köçürülməsini qadağan edən əsas hüquqi sənəddir. İşğal edilən ərazilərdə demoqrafik tarazlığın pozulmasını Təhlükəsizlik Şurası da öz qətnamələrində pisləyir[597]. Beynəlxalq hüquq normalarına müvafiq olaraq Ermənistan işğal etdiyi ərazilərdə heç bir hüquqi statusa malik deyildi, beynəlxalq hüquq normalarını pozaraq işğal etdiyi Azərbaycan ərazilərinə erməni əhalini köçürürdü. Ermənilərin işğal edilmiş ərazilərə köçürülməsi Ermənistan Respublikasının Baş naziri Vazgen Sarkisyan, onun müavini Suren Abramyan və Qaçqınların işi üzrə dövlət idarəetməsi tərəfindən həyata keçirildi. Bu kompaniyaya ictimai xarakter vermək məqsədi ilə Erməni Monarxiya Partiyası yanında Xeyriyyə Birliyi – “Ayrudzi” yaradılmışdı. Bu birlik köçkünlərin təmin olunmasını öz üzərinə götürərək, maliyyə proqramına iri həcmdə pul ayırmışdı[598]. Köçürmə layihəsinin nazir, onun müavini, dövlət təsisatı səviyyəsində həyata keçirilməsi sübut edir ki, Azərbaycanın işğal edilmiş rayonlarına erməni əhalisinin köçürülməsi Ermənistan rəhbərliyinin birbaşa nəzarəti altında təşkil edilirdi və bu dövlətin siyasətinin tərkib hissəsi idi.

2004-cü il sentyabrın 24-də BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi qətnamələrin həyata keçirilmədiyini və Ermənistanın işğal edilən ərazilərə erməni əhalinin kütləvi şəkildə qanunsuz məskunlaşdırılması siyasətinin Müharibə zama-

---

[597]*Yenə orada, s.349-350.*

[598] *Письмо представителя Азербайджана 18 мая 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/591, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, s.225-226.*

nı mülki şəxslərin müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş IV Cenevrə konvensiyalarının müddəalarını açıq şəkildə pozduğunu bildirdi[599]. 2004-cü il noyabrın 24-də Azərbaycan Respublikası XİN-nin rəsmilərinin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə Ermənistanın apardığı məskunlaşma siyasətinə dair faktların aşkar edilməsi üçün ATƏT çərçivəsində müstəqil ekspert qrupunun yaradılması müzakirə edildi[600]. ATƏT-in Minsk qrupu Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən əhalinin məskunlaşması faktlarını araşdırmaq üçün missiyaya rəhbər almaniyalı diplomat Emili Haberi təyin etdi. 2004-cü ildə ATƏT-in faktları araşdırma üzrə missiyası Azərbaycanın işğal olunmuş ərazilərində erməni əhalinin qanunsuz məskunlaşdırılmasını aşkar etdi[601]. Missiyanın 36 səhifədən ibarət məruzəsində işğal olunmuş ərazilərdə məskunlaşmış əhalinin sayı 15-16 min nəfər göstərilirdi. Məruzədə Laçında 8000-12000, Kəlbəcərdə 1500-2000, Ağdamda 1000, Zəngilanda 1000, Qubadlıda 1500, Füzulidə 100, Cəbrayılda 100 nəfər erməninin məskunlaşdığı qeyd edilirdi[602]. Dağlıq Qarabağa və onun ətrafına köçürülən hər bir erməni faktik olaraq evlə təmin edilir, ayda hər bir erməniyə 365 dollar verilirdi[603]. 2010-cu ilə qədər, işğal edilən ərazilərdə ermənilərin sayını 300 minə çatdırmaq niyyətində olan Ermənistan hökuməti çoxsaylı imtiyazlar vermək yolu ilə İran, Rusiya, Livan və b. ölkələrdən yüz-

---

[599] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, s.130.*

[600] *Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.74.*

[601] *Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranacağına yol verməərik". Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, s.92.*

[602] *Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.122.*

[603] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.351.*

lərlə ermənini işğal etdiyi ərazilərə köçürür, işğaldan əvvəl azərbaycanlılara məxsus olan evlərin bərpası üçün uzunmüddətli kreditlər verir, onları vergidən azad edirdi[604]. ATƏT-in qanunsuz köçürülmə ilə bağlı faktların toplanması üzrə missiyasının gəldiyi nəticəyə görə həmsədrlər işğal edilən ərazilərə sonrakı köçürülmənin qarşısını almağa çağırdılar, demoqrafik tərkibin dəyişilməsinin, belə vəziyyətin uzun müddət saxlanılmasının sülh proseslərini mürəkkəbləşdirdiyini, işğal edilmiş ərazilərdə istənilən iqtisadi fəaliyyətin qanunsuzluğunu vurğuladılar. Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi BMT Baş katibinə məktubunda "işğal edilən ərazilərə əhalinin köçürülməsini qadağan edən normaların pozulmasının hərbi cinayətlər kateqoriyasına daxil olduğunu" qeyd etdi[605].

Abxaz və gürcü jurnalistlərin Azərbaycanın işğal edilən ərazilərinə ermənilərin köçürülməsinə dair çəkdikləri videofilmlərin kompakt diskləri və peykdən çəkilmiş fotolar, onlara əlavə edilən şərhlər BMT-yə göndərildi. Bu informasiya ATƏT-in Minsk qrupunun işğal edilən ərazilərdə faktların toplanması üzrə missiyaya da təqdim edildi[606].

ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağda böhranların qarşısının alınması üzrə beynəlxalq qrupunun 2005-ci ilin sentyabr ayında təqdim etdiyi məruzədə yazılır ki, Stepanakert (Xankəndi – R.D.) Laçına Dağlıq Qarabağın hissəsi kimi baxır. Onun demoqrafik strukturu dəyişdirilmişdir. Müharibəyə qədər

---

*[604] Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.72.*

*[605] Письмо постоянного представителя Азербайджана при Организаций Объединенных Наций от 2 февраля 2005 года на имя Генерального секретаря // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.101-102.*

*[606] Письмо представителя Азербайджана при Организаций Объединенных Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря Приложение 1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.102-114.*

orada 47400 (1992-ci il məlumatına görə Laçının işğalı zamanı orada 66646 nəfər yaşayırdı – R.D.) azərbaycanlı və kürd yaşayırdı, Dağlıq Qarabağın vəzifəli şəxslərinin verdiyi məlumata görə indi orada 10000 erməni yaşayır. Həmin əhali pulsuz geyim, sosial infrastruktur, pul və ev heyvanları ilə təmin edilir, onlardan çox az miqdarda vergi alınır. Şəhərin mərkəzində 85 faizə qədər ev bərpa edilmiş və yenidən bölüşdürülmüşdür. Elektrik xətləri, nəqliyyat yolları və digər obyektlər Ermənistan və Dağlıq Qarabağdan müharibəyə qədər olduğundan daha çox asılıdır[607].

ATƏT-in faktları araşdırma üzrə missiyası yalnız gördüyü və hesabladığı əhalinin sayını göstərdi. Belə ki, missiyanın gedəcəyi yerlərdə erməni tərəf tədbirlər görərək əhalinin çox hissəsini gizlətmişdi. Bununla belə qanunsuz məskunlaşma prosesi aşkar olundu. Belə ki, Laçında yaşayış binalarının 80-85%-i bərpa edilərək ermənilərə verilmişdi[608]. ABŞ Dövlət Departamentinin dünyada insan hüquqlarının müdafiəsinə dair 2005-ci il 28 fevral tarixli 28-ci hesabatında işğal edilən ərazilərdə Yaxın Şərqdən və başqa yerlərdən gələn erməni mühacirlərin məskunlaşdığı göstərilmişdi. Sənəddə, həmçinin işğal altında olan ərazilərə Azərbaycan hökumətinin nəzarət edə bilmədiyi və orada insan hüquqları barədə məlumat əldə etməyin mümkün olmadığı vurğulanırdı[609]. Hesabatı Konqresin sədri və Senatın xarici əlaqələr komitəsi təsdiq etmişdi.

Prezident İlham Əliyevin dünya birliyini Ermənistan tərəfindən əhalinin məskunlaşması faktlarını araşdırmağa cəlb et-

---

*[607] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.352.*
*[608] Письмо представителя Азербайджана при Организаций Объединенных Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря Приложение1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.113.*
*[609] Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.121.*

məsi nəticəsində Ermənistanın öz çirkli siyasətinin açıq surətdə həyata keçirməsinin qarşısı alındı. Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının 2014-cü il iyunun 28-də Bakıda keçirilən iyirmi üçüncü illik sessiyasının plenar iclasının açılış mərasimində çıxış edərkən ATƏT-in faktları araşdırma üzrə missiyasının ermənilərin vəhşi siyasətini təsdiq etdiyini qiymətləndirdi, lakin bu kimi hesabatların münaqişənin həllində heç bir rol oynamadığını qeyd etdi[610].

Sonralar da Ermənistan gizli olaraq ermənilərin Dağlıq Qarabağa köçürülməsini təşkil etdi. 2020-ci il avqustun 4-də Beyrutdakı partlayışdan Ermənistan sui-istifadə etdi və evsiz-eşiksiz olmaları bəhanəsilə işğal etdiyi ərazilərə erməni əsilli livanlıları yerləşdirdi. İşğalçı Ermənistanın məqsədi bu torpaqlarda ermənilərin sayını süni şəkildə artıraraq, ərazilərin etnik-mədəni xüsusiyyətlərinin dəyişdirilməsi və Azərbaycanın torpaqlarını ilhaq etmək idi. Azərbaycanın beynəlxalq tanınmış ərazilərində Ermənistanın qanunsuz məskunlaşdırma siyasəti, o cümlədən Ermənistanın Livandakı faciədən öz qanunsuz məqsədləri üçün istifadə etmək niyyətləri ilə bağlı Azərbaycan hökuməti ATƏT-in Minsk Qrupunun həmsədrləri qarşısında məsələ qaldırdı[611].

On ikincisi, Ermənistanın işğal etdiyi ərazilərdə olan təbii ehtiyatları istismar etməsi BMT-nin qətnamələri, qərarları ilə ziddiyyət təşkil edir və onun təzavüzkarlığını sübut edən digər bir fakt idi. Kəlbəcərin Söyüdlü və Zəngilanın Vejnalı kəndlərinin iri qızıl yataqları erməni şirkətləri tərəfindən qanunsuz ola-

---

*[610] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışıarı, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2014.pdf, s.131.*

*[611]XİN erməni əsilli livanlıların işğal olunmuş ərazilərə köçürülməsi ilə bağlı məlumatlara münasibət bildirib. 08.08.2020. https://apa.az/az/xeber/dagliq_qarabag/XIN-ermni-silli-livanlilarin-isgal-olunmus-razilr-kocurulmsi-il-bagli-mlumatlara-munasibt-bildirib-600230*

raq istismar olunurdu. Kanadada olan "Ferst Daynasti Maynz LTD"(2002-ci ildən "Sterlayt Qold LTD" adlanır) erməni şirkəti 63 milyon dollar verməsi müqabilində Söyüdlü yataqlarını istismar etməsi barədə Ermənistan hökuməti ilə razılığa gəlmişdi. Ermənistan hökuməti bildirmişdir ki, Amerika və Kanada şirkətləri ilə 4,5 ton qızıl ehtiyatı olan Vejnalı qızıl yataqlarını istismar etmək barədə razılaşmışlar[612]. 2004-cü il sentyabrın 24-də BMT Baş Məclisinin 59-cu sessiyasında Prezident İlham Əliyev demişdir: "Təcavüzkar Ermənistan və Dağlıq Qarabağ separatçıları xarici şirkətləri də qeyri-qanuni biznesə cəlb etməyə çalışaraq işğal olunmuş Azərbaycan ərazilərində təbii sərvətləri də istismar edirlər"[613].

On üçüncüsü, Ermənistanın işğal etdiyi ərazilərdə yer adlarını (toponimləri) erməni adları ilə əvəz etməsi, abidələri süni surətdə erməniləşdirməsi bu dövlətin təcavüzkarlığını sübut edən digər fakt idi. Ermənistan Kəlbəcər rayonunun adını Karvaçar, Laçının adını Kaşatax, Qubadlının adını Kaşunik, Zəngilanın adını Kavsakan adları ilə əvəz etmiş, Qədim Albaniyanın çox böyük əhəmiyyət daşıyan abidələrini – alban dini abidələri monastırları olan Kəlbəcərdəki Xotabank (VI-VII əsr), Laçındakı V-XI əsr abidələrini, Ağdamın Kəngərli kəndində olan kilsəni erməni abidələri kimi qələmə verməyə çalışmışdır. Bu abidələr üzərində olan qədim alban yazısı, divarlarda ornamentlər və xaçlar erməni simvolları ilə əvəz edilmişdir[614]. 2004-cü il

---

[612] *Письмо представителя Азербайджана при Организаций Объединенных Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря Приложение1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.110.*

[613] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, s.131.*

[614] *Письмо представителя Азербайджана при Организаций Объединенных Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря При-*

sentyabrın 24-də BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edən Prezident İlham Əliyev demişdir: "Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir. Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özününküləşdirilmiş və talanıb aparılmışdır"[615].

Əvvəllər Azərbaycana məxsus olmuş İrəvan xanlığının ərazisində olan yüzlərlə toponimin adları həmin torpaqlarda yaşamış azərbaycanlıların izlərini məhv etmək məqsədilə erməni adları ilə əvəz edilmişdir. Azərbaycan dilində mənası olan bu toponimlərin erməni dilində heç bir mənası yoxdur. Məsələn, toponimlər dəyişdirilərək Basarkeçər Vardenis, Qəmərli Artaşat, Vedi Ararat, Hacı Nəzər Kamo, Molla Dursun Şaumyan, Karvansaray İcevan, Allahverdi Tumanyan, Hamamlı Spitak, Üçkilsə Eçmiadzin, Uluxanlı Masis, Göyçə Sevan s. olmuşdur[616]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il avqustin 17-də Kəlbəcər rayonuna səfəri zamanı Basarkeçər bölgəsi ilə bağlı jurnalistlərin reportaj hazırlamalarının vacibliyini vurğuladı və bildirdi ki, "indiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə çağırılmalıdır"[617].

---

*ложение1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.110.*

*615 Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, s.131.*

*616 Abdullayev Ə. İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırı-XX əsr). Bakı: Elm, 1998, s.167.*

*617 Prezident: "İndiki Ermənistanda yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri əsl ad ilə çağırılmalıdır". 17.08.2021. https://azerforum.com/az/apa-apaz-prezident-indiki-ermenistan-erazisinde-yerleshen-butun-qedim-azerbaycan-yashayish-menteqeleri-esl-ad-ile-cagirilmalidir*

On dördüncüsü, Ermənistanın "yandırılmış torpaq" taktikası və işğal etdiyi ərazilərin əksər hissəsini minalandırması onun təcavüzkar olduğunu sübut edən digər fakt idi.

On beşincisi, işğal edilmiş ərazilərdə yaradılmış qondarma qurum hətta Ermənistan tərəfindən tanınmamışdı, onun nəzarəti, idarəçiliyi altında idi. Bu da bir daha göstərir ki, Ermənistan Azərbaycanın ərazisi olan Dağlıq Qarabağı özünə ilhaq etmişdi. Ermənistan qondarma Dağlıq Qarabağ respublikası yaradaraq, orada öz idarə-üsulunu həyata keçirirdi. BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə komitəsinin 2001-ci il 12 aprel tarixli Yekun Sənədində, İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitəsinin 1997-ci il 22 dekabr tarixli Azərbaycan haqqında Yekun Sənədində, ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağda böhranların qarşısının alınması üzrə beynəlxalq qrupunun məruzələrində Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi göstərilir[618]. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində[619], Nizamnaməyə müvafiq olaraq BMT Baş Məclisinin 1970-ci il Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında bəyannaməsində, ATƏT-in 1975-ci il Yekun Aktının prinsiplərində işğal edilmiş torpaqların anneksiyası qadağan edilir.

Dövlət beynəlxalq münasibətlərin əsas subyektidir. Dövlətin əlamətlərindən biri onun ərazisinin olmasıdır. Ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə son dərəcə vacib amildir. Dövlətin suverenliyini saxlamaq yalnız ərazi bütövlüyünə nəzarət vasitəsilə ola bilər. Baş Məclisin 1986-cı il 4 dekabr tarixli İnkişaf hüququ haqqında

---

[618] *Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.335-337.*

[619] *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, s.6.*

41/128 saylı bəyannamə dövlətləri milli suverenlik, milli vahidlik və ərazi bütövlüyünün pozulması təhlükəsinə qarşı qəti tədbirlər görməyə çağırdı[620]. Baş Məclisin 1991-ci il 19 dekabr tarixli 46/182 saylı qətnaməsində yazılır ki, dövlətin suverenliyi, ərazi bütövlüyü və milli vahidliyinə BMT Nizamnaməsinə müvafiq olaraq hörmət edilməlidir[621]. Baş Məclisin qəbul etdiyi 2000-ci il 8 sentyabr tarixli Minilliyin Bəyannaməsində bütün dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyünə və siyasi müstəqilliyə hörmət etməsi prinsipi təsdiq edildi[622]. Bu Bəyannamə 2005-ci il Ümumdünya Sammitinin Yekun Sənədində, Ümumdünya Sammitinin Yekun Sənədi isə BMT-nin 2006-cı il Terror əleyhinə strategiyasında bir daha təsdiq edildi. Baş Məclisin 1970-ci il Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında bəyannaməsində göstərilmiş dövlətlərin suveren bərabərliyi, beynəlxalq mübahisələrin dinc yollarla həll edilməsi, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi, güc tətbiq edilməməsi, hər hansı bir dövlətin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə edilməməsi, xalqların öz müqəddəratını təyinetməsi, çoxtərəfli əməkdaşlıq prinsiplərinə əlavə olaraq, 1975-ci ildə ATƏT-in Helsinki Yekun Aktında göstərilən hər hansı bir dövlətin ərazi bütövlüyünü və siyasi müstəqilliyini hədələməkdən çəkinmək, sərhədlərin toxunulmazlığı, insan hüquq və azadlığına hörmət prinsipləri qəbul edildi.

---

620 *Декларация о праве на развитие. Принята резолюцией 41/128 Генеральной Ассамблеи от 4 декабря 1986 года. http://www.un.org/ru/-documentes/decl_conv/declarations/right_to_development.shtml*

621 *Укрепление координации в области чреэвычайной гуманитарной помощи ООН. http://www.un.org/ru/documentes/ods.asp?m=A/RES/46/182*

622 *Birləşmiş Millətlərin Minillik Bəyannaməsi: Minillik Sammit, Nyu York, 6-8 sentyabr, 2000, 14 s.*

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, beynəlxalq hüququn nəzəri və təcrübi əsaslarına görə, həmçinin mövcud beynəlxalq hüquq qaydalarına əsasən, Ermənistan Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirməsi barədə qərar qəbul etməsi, parlamentinin Dağlıq Qarabağın iqtisadi inkişaf planları daxil olmaqla Ermənistanın iqtisadi inkişafı barədə dövlət proqramı qəbul etməsi, separatçıların Ermənistan parlamentinin üzvü olması, separatçıların və terrorçuların hakimiyyətdə olması, Ermənistan silahlı qüvvələrinin işğalda birbaşa iştirakı, Ermənistanın azərbaycanlıların soyqırımını həyata keçirməsi, hərbi əsir və girovları öz ərazisində saxlaması, Azərbaycana qarşı terror aktları həyata keçirməsi, terror yolu ilə etnik təmizləmə siyasətini həyata keçirməsi, işğal edilən ərazilərə erməni əhalini köçürməsi, işğal etdiyi ərazilərdə olan təbii ehtiyatları istismar etməsi, toponimləri erməni adları ilə əvəz etməsi, abidələri süni surətdə erməniləşdirməsi, dağıtması, satması, “yandırılmış torpaq” taktikası və işğal etdiyi ərazilərin əksər hissəsini minalandırması, qondarma Dağlıq Qarabağ respublikasının hətta Ermənistan tərəfindən tanınmaması, onun nəzarəti, idarəçiliyi altında olması Azərbaycanın ərazi bütövlüyünü pozan təcavüzkar dövlət kimi Ermənistana qarşı BMT Təhlükəsizlik Şurasının siyasi və iqtisadi sanksiyalar tətbiq etməsinə əsas verirdi. Lakin BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında qətnamələrinin həyata keçirilməsi üçün Ermənistana heç bir təzyiq edilmədi. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu tərəfindən BMT-nin qətnamələri həyata keçirildi və işğalçılar Azərbaycan ərazisindən qovuldular.

2020-ci il oktyabrın 24-də Fransanın “Figaro” qəzetinə müsahibə verərkən müxbirin “Bu müharibəni durdurmaq üçün mümkün olan ən yaxşı vasitəçi kimdir? Rusiyadırmı?” sualına Prezident İlham Əliyev bildirdi ki, “Bizim üç vasitəçimiz vardır.

ATƏT onlara mandat verib – Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları. Onlar 28 ildir ki, heç bir nəticə olmadan vasitəçilik etməyə və tərəflərə həll yolunu tapmağa kömək etməyə çalışırlar. Bu üç ölkə, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının üzvləridir, daimi üzvləridir. Onlar Azərbaycanın istinad etdiyi və erməni qoşunlarının çıxarılmasını tələb edən qətnamələri qəbul etmişlər. Lakin əfsuslar olsun ki, onlar işğal olunmuş əraziləri boşaltmaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmək üçün Ermənistana kifayət qədər beynəlxalq təzyiq göstərməyiblər. Buna görə Ermənistanın hərbi hücumundan sonra Azərbaycan özünü müdafiə etməli və ədaləti güc yolu ilə qorumalı idi. Bunu da uğurla edirik[623]. Beləliklə, Prezident BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi qətnamələrin tətbiq edildiyini və işğalçı Ermənistanın Azərbaycan ərazisindən güc yolu ilə çıxarıldığını vurğuladı.

---

[623] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.154.*

## FƏSİL VI

# BMT-NİN QƏTNAMƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN İCRA EDİLMƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il sentyabrın 21-də BMT Baş Məclisinin 75-ci ssessiyasında nitqində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməyə Ermənistanın hələ də məhəl qoymadığını, azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirərək 1 milyondan çox azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə saldığını, Xocalı soyqırımını törətdiyini beynəlxalq ictimaiyyətin diqqətinə bir daha çatdırdı[624]. Ermənistanın işğal etdiyi ərazilərdə qanunsuz məskunlaşma siyasətini aparması, beynəlxalq ictimaiyyətin diqqətinin Beyrutdakı partlayışın fəsadlarının aradan qaldırılmasına yönəldiyi bir vaxtda vəziyyətdən sui-istifadə etməsi və işğal etdiyi ərazilərə erməni əsilli livanlıları yerləşdirməsi, məqsədyönlü olaraq Azərbaycanın tarixi və mədəni abidələrini dağıtması, təbii ehtiyatları istismar edərək, onları beynəlxalq bazarlara çıxarması, süni ekoloji böhran yaratmaq məqsədilə su ehtiyatlarını istismar etməsi, 2016-cı ilin aprel ayında Ermənistanın növbəti təcavüzü, mülki şəxsləri qətlə yetirməsi və Azərbaycan Silahlı Qüvvələrinin əks hücumu və işğal edilən torpaqların bir qisminin azad edilməsi, 2020-ci il iyulun 12-də Ermənistanın Azərbaycanın Tovuz rayonunu artilleriya atəşinə tutması, hərbiçiləri və mülki vətəndaşları qətlə yetirməsi, üçüncü dövlətləri münaqişəyə cəlb etmək

[624] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, s.318-321.*

üçün dezinformasiya verməsi, on minlərlə mülki vətəndaşdan ibarət könüllü dəstələr yaratması, Ermənistanın Baş nazirinin "Qarabağ Ermənistandır" bəyanatının, müdafiə nazirinin "yeni ərazilər uğrunda yeni müharibə" çağırışının danışıqlara ciddi zərbə olması, gənc nəslə Azərbaycan xalqına qarşı nifrət aşılanması, Mingəçevir su anbarına və Səngəçal terminalına zərbə endirmək hədəsi, xarici ölkələrdən muzdlular və terrorçular cəlb etməsi və digər məsələlərə toxundu[625]. Prezident bildirdi ki, "BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinə əsasən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının zaman qrafiki tərtib edilməlidir. BMT-nin müvafiq təsisatları BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına və azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına töhfə verməlidir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur. Həmin qətnamələr icra edilənə qədər qüvvədədir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması isə qəbuledilməzdir. Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir..."[626]. İlham Əliyev 2020-ci il iyulun 17-dən sentyabra qədər Ermənistana 1000 tondan artıq hərbi avadanlığın daşındığını və işğalçı ölkənin silahlarla təchiz edilməsinin sülh danışıqlarını ciddi şəkildə sarsıtdığını, Ermənistanı hərbi təxribatlara həvəsləndirdiyini bildirdi və bütün ölkələri Ermənistana silah verməkdən çəkindirməyə çağırdı[627]. Prezident onu da vurğuladı ki, "Paşinyan dünya liderlərinə zəng etdikdə, bu liderlər ona deməlidirlər ki, sən danı-

---

[625] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.21-27.*
[626] *Yenə orada, s.28*
[627] *Yenə orada, s.29.*

şıqlar prosesini pozdun, sən Azərbaycanı təhrik etdin, sən azərbaycanlıların hisslərini təhqir etdin. Ona görə sən məsuliyyət daşımalısan”[628].

Prezident İlham Əliyevin Ermənistanın təcavüzkar siyasəti haqqında məlumatına və dünya dövlətlərini təcavüzkarı dayandırmağa çağırışlarına baxmayaraq BMT heç bir tədbir görmədi.

2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmalarına cavab olaraq Azərbaycan Ordusu əks hücuma keçdi. Azərbaycan Ordusunun qələbələrini görən Ermənistan yardım üçün dünya dövlətlərinə müraciətlər etdi. Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin Moskva görüşü nəticəsində 2020-ci il oktyabrın 10-da saat 12:00-dan etibarən humanitar atəşkəs elan edildi. Lakin həmişə olduğu kimi Ermənistan bu razılığı kobud şəkildə pozdu. Çünki bu terrorçu dövlətin məqsədi başqa idi, işğal etdiyi əraziləri nəinki öz sahibinə qaytarmaq istəmirdi, həmçinin terror təşkilatlarından, terroru dəstəkləyən dövlətlərdən yardım alaraq işğal ərazilərini genişləndirməyə cəhd edirdi. Ermənistanın oktyabrın 10-dan 11-nə keçən gecə, saat 2 radələrində dinc sakinlərin yatdığı bir vaxtda cəbhə bölgəsindən 100 km uzaq olan Gəncə şəhərinə, 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən iri sənaye şəhəri Mingəçevirə raketlər atması bir daha sübut edir ki, terrorçu dövlət işğal etdiyi ərazilərin sahəsini genişləndirməyə cəhd edirdi. Mingəçevirə atılan raket Ordumuzun

[628] *Yenə orada, s.115.*

hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirildi. Gəncəyə atılan raket isə mülki əhali arasında qırğınlara səbəb oldu. Humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonları da Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutuldu, Ermənistan Azərbaycan Ordusunun işğaldan təmizlədiyi Cəbrayıl və Hadrut torpaqlarını yenidən işğal etmək üçün cəhd göstərdi. Azərbaycan Ordusu düşməni layiqli surətdə yerinə oturtdu.

44 günlük Vətən müharibəsində Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən beş dəfə - oktyabrın 4-də, 5-də, 8-də, 11-də, 17-də, Bərdə şəhəri iki dəfə - oktyabrın 27-də və 28-də raket hücumlarına məruz qaldı, bombalandı. Ağdam, Bərdə, Füzuli, Beyləqan, Gəncə, Goranboy, Naftalan və Tərtər rayonlarının mütəmadi bombalanması nəticəsində 100 mülki şəxs öldürüldü və 416 nəfər yaralandı, 4186 ev, 135 çoxmərtəbəli yaşayış binası və 548 mülki obyekt dağıdıldı və ya zərər gördü[629].

Ermənistanın döyüş bölgəsindən kənar əraziləri, mülki əhalini atəşə tutması, mülki əhali arasında həlak olanların, yaralananların olması, kütləvi dağıntılıq insanları daha da qəzəbləndirir, hamı bir nəfər kimi ermənilərin işğal olunmuş Azərbaycan ərazilərindən qovulmasında canla-başla iştirak etmək istəyirdi. Azərbaycan Ordusuna və Ali Baş Komandana güvənən Azərbaycan xalqı heç bir təxribata uymadı və torpaqları Ermənistanın işğalından azad etmək üçün daha qətiyyətlə mübarizə apardı və Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini tez bir zamanda işğal etdiyi ərazilərdən qovdu.

Dünyada qadağan olunmuş silahlardan XXI əsrdə insanlığa qarşı istifadə edən barbar, terrorçu Ermənistan dövləti dünya

---

[629] *Ermənistanın Azərbaycana qarşı qanunsuz raket zərbələri. 28.01.2021. https://www.hrw.org/az/news/2021/01/28/377321*

dövlətləri tərəfindən qəbul edilən heç bir beynəlxalq hüquq normasına məhəl qoymur, Azərbaycana qarşı hərbi təcavüzə başladığı gündən etibarən uşaqları, qadınları, qocaları qətlə yetirməkdə davam edir və bütün bunlar dünya birliyi tərəfindən sükutla qarşılanır, cinayətkar, terrorçu Ermənistan hökuməti cəzasız qaldığı üçün daha da şirniklənir və daha çox cinayətlərə əl atırdı. BMT Təhlükəsizlik Şurası qəbul etdiyi 4 məlum qətnamədən çıxış edərək Ermənistanın bu barbar siyasətinə reaksiya göstərmədi və Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi qətnamələri həyata keçirməyə məcbur oldu. BMT Nizamnaməsinin 51-ci maddəsində də göstərilir ki, Təhlükəsizlik Şurası beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq üçün lazımi tədbirləri görənə qədər BMT-yə üzv dövlət özünümüdafiə hüququndan istifadə edə bilər.

Ali Baş Komandanın Ermənistan tərəfindən işğal edilən torpaqlarımızın azad edilməsində qətiyyətli mövqeyi və müzəffər Azərbaycan Ordusunun işğal altında olan torpaqları, Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrut qəsəbəsini, Suqovuşan qəsəbəsini, 300-ə yaxın yaşayış məntəqəsini bir-birinin ardınca azad etməsi və noyabrın 8-də Qarabağın ürəyi, Qafqazın incisi Şuşanın, noyabrın 9-da isə 71 kəndin, 1 qəsəbənin, 8 yüksəkliyin düşmənlərdən alınması mənfur terrorçu Ermənistanı hərbi kapitulyasiyaya məruz qoydu. Çünki Şuşa böyük siyasi, strateji əhəmiyyətə malik ərazidir. Həm də Şuşanın alınması terrorçu Ermənistana mənəvi zərbə vurdu. Şuşa Qarabağ deməkdir. Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonları Azərbaycana siyasi yollarla qaytarılsın. Noyabrın 10-da Azərbaycan xalqı üçün tarixi bir gün oldu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri müharibənin dayandırılması haqqında üçtə-

rəfli bəyanat imzaladılar. Bəyanata əsasən 2020-ci il 10 noyabr tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu[630]. İşğal altında olan digər rayonlar – Ağdam, Kəlbəcər, Laçın rayonları qan tökülmədən, siyasi yolla qaytarıldı. Rayonların qaytarılması Ali Baş Komandanın həmişə qeyd etdiyi kimi, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdən çıxarılması haqqında qrafikə əsasən qısa bir müddətdə oldu. 2020-ci il 15 noyabr tarixinədək Kəlbəcər rayonu, 20 noyabr tarixinədək Ağdam rayonu, 1 dekabr tarixinədək isə Laçın rayonu Azərbaycan Respublikasına qaytarılmalı idi. Ağdam rayonu noyabrın 20-də azad edildi. Kəlbəcərin azad edilməsi isə Rusiyanın xahişi ilə 10 gün uzadıldı, noyabrın 25-də baş tutdu. Bu 10 gün ərzində Kəlbəcərdə olan ermənilər hər şeyi dağıtdılar, meşələri yandırdılar. 2020-ci il dekabrın 12-də ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşən İlham Əliyev bu barədə vurğuladı: " Rusiya Prezidentinin müraciəti əsasında biz onlara Kəlbəcərin boşaldılması üçün əlavə 10 gün də vaxt verdik. Halbuki erməni quldurları və Ermənistan qoşunları Kəlbəcərdə etnik təmizləmə apararkən azərbaycanlılara heç bir gün də vaxt verməmiş və onları qətlə yetirmişdilər. Azərbaycanlılar oradan qovulmuş, aprel ayının əvvəli, havanın çox soyuq olduğu vaxtda 3500 metr yüksəklikdə olan dağlardan keçməyə məcbur edilmişlər. Onların bir çoxu oradaca donmuşdu. Biz isə onlara əlavə vaxt verdikdə onlar nə etdilər? Onlar özlərinin tikmədiyi evləri yandırmağa başladılar. Onlar hər şeyi dağıtmağa başladılar. Mənə bir neçə gün öncə verilmiş məlumata görə,

[630] *İlham Əliyev xalqa müraciət edib. 10.11.2020. https://president.az/articles/45924*

onlar orada bütün su-elektrik stansiyalarını dağıdıblar. Onlar bizim meşələri yandırıb və ağaclarımızı kəsiblər"[631].

Bəyanatda göstərilən tarixə qədər, yəni 1 dekabr tarixinədək Laçın rayonu qaytarıldı.

Bəyanatın 3-cü bəndinə əsasən Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilməli idi. Bu bəndə də əməl olundu. 4-cü bənddə isə göstərilir ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməlidir. Bu bəndin şərtlərinə hələ də əməl edilməmişdir. Erməni silahlı qüvvələri sülhməramlı kontingentin yerləşdiyi ərazidən hələ də çıxmamışdır. Halbuki Rusiyanın sülhməramlı kontingentinin yerləşdirilməsi erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel həyata keçirilməli idi. Eyni zamanda Rusiya Ermənistanı silahlandırmada davam edir, Ermənistanın həmin bölgəyə hərbi texnika gətirməsinə göz yumur. Azərbaycan ərazisinə erməni terrorçuları buraxılır. 4-cü bənddə həmçinin göstərilir ki, "Rusiya sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırki müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Beləliklə, tərəflərdən biri narazılıq edərsə, Rusiya sülhməramlıları kontingentinin fəaliyyətinə xitam veriləcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 14 avqust tarixində Türkiyənin CNN Türk televiziya kanalına müsahibəsi zamanı müxbirin "Ermənistan xarici işlər naziri Laçın dəhlizindəki əsgərləri Qarabağa göndərir. Bu iddia doğru-

---

[631] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.286-287.*

durmu" sualına Prezident bildirdi ki, "Təəssüf ki, bu, belədir. Bizim müdafiə naziri bir neçə gün bundan əvvəl rəsmi açıqlama verdi ki, buna son qoyulsun və Rusiya sülhməramlılarının nəzarəti altında olan bölgələrə Ermənistandan silahlar və hərbiçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli bəyanatına ziddir. Təəssüf ki, bu, davam edir. Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik, amma bunun nəticəsi olmadı, ona görə rəsmi qaydada biz bunu bildirdik". Müxbirin "Qarabağla bağlı Rusiyadan gözlədikləriniz nədir" sualına Prezident bildirdi ki, "Rusiyadan gözlədiyimiz odur ki, üçtərəfli bəyanatın bütün müddəaları yerinə yetirilsin. Çünki bu üçtərəfli bəyanatı Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri imzalamışlar. Onların böyük qismi həyata keçirilib. Amma bəzi məsələlər var ki, hələ açıqdır. Rusiya Azərbaycanın qonşusu, Ermənistanın yaxın müttəfiqi kimi bu bölgədə xüsusi rol oynayır. Bu, təbiidir. Ümid edirik ki, Rusiya bölgədə möhkəm sülh üçün addımlar atsın. Uzunmüddətli sülhü təmin etmək üçün addımlar atsın. Rusiya Ermənistanı silahlandırmasın... Erməni xalqı da barışıb bu vəziyyətlə. Ermənistan rəhbərliyi də məğlubiyyəti ilə razılaşıb. Ermənistanda keçirilən son parlament seçkiləri bunu göstərdi. Tarixdə görünməmiş bir məsələdir ki, məğlub edilmiş rəhbərliyə xalq yenidən səs verir. Belə bir halda Ermənistanı silahlandırmaq heç bir məntiqə sığmır. Biz hələ ki, bunu müşahidə etmirik, amma bəzi açıqlamalar oldu. Bir neçə gün bundan əvvəl Rusiyanın müdafiə naziri Ermənistanın müdafiə naziri ilə görüşü zamanı söyləmişdir ki, Ermənistana Rusiya silahlarının göndərilməsi prosesi başlamışdır. Bu, çox narahatedici bir məsələdir. Bir də Ermənistanın yeni müdafiə naziri çox məsuliyyətsiz açıqlamalar verdi ki, əgər Azərbaycan tərəfi bir santimetr Ermənistan sərhədinə keçsə, o zaman onlar atəş açacaqlar. İkinci Qarabağ müharibəsi deyəsən hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsi yenidən verməyə hazırıq. Ona görə biz ümid edirik ki,

Rusiya Ermənistanı silahlandırmayacaq. Çünki buna ehtiyac yoxdur... Nə qədər silah verilsə də, güclər nisbəti dəyişməyəcək”[632]. 6-cı bənddə göstərilir ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Yeni dəhlizin parametrləri müəyyən olunduqdan sonra Laçın şəhərinin içindən keçən Laçın dəhlizi də Azərbaycana qaytarılacaq. Prezident İlham Əliyev xalqa müraciətində üçtərəfli bəyanatın 6-cı bəndini şərh edərkən bildirdi ki, “mən hesab edirəm ki, biz bunu daha tez müddətdə edə bilərik”[633]. Bəyanatın ilkin versiyasında Azərbaycana təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Prezident İlham Əliyev buna qəti etiraz etdi və bildirdi ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da Prezident İlham Əliyev etiraz etdi və nəticədə 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi[634]. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

---

[632] *Prezident İlham Əliyevin "CNN Türk"ə müsahibəsi. 14.08.2021. https://www.youtube.com/watch?v=5qRl-4Xxk7k*

[633] *Prezident İlham Əliyev Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. 01.12.2020. https://azertag.az*

[634] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.190.*

Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsinə yönəldilən digər bənd 9-cu bənddir. 9-cu bəndə görə tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bununla Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi olmadığı üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təkidi ilə bu bənd bəyanata salındı. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Zəngəzur dəhlizi layihəsi təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat imkanlarının açılmasına deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə xidmət göstərəcək. Türkiyə və Azərbaycan arasında quru yolla əlaqə Naxçıvan vasitəsilə birbaşa olacaq. Rusiya ilə Ermənistan, İran, Türkiyə arasında dəmiryolu ilə əlaqə olacaq. İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə "bu bəndin qəbul edilməsinin regionun gələcəkdəki fəaliyyəti ilə bağlı müzakirələr üçün yeni imkanlar yaratdığını" bildirdi[635].

---

[635] *Yenə orada, s.289.*

Bəyanata əsasən yeni nəzarət mexanizmi də tətbiq edilir. Bəyanatın 5-ci bəndində yazılıb: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır". Mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Beləliklə, Türkiyənin rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynaması çox təqdirəlayiq haldır. Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə bunu qiymətləndirdiyini bildirdi: "Fikrimcə bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür. Həmçinin Türkiyə və Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir"[636].

2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri və Prezident İlham Əliyev ilə birlikdə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi"ni imzalamaları türk dünyasında və regionda yeni eranın başlanğıcını qoydu. Bu sənədi imzalamaqla dövlətlər iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdilər. Bəyannaməyə əsasən, Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan

[636] *Yenə orada, s.294.*

keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır[637].

2020-ci il 10 noyabr tarixli Bəyanatda humanitar məsələlərin, hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsinin həyata keçirilməsi, məcburi köçkünlər və qaçqınların Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara geri qayıtması məsələləri də nəzərdə tutulur.

Bəyanatın çox böyük mənası var. Bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bu isə Xalq-Ordu-Prezident birliyinin, Ali Baş Komandanın qətiyyətinin və Azərbaycan Ordusunun hərbi qələbəsinin nəticəsidir.

Müharibə başlayana qədər Azərbaycanın beynəlxalq müstəvidə fəaliyyəti, qərar və qətnamələri qəbul etdirməsi Azərbaycan Ordusunun qələbəsi üçün zəmin yaratdı. İşğaldan azad edilmiş Ağdam şəhərinə 2020-ci il noyabrın 23-də səfər edən Prezident İlham Əliyev çıxışında vurğuladı ki, "Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat verdim. Bu gün, müharibə başa çatdıqdan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir. Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatı-

---

[637] *Şuşa Bəyannaməsinin tam mətni. 16.06.2021. https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/*

nın, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar və qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr vardır..."[638].

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış edərkən Prezident İlham Əliyev vurğuladı: "Biz sadəcə olaraq, 30 il ərzində beynəlxalq təşkilatlardan dəstək gözləyirdik, Minsk üçlüyündən dəstək gözləyirdik. Gözləyirdik ki, onların qəbul etdikləri BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilsin. Ancaq bu olmadı. Sadəcə olaraq, nə hərb, nə sülh vəziyyəti davam edirdi, status-kvo davam edirdi. Biz bu status – kvonu hərb yolu ilə dəyişdirdik, düşməni torpaqlarımızdan çıxardıq, onlara чox böyük zərbə vurduq, onların ordusunu məhv etdik, onların əsas ideoloji sütunlarını məhv etdik"[639].

İşğaldan azad eilmiş rayonların bərabər inkişafının təmin edilməsi məqsədilə 2021-ci il iyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərman verdi. Fərman Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edildiyini bir daha göstərdi. Fərmanda deyilir: "Zəngəzur dağ silsiləsi

---

[638] *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.160.*
[639] *Yenə orada, s.271.*

ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir" [640].

Beləliklə, "Dağlıq Qarabağ" ifadəsi tarixdə qaldı. Prezidentin Fərmanına əsasən Azərbaycanda 14 iqtisadi rayon, o cümlədən Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını özündə birləşdirən Qarabağ iqtisadi rayonu, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını özündə birləşdirən Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Şərqi Zəngəzur iqtisadi rayonunun olması o deməkdir ki, Qərbi Zəngəzur da vardır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, prinsipial mövqeyi, rəşadətli Azərbaycan Ordusunun qələbələri, Azərbaycan Xalqı arasında birlik, bir amal uğrunda mübarizə nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

---

[640] *Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07.07.2021. https://president.az/articles/52389*

# NƏTİCƏ

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün səbəbi Dağlıq Qarabağa əsassız ərazi iddiaları idi. Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də atəşkəsi yenidən pozaraq Tovuz rayonu istiqamətində Azərbaycanın sərhəd rayonlarını artilleriya atəşinə tutması onu göstərdi ki, işğalçı dövlət ərazilərini genişləndirməyə can atır. Birinci Qarabağ müharibəsi zamanı ölkədə olan daxili qeyri-sabitlikdən və xarici havadarlarından yararlanaraq Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal etdi və düşmən dövlət həmin əraziləri istismar edərək külli miqdarda zərər vurdu, ölkəmizə vurulan zərər 816,15 milyard dollar həcmində idi. Çoxlu miqdarda tarixi, mədəni, dini abidələr, incəsənət əsərləri məhv edildi, dəyişdirildi, xarici ölkələrdə satıldı. Təbii ehtiyatlar istismar edildi. Ekologiya zəhərləndi. Mina problemi hələ də qalmaqdadır. Qeyd etmək lazımdır ki, sonralar dəyən zərər də daxil olmaqla, Ermənistanın Azərbaycana vurduğu ziyan bir daha hesablanacaq.

Azərbaycan ərazilərini işğal edərkən Ermənistan 1992-ci il fevralın 25-dən 26-na keçən gecə əksəriyyəti ermənilərdən ibarət olan Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda mülki əhaliyə qarşı soyqırımı törətdi. Xocalı soyqırımına qədər Ermənistan 1991-ci ilin iyun-dekabr aylarında Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsində, o cümlədən Meşəli, Cəmilli, Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Umudlu, Kərkicahan, 1992-ci ilin yanvar-fevral aylarında Qaradağlı, Qaybalı, Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndlərində yüzlərlə azərbaycanlını qətlə yetirdi, əsir götürdü. Xocalı soyqırımından sonra 1992-ci il avqustun 28-də Ballıqaya soyqırımını həyata keçirdi. Azərbaycanlılara qarşı soyqırımını həyata keçirən Ermənistan 1948-ci il 9 dekabr tarixli Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konven-

siyada təsbit edilən soyqırım cinayətini təşkil edən bütün əməlləri tətbiq etmişdir.

Birinci Qarabağ müharibəsi (1988-1994-cü illər) zamanı 20000-dən çox insan həlak oldu, 50000-dən çox insan yaralandı, yaxud şikəst oldu, təxminən 4866 nəfər əsir və girov düşdü. 1 milyondan çox insan qaçqın və məcburu köçkün vəziyyətinə düşdü.

İkinci Qarabağ müharibəsi (27 sentyabr-10 noyabr 2020-ci il) zamanı 2900-dən çox əsgər və hərbi qulluqçu qəhrəmancasına şəhid oldu. 100 mülki vətəndaş Ermənistanın terror siyasətinin qurbanı oldu.

Ermənilər Cənubi Qafqaza köçürüləndən etibarən özlərinə dövlət yaratmaq və sonralar onun ərazisini genişləndirmək üçün həmişə bir metod olaraq terrordan istifadə etmişlər. Təsadüfi deyil ki, XIX əsrdə, xüsusən də 1828-ci ildə Rusiya və Osmanlı dövləti arasında bağlanan Türkmənçay sülh müqaviləsindən sonra Cənubi Qafqaza köçürülən ermənilər öz məqsədlərinə çatmaq üçün əsrin sonlarında tarixdə amansız qəddarlıqları ilə yadda qalan Armenakan, Hnçak, Daşnaksütun və sonralar digər terror təşkilatlarını yaratmağa başladılar. Ermənistanda uzun müddət Köçəryan, Sarkisyan kimi terrorçular hakimiyyətdə olmuşlar. "Küçə" siyasəti ilə hakimiyyətə gələn Ermənistanın Baş naziri Nikol Paşinyanın isə "Qarabağ Ermənistandır və nöqtə" kimi terror xislətli bəyanatı həqiqətən Azərbaycan xalqının səbrinə nöqtə qoydu.

Azərbaycan beynəlxalq terrorizmlə mübarizə etdiyi halda, Ermənistanın işğalı səbəbindən 30 il müddətində ərazisinə nəzarət edə bilmədiyi üçün Dağlıq Qarabağ PKK ilə əməkdaşlıq edən erməni terrorunun yuvası olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanı olduğu Azərbaycan Ordusunun beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizminə qarşı əzmlə apardığı mübarizəni dünya dövlətləri, dünya birliyi bir mənalı surətdə dəstəkləməli idilər. Lakin

Nikol Paşinyanın yalvararaq kömək istədiyi dövlətlər ona Ermənistanın terror siyasəti yürütdüyünü belə, xatırlatmadılar.

İşğalçı siyasətini həyata keçirərkən Ermənistan terror metodu ilə yanaşı, yalan informasiyalardan çox bəhrələnmişdir. Birinci Qarabağ müharibəsi zamanı Ermənistan guya Dağlıq Qarabağ regionunun tarixən ona mənsub olması, bu ərazidə yaşayan ermənilərin Azərbaycan hökuməti tərəfindən təhlükədə olmaları, Azərbaycan ərazisindəki münaqişədə iştirak etməmələri, Dağlıq Qarabağ ermənilərini müdafiə etməsi, Ermənistanın blokadada olması, məcburi köçkün və qaçqınların sayı, Dağlıq Qarabağın erməni əhalisinin sosial-iqtisadi, mədəni cəhətdən təmin olunmaması, Azərbaycanda etnik azlıqlara qarşı ayrı-seçkiliyin həyata keçirilməsi, Azərbaycanın xarici ölkələrdən silah və hərbi sursat alması, Türkiyənin problemə müdaxilə etməsi və Ermənistanın humanitar yardım almasına mane olması və sairən haqqında yalan məlumatlar yayırdı. Ermənilər azərbaycanlı kəndlərinə azərbaycan dilində danışan xüsusi adamlar göndərərək, ermənilərin postları ələ keçirmələri, yerli sakinlərin öz yurdlarını tərk etmələri, Azərbaycan Ordusunun ağır itkilər verməsi haqqında şayiələr yayır, əhali arasında qorxu, təxribat yaratmağa çalışırdılar.

İkinci Qarabağ müharibəsində Azərbaycanda Xalq-Ordu-Prezident həmrəyliyinin pik nöqtədə olduğunu, əhalinin öz torpaqlarını azad etmək uğrunda döyüşə getməyə hazır olduğunu görməkdə kor olan Ermənistanın məqsədi Azərbaycan əhalisi arasında panika yaratmaq və öz işğalçılıq siyasətini asanlıqla davam etdirmək idi. Ermənistan yuxarıda sadalanan yalanlarla yanaşı yeni dezinformativ məlumatlar – Azərbaycan Silahlı Qüvvələrinin mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan, o cümlədən kasetli raketlərdən, dronlardan istifadə etməsi, Türkiyənin müharibədə hərbi iştirakı, Türkiyənin Mərkəzi Asiyanın türk xalqları ilə əlaqələrə birbaşa sahib olmaq üçün Ermənistanı

yox etmək planı, minlərlə muzdlunun Türkiyədən keçməklə Suriyadan gətirilməsi, erməni kilsələrinin dağıdılması və s. haqqında yalan məlumatlar yaydı.

44 günlük Vətən müharibəsində Ali Baş Komandan müzəffər Azərbaycan Ordusunun döyüşlərdəki uğurları ilə eyni vaxtda informasiya siyasətinin başına keçdi, Azərbaycanın haqq səsini dünya mediasına və birliyinə çatdırdı, diplomatik sahədə və informasiya müharibəsində uğurlar Qarabağın işğaldan azad edilməsi prosesində qələbə üçün müstəsna əhəmiyyət kəsb etdi. Prezident İlham Əliyev təkcə müxbirlərin ona ünvanladığı sualları cavablandırmırdı, eyni zamanda münaqişənin sonlandırılmasında və Azərbaycanı dayandırmaqda maraqlı olan dünya liderlərinə də səslənirdi.

Münaqişənin başladığı ilk vaxtlardan Azərbaycan Respublikası diplomatik həll yoluna üstünlük verərək, BMT Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvləri ilə münasibətlərin yaxşı olmasına önəm verdi. Ümummilli lider Heydər Əliyev ilk növbədə, Azərbaycan haqqında yayılan yalan məlumatlara dünya dövlətlərinin liderləri, nüfuzlu şəxsləri ilə görüşərək aydınlıq gətirdi. ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Çin ilə münasibətlər gücləndi.

ABŞ-ın “Azərbaycan hökumətinin Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücündən istifadə etməsi və Ermənistan Respublikasını blokadada saxlaması ilə əlaqədar” qəbul etdiyi “Azadlığı müdafiə aktı” və ona “907-ci əlavə” Azərbaycanın haqq səsinə kölgə salırdı. Bu sənədin ləğv edilməsi üçün Prezident Heydər Əliyev gərgin diplomatik fəaliyyət göstərdi. Sonralar isə Ümummilli lider Dağlıq Qarabağı Azərbaycandan ayrı, müstəqil tərəf kimi göstərən, ona ayrıca yardım verilməsini hədəfləyən "Porter əlavəsi"nin Konqresin nümayəndələr palatasında qəbul edilməsinin qarşısını aldı.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanmasına kömək edən amillərdən biri oldu.

2001-ci ildən sonra Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ ilə əməkdaşlıq etməsi münasibətlərə müsbət istiqamətdə öz təsirini göstərdi.

İkinci Qarabağ müharibəsində ABŞ bitərəf qaldı. Lakin Türkiyənin Cənubi Qafqazın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsi olan Azərbycana qardaşlıq dəstəyi, Azərbaycan Ordusunun qələbəsi, Rusiya sülməramlılarının Laçın dəhlizində yerləşdirilməsi, Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək Zəngəzur dəhlizinin açılması üçün tədbirlər ABŞ-da qısqanclıq yaratdı. 2021-ci il yanvarın 20-dən ABŞ-ın yeni Prezidenti olan Co Baydenin Ağ Evin rəsmi saytında verilən açıqlamasında 1915-ci il hadisələrini "soyqırım" kimi tanıması Türkiyə ilə sıx bağlı olan Azərbaycanın da ABŞ ilə münasibətlərinə təsir etdi.

Strateji məqsədlərindən çıxış edərək Rusiya həmişə Ermənistana himayədarlıq etmişdir. Ümummilli lider Heydər Əliyev regionun böyük dövləti olan Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasına çalışmışdır. 1993-cü il sentyabrın 24-də Azərbaycanın MDB-yə daxil olması münasibətlərdəki gərginliyi bir qədər azaltsa da, Ermənistan və Rusiya arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi ilə başlayan hərbi əlaqələr və Rusiyanın Ermənistanda hərbi bazalar yaratması, Ermənistanı hərbi sursatla təmin etməsi məsələləri gündəmdə olmuşdur.

1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti və Rusiyanın "Lukoyl" şirkəti arasında müqavilə bağlanması, sonralar Bakı-Novorossiysk, Bakı-Supsa kəmərinin çəkilməsi münasibətləri bir qədər yaxşılaşdırdı.

Rusiya Azərbaycan ilə ticarət-iqtisadi əlaqələrdə 2-ci yeri tutur. Ticarət, nəqliyyat, energetika, humanitar, turizm, innovasiyalar gənclər siyasəti üzrə sahələrini əhatə edən yeddi "Yol Xəritəsi" çərçivəsində proqramı fəal surətdə reallaşır. Azərbaycanda rus dilinin inkişafına və tədrisinə lazımi diqqət göstərilməsi, rusdilli məktəblər və Rusiyanın ali təhsil müəssisələrinin filiallarının fəal işləməsi, Prezident İlham Əliyevin Paşinyanın Sorosun əli ilə hakimiyyətə gəlməsi haqqında göstərdiyi faktlar, II Dünya müharibəsində Azərbaycanın ümumi Qələbəyə böyük töhfə verməsi, II Dünya müharibəsi illərində SSRİ ordusuna qarşı erməni Qaregin Ter-Arutyunyanın casusluq etməsi haqqında faktlara əsaslanan müsahibəsi münasibətlərə müsbət təsir etdi.

Müntəzəm görüşlərin, Rusiya kanallarına əsaslandırılmış müsahibələrin verilməsi, İlham Əliyevin ali diplomatik səriştəsinin nəticəsi olaraq, Rusiya, bəzi nüansları nəzərə almasaq, 44 günlük Vətən müharibəsi zamanı açıq müdaxilə etmədi. Prezident İlham Əliyevin Ermənistanın yalan informasiyalarını faktlarla təkzib etməsi dünya dövlətlərinin münaqişəyə mövqeyini dəyişdirdi. Vladimir Putin çıxışında Rusiyanın münaqişənin həllində əvvəlki kimi bitərəfliliyini, balanslı mövqeyini qoruyub saxlayacağını, hərbi əməliyyatların dayandırılmasının zəruriliyini, prosesə aşkar müdaxilə etmək niyyətində olmadığını, Azərbaycanın müstəqil dövlət olduğunu, hətta Ermənistanın belə, Qarabağın müstəqilliyini tanımadığını bildirdi. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, Azərbaycan Ordusunun əzmli mübarizəsi, qələbələri, erməni silahlı qüvvələrinin işğal edilən ərazilərdən qovulması ölkəmizi ədalətsiz güzəştlərə getməyə məcbur edən və təzyiq göstərməyə çalışan bütün beynəlxalq gücləri öz mövqelərindən çəkindirdi. Ermənistanın digər dövləti üçüncü tərəf kimi münaqişəyə cəlb etmək cəhdləri tam iflasa uğradı. Azərbaycan Ordusunun işğal altında olan torpaqla-

rı, Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrut qəsəbəsini, Suqovuşan qəsəbəsini, 300-ə yaxın yaşayış məntəqəsini bir-birinin ardınca azad etməsi və noyabrın 8-də Qarabağın ürəyi, Qafqazın incisi Şuşanın, noyabrın 9-da isə 71 kəndin, 1 qəsəbənin, 8 yüksəkliyin düşmənlərdən alınması mənfur terrorçu Ermənistanı hərbi kapitulyasiyaya məruz qoydu. Ermənistanı kapitulyasiya aktına imza atmasına onu idarə edən Rusiya da məcbur etdi.

Beynəlxalq aləmdə tutduğu mövqe ilə bağlı, Azərbaycan Respublikası Çin ilə münasibətlərin gücləndirilməsinə də önəm verir. Çin ilə Azərbaycan arasında ticarət, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, ədliyyə, kənd təsərrüfatı, nəqliyyat, turizm, enerji sahəsində əməkdaşlığa dair sənədlər imzalanmışdır. Çin həmişə Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmişdir.

1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti və Böyük Britaniyanın "Britiş Petroleum" şirkəti arasında müqavilənin bağlanması Azərbaycanın Böyük Britaniya ilə münasibətlərinə müsbət təsir etdi.

Böyük Britaniya həmişə Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmişdir. İkinci Qarabağ müharibəsi zamanı münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasında olan müzakirələrin sonunda Azərbaycanın xeyirinə olmayan bəyanat layihəsinin qəbul edilməsinə Böyük Britaniya veto qoymuşdur.

Erməni lobbisinin böyük olması, siyasətə təsir etməsi, “erməni soyqırımı”nı tanıtmalarına cəhd etmələri ilə əlaqədar olaraq Fransanın Azərbaycanla münasibətləri sabit deyil. Bununla belə, iqtisadi əməkdaşlıqla əlaqədar Fransanın səylərini münaqişənin aradan qaldırılmasına yönəltməyə çalışan Azərbaycan Respublikası münasibətlərin inkişafına önəm vermiş, Fransa ilə Azərbaycan Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə, iqtisadi, elmi-texniki, mədəni, təhsil sahələrində əməkdaşlıq haqqında müqavilələr imzalan-

mış, tələbə mübadilələri həyata keçirilmişdi. Fransanın ən böyük şirkətlərindən olan "Elf Akiten", "Total" neft şirkətləri, "Sofreqaz" qaz şirkəti Azərbaycanla neft-qaz hasilatı sahəsində əməkdaşlıq edir. Fransa-Azərbaycan Ticarət Palatası açılmışdır və s. Fransa prezidentləri Fransua Mitteranın, Jak Şirakın, Fransua Ollandın, Nikola Sarkozinin dövrlərində münasibətlər yaxşı olsa da və Fransa Azərbaycanın ərazi bütövlüyünü tanısa da, 2017-ci il 14 may tarixindən prezident olan Emmanuel Makron erməni seçicilərinin rəğbətini qazanmaq, hakimiyyətdə qalmaq üçün təcavüzkar Ermənistanı müdafiə etməyə başladı, hətta Qarabağ işğalçılardan azad edildikdən sonra Fransa parlamentində "Qarabağ dövləti"nin olması haqqında qərar qəbul edildi.

Qələbədən sonra ABŞ və Fransanın erməniləri müdafiə etməsi Türkiyənin Azərbaycana qardaşlıq dəstəyinə və Rusiyanın sülhməramlı qüvvələrinin Laçın dəhlizində yerləşməsinə qısqanclıqla bağlıdır. Başqa sözlə, Minsk qrupunun həmsədr dövlətləri ABŞ və Fransa Cənubi Qafqazda özlərinə yer tapmağa çalışırlar.

BMT Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvləri qərarların qəbul edilməsinə istədikləri kimi təsir edə bilirlər. Hər bir dövlətin öz geosiyasi maraqları var. Buna görə münaqişələrin nizama salınması prosesi uzanır. Azərbaycan Respublikası həmişə Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi vasitələrlə həllinə çalışmışdır. BMT-nin qəbul etdiyi qətnamələrinin yerinə yetirilməsinə dair Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz təkliflərini, xüsusən də BMT mexanizmlərinin yenidən işlənməsi və veto hüququna yenidən baxılması təkliflərini irəli sürmüşlər.

BMT Təhlükəsizlik Şurası "Dağlıq Qarabağ münaqişəsinə dair" adı altında 4 qətnamə qəbul etmişdir. Hər bir qətnamədə Dağlıq Qarabağın Azərbaycana məxsus olması təsdiq edilərək, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxa-

rılması tələb edilir. Lakin qətnamələrdə Təhlükəsizlik Şurası tərəfindən təcavüzkar dövlət müəyyən edilməmiş və onun işğal etdiyi ərazilərdən çıxması üçün tarix müəyyənləşdirilməmişdir. Təcavüzkarın müəyyən edilməsi sanksiyaların tətbiqinə əsas verə və işğala son qoya bilərdi. Bundan başqa, BMT 1992-ci il martın 24-dən etibarən münaqişəni nizama salmağı ATƏT-in Minsk qrupuna həvalə etmişdi. Azərbaycan tərəfə çoxlu ikimənalı tələblər irəli sürən Minsk qrupunun həmsədr dövlətləri ikili standart siyasəti yürüdərək Təhlükəsizlik Şurasının qətnamələrinin şərtsiz tələblərinə məhəl qoymadılar. Ən əsası isə yuxarıda qeyd etdiyimiz kimi Ermənistan Təhlükəsizlik Şurası tərəfindən təcavüzkar dövlət kimi müəyyənləşdirilməli idi. ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri – Rusiya, Fransa, ABŞ işğalçıların Azərbaycan torpaqlarından çıxarılması üçün heç bir məcburi tədbir görmədi. Halbuki Ermənistan Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirməsi barədə qərar qəbul etməsi, parlamentinin Dağlıq Qarabağın iqtisadi inkişaf planları daxil olmaqla Ermənistanın iqtisadi inkişafı barədə dövlət proqramı qəbul etməsi, separatçıların Ermənistan parlamentinin üzvü olması, separatçıların və terrorçuların hakimiyyətdə olması, Ermənistan silahlı qüvvələrinin işğalda birbaşa iştirakı, Ermənistanın azərbaycanlıların soyqırımını həyata keçirməsi, hərbi əsir və girovları öz ərazisində saxlaması, Azərbaycana qarşı terror aktları həyata keçirməsi, terror yolu ilə etnik təmizləmə siyasətini həyata keçirməsi, işğal edilən ərazilərə erməni əhalini köçürməsi, həmin ərazilərdə təbii ehtiyatları istismar etməsi, yer adlarını erməni adları ilə əvəz etməsi, abidələri süni surətdə erməniləşdirməsi, dağıtması, satması, "yandırılmış torpaq" taktikası və torpaqların əksər hissəsini minalandırması, qondarma Dağlıq Qarabağ respublikasının hətta Ermənistan tərəfindən tanınmaması, onun nəzarəti, idarəçiliyi altında olması BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü pozan təca-

vüzkar dövlət kimi Ermənistana qarşı siyasi və iqtisadi sanksiyalar tətbiq etməsinə əsas verirdi.

BMT Təhlükəsizlik Şurası qətnamələr qəbul etdi. Lakin həyata keçirmədi. 2020-ci il BMT Baş Məclisinin 75-ci sessiyasında çıxışında Prezident İlham Əliyevin Ermənistanın təcavüzkar siyasəti, yeni işğallara hazırlaşması haqqında məlumatlarına və dünya dövlətlərini təcavüzkarı dayandırmağa çağırışlarına cavab olaraq BMT Təhlükəsizlik Şurası və bu işdə məsul olan həmsədr dövlətlər, həm də Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvlərindən olan – ABŞ, Rusiya, Fransa heç bir tədbir görmədi. Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi və buna dünya birliyinin cavabsız qalması göstərdi ki, Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi haqqında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri özü reallaşdırmalıdır. Müharibə başlayana qədər Azərbaycanın beynəlxalq müstəvidə fəaliyyəti, qərar və qətnamələri qəbul etdirməsi, müharibə zamanı isə Prezident İlham Əliyevin xarici informasiya orqanlarının nümayəndələrinə faktlarla cavab verməsi, məsələnin əsl mahiyyətini izah etməsi Azərbaycan Ordusunun qələbəsi üçün zəmin yaratdı.

2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmasına cavab olaraq Azərbaycan Ordusu əks hücuma keçdi. Azərbaycanda Xalq-Ordu-Prezident həmrəyliyi pik nöqtəsinə çatmışdı. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini tez bir zamanda işğal etdiyi ərazilərdən qovdu. Oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı işğaldan azad edildi. Noyabrın 8-də Şuşanın, noyabrın 9-da isə 71 kəndin,

1 qəsəbənin, 8 yüksəkliyin alınması düşməni diz çökdürdü və noyabrın 10 da düşmən dövlət – Ermənistan kapitulyasiya sənədini imzaladı. 3 rayon Ağdam, Kəlbəcər, Laçın siyasi yolla qaytarıldı. Dağlıq Qarabağa heç bir status verilmədi. Ermənistanın sovet dövründə mənimsədiyi Azərbaycan torpaqlarından sərhəd geri çəkildi. Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan Azərbaycanın əsas hissəsi ilə quru yolla əlaqə saxlaya biləcək, Türkiyə ilə də əlaqələr birbaşa olacaq.

Qələbədən sonra Azərbaycan Respublikasının əsas vəzifələrindən birinciləri azad edilmiş ərazilərin minalardan təmizlənməsi, yaşayış şəraitinin yaradılması, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qaytarılması, Ermənistanın Azərbaycanın iqtisadiyyatına, mədəniyyətinə, təbii sərvətlərinə və s. vurduğu zərərin əvəzində təzminat verməsini, azərbaycanlıların soyqırımı barədə xüsusi tribunal yaradılmasını, günahkar olanların məsuliyyətə cəlb edilməsini, Birinci Qarabağ müharibəsi zamanı götürdükləri əsir və girovlar barədə hüquqi məsələlərin qaydaya salınması üçün Beynəlxalq Məhkəmə Komissiyasının yaradılmasını tələb etməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il dekabrın 1-də Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə Xalqa müraciətində Ermənistanın istismar etdiklərinə görə cavab verəcəyini vurğuladı: “Ermənistan işğal edilmiş torpaqlarda ildə 90 min ton taxıl yığırdı. Ermənistanın işğal edilmiş bu torpaqlarla birlikdə ümumi taxıl istehsalı 190 min ton olub. Onun yarısını bizim torpaqlarımızdan götürürdü. Bu, torpaqlarımızın qanunsuz istismarıdır. Buna cavab verəcəklər, dəymiş ziyanı ödəyəcəklər”[641].

Prezident Xalqa müraciətində bildirdi ki, işğaldan azad edilən ərazilər dünyanın gözəl bölgəsinə çevriləcək: “Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı,

[641] *Yenə orada, s.199-200.*

turizm potesialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək, Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq”[642].

Qaçqın və məcburi köçkünlərin öz yurdlarına qaytarılması üçün ilk növbədə yaşayış şəraiti təmin edilməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda təqdim edilən çıxışında bildirdi: “Hazırda qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidənqurma prosesi çərçivəsində “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” konsepsiyalarından istifadə olunacaq”[643].

Prezident ilk növbədə yolların tikilməsi üçün göstəriş verdi. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının 20-dən artıq yaşayış məntəqəsini əhatə edən, 2022-ci il ərzində tamamlanması nəzərdə tutulan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun (Zəfər yolu) tikintisinə başlandı[644]. İlham Əliyev 2021-ci il fevralın 15-də Füzuli rayonunda uzunluğu 100 km olan, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında birbaşa dəmir yolu əlaqəsinin yaranmasına imkan verəcək Horadiz-Ağbənd

---

[642] *Yenə orada, s.189-190.*

[643] *Prezident İlham Əliyev: Zəngəzur dəhlizi Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirmək imkanı verəcək. 24.04.2021. http://www.aztv.az/az/news/12655/prezident-ilham-eliyev-zengezur-dehlizi-azerbaycana-avrasiyanin-neqliyyat-ve-logistika-merkezi-kimi-movqeyini-guclendirmek-imkani-verecek*

[644] *Şuşaya çəkilən “Zəfər yolu” sentyabr ayınadək istifadəyə veriləcək. 19.01.2012. https://apa.az/az/xeber/sosial-xeberler/Susaya-ckiln-Zfr-yolu-sentyabr-ayinadk-istifady-verilck-625165*

dəmir yolu xəttinin[645], martın 15-də başlanğıcını Xocavənd rayonunun Hadrut qəsəbəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yoluna birləşən, uzunluğu 43 kilometr olan, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçən, Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla, 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək Hadrut-Cəbrayıl-Şükürbəyli yeni avtomobil yolunun[646], uzunluğu 13 kilometr olub, başlanğıcını Zəfər yolundan götürən, Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşən Füzuli-Hadrut avtomobil yolunun[647], aprelin 26-da uzunluğu 24 kilometr olan Zəngilan-Horadiz avtomobil yolunun[648], mayın 28-də uzunluğu 44.5 kilometr olan, Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək Bərdə-Ağdam avtomobil yolunun[649] təməlini qoydu.

Fevralın 15-də Laçın rayonunda Prezident İlham Əliyevin iştirakı ilə Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələri-

---

[645] *Horadiz-Ağbənd dəmir yolu ölkənin əsas hissəsi ilə Naxçıvan arasında birbaşa əlaqənin yaranmasına böyük töhfə verəcək. 15.02.2021. https://azertag-.az/xeber/Horadiz_Agbend_demir_yolu_olkenin_esas_hissesi_ile_Naxchivan_ara sinda_birbasa_elaqenin_yaranmasina_boyuk_tohfe_verecek-1712879*

[646] *Hadrut-Cəbrayıl-Şükürbəyli yeni avtomobil yolunun tikintisi davam edir. 09.04.2021. https://apa.az/az/xeber/infrastruktur/Hadrut-Cbrayil-Sukurbyli-yeni-avtomobil-yolunun-tikintisi-davam-edir-637400*

[647] *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. 16.03.2021. https://apa.az/az/xeber/dagliq_qarabag/-Azrbaycan-Prezidenti-Fuzuli-Hadrut-avtomobil-yolunun-tmlini-qoyub-633997*

[648] *Prezident İlham Əliyev Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoyub. 27.04.2021.https://apa.az/az/xeber/infrastruktur/Prezident-Ilham-Əliyev-Zngilan-Horadiz-avtomobil-yolunun-tmlini-qoyub-640382*

[649] *Prezident İlham Əliyev Ağdam rayonuna səfər edib. 28.05.2021. https://-apa.az/az/apa-tv/xeber/xeberler/prezident-ilham-eliyev-agdam-rayonuna-sefer-edib-65534*

ni elektrik enerjisi ilə təmin edəcək Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyası işə salındı[650].

Aprelin 26-da Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" pilot layihəsinin Zəngilan rayonunda təməli qoyuldu. "Ağıllı" təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verəcək[651]. Aprelin 27-də Zəngilanda, Füzulidən sonra, ikinci Beynəlxalq Hava Limanının təməli qoyuldu. Üçüncü Beynəlxalq Hava Limanının Laçında tikilməsi nəzərdə tutulmuşdur. Dövlət başçısı çıxış edərək bildirdi: "…Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq..."[652].

Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşa şəhəri Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli sərəncamı ilə tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Azərbaycanın mədəniyyət paytaxtı elan edildi[653]. Şəhərdə 110/35/10

---

*[650] Laçında Güləbird Su Elektrik Stansiyası açıldı. 07.03.2021- 02.06.2021. https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2021/03/07/lacinda-gulbird-su-elektrik-stansiyasi-acildi-1596442*

*[651] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəngilan rayonunda olub. 04.26. 2021. http://www.zengilan-ih.gov.az/news/595.html*

*[652] Prezident Zəngilanda Beynəlxalq Hava Limanının təməlin qoyub. 27.04.2021. https://report.az/qarabag/prezident-zengilanda-beynelxalq-hava-limaninin-temelini-qoyub/*

*[653] Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. http://www.mct.gov.az-/az/umumi-xeberler/13568*

kilovoltluq “Şuşa” yarımstansiyası və "Xarı Bülbül" oteli tikilmişdir. Çörək zavodu fəaliyyət göstərir. Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərinin, Natəvan bulağı (Xan qızı bulağı), Natəvan sarayı, Bülbülün ev muzeyi, M.P.Vaqifin muzey-məqbərə kompleksi, Pənahəli xanın sarayı, Karvansaray kompleksi, Dövlət Rəsm Qalereyasının binası, “Qarabağ” oteli, Xalça Muzeyi, Park Otelinin binası, Yaradıcılıq Mərkəzinin binasının təmiri və bərpası həyata keçirilir. Qələbə günü 8 Noyabr Zəfər günü ilə bağlı olaraq İlham Əliyevin təklifi ilə Şuşanın yuxarı hissəsində 8 rəqəmi formasında tikilməsi nəzədə tutulan məscidin[654] və 1 saylı tam orta məktəbin[655] təməli qoyuldu.

Ağdam rayonunun möhtəşəm baş planı hazırlanmışdır. Prezident İlham Əliyev Ağdamın ağ daşlarından istifadə etməklə beşmərtəbəli Ağ evin, Ağdam Sənaye Parkının, 960 şagird yerlik, 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları, təhsil üçün hər cür şəraiti, bütün texniki imkanları olacak üçmərtəbəli məktəbin təməlini qoydu[656].

Hazırda işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri gedir, Azərbaycanda yaşayan bütün millətlərin təmsil edildiyi “Xarıbülbül Festivalı”nın məhz Şuşada keçirilməsi düşməni məğlubiyyətindən də çox sarsıtdı.

2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Müttəfiqlik haqqında Şuşa Bəyannaməsini imzalaması Türk dünyasında yeni eranın başlanğıcı oldu.

---

[654] *Prezident İlham Əliyev Şuşada yeni məscidin təməlini qoyub. 12.05.2012. https://mehriban-aliyeva.az/news/node/848578*

[655] *Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu. 12.05.2021. https://-ordu.az/az/news/190085/susada-1-sayli-umumtehsil-mektebinin-temeli-qoyuldu*

[656] *Prezident İlham Əliyev Ağdam rayonuna səfər edib. 28.05.2021. https:/-/apa.az/az/apa-tv/xeber/xeberler/prezident-ilham-eliyev-agdam-rayonuna-sefer-edib-65534*

2021-ci il iyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Fərmanına əsasən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edildiyini və "Dağlıq Qarabağ" ifadəsinin tarixdə qaldığını bir daha təsdiq etdi.

# İSTİFADƏ EDİLLMİŞ ƏDƏBİYYAT


**Azərbaycan dilində**

- Abdullayev Ə.İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırı-XX əsr). Bakı: Elm, 1998, 324s.
- Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 129s.
- Azərbaycan BMT ailəsində. Bakı, 2000, 345 s.
- Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, 776 s.
- Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, V c., Bakı: Göytürk, 1999, 492 s.
- Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 2 sentyabr 1997-ci il. № 657
- Azərbaycan Respublikasının XİN mətbuat katibinin şərhi // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.76-81
- Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi. Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, 95 s.
- Birləşmiş Millətlərin Minillik Bəyannaməsi: Minillik Sammit, Nyu York, 6-8 sentyabr, 2000, 14 s.
- Cəfərova V.M. Dünya dövlətlərinin siyasi sistemi: ABŞ. Bakı: Elm, 2000, 31s.
- Dadaşova R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT. Bakı: Təknur 2011, 186 s.
- Dadaşova R.B. Diplomatik portretlər. Bakı: Avropa, 2015, 120 s.
- Dadaşova R.B. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi, siyasi və hüquqi təhlil. Bakı: Mütərcim, 2019, 216 s.

- Dadaşova R.B.Xocalı soyqırımını törədənlərin mühakiməsi insan hüquqlarının müdafiəsi, beynəlxalq münaqişələrin nizama salınması prosesinə təsir edən amildir. Respublika qəzeti, 25 fevral 2016-cı il.
- Dadaşova R.B. Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində yaranmış qaçqın probleminin həlli üçün BMT-nin fəaliyyətinin gücləndirilməsi perspektivləri //AMEA-nın Xəbərləri, 2009, №11, s.245-253.
- Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. Bakı: Vətən, 2005, 108 s.
- Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, s.119-122.
- Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.63-70.
- Ermənistan-Azərbaycan münaqişəsi mətbuatda // Diplomatiya Aləmi Jurnalı, 2004, № 9, s.73-76.
- Erməni cinayətləri (sənədlər əsasında). Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi. I c., Bakı: Vətən, 2004, 164 s.
- Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbayanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2005-ci illər). Bakı, iyul 2005, 153 s.
- Erməni terroru-Armenian terror – Армянский террор. Bakı: Vətən, 2005, 168s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, 612 s.
- Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, 604 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 3-cü kitab, Bakı: Azərnəşr, 1997, 488 s.

- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 4-cü kitab, Bakı: Azərnəşr, 1997, 528 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, 500 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 1998, 512 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 1998, 488 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 10-cu kitab, Bakı: Azərnəşr, 2002, 472 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 11-ci kitab, Bakı: Azərnəşr, 2003, 452 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 16-cı kitab, Bakı: Azərnəşr, 2005, 552 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 19-cu kitab, Bakı: Azərnəşr, 2006, 528 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 20-ci kitab, Bakı: Azərnəşr, 2007, 536 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 23-cü kitab, Bakı: Azərnəşr, 2008, 480 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 30-cu kitab, Bakı: Azərnəşr, 2010, 512 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 32-ci kitab, Bakı: Azərnəşr, 2010, 512 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 36-cı kitab, Bakı: Azərnəşr, 2011, 512 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 40-cı kitab, Bakı: Azərnəşr, 2012, 512 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 41-ci kitab, Bakı: Azərnəşr, 2012, 488 s.
- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 42-ci kitab, Bakı: Azərnəşr, 2012, 472 s.

- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 45-ci kitab, Bakı: Azərnəşr, 2013, 384 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 2008, 424 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 2009, 432 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, 416 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 2011, 408 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 9-cu kitab, Bakı: Azərnəşr, 2012, 408 s.
- *Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 10-cu kitab, Bakı: Azərnəşr, 2012, 408 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 15-ci kitab, Bakı: Azərnəşr, 2014, 384 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 16-cı kitab, Bakı: Azərnəşr, 2014, 376 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 52-ci kitab, Bakı: Azərnəşr, 2017, 400 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 58-ci kitab, Bakı: Azərnəşr, 2018, 396 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 62-ci kitab, Bakı: Azərnəşr, 2018, 400 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 63-cü kitab, Bakı: Azərnəşr, 2018, 408 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 68-ci kitab, Bakı: Azərnəşr, 2018, 400 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 71-ci kitab, Bakı: Azərnəşr, 2018, 408 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 73-cü kitab, Bakı: Azərnəşr, 2018, 400 s.

- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 75-ci kitab, Bakı: Azərnəşr, 2018, 400 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 79-cu kitab, Bakı: Azərnəşr, 2019, 400 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 83-cü kitab, Bakı: Azərnəşr, 2019, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 86-cı kitab, Bakı: Azərnəşr, 2019, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 88-ci kitab, Bakı: Azərnəşr, 2019, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 89-cu kitab, Bakı: Azərnəşr, 2019,392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 92-ci kitab, Bakı: Azərnəşr, 2019, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 99-cu kitab, Bakı: Azərnəşr, 2020, 388 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 103-cü kitab, Bakı: Azərnəşr, 2020, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, 392 s.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, 392 s.
- Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranacağına yol verməri̇k". Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, 472 s.
- Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik, Bakı: Azərbaycan, 2005, 752 s.

- Həsənov T.G. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı: Çaşıoğlu, 2002, 118 s.
- İnsan hüquqları-Beynəlxalq müqavilələr toplusu, Bakı: Azərbaycan, 1998, 336 s.
- İrəvan xanlığı. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı: Azərbaycan, 2010, 620 s.
- Qaffarov T.B. Azərbaycan Respublikası 1991-2001. Bakı: Tural-Ə, 2001, 330 s.
- Qaçqın və sığınacaq axtaran şəxslərlə bağlı qanunvericiliyin normativ hüquqi sənədlər toplusu (Avrasiya Hüquqşünaslar Assosiasiyası üzrə BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı). Bakı, 2007, 65 s.
- Qarabağ: Suallar və faktlar. Bakı: Qismət, 2005, 156 s.
- Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər). Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 520 s.
- Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. 1 hissə. Bakı: Mütərcim, 2015.
- Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı: Mütərcim, 2015.
- Məmmədov N. İşğal altindaki tarixi-dini abidələrimiz. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 96 s.
- Məmmədova H. Xocalı: Şəhidlər, Şahidlər. Bakı: Yeni nəşrlər evi, 2003, 195 s.
- Müqavilələr toplusu. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi / E.M.Məmmədyarovun ümumi redaktəsilə tərtib edilmişdir. I c., Bakı: Qanun, 2008, 252 s.
- Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, 31 s.
- Səmədov V. Vəlizadə R. Leyla Əliyeva:”Xocalıya ədalət” (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model). 3

cillddə, III c., Bakı: CBC Polygraphic production, 2014, 480s.
- Uşaq hüquqları, Beynəlxalq standartlar və yerli qanunvericilik. Bakı: İsmayıl NPM, 2000, 664 s.
- Xocalı soyqırımı rabitəçilərin yaddaşında. Bakı, 2009, 143 s.
- Xocalı soyqırımı. Qarabağ Azadlıq Təşkilati. Bakı: Elgün nəşriyyatı, 2016, 40 s.
- Xocalı yaddaşı. Bakı: Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası, 2017, 338 s.

**Rus dilində**

- Аббасбейли А.Н. Внешняя политика Российской Федерации в XX1веке. Баку: Элм, 2005, 472 с.
- Александров М. Военно-политическая стратегия НАТО в Закавказье на примере Азербайджана // Россия и мусульманский мир, 2005, № 5, с. 55-67.
- Аль-Обейд А.С. Угрозы терроризма и борьба с ним // Азия и Африка, 2004, № 4, с.36-43.
- Блищенко И.П., Солнцева М.М. Мировая политика и международного право. М.: Международные отношения, 1991, 160 с.
- Ваал Т. Черный сад Армения и Азербайджан между миром и войной. М.: Текст, 2005, 416 с.
- Гали Б.Б. Во имя мира и развития 1994 Доклад о работе Организации за период с сорок восьмой до сорок девятой сессии Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1994, 436 с.
- Гали Б.Б. Навстречу новым вызовам 1995, Доклад о работе Организации за период с сорок девятой по пятидесятую сессию Генеральной Ассамблеи, Организация Объединенных Наций, Нью-Йорк, 1995, 512 с.

- Гали Б.Б. Укрепление потенциала Организации Объединенных Наций // Мировая экономика и международные отнощения, 1993, №4, с.5-15.
- Геополитика: Антология. М.: Академический Проект Культура, 2006, 1004с.
- Глинка С.Н. Описание переселения армян аддербиджанских в пределы России. Баку: Элм, 1990, 142 с.
- Дергачев В.А. Геополитика: Учебник для вузов. М.: ЮНИТИ-ДАНА, 2004, 526 с.
- Енокян А. Армения: противоречивые подходы к урегулированию Карабахского конфликта // Центральная Азия и Кавказ, 2002, № 1, с.115-121.
- Здравомыслов А.Г. Межнациональное конфликты в постсоветском пространстве. М.: Аспект Пресс, 1999, 286 с.
- История армянского народа: С древнейших времён до наших дней/Г.Х. Саркисян, Т.Х. Акопян, А. Г. Абрамян и др.; Под ред. М. Г. Нерсисяна. Ереван: Изд-во Ереван. ун-та, 1980, 458 с.
- Конвенция ООН; конвенция о правах ребенка. М.: РИОР, 2006, 24с.
- Конфликт на Южном Кавказе в зеркале общественного мнения Азербайджана, Фонд Содействия Развитого предпринимательства и Рыночной экономики, 45 с.
- Кузнетцов О. Война в Карабахе – первая террористическая война в истории человечества / Qarabağ Dünən, Bu gün və Sabah 16-cı elmi-əməli konfransın materialları. Bakı. QAT. 2017, с.217-234.
- Международное отнощения: теория, конфликты, организации: Учебник пособие / Под ред.проф. Цыганков П.А. М.: Альфа, 2004, 288 с.

- Международное право: Учебник. Отв.ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М.: Международные отношения, 2000, 720 с.
- Международное право: Учебник / Отв.ред. Колосов Ю.М., Кузнецов В.И. М.: Международные отнощения, 1998, 624 с.
- ООН и современные международные отношения / Отв. ред. доктор юридических наук Г.П.Жуков. М.: Наука, 1986, 290 с.
- Панарин А.Ф. Стратегическая нестабилность в XXI веке. М.: Алгоритм, 2003, 450с.
- Переписка председателя Совета Министров СССР с президентами США и премьер министрами Великобритании во время Великой Отечественной войны 1941-1945 гг.: в 2томах, Переписка с У.Черчиллем И.К.Эттли, Т1 (июль 1941г. - ноябрь 1945г.), М.: Политической литературы, 1986, 464 с.
- Письмо постоянного представителя Азербайджана при Организаций Объединенных Наций от 24 февраля 2005 года на имя Генерального секретаря // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, с. 37-38.
- Письмо постоянного представителя Азербайджана при Организаций Объединенных Наций от 2 февраля 2005 года на имя Генерального секретаря // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, с.101-103.
- Письмо представителя Азербайджана при Организаций Объединенных Наций от 28 февраля 2005 года на имя Генерального Секретаря Приложение 1письму космические снимки оккупированных территорий Азербайджанской Республики // Diplomatiya Aləmi Jurnalı, 2005, №10, с.102-114.
- Преступления Армянских террористических и бандитских формирований против человечества (XIX-XXIвв.).

Краткая хронологическая энциклопедия. Институт по правам человека Национальной Академии Наук Азербайджана, Баку: Элм, 2002, 154 с.

- Россия и ООН. Информационно-статистический справочник. К 50-летию образования ООН. Москва, Министерство Иностранных Дел Российской Федерации, 1995,100 с.
- Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, 368 с.
- Современная мировая политика: Прикладной анализ / Отв. Ред. А.Д.Богатуров. М.: Аспект Пресс, 2010, 592 с.
- Уткин А.И. Дипломатия Франклина Рузвельта. Свердловск: Издательство Урал. Университета, 1990, 544 с.
- Федоров В.Н., Ефимов Г.К. ООН и поддержание международного мира. М.: Знание, 1969, 65 с.
- Хачатрян В. Основные тенденции развития экономики Армении в 1991-2001 годах // Центральная Азия и Кавказ, 2002, № 2, с.152-153.
- Шавров Н. Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. М., 1911, 78 с.
- Шибаева Е.А. Право международных организаций. Вопросы теории. М.: Международные отношения, 1986, 160 с.
- Шукуров И. Дипломатия мира (Об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.)). Баку: Азербайджан, 1997, 392 с.

**Sənədlər**

- Доклад Генерального секретаря в соответствии с заявлением Председателя Совета Безопасности в

связи с ситуацией в отношении Нагорного Карабаха, Документ S/25600 Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.

- Письмо министра иностранных дел Азербайджанской Республики от 10 декабря 1993 года на имя Председателя Совместной консультативной группы по Договору об обычных вооруженных силах в Европе, Документ S/26876. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо осуществляющего полномочия президента Азербайджанской Республики от 24 июля 1993 года на имя Председателя Совета Безопасности Документ S/26164, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.
- Письмо представителя Азербайджана от 12 января 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25143, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.
- Письмо представителя Армении от 27 января 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25181, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.

- Письмо представителя Армении от 27 января 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25186, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.
- Письмо представителя Армении от 3 мая 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25712, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.
- Письмо представителя Армении от 1 сентября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26393, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.
- Письмо представителя Армении от 3 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/112, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Армении от 14 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/173, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Армении от 16 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/181, Совет Безопасности. Официаль-

нее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.

- Письмо представителя Азербайджана от 12 марта 1993 года на имя на имя Председателя Совета Безопасности, Документ S/25408, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.
- Письмо представителя Азербайджана от 16 марта 1993 года на имя на имя Председателя Совета Безопасности, Документ S/25424, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.
- Письмо представителя Азербайджана от 29 марта 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25488 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.
- Письмо представителя Азербайджана от 30 марта 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25491 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за январь, февраль, март 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 335 с.
- Письмо представителя Азербайджана от 8 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25573 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.

- Письмо представителя Азербайджана от 12 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25582, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.
- Письмо представителя Азербайджана от 19 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25634, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.
- Письмо представителя Азербайджана от 20 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25641, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.
- Письмо представителя Азербайджана от 7 июля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26058, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.
- Письмо представителя Азербайджана от 28 июля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26187, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.
- Письмо представителя Азербайджана от 15 августа 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26307, Совет Безопасности. Официальнее

отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.

- Письмо представителя Азербайджана от 30 августа 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26381, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.
- Письмо представителя Азербайджана от 13 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26583, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Азербайджана от 26 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26647, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Азербайджана от 2 ноября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26682, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Азербайджана от 15 ноября 1993 года на имя Генерального секретаря, Документ S/26762, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.

- Письмо представителя Азербайджана от 7 декабря 1993 года на имя Генерального секретаря, Документ S/26852, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Азербайджана от 1 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/108, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Азербайджана от 4 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/ 141, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Азербайджана от 5 февраля 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/147, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Азербайджана от 10 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/155, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Азербайджана от 21 февраля 1994 года на имя Генерального секретаря, Документ S/1994/206, Совет Безопасности. Официальнее отчеты

сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.

- Письмо представителя Азербайджана от 31 марта 1994 года на имя Генерального секретаря, Документ S/1994/377, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Азербайджана от 1 апреля 1994 года на имя Генерального секретаря, Документ S/1994/ 393, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, 480 с.
- Письмо представителя Азербайджана от 26 апреля 1994 года на имя Генерального секретаря, Документ S/1994/ 505, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, 480 с.
- Письмо представителя Азербайджана 18 мая 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/ 591, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, 480 с.
- Письмо представителя Азербайджана 27 мая 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/635, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, 480 с.

- Письмо представителя Азербайджана 8 июня 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/688, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, 480 с.
- Письмо представителя Азербайджана от 8 ноября 1994 года на имя Генерального секретаря, Документ S/1994/1278, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за октябрь, ноябрь, декабрь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 395 с.
- Письмо представителя Грузии от 13 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26576, Совет Безопасности. Официальнее отчеты сорок восьмой годдополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.
- Письмо представителя Грузии от 26 января 1994 года на имя Генерального секретаря, Документ S/1994/88, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за январь, февраль, март 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 335 с.
- Письмо представителя Исламской Республики Ирана от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26662, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Италии от 1 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26522, Совет Безопасности. Официальнее отчеты со-

рок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.

- Письмо представителя Турции от 27 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26650, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Турции от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26665, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415 с.
- Письмо представителя Швеции от 9 июня 1994 года на имя Председателя Совета Безопасности, Документ S/1994/687, Совет Безопасности. Официальнее отчеты сорок девятый год дополнение за апрель, май, июнь 1994 года, Организация Объединенных Наций, Нью-Йорк, 1998 год, 480 с.

**İngilis dilində**

- Basic facts about the United Nations. New York: Published by United Nations Departement of public information, 2000, 350 p.
- Okhovat Sahar. The United Nations Security Council: Its Veto Power and Its Reform. CPACS Working Paper No. 15/1December 2011. Australia: The Centre for Peace and Conflict Studies, 2012, 74 p.
- The Geneva conventions of 12 august 1949. International Commite of the Red Cross, 224 p.

- The series of “The true facts about Garabagh war against Azerbaijan, Targeting cultural heritage”. Baku : Heydar Aliev Foundation, 2007, 280 p.

**Fransız dilində**

- Le commencement du conflit du Karabagh, Série réalités sur le Karabagh. Bakou: Fondation Heidar Aliyev, 2006, 12 p.
- Les consequences de l’agression Armenien contre l’Azerbaidjan, Serie réalités sur le Karabagh. Bakou : Fondation Heidar Aliyev, 2006, 12 p.

**İnternet materialları**
**Azərbaycan dilində**

- Afrika dövlətlərindən hələ də xərac alan, beynəlxalq hüququ saymayan Fransa – Təhlil. 26.11.2020. https://apa.az/az/xeber/siyasi/
- "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu. http://www.e-qanun.az/framework/3055
- Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07.07.2021. https://president.az/articles/52389
- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının nüfuzlu konqresmenlərinin bir qrupu ilə görüşdə söhbətindən - Vaşinqton, Kapitoli binası, 27 aprel 1999-cu il http://lib.aliyevheritage.org/az/ 6606335.html
- Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2012.pdf

- Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2013.pdf
- Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. 2014, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. http://files.preslib.az/site/ialiyev/2014.pdf
- "Azərbaycanin İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilati" ictimai birliyi ABŞ-ın separatçılara yardım ayırmasını pisləmişdir. 15.12.2009. https://azertag.az/xeber/
- Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyi Ermənistana qarşı qaldırılan məhkəmə iddiası ilə bağlı tədbir keçirib. 12.12.2011. https://apa.az/sosial_xeberler/azerbaycanin-isgal-olunmus-erazilerindeki-tarix-ve-medeniyyet-abidelerini-mudafie-teskilati-ictimai-birliyi-ermenistana-qarsi-qaldirilan-mehkeme-iddiasi-ile-bagli-tedbir-kecirib.html
- Azərbaycan və Çin arasında əməkdaşlığın yeni səhifəsi ARDNŞ və "Şengli" şirkətləri arasında hasilat və pay bölgüsü haqqında müqavilə imzalanmışdır. 04.06.2003. https://azertag.az/xeber/Azarbaycan_va_Chin_arasında_amakdaslıgın_yenı_sahıfası_ARDNŞ_va_Şenglı_sırkatları_arasında_hasılat_va_pay_bolgusu_haqqında_muqavıla ımzalanmısdır-983445
- Azərbaycan humanitar atəşkəs şərtlərinə əməl edir, mülki şəxslərə və obyektlərə hücum etmir. 28.10.2020. http://-shirvanqazeti.az/samaxi-ih/360-azrbaycan-humanitar-atks-rtlrin-ml-edir-mlki-xslr-v-obyektlr-hcum-etmir.html

- Azərbaycan Prezidenti Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub. 16.03.2021. https://apa.az/az/xeber/dag-liq_qarabag/Azrbaycan-Prezidenti-Fuzuli-Hadrut-avtomobil-yolunun-tmlini-qoyub-633997
- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransa-Azərbaycan dostluq qrupunun sədri, senator Jan Buayenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən söhbətindən (10 sentyabr 2001-ci il) sənədinə tarixi ar arayış.. Tarixi arayış 10 iyul 2008-ci ildə tərtib olunub. https://lib.aliyevheritage.org/az/1610074.html
- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəngilan rayonunda olub. 04.26. 2021. http://www.zengilan-ih.gov.az/news/595.html
- Azərbaycan MN: "4 hərbi qulluqçumuz öldürülüb". 12.12.2020. https://www.bbc.com/azeri/azerbaijan-55285924
- Azərbaycana qarşı elan olunmamış müharibə. http://-supremecourt.gov.az/static/view/168
- Azərbaycanlı əsirlərə işgəncə verən ermənilər məhkəmə qarşısında. 09.06.2021.azvision.az
- Böyümək imkanı əlindən alınmış uşaqlar. 11.07.2017. http://1905.az/boeyuem%C9%99k-imkani-%C9%99lind%C9%99n-alinmis-usaqlar/ Böyümək
- Çin şirkətləri Azərbaycan iqtisadiyyatına 832 milyon dollar investisiya yatırıb. 27.11.2019. https://ve-rgiler.az/news/economy/5828.html
- 24 aprel açıqlaması: Biden üçün "soyqırım" ifadəsini istifadə etmək nəyə görə vacibdir? 24.04.2021. https://www.bbc.com/azeri/region-56871463
- 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Fərmanı, Bakı şəhəri, 18

dekabr 1997-ci il. http://lib.aliyevheritage.org/az/7128078.html

- 13 yaşlı qızın faciəvi ölümü ilə bağlı BMT Baş Katibinə məktub göndərilib.04.08.2011. https://www.bbc.com/azeri/azerbaijan/2011/08/110804_girl_death_un_letter
- 62 erməni terrorçu-diversant istintaqa təhvil verilib - rəsmi. 09.01.2021. https://lent.az/xeber/siyaset/62-ermeni-terrorcu-diversant-istintaqa-tehvil-verilib-resmi-393112
- Bişkekdə kəsilən atəş: Azərbaycan hansı protokolu imzalayıb? Keçmiş dövlət müşaviri: "Biz tamam başqa sənədə imza atmışıq". 12.05.2011. https://modern.az/articles/13776/1/
- BQXK əməkdaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşüblər 03.11.2016. http://kaspi.az/az/bqxk-emekdaslari-dilqem-esgerov-ve-sahbaz-quliyevle-grusubler/pages/q.pdf
- Dağlıq Qarabağdakı qədim Alban abidələri http://big.az/-13978-Dagliq_Qarabagdaki_qedim_Alban_abideleri.html
- Ekspert: "Azərbaycanın dəmir yolları Çinin "Bir Kəmər-Bir Yol" təşəbüssünün vacib hissəsidir". 26.11.2019. https://-report.az/analitika/azerbaycan-cinin-bir-kemer-bir-yol-tesebussunun-vacib-hissesidir/
- Erməni terroru nəticəsində Azərbaycanın mülki itkiləri açıqlandı. 07.12.2020. https://konkret.az/ermeni-terroru-neticesinde-azerbaycanin-mulki-itkileri-aciqlandi-foto-resmi-2/
- Ermənilər Ağdamda "Tiqranakert" muzeyi yaradıblar. http://musavat.com/news/kivdf-layiheleri/ermeniler-agdamda-tiqranakert-muzeyi-yaradiblar_100410.html
- Ermənilər Azərbaycana məxsus qədim tikililər üzərində özlərinə "tarix" yaradırlar. 25.01.2015. http://tele-inform.com/?p=25543

- Ermənistanın Azərbaycana vurduğu ziyan - 800 milyard ABŞ dolları 12/7/2016 http:// www.tezadlar.az/ problem/16349-ermnistann-azrbaycana-vurduu-ziyan-800-milyard-ab-dollar.html
- Ermənilər Şuşanın tarixi abidələrini kütləvi şəkildə saxta-laşdırır. 13.05.2013 http://musavat.com/news/kivdf-layiheleri/ermeniler-shushanin-tarixi-abidelerini-kutlevi-shekilde-saxtalashdirir_151630.html
- Ermənilərin qətlə yetirdiyi azərbaycanlı uşaqlar - Adlar və fotolar. http://goldnews.az/az/news/dc4839c8-42d8-4897-81fe-9b2c17fe68b6/ermnilrin-qtl-yetirdiyi-azrbaycanl-usaqlar-adlar-v/read
- Ermənilər 194 azərbaycanlı uşağı qətlə yetirib. 05.07.2017. https://azvision.az/news/121083/ermeniler-194-azerbaycanli-usagi-qetle-yetirib-.html
- Ermənistanın Azərbaycana vurduğu ziyan necə hesablana-caq? 27.11.2020. https://fed.az/az/qarabag/ ermenistanin -azerbaycana-vurdugu-ziyan-nece-hesablanacaq-94201
- Ermənistanın Azərbaycana qarşı qanunsuz raket zərbələri. 28.01.2021. https://www.hrw.org/az/news/2021/01/-28/377321
- Ermənistan ordusunun atəşi nəticəsində ANAMA-nın əməkdaşı xəsarət aldı. 09.10.2020. https://sputnik.az/-karabakh/20201009/425155528/anama-nin-emekdasi-xesaret-aldi.html
- Ermənistanın öldürdüyü mülki şəxslərdən 1-i körpə, 10-u uşaq, 27-si qadındır. 30.10.2020. https: //modern.az/az/ news/262835/ermenistaninoldurduyu-mulkisexslerden1-i-korpe-10-u-usaq-27-si-qadindir-resmi
- Əliyev Ə. İnsanların xeyirxahı, insan hüquqlarının təmi-natçısı. Azərbaycan qəzeti, 13 may 2014-cü il. https:/-/mehribanaliyeva.preslib.az/media-4ce2123c4f.html

- Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası. 23.02.2017-ci il tarixinə olan məlumat. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar. http://www.human.gov.az
- Fransadan Azərbaycan-Ermənistan dialoquna yardım vədi, Azərbaycan "erməni silahlı dəstə" üzvlərinin işini məhkəməyə göndərib. 01.06.2021. https://www.bbc.com/azeri/azerbaijan-57307939
- Gəncədə dağıntılar altından çıxarılan uşaq: “Bu, mənim yadımdan çıxmayacaq”. 12.10.2020. https://news.milli.az/-society/888643.html
- İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi. 31.10.2020. https://president.az/articles/4511
- İlham Əliyev “France 24” televiziya kanalına müsahibə verib. 14.10.2020. https://president.az/articles/43037
- İlham Əliyevin ABŞ-ın “Fox News” televiziya kanalına müsahibəsi. 25.10.2020. https://president.az/articles/44279
- İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib. 26.10.2020. https://president.az/articles/44514
- İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. 05.11.2020. https://president.az/articles/45475
- İlham Əliyev “BBC News”a müsahibə verib. 09.11.2020. https://president.az/articles/45845
- İlham Əliyev xalqa müraciət edib. 10.11.2020. https://-president.az/articles/45924
- İkinci Qarabağ müharibəsi. Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html

- İşğalçıya yardım göstərən dövlətin obyektivliyi hər zaman sual altında olacaq. 13.04.2010. http://www.yeniazerbay-can.az/Musahibe_e5632_az.html
- Hadrut-Cəbrayıl-Şükürbəyli yeni avtomobil yolunun tikintisi davam edir. 09.04.2021. https://apa.az/az/xeber/ infrastruktur/ Hadrut-Cbrayil-Sukurbyli-yeni-avtomobil-yolunun-tikintisi-davam-edir-637400
- Horadiz-Ağbənd dəmir yolu ölkənin əsas hissəsi ilə Naxçıvan arasında birbaşa əlaqənin yaranmasına böyük töhfə verəcək. 15.02.2021. https://azertag.az/xeber/Horadiz_Agbend_ demir_yolu_olkenin_esas_hissesi_ile_Naxchivan_arasinda_ birbasa_elaqenin_yaranmasina_boyuk_tohfe_verecek-1712879
- Qarabağdaki tarixi abidələrimiz kütləvi şəkildə saxtalaş-dırılır. 09.01.2012. http://musavat.com/news/ kivdf-layi-heleri/qarabagdaki-tarixi-abidelerimiz-kutlevi-shekilde-saxtalashdirilir_115534.html
- Qoşulmama Hərəkatının üzvləri BMT TŞ-də Azərbaycanın əleyhinə olan sənədin qəbul olunmasına imkan verməyib. 23.10.2020. https://report.az/qarabag/hikmet-haciyevden-aciqlama5234/
- Həsənov Ə.Azərbaycanlılara qarşı həyata keçirilən Xocalı soyqırımı və onun beynəlxalq əks-sədası. http://-justiceforkhojaly.org/sites/default/files/publication/Ali% 20Hasanov%20doc.-%20Khojaly.pdf
- Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (24 fevral 1994-cü il) http://files.preslib.az/projects/khojali/azkhojali/gl2.pdf Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası
- Laçında Güləbird Su Elektrik Stansiyası açıldı. 07.03.2021-02.06.2021. https://www.trt.net.tr/azerbaycan/turk-dun-

yasi/2021/03/07/lacinda-gul-bird-su-elektrik-stansiyasi-acildi-1596442

- "Metsamor" AES region üçün aşkar təhlükə mənbəyidir. 25.05.2016. http://newtimes.az/az/politics/4525
- Müdafiə Nazirliyinin məlumatı. 28.12.2020. https://-mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-34274.html
- “Müharibə qızı”nın acı hekayəti. 27.03.2011. http://musavat.com/news/muharibe-qizi-nin-aci-heyat-hekayeti_97358.html
- Onlar Azərbaycana 800 milyarddan çox ziyan vurublar. 22.02.2017. https://sputnik.az/karabakh/20170222/-409049082/azerbaycana-800-milyarddan-cox-ziyan-vurulub.html
- Prezident İlham Əliyev: Zəngəzur dəhlizi Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirmək imkanı verəcək. 24.04.2021. http://www.aztv.az/az/news/12655/prezident-ilham-eliyev-zengezur-dehlizi-azerbaycana-avrasiyanin-neqliyyat-ve-logistika-merkezi-kimi-movqeyini-guclendirmek-imkani-verecek
- Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsi. 23.10.2020. http://www.saatli-ih.gov.az/news/315.html
- Prezident İlham Əliyevin Fransanın “Figaro” qəzetinə müsahibəsi. 28.10.2020. http://yeniheyet.az/siyaset/2213-prezident-lham-liyevin-fransann-figaro-qzetin-msahibsi.html
- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. 16.03.2021. https: //apa.az/az/xeber/dagliq_qarabag/Azrbaycan-Prezidenti-Fuzuli-Hadrut-avtomobil-yolunun-tmlini-qoyub-633997

- Prezident İlham Əliyev Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoyub. 27.04.2021.https://apa.az/az/xeber/infrastruktur/Prezident-Ilham-liyev-Zngilan-Horadiz-avtomobil-yolunun-tmlini-qoyub-640382
- Prezident İlham Əliyev Ağdam rayonuna səfər edib. 28.05.2021. https://apa.az/az/apa-tv/xeber/xeberler/ prezident-ilham-eliyev-agdam-rayonuna-sefer-edib-65534
- Prezident İlham Əliyev Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. 01.12.2020. https://azertag.az.
- Prezident: "İndiki Ermənistanda yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri əsl ad ilə çağırılmalıdır". 17.08.2021. https://azerforum.com/az/apa-apaz-prezident-indiki-ermenistan-erazisinde-yerleshen-butun-qedim-azerbaycan-yashayish-menteqeleri-esl-ad-ile-cagirilmalidir
- Prezident Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoyub. 27.04.2021. https://report.az/qarabag/prezident-zengilanda-beynelxalq-hava-limaninin-temelini-qoyub/
- Prezident İlham Əliyev Şuşada yeni məscidin təməlini qoyub. 12.05.2012. https://mehriban-aliyeva.az/news/ node/ 848578
- Putinin Ermənistanla öhdəliklər barədə çıxışı. 07.10.2020. https://www.youtube.com/watch?v=fzlFqmRm60M
- Prezident İlham Əliyevin "CNN Türk"ə müsahibəsi. 14.08.2021. https://www.youtube.com/watch?v=5qRl-4Xxk7k
- R.Köçəryan və S.Sarkisyan Dağlıq Qarabağdakı soydaşlarımıza qarşı törədilən zorakılıqların müəllifləridir. http: //1905.az/ r-kocəryan-və-s-sarkisyan-dagliq-qarabagdaki-soydaslarimiza-qarsi-torədilən-zorakiliqlarin-muəllifləridir

- Rusiya sülhməramlılarının yeni xəritəsi Azərbaycan ictimaiyyətində ciddi narazılıq və təəssüf doğurur – Deputat. 14.12.2020. https://az.trend.az/azerbaijan/politics/-3349490.html
- Rusiyalı professor: "Ermənilər Azərbaycana aid tarixi faktları saxtalaşdırırlar". 06.05.2016. http://istiqlal.az/-news/20373.html
- Şuşaya çəkilən "Zəfər yolu" sentyabr ayınadək istifadəyə veriləcək. 19.01.2012. https://apa.az/az/xeber/sosial-xeberler/Susaya-ckiln-Zfr-yolu-sentyabr-ayinadk-istifady-verilck-625165
- Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. http://www.mct.gov.az/az/umumi-xeberler/13568
- Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu. 12.05.2021. https://ordu.az/az/news/190085/susada-1-sayli-umumtehsil-mektebinin-temeli-qoyuldu
- Şuşa Bəyannaməsinin tam mətni. 16.06.2021. https: //report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/
- Türk araşdırmaçıdan Xocalı barədə sensasiyalı araşdırma: "170 körpəni öldürən erməni hərbiçisi KİV-ə danışmağa hazırdır". 29.02.2016. http://strateq.az/manshet/33610/turk-arasdirmacidan-xocali-bar%C9%99d%C9%99-sensasiyali-arasdirma.html
- XİN erməni əsilli livanlıların işğal olunmuş ərazilərə köçürülməsi ilə bağlı məlumatlara münasibət bildirib. 08.08.2020. https://apa.az/az/xeber/dagliq_qarabag/XIN-ermni-silli-livanlilarin-isgal-olunmus-razilr-kocurulmsi-il-bagli-ml-umatlara-munasibt-bildirib-600230

- Xocalı canilərindən biri 28 il sonra Şuşada yaxalandı – Azərbaycanın axtarışa verdiyi Conik Tevosyan ələ keçdi. 22.11.2020. https://konkret.az/xocali-canilerinden-biri-28-il-sonra-susada-yaxalandi-azerbaycanin-axtarisa-verdiyi-conik-tevosyan-ele-kecdi-fotolar/
- YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiya. http://unesco.preslib.-az/az/page/ZkBp5YPq2F
- Zori Balayan Xocalıda türklərə soyqırımı törədildiyini etiraf edib. O, bununla fəxr etdiyini bildirib. "525-ci qəzet", 9 fevral 2007-ci il. https://files.preslib.az/projects/-khojali/ azkhojali/ glava3/2007.pdf

**Türk dilində**

- Rusya lideri Putin: Azerbaycan kendi topraklarını kurtardı. 17.11.2020-18.11.2020. https://haberglobal.com.tr/dunya/rusya-lideri-putin-azerbaycan-kendi-topraklarini-kurtardi-78973

**Rus dilində**

- Азербайджан, Грузия, Молдова и Украина предлагает принять резолюцию Генеральной Ассамблеей о затянувшихся конфликтах в странах ГУАМ, 07.12.2007, Центр Новостей ООН, www.un.org
- В повестку дня 59-й сессии Генеральной Ассемблей ООН включен новый вопрос: Положение оккупированных территориях Азербайджана, 29.10.2004. Центр Новостей ООН, www.un.org
- Вето в Совете Безопасности – Китай. https://www.un.-org/secur Yuqoslaviya münaqişəsi zamanı itycouncil/ru/-content/veto-china
- Всеобщая декларация прав человека принята повозглащена резолюцией 217 A(III) Генеральной

Ассамблеей от 10 декабря 1948 года. http://www.un.org/ru/documents/decl_conv/-declarations/declhr.shtml
- А.С.Грибоедов о переселении армян в Карабах из Персии. 06.06.2021. https://zen.yandex.ru/media/ safarli/ a-s-griboedov-o-pereselenii-armian-v-karabah-iz-persii-5edb47a6fe797413d30531ac
- I Гаагская конвенция о мирном решении международных столкновений. http://ppt.ru/newstext. phtml?id =32048
- Генеральная Ассамблея ООН приняла резолюцию о положении на оккупированных территориях Азербайджана, Центр Новостей ООН, http: // www.un.org/ russian
- Глава МИД Азербайджан обеспокоен отсутствует результатов на переговорах под ОБСЕ по урегулированию конфликта с Арменией, 03.10.2007, Центр Новостей ООН, www.un.org
- Вето в Совете Безопасности – Франция. https://www.-un.org/securitycouncil/ru/content/veto-france
- Декларация о праве на развитие. Принята резолюцией 41/128 Генеральной Ассамблеи от 4 декабря 1986 года. http://www.un.org/ru/documentes/decl_conv/declarations/right_to_development.shtml
- Декларация о предоставлении независимости колониальным странам и народам. Принята резолюцией 1514(XV) Генеральной Ассамблеи от 14 декабря 1960 года. http://www.un.org/ru/documentes/decl_conv/ declarations/ colonial.shtml
- Декларация о принципах международного права, касающихся дружественных отнощений и сотрудничества между государствами в соответствии с Уставом Орга-

низации Объединенных Наций. Принята резолюцией 2625(XXV)Генеральной Ассамблеи ООН от 24 октября 1970 года. http://www.un.org/ru/ documentes/ decl_conv/declarations/intlaw_principles.shtml

- Дополнительный Протокол I к Женевским конвенциям от 12 августа 1949 года, касающихся защиты жертв международных вооруженных конфликтов. 8 июня 1977 года. http://www1.umn.edu/ humantrs/russian
- Збигнев Бжезинский. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы) Перевод О. Ю. Уральской М.: Междунар. отношения, 1998, 255с. http://www.chat.ru/~scbooks
- Ильгам Алиев считает, что на “оккупированных азербайджанских территориях” укрываются террористы, 24.09.2004. Центр Новостей ООН, www.un.org
- Казимиров В. Карабах и резолюции Совета Безопасности ООН. 14.11.2004. www.regnum. ru/news/-358916.html
- Конвенция о защите культурных ценностей в случае вооруженного конфликта http://www.un.org/ru/-documents/decl_conv/conventions/pdf/hague54.pdf
- Конвенция о правах ребенка принята резолюцией 44/25 Генеральной Ассамблеи от 20 ноября 1989 года.http://www.un.org
- "Metsamor" AES region üçün aşkar təhlükə mənbəyidir. 25.05.2016.http://newtimes.az/az/politics/4525
- Министр иностранных дел Арменией считает что ООН не место для урегулирования конфликта с Азербайджаном, 03.10.2007, Центр Новостей ООН, www.un.org
- «Попытка продемонстрировать влияние»: почему США сократили индивидуальный взнос в бюджет

ООН. https://russian.rt.com/world/article/464228-ssha-oon-shantaj

- Перечень резолюций Совета Безопасности принятых в 1993 году, www.un.org/russian
- Перечень резолюций Совета Безопасности принятых в 1998 году, www.un.org/russian
- Перечень резолюций Совета Безопасности принятых в 2001 году, www.un.org/russian
- Перечень резолюций Совета Безопасности принятых в 2005 году, www.un.org/russian
- Перечень резолюций Совета Безопасности принятых в 2008 году, http://www.un.org
- Письмо Генеральному секретарю ООН, Кофи Аннану, от и.о.президента НКР Леонарда Петросяна, 17 августа 1997 года, http://www.google.com
- Проект Декларации прав и обязанностей государств. 6 декабря 1949 года. http://www.un.org/ru/-documentes/ods.asp
- *Пропавщие без вести лица A/RES/59/189. 20 декабря 2004 года. http://www.un.org/ru/ga/third/59third_res.shtml
- Резолюция принятая Генеральной Ассамблеей 7 сентября 2006 года, http: // www.un.org/ russian
- Резюме доклада Генерального секретаря, При большей свободе: К развитию, безопасности и правам человека для всех, http:// www.un.org
- События на Южном Кавказе свидетельствуют, что пришло время серьезно подойти к праву народов на самоопределение, заявил президент Армении, 25.09.2008. Центр Новостей ООН, www.un.org
- Споры по Крыму в Совбезе ООН:США говорили о санкциях, а Россия – о правах.glavred.info/

politika/spory-po-krymu-vsovbeze-oon-ssha-govorili-o-sankciyah-a-rossiya-o-pravah-274140.html

- Укрепление координации в области чреэвычайной гуманитарной помощи ООН. http://www.un.org/ru/documentes/ods.-asp?m=A/RES/46/182
- Члены ГУАМ оспорили рекомендацию генерального комитета и добились включения вопроса о затянувщихся конфликтах в повестке дня 61-й Генеральной Ассамблеей. 14.09.2006. Центр Новостей ООН, www.un.org
- Хейриян Дауд. Во имя Креста. Бейрут: 2000. https: //ok.-ru/group/51588414832865/topic/ 62154088972513
- Ходжалинский геноцид. http://files.preslib.az/-projects/khojali/rukhojali/gl1.pdf.
- Завказье: предстоящая распродажа мугани инородцам. Санкт-Петербург, 1911. https://-javakhishviliinstitute.files.wordpress.com/2009/07.
- *Шахназаров А.М. Нагорный Карабах: факты против лжи, Информационно-идеологические аспекты Нагорно-Карабахского конфликта, http:// www.google.com

**İngilis dilində**

- Caroline Cox and John Eibner, Ethnic cleansing in progress: war in Nagorno Karabakh, http://www.google.com
- Convention Concerning the Protection of the World Cultural and Natural Heritage. https://whc.unesco.org/en-/conventiontext/
- 1954 Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict http://www.unesco.org/new/en/culture/themes/armed-

conflict-and-heritage/convention-and-protocols/1954-hague-convention/

- Erich Feigl. Armenian Mythomania. Armenian Extremism: Its Causes and Historical Context, 2007, www.google.az
- European Convention on Human Rights, 30p. http://swww.echr.coe.int/Documents/ Convention_ENG.pdf
- Geneva Convention relative to the protection of civilian persons in time of war of 12 august 1949. 69p. http://www.un.org/en/-genocideprevention/documents/atrocity-crimes/Doc.33_GC-IV-EN.pdf
- Principles of international co-operation in the detection, arrest, extradition and punishment of persons guilty of war crimes and crimes against humanity.Adopted by General Assembly resolution 3074 (XXVIII) of 3 December 1973. http://www.ohchr.org/EN/ProfessionalInterest/ Pages/PersonsGuilty.aspx
- Resolution adopted by General Assembly 3314, 1974, www.un.org
- Resolution adopted by General Assembly 61/155, http://mfa.gov.az/files/file/UN
- Resolution adopted by General Assembly 63/183. http://-mfa.gov.az/files/file/UN
- Second Protocol to the Hague Convention of 1954 for the Protection of Cultural Property in the Event of Armed Conflict 1999 http://portal.unesco.org/en/ev.php-url_id=-15207&url_do=do_topic&url_section=201.html
- The 1954 Hague Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict and its two (1954 and 1999) Protocols, United Nations Educational, Scientific and Cultural Organization, April 2010, 139 p.

- UN General Assembly adopts resolution affirming Ukraine's territorial integrity. 28.03.2014. http://-web.archive.org/web/-20160304092536/http://news.xinhuanet.com/english/world/2014-03/28/c_126325576.htm
- UN General Assembly Resolution 56/83 on responsibility of States for internationally wrongful acts, Annex Responsibility of States for internationally wrongful acts. https://digitallibrary.un.org/record/454412?ln=ru

*"SİRİUS PLUS LTD" MMC-nin sifarişi ilə çap olunur.*

Çapa imzalanıb: 13.08.2021
Format: 60x84 1/16. Qarnitur: Cambria.
Həcmi: 21,5 ç.v. Tiraj: 500.

**ADMİU-nun mətbəəsində çap olunmuşdur.**

Ünvan: Bakı şəhəri, H.Zərdabi küç., 39a